Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

Bu kitab Azərbaycan Mətbuat Şurasının sifarişi ilə və Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə yardımı ilə çap olunub.

# Ekstremal jurnalistin

## *əl kitabı*

**«Elm və təhsil»**

**Bakı – 2015**

**Mövzuları topladı, yazdı, tərtib etdi:** *Əlisafa Mehdiyev,*
*"Dinc Dünya" Araşdırma Mərkəzinin sədri*

**Redaktor:** ***Dəyanət Osmanlı***

**Ön söz yazdı:** ***Əflatun Amaşov***

**Məsləhət verdilər:** *General-mayor* ***Rasim Əliyev***
*Polkovnik* ***Gəray Bağırov***
*BDU-nun professoru* ***Qulu Məhərrəmli***
*BDU-nin baş müəllimi* ***Zaur Babayev***
*Hüquqşünas* ***Ələsgər Əhmədoğlu***

4 612
+E 30
289997

"Dinc Dünya" Araşdırma Mərkəzi
Ekstremal jurnalistin əl kitabı
Bakı, «Elm və təhsil», 2015, 296 səh.

Jurnalistikanın öz qızıl qaydaları var. Bu qaydalarla peşəkar davranmayan Media yükümlüsü oxucu, seyrçi, dinləyici rəğbətini qazana bilməz.

Amma illərdir savaşlara cəlb edilmiş Ölkəmizdə düşmənə yarayan informasiyanın qorunması prinsipləri pozulur deyə biz bu qızıl qaydalara Vətəndaş məsuliyyətini də əlavə etmək istədik.

Jurnalistlərimizə təqdim etdiyimiz bu yaddaş kitabı dövlətçilik məsuliyyətimizi artırmaq amacından yazılıb.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

İSBN 878-9952-8282-3-8

© "Dinc Dünya" Araşdırma Mərkəzi, 2015
©"Elm və təhsil", 2015



**Əflatun Amaşov,**
*Azərbaycan Mətbuat Şurasının sədri*

# ÖN SÖZ

Cəmiyyətimizin yeni inkişaf mərhələsində informasiyanın və informasiya daşıyıcılarının rolu böyükdür. Son on illikdə bu rolun effektivliyini artırmağa yönələn bir çox tədbirlər reallaşdırılıb. İnformasiya əldə edilməsinin qanuni əsasları formalaşdırılıb və təkmilləşdirilib. Bu baxımdan 2005-ci ildə qəbul edilmiş "**İnformasiya əldə etmək haqında**" Azərbaycan Respublikasının Qanunu xüsusi vurğulanmalıdır. İnformasiya prosesindəki tərəflərin fəaliyyətini nizamlamaq sarıdan bu sənədin müstəsna əhəmiyyəti var.

O cümlədən, Ölkə prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilib. Bu proqrama əsasən əhalinin informasiya əldə etmə, maarifləndirilmə tədbirlərinin həyata keçirilməsi və informasiya almaq hüququnun səmərəli təminatı tələb kimi qoyulub.

İnformasiyalı cəmiyyət hüquqi, demokratik dövlət quruculuğunun mühüm göstəricisidir. Onun bütün çalarları ilə formalaşması təkcə qanuni mexanizmlərin işləkliyindən deyil, eyni zamanda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən medianın da fəaliyyətindən asılıdır. Ölkəmizdə kütləvi informasiya vasitələrinə dövlət dəstəyi ənənə halını alıb. Prosesin fundamental əsasları Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Kon-

sepsiyası"nda əksini tapıb. Konsepsiyaya uyğun istiqamətləri həyata keçirən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ötən altı ildə media fəaliyyətini cəmiyyətin mənafeyinin təmin olunmasını rəhbər tutan müxtəlif istiqamətlər üzrə stimullaşdırmaqdadır. Mövcud dəst-xətt KİV-lərin peşəkar fəaliyyətinin yenidən qurulması baxımından da əlverişlidir.

Bununla belə KİV-lərimizin bir sıra məsələlərə yanaşmasında problemlər qalmaqdadır. Sizə təqdim edilən ***"Ekstremal jurnalistin əl kitabı"*** da məhz o problemlərin həlli məqsədinə köklənib.

Kitabda ekstremal vəziyyətlərdə jurnalist peşəkarlığının müxtəlif aspektləri kifayət qədər əhatəli təhlil olunub. "Dinc Dünya" Araşdırma Mərkəzi – İctimai Birliyinin *"Ekstremal olaylardan və hərbdən yazmağın hüquqi qaydaları barədə jurnalistlərin peşəkarlığının artırılması"* layihəsi çərçivəsində hazırlanmış nəşrdə jurnalistin ekstremal (fövqəladə) hallarda davranışının, araşdırma aparmasının, informasiya toplamasının və yaymasının prinsipial tərəflərinə geniş aydınlıq gətirilib.

Mövzunun aktuallığını əsaslandırmaq üçün diqqətinizi bir məqama çəkək. Məlumdur ki, ölkəmiz müharibə şəraitindədir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlarda ədalətli həll variantı tapılmayanadək müharibə təhlükəsi qalmaqdadır. Bu vəziyyət jurnalistlərdən də hərbi mövzudakı materialların yayımlanmasına həssas yanaşmağı tələb edir. Belə bir tələb Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" 24 sentyabr 2014-cü il Sərəncamında da ifadəsini tapır.

Sərəncamda Silahlı Qüvvələrimizin cəbhəboyu zonada milli təhlükəsizlik və müdafiə tələblərinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərdə hərbi sahəyə aid məxfi sayılmalı məlumatların KİV-lərdə və internet informasiya ehtiyatlarında, sosial şəbəkələrdə yayılmasının qarşısını almaq məqsədi ilə zəruri tədbirlərin görülməli olduğu vurğulanır. "Hərbi vəziyyət haqqında", "Dövlət sirri haqqında" Qanunlara uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dövlət sirri təşkil edən məlumatların yayıl-

masına görə məsuliyyətin gücləndirilməsinə dair təkliflər hazırlanmaq tapşırılır. Həmçinin, Müdafiə Nazirliyinə tapşırılır ki, cəbhəboyu zonadakı vəziyyət barədə məlumatların əhaliyə çatdırılması ilə bağlı nazirliyin mətbuat xidmətinin fəaliyyətində çevikliyi artırmaq üçün tədbirlər görsün, KİV-lərdə və internet informasiya ehtiyatlarında cəbhəboyu zonadakı vəziyyətlə bağlı verilən məlumatların mütəmadi monitorinqini aparsın. Sərəncamda Mətbuat Şurasına tövsiyə olunub ki, hərbi sahədə Respublikanın milli təhlükəsizliyinə xələl gətirə bilən məlumatların KİV-lərdə və sosial şəbəkələrdə yayılmasının qarşısının alınması məqsədi ilə təbliğat-izahat işini təşkil etsin.

Bu Sərəncam günün, zamanın tələbindən irəli gəlir. Nəzərə alaq ki, 2014-cü ilin avqustunda cəbhədə atəşkəsin miqyaslı pozulması halı yaşananda bir sıra internet informasiya resursları cəmiyyətdə çaşqınlıq yaradan məlumatlar yayımladılar. Bu mövzuda keçirilmiş müzakirələrdə informasiya daşıyıcılarının iş prinsipindəki nöqsanlar vurğulanmaqla yanaşı, bəzi KİV-lərin qeyri-peşəkarlığı başlıca məqam kimi önə çəkildi. Yekun qənaət bunun üzərində cəmləşdi ki, **jurnalistlərin hərbi sahə üzrə ixtisaslaşmalarına ehtiyac var.** Hesab edirik ki, qarşınızdakı vəsait bu baxımdan da vacibdir.

Ekstremal hadisənin xarakterinə, psixoloji-təcrübi məqamlarına, hüquqi yanaşma qaydalarına bələdçiliyin azlığı jurnalistlərin olaya populist, filoloji-emosional təfəkkürlə yanaşmasına gətirir. Regional münaqişələrin həllində KİV-in güclü təsir və qüvvə faktoru olduğunu bildiyimiz halda qaynar nöqtələrə müxbirlərin təsadüf halda getməsi, gedənlərin də bu istiqamətdə istənilən səviyyədə peşəkar olmaması əlavə problemlərə yol açır. *Bəzən olay faktlarının digər mənafelərə uzlaşdırılmış şəkildə ictimailəşməsi baş verir, yekun nəticə dövlətçiliyimizə, milli maraqlarımıza uyğun gəlmir.*

Onu da qeyd etmək gərəkdir ki, bu fəaliyyət sahəsində indiyəcən qazanılmış təcrübənin qaydalar bazası kimi formalaşdırılmaması və tədris edilməməsi də əlavə çətinliklər doğurur. Qarşıya çıxan xoşagəlməz mənzərə isə jurnalistlərin müvafiq dövlət qurumları ilə *qarşılıqlı əməkdaşlığının cəmiyyət üçün vacib olan prioritetlərini* də arxa plana atır.

Əlbəttə, indiyədək ayrı-ayrı jurnalist təşkilatları "ekstremal jurnalistika"nın nəzəri və təcrübi məsələlərini müəyyən qədər araşdırıb, beynəlxalq təcrübələrin tətbiqi, çatışmazlıqların həlli variantlarını müəyyənləşdirib, seminarlar, «dəyirmi masalar» keçirib, kitablar çap ediblər. Görülən işlər yalnız jurnalist peşəkarlığını artırmayıb, habelə əlaqədar hakimiyyət orqanlarının media ilə təmaslarında müsbət dəyişiklərə səbəb olub. Amma prosesin davamlılığının təmin edilməsi, əldə edilmiş təcrübənin zənginləşdirilməsi mütləqdir.

"Ekstremal jurnalistin əl kitabı" KİV mənsublarına regional, lokal böhran və münaqişələrin peşəkar araşdırılması ilə informasiyalı cəmiyyətin formalaşmasına xidmət etməyi, dövlətçiliyimizə, milli maraqlarımıza sadiqliyi aşılayan dəyərli vəsaitdir. Nəşr silahlı qarşıdurmalar, terror aktları, sülh zamanı ekstremal hallar, güc qurumlarının fəaliyyət sahəsi barədə materiallar hazırlayan jurnalistlər üçün bir növ, zəruri qaydalar bazasıdır. Bu bazanın köməyi ilə mövcud sahədə jurnalistlərin hüquqi-normativ biliklərini artırmaq, onların təcrübə və vərdişlərini təkmilləşdirmək mümkündür.

Ümid edirik ki, belə bir praktik vəsaitin yazılmasına görə "Dinc Dünya" Araşdırma Mərkəzi – İctimai Birliyinin İdarə Heyətinin sədri, "Ekstremal Jurnalistika" sahəsində mütəxəssis Əlisafa Mehdiyevə jurnalist oxucular alqış deyəcəklər.

O cümlədən, bu vəsaitin çaplanmasına maliyyə dəstəyi verən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasına və İcraçı Direktoruna da təşəkkür etməliyik.



**Əlisafa Mehdiyev,**
*"Dinc Dünya" Araşdırma Mərkəzi – İctimai Birliyinin İdarə Heyətinin sədri*

# SÖZ GƏLİŞİ

Jurnalist üçün məhz ictimai mahiyyətli olaylar mühüm əhəmiyyət daşıyır.

Silahlı-silahsız təcavüz, ictimai təhlükə – terror, basqı, ictimaiyyətə ağır təsir göstərən hadisə – korrupsiya, ağır cinayət və ya sağlamlığın qorunması, konkret şəxsin söz və ya hərəkətlərinin nəticə etibarilə ictimai zərərlilik daşıması ekstremallığın jurnalistə verdiyi fəaliyyət meydanıdır və müxbir cəmiyyətin hər şeydən xəbərdar, əmin-aman olması naminə həmişə özünü bu meydanda görür.

Təklif etdiyimiz bu bilgilər ekstremal hallardan yazan jurnalistlərin sosial, siyasi, psixoloji, hüquqi, hərbi təcrübi biliklərinin artırılması məqsədi ilə toplanıb.

Düşünürük ki, bəşərin heç vaxt sığortalana bilməyəcəyi savaşda, terror aktlarında, həmçinin sülh zamanı fövqəladə hallarda KİV üçün material hazırlayan müxbirlərə bu şəraitdən doğan psixoloji məqamları:

– təhlükəli halda özünü, ətrafındakıları qoruma üsullarını;

– mətbuat prinsiplərinə, etik normalara, o cümlədən, dövlət qanunçuluğuna, hərbi nizamnamələrə dəqiq əməl etməklə, özünün, redaksiyasının və qarşı tərəfin ləyaqətini qorumaqla peşə vəzifəsini yerinə yetirməyin (həm də beynəlxalq) təcrübələrini təqdim etməklə indiyəcən ölkəmizdə araşdırılmayan bu sahənin bir növ ilkin qaydalar bazasını yaratmış olacağıq.

Heç kimin başqasının kitabını oxumadığı bu zəmanədə bizim kitabımızı oxuyanlara sayğılarımızı bildiririk.

# İnsan hər şeyi bilmək istəyir!

*«**İnformasiya əldə etmək haqında**» Azərbaycan Respublikası Qanunu jurnalistlərə informasiya toplamaq sahəsində yetərincə imtiyazlar verir. Amma... Bax bu ammadan danışacayıq.*

Dövlətin və hərbin məxfilik rejimini qorumalı olan vəzifə daşıyıcıları bunu yaxşı bilirlər. İnsanlar sirr və rejim anlayışının "informasiya bağı"nın həddini həmişə müəyyənləşdirə bilmir, bəlkə də, öz xislətindən gələn səbəb kimi bu qadağa normasını, sadəcə bilmək istəmirlər.

Ancaq, hər halda gördüklərimiz onu da deyir ki, bunun ən çox səbəbi vəzifə daşıyıcılarının qanunla verməli olduqları informasiyanı gizlətdiklərinə görə qarşılıqlı anlaşma normaları pozulur. Məmur vətəndaşların informasiya alma hüququ ilə, mətbuat azadlığı prinsipləri ilə uyğunlaşa, razılaşa bilmir.

Beləliklə, son 10 ildə Azərbaycanda söz və mətbuat azadlığı sahəsində yüzlərlə konflikt qeydə alınıb. Bunların 30 %-i jurnalistlərin, 70 %-i isə qarşı tərəfin təqsiri üzündən baş verib." Ümumiyyətlə 1992-cı ildən 2012-ci ilin sonunadək 1311 konflikt olub. Bunun 31%-i jurnalistlərin payına düşür. *(Azərbaycan Mətbuat Şurasının məlumatı)*

Bu barışmaz durum isə jurnalistikanın yaranışından bəri baş alıb gəlir. Bəşərin informasiya alma tələblərinin miqyası qloballaşdığından, problemlərin qanuni müstəvidə həll olunması üçün jurnalistlərin təhlükəsizliyi ilə məşğul olan beynəlxalq jurnalist qurumları, həmçinin beynəlxalq təşkilatların (komitələrin) KİV-lər barədə uyğun direktivləri, bəyannamələri, sazişləri, qaydaları yaranıb. Artıq bir çox ölkələrdə yetərli təcrübələr işlənib, beynəlxalq səviyyədə qəbul olunub. Biz də bu təcrübələrlə ayaqlaşmağa cəhd edirik.

**Məsələ ondadır ki, ən gərgin münasibət ekstremal şəraitlərlə birbaşa bağlı olan Güc qurumları mənsubları ilə mülki jurnalistlər arasında yaranır.**

Fövqəladə hallar meydanından ekstremal şəraitdə informasiya toplayıb yaymaqla, insanları belə hallara qarşı durmağa hazırlamaqla demokratik, sivil cəmiyytin formalaşmasında əvəzsiz funksioner olan media mənsubları öz hüquqlarından yararlana bilmir, bəzən faciəli hallarla da qarşılaşmalı olurlar.

Jurnalistika yaranandan bəri bütün savaş və qarşıdurma olaylarında müxbirlər, reportyorlar bu və ya digər formada zərər çəkiblər. Beynəlxalq Jurnalist Təşkilatının verdiyi məlumata görə son on beş ildə savaş meydanlarında və terror olaylarında iki minə yaxın, Qarabağ savaşları gedişində Ölkəmizdə 9 nəfər jurnalist həlak olub, onlarla jurnalist yaralanıb.

Nəhayət, ABŞ-nin Əfqanıstanda apardığı əməliyyat ərəfəsində jurnalistlərin bu situasiyada davranış qaydaları barədə normativlər müəyyən edildi. Bu qaydalara uyğun olaraq son İraq savaşında minə qədər jurnalist iştirak etdi.

Bizim kütləvi informasiya vasitələrində ekstremal hadisə yerindən, o cümlədən, sülh zamanı hərbi obyektlərdən informasiya alıb-ötürmə təcrübəsi olmadığına görə (məhz buna görə) yazanların hüquqları asanlıqla pozulur. Ekstremal situasiyanın təzahür formalarını yaxşı bilməyən, belə hallara psixoloji hazırlığı olmayan, emosional-filoloji təfəkkürlə mövqe bildirərək «ekspromt» edən yazarlar təbii ki, «Ekstremal jurnalistika» gələnəkliyinin və görənəkliyinin dürüstlüyünə əngəl törətmiş olurlar.

Bütün bu əngəllər həm də mülki jurnalistlərin informasiya əldə etmənin, araşdırmanın həm ənənəvi, həm də hüquqi-normativ qaydalarını bilməmələrindən törəyir. Məhz peşəkar, borc və vicdan normalarına söykənən, "dişli" müxbirin media düşərgəsində son dərəcə az olmasına görə Güc qurumları verməli olduqları informasiyanın «bağını» daraldırlar.

**Heç bir məmur həvəskar müxbirlə vaxt itirmək həvəsində olmaz.** Hər hansı demokratik cəmiyyətin tələbləri isə dediklərimizin əksini diktə edir.

Beləliklə, ekstremal hallardan, sülh zamanı hərbi obyektlərdən hazırlanmış jurnalist yazılarında xeyli yanlışlıqlara, böhtanlara,

təhqirlərə, digər daha ciddi qanun pozuntularına yol verilir. Dövlətin «İnformasiya Doktrinası»na çevriləsi NORMALAR bir çox məqamlarda pozulur, (halbuki, vətəndaş olaraq bu normaları dövlətimizə sevgi heysiyyətimizlə düşünməliyik). Sərhədsiz Jurnalistlər Təşkilatının yaydığı xəbərə görə dünyada minlərlə jurnalist faktları təhrif etdiklərinə görə həbs cəzası çəkib. Yüzlərlə jurnalist qarşı tərəflə münasibətləri tənzimləyə bilmədiyinə görə ölkəsindən didərgin düşüb. Bu mövzuda qəsdən öldürülənlər də var. Bu barədə sonra danışacayıq.

Ölkəmizdə təkcə Müdafiə Nazirliyi ayrı-ayrı redaksiyaları, fərdi şəkildə jurnalistləri 1998-2003-cü illərdə 17 dəfə məhkəməyə verib, dəfələrlə mətbuat səhifələrində ictimaiyyəti də çaşdıran çəkişmə-etiraz, narazılıqlar olub, hərblə media arasında anlaşma normaları bir çox parametrlərdə etibarsızlaşıb.

Azərbaycan Respublikası Prezidenti 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə Ölkəmizdə **insan hüququ və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramını** təsdiq edib. Proqrama əsasən əhalinin informasiya əldə etmə, maarifləndirilmə tədbirlərinin həyata keçirilməsi və informasiya almaq hüququnun səmərəli təmin edilməsi tələb kimi qoyulub. Göründüyü kimi cəmiyyətimizin yeni inkişaf mərhələsində jurnalistikanın gərəkliliyi istər-istəməz önə çəkilir. Lakin.

Hamımızın şahidi olduğumuz, 2014-cü ilin avqustunda döyüş bölgəsində yaranan gərginlik gedişində Ölkə qəzetlərində, o cümlədən nəzarət edilməsi çətin olan informasiya saytlarında cəbhədən məlumarlar həvəskar, naşı və yanlış xəbərlər səviyyəsində yayımlandı. Hadisələrin gedişində ağına-bozuna baxmadan yayımlanmaqla düşmən tərəfə xeyli kortəbii informasiya verilmiş oldu, ölkə əhalisi yalan, şişirdilmiş, təxribatçı məlumatlardan, dezinformasiyalardan xeyli gərginliklər yaşadı. Ermənistanda Azərbaycanın sosial şəbəkələrinə istinadən xeyli mənfi rəy yayıldı.

Utanc gətirici jurnalist fəaliyyətinin nədənliyi olaraq Prezident Aparatının rəhbəri akademik Ramiz Mehdiyev 29 avqustun 2014-cü ildə geniş yığıncaq topladı, qos-qoca Ölkə jurnalistikasına ciddi iradlar tutdu. Bir daha bəlli oldu ki, «İnformasiya əldə et-

mək haqqında" Azərbaycan Respublikasının Qanunuun və Milli Fəaliyyət Proqramının tələbləri ölkə KİV-lərində **məhz ekstremal sahədə ödənilə bilmir.**

Bütün bu olmuşların nəticəsi olaraq Prezident İlham Əliyev *"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında"* 24 sentyabr 2014-cü il sərəncamını imzaladı. Sərəncama əsasən:

Silahlı Qüvvələrimizin cəbhəboyu zonada milli təhlükəsizlik və müdafiə tələblərinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərdə ***hərbi sahəyə aid məxfi sayılmalı məlumatların*** kütləvi informasiya vasitələrində, internet informasiya ehtiyatlarında, o cümlədən **sosial şəbəkələrdə yayılmasının qarşısını almaq** məqsədi ilə zəruri tədbirlər görülməlidir.

Bu sərəncana əsasən Nazirlər Kabineti "Hərbi vəziyyət haqqında", "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq **dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsinə** dair təkliflər hazırladı. O cümlədən, hərbi-siyasi və əməliyyat şəraitinə dair **məlumatların düzgün yayılması üçün internet informasiya ehtiyatlarının,** o cümlədən **sosial şəbəkələrin imkanlarından daha səmərəli istifadə etməklə bağlı** mətbuat xidmətlərinin işçilərinə təkmilləşdirmə kursları təşkili edildi.

Həmçinin, Müdafiə Nazirliyi cəbhəboyu zonadakı vəziyyət barədə məlumatların əhaliyə çatdırılması ilə bağlı nazirliyin mətbuat xidmətinin fəaliyyətində çevikliyi artırdı; KİV-lərdə, o cümlədən sosial şəbəkələrdə cəbhəboyu zonadakı vəziyyətlə bağlı verilən **məlumatların mütəmadi monitorinqini** apardı.

Əlavə olaraq, hərbi sahədə Azərbaycan Respublikasının **milli təhlükəsizliyinə xələl gətirə bilən məlumatların KİV-lərdə və sosial şəbəkələrdə yayılmasının qarşısının alınması məqsədi ilə KİV-lərlə təbliğat-izahat işini təşkil etmək** Mətbuat Şurasına tövsiyə olundu.

Xalqın ilkin öygü obyekti olan silahlı qüvvələrlə KİV yükümlülərinin bu sayaq özfəaliyyəti, belə biabırçı dartışma olayları

yurddaşlarımızın mənəvi yaddaşında heç də qürrələnəsi bir zad saxlamağa yer qoymur.

Əminliklə demək olar ki, ekstremal şəraitdə özünün hüquq və səlahiyyətlərini bilməklə yanaşı, təhlükəli şəraitdə cavabdehliyini anlayan, faktlara məsuliyyət daşıyan şəxslərin səlahiyyət və vəzifələrini dəqiq bilən, konkret situasiyada səriştəli-savadlı davranan jurnalistlərin qarşısında həmişə yaşıl işıq yanır – lap o fiziki-psixoloji təzyiqlərlə üzləşsə də.

Bütün bunları bilərək, nəzərə alaraq, etik-hüquqi tələbləri və öz sağlamlığını qoruyaraq cəmiyyətə informasiya vermənin mahiyyətini və normalarını araşdırıb sahmanlamaq, bu sahədə işləmənin sistemini yaratmaq üçün bilgi kateqoriyalarını müəyyənləşdirməyimiz gərəkir. Yəni:

– *ekstremal situasiyada söz və mətbuat azadlığının mahiyyəti, bu sahədə beynəlxalq təskilatların prinsipləri, beynəlxalq təcrubə;*

– *müxbirin qaynar nöqtələrə (ekstremal hadisə yerinə) ezam edilməsi, sığortası, ekstremal şəraitdə davranış və informasiya toplamağa şərait yaradılması qaydaları, qarşı tərəflərin etik, hüquqi fəaliyyət proseduru;*

– *müxbirin ekstremal situasiyadan mövzu seçimi. Məxfilik rejimi. Alınması məhdudlaşdırılan məlumatlar. Açıq məlumatlar;*

– *Silahlı Qüvvələr və KİV arasında qarşılıqlı əlaqə və münasibətlərin tənzimlənməsinin etik və hüquqi aspektləri.*

Mövzular xeyli praktik səciyyə daşıyır, bu sahədən yazan jurnalistin iş prinsipinin demək olar ki, əlifbasıdır. Çünki, konkret situasiyada vəziyyətin tənzimlənməsi xeyli dərəcədə jurnalistin öz məqamında ağıllı çıxış yolundan keçir.

**Hər halda, bu mövzuları bilmək məsləhətdir:**

– *demokratik dövlətdə Güc qurumlarının fəaliyyət prinsiplərinə Vətəndaş münasibətini müəyyənləşdirmək, insanların bu sahədən hansı həddə qədər informasiyalı olmalarını (nüfuz etmə səlahiyyətlərini) bilmək, komandirlərin (rəislərin) konkret hərəkətlərinə Media mənsublarının necə reaksiya verməli olmalarını, bu mənada informasiya vermənin Demokratik Cəmiyyət üçün gərəklilik mahiyyətini (dəyərini) araşdırmaq;*

*– mülki həyatın demokratikliyi ilə hərbi həyatın rejimi, psixolojisi arasındakı üyğunluğu – uyğunsuzluğu sərf-nəzər etmək, jurnalistləri komandirlərin (rəislərin) davranış - düşüncə tələblərini bilmə variantları ilə tanış etmək;*

*– özünün qurduğu dövlətin demokratik gələnəkliyini genişləndirmək üçün qanunlarımızın müəyyən etdiyi həddlərə dayanaraq informasiya alma, araşdırma, yayma vəzifəsini yerinə yetirən Media mənsublarının hərbi (hərbiləşdirilmiş) obyektlərdən yazılar, verilişlər hazırlama normativlərini müəyyənləşdirmək;*

*– hüquq-mühafizə orqanı mənsublarının dəqiqləşdirilmiş fəaliyyət prinsiplərinə uyğun şəkildə müxbirləri (həm döyüş, fəlakət, həm dinc vaxtı) qarşılaması, cəmiyyətin bilməli olduğunu öz haqqı kimi tələb etdiyi olayın (faktın, hərbçi güzəranının) (məktub, teleqram və s.-yə əsaslanaraq) müxbir tərəfindən araşdırılmasına şərait yaradılması prosedurunu bilmək;*

*– xidməti başında olan və fərqli temperamentə, xasiyyətə malik olan fərdlərlə jurnalistlərin necə davranmalarını, yaxud davranmalı olmalarını öyrənmək;*

*– komandirin (rəisin) informasiya vermə səlahiyyətini (vəzifəsini) öyrənmək. İnformasiya almanın hüquqi qaydaları ilə, komandirlərin (rəislərin) davranış – düşüncə özgürlüyünü bilmə variantları ilə tanış etmək;*

*– Beynəlxalq aləmdə Medianın funksional olaraq yaşam normasına çevrilmiş təcrübəsini, prinsiplərini jurnalist yaradıcılığı ilə uzlaşdırmaq;*

*– yəni, xidməti müddətində hakimiyyət nümayəndəsi sayılaraq müvafiq obyektdə intizamın və hərbi qayda-qanunun mühafizəsinə cavabdeh olan şəxslərin fəaliyyəti ilə cəmiyyətin bu xüsusda maraqlarının uzlaşması normalarına nəzarət edən media mənsubunun anlaşma üsullarını aramaq;*

*– hərbçi psixologiyasının mülkü cəmiyyətdəki davranış normalarından fərqlənən cəhətlərini dəqiqləşdirmək;*

*– bütün bunları bilərək, nəzərə alaraq, etik tələbləri qoruyaraq cəmiyyətə informasiya vermənin mahiyyətini araşdırmaq;*

*– informasiya əldə etmənin, araşdırmanın göstərilən sahədə*

*və şəraitdə fərqli situasiyalarından çıxış yollarını (həm də beynəlxalq təcrübəsini və prinsiplərini) çözmək;*

*– müxbirlərin ekstremal (ölkədaxili, regional) hadisə yerinə ezam olunma prosedurunu bilmək;*

*– təhlükəli zonaya gedən müxbirin taleyi ilə bağlı redaksiyanın öz üzərinə götürdüyü öhdəlikləri – müxbir sığortalanmasını, sənədlərinin hazırlanmasını, maddi və mənəvi təminat qaydalarını müəyyənləşdirmək;*

*– hadisə yerindən informasiya ötürmədə (həm də beynəlxalq təcrübədə) prinsipial qaydaları öyrənmək;*

*– təhlükəli şəraitdəki davranış normalarının fərqli cəhətlərini, ekstremal halda olan və fərqli temperamentə, xasiyyətə malik olan insanlarla necə davranmanın, yaxud davranmalı olmanın təcrübəsini dəqiqləşdirmək;*

*– təhlükəli şəraitdə özünü və ətrafındakıları qoruma, yaralanarkən, əsir düşərkən, azarkən necə hərəkət etmə təcrübəsini əldə etmək;*

*– səlahiyyətli şəxslərlə ünsiyyət yaratma çəmlərini, belə hallarda informasiya əldə etmənin, araşdırmanın göstərilən sahədə və şəraitdə fərqli situasiyalardan çıxış yollarını axtarmaq;*

*– dövlətin informasiya siyasətini dəqiqliklə bilmə və gündəlik fəaliyyətimizdə bu qanunlardan irəli gələn prinsiplərə ciddi əməl etməyi öyrənmək, yəni:*

*– jürnalistin müəyyənləşdirilmiş məxfilik rejiminin pozulmasına cəhd etməməsi üçün vacib kriteriyaları bilməsi, bu sahədən hansı vasitə iləsə əldə etdiyi məlumatın yayılıb-yayılmamalı olmasını dəqiqləşdirməsi, bu mənada informasiya vermənin Demokratik Cəmiyyət üçün gərəklilik mahiyyəti (dəyəri) ilə dövlət sirrinin qarışdırmaması həddlərini araşdırmaq;*

*– yayılması məhdudlaşdırılan məlumatların necə, hansı şəraitdə açılmasını, bu gün yayılması gərək olmayan informasiyanın nədən ibarət olmasını öyrənmək;*

*– jurnalistin bu normaları gözləməsi barədə artıq bir çox ölkə KİV-lərində təsbit edilmiş (informasiya alma, araşdırma və vermənin) prinsiplərini qanunlarımızla tutuşduraraq konkret*

*məkanda (yerli, regional) hərəkət etmə təcrübəsini mənimsəmək;*

– *"jurnalist hüquq mühafizə orqanları sistemində nədən, nə üçün mütləq yazmalıdır?" sualının cavabını bilmək;*

– ordu ilə mülki cəmiyyət arasında etibarlı və *davamlı, əxlaqlı və ədalətli əlaqə və münasibətlərin uyarlandırılması, açıq cəmiyyət üzvləri ilə spesifik xarakterli qapalı qrup üzvləri arasında ünsiyyət normalarının hərbi işin bütün nüanslarını nəzərə almaqla qaydalaşdırılması şərtlərini dəqiqləşdirmək;*

– çağdaş elektron savaşların konsepsiyalarına daya*naraq bütün milli imkanlarla kompleks yetkinlik ortaya qoyaraq hərbi güclə media gücünün paralelliyi mümkünlüyünü araşdırmaq;*

– ölkəmizə qarşı yürüdülən informativ-psi*xoloji qar*şıdurma döv*ründə KİV nümayəndələri ilə mütəxəssis hərb*çilərin "hərbi infor*masiya siyasəti"nin uğurlandırılmasında informatik əlaqələrin təşkili variantlarını dəqiqləşdirmək;*

– olay və faktlara savadlı-səriştəli nüfuz etmək üçün "ekstremal jurnalistika"nın bilim sahəsində gərək olan qanunvericilik aktları toplusunu həmişə əlinin altında saxlamaq.

**Hələ bu hamısı deyil. Mövzu arxasıycan düşəndə daha incə bilgilər mənimsəniləcək.**

# Son dövrün "Ekstremal jurnalistika" təcrübəsi



**Müxbirin qaynar nöqtələrə (ekstremal hadisə yerinə) hazırlanması ciddi təlim bilgiləri istəyir.**

Müxbirin, reportyorun qaynar obyektlərdə işə hazırlanması savaş şəraitində olan bütün ölkələrdə aktual problem sayılır. Savaş jurnalistikası Azərbaycan Media düzənində, demək olar, yeni sahədir.

Dağlıq Qarabağ münaqişəsinədək bu istiqamətdə xüsusi təcrübə olmayıb. SSRİ-nin dağılmasından sonra, 90-cı illərin əvvəllərində müharibə bölgələrində işləyən reportyorların mənimsədiyi yeni peşə hələ heç «ekstremal jurnalistika» adlanmırdı, yeni işə başlayan jurnalistlərin bu barədə təsəvvürləri belə yox idi. «Konflikt zonası», «hərbi əməliyyatlar bölgəsi», «təmas xətti» kimi terminlər də sonradan meydana gəlməyə başlayıb.

Hazırda aktiv hərbi əməliyyatlar getməsə də, 1994-cü ildə imzalanmış atəşkəs sazişi kövrək xarakter daşımaqdadır və nə hərb, nə sülh vəziyyəti davam edir. Cəmiyyətdə artan müharibə əhval-ruhiyyəsi və Silahlı Qüvvələrimizin (SQ) yetərincə güclənməsi işğal altında olan torpaqların savaşla geri qaytarılması variantını istisna etməməyə əsas verir.

Digər tərəfdən region və bütün dünyanın konfliktlərlə zəngin olduğunu nəzərə alsaq, «qaynar nöqtələr»də fəaliyyət göstərmək istəyən Azərbaycan reportyorlarının hazırlıq səviyyəsinin artırılmasına duyulan ehtiyacı təsəvvür etmək çətin olmaz. Çünki Qarabağda, ona yaxın təmas xəttində ən xırda hərbi əməliyyat olduğunu eşidən kimi, ölkə ictimaiyyəti bir nömrəli xəbəri oradan almaq istəyir. Unutmayaq ki, konfliktlərin gedişində, həllində jurnalist nüfuzunun böyük təsir imkanları var və bu nəzərdən qaçırılmamalıdır.

Dağlıq Qarabağ münaqişəsi göstərdi ki, kütləvi informasiya vasitələri etnik münaqişələrin nizamlanmasında rol oynadığı

kimi, konfliktin qızışdırılmasına da xüsusi təsir göstərə bilir. Əksər hallarda faktları xalqa çatdırmağa çalışarkən, jurnalistlərin ehtiyatsız ifadələr işlətməsi hərbi toqquşmadan əvvəlki dövrdə və ilk illərdə ağır nəticələrə səbəb oldu. İnformasiyanın operativ çatdırılmasına cəhd göstərən reportyorların bəzən məlumatı tam dəqiqləşdirmədən yayması, münasibətlərin sakitləşdirilməsi əvəzinə, qızışdırdı. Çox hallarda yazılan materiallar birbaşa belə məqsəd daşıdı.

Ümumiyyətlə isə, erməni KİV-ləri sistemli olaraq davranışları ilə xalqı yanlış yola istiqamətləndirdi, hətta katalizator rolu oynadı. Münaqişə tərəflərinin mediası, adətən, fikir ayrılıqlarını qabartmağa və özlərinin sivilizasiyalılığını, digər tərəfin vəhşiliyini sübut etməyə çalışdı. Bu istiqamətdə KİV-in xüsusi dili də yarandı. Münaqişəni işıqlandıran mətbuat, radio və televiziya işçilərinin fəaliyyətində «genosid», «əzabkeş xalq», «faşist», «varvar», "terror" kimi sözlərdən geniş istifadə olundu. Jurnalistlər açıq və gizli şəkildə «qanlı düşmən» obrazı yaratmağa çalışdı.

Döyüş bölgələrində baş verən hadisələrin içində olan jurnalistlərimiz siyasi çəkişmələrdən kənar duraraq, olayları vətənsevərlik mövqeyindən işıqlandırmağa çalışdılar. «Qaynar nöqtə»də işləmək sarıdan heç bir təcrübəsi, anlayışı olmayan reportyorlarımız, müxbirlərimiz müharibə edən tərəfinin vətəndaşları olduqlarından, məsələyə elə vətəndaşlıq prizmasından yanaşdı, Qarabağa yollanıb döyüşlərdə öz qələmləri ilə iştirak etməyi mənəvi borcları hesab etdilər. O cümlədən, əsgər və zabitlərimizin döyüş ruhunu artırmaq, o dövrdə hərbi əməliyyatların gedişi barədə yayılan rəsmi informasiyalarla reallığın bir-birinə əks olması tendesiyalarını araşdırıb, həqiqəti çatdırmaq istədilər.

Hərbi əməliyyatlarda iştirak etmiş bir müxbir yazır: *«Hərbi əməliyyatlardan xeyli vaxt keçsə də, hələ də dəqiqləşdirə bilmirik ki, bizi döyüş bölgəsinə aparan nə idi? Romantika, patriotluq, yoxsa macəra yanğısı? Ancaq dəqiq idi ki, «qaynar nöqtələr»də fəaliyyət göstərən xarici jurnalistlərə verilən iriməbləğli qonorar əldə etmək istəyi ilə bağlı deyildi»*

Bakı Dövlət Universiteti ELMİ KİTABXANA

Qorxmaz reportyor kimi tanınan Çingiz Mustafayev döyüş əməliyyatlarından lentlərini güllələr altında gerçəkləşdirməkdən çəkinmirdi. Yoldaşları həmişə onu döyüşün qaynar yerlərində xatırlayırlar. Peşəkar jurnalist təhsili olmasa da, onu Qarabağa aşıb-daşan Vətənə məhəbbət hissi aparmışdı. Və bu hiss çox hallarda ona reportyor olduğunu unutdurur və çılğın hərəkətlər etməsinə səbəb olurdu. Lakin onun hüquqlarını bilməsi, bunun uğrunda yerli məmurlarla, döyüşçülərlə mübahisələrə girişməsi bir çox hallarda gərəkli informasiya tapmağa imkan vermişdir. Ancaq bu düzgün reportyor davranışı deyildi.

Peşəkar hərbi jurnalistlərin fikrincə, həmin anda Çingiz torpağını sevən bir Vətən oğlu olduğunu nümayiş etdirib, ancaq hərbçilərlə mübahisəyə girməklə jurnalistlikanın düzgün sayılan qaydalarından kənar addım atmış olub.

O, heç bir konfliktə girmədən çəkdiyi materialları redaksiyaya gətirib, seyrçilərə gerçəyi çatdırmalı idi. Lakin bir şərtlə, Çingiz Mustafayev Vətəninin torpaqları işğal olunan tərəfin reportyoru olduğundan davranışı anlaşılan, ictimaiyyət üçün qəbul ediləndir. Onu xalqa sevdirən amillərdən biri də məhz bu olmuşdur.

Xocalı faciəsindən sonra bölgəyə xarici jurnalistlərin axınının daha da güclənməsi yerli reportyorların məsuliyyətini artırdı. Yaranmış vəziyyət operativ xəbərlərlə yanaşı, dəqiq və yoxlanılmış informasiyaların verilməsinin əhəmiyyətini zəruri etdi. Digər tərəfdən bu məsuliyyəti ermənilərin aktiv dezinformasiyalar yaymağı tələb edirdi. Bunu nəzərə alan «qaynar nöqtələr»də çalışan müxbirlər də heç də hər zaman bütün informasiyaları yaymırdılar.

Adətən, bölgəyə gələn xarici jurnalistlərin həyatları sığortalanmış olurdu, ancaq Azərbaycanda bu amilə elə də ciddi diqqət yetirilmirdi. Hətta xarici jurnalistlər yerli həmkarlarının həyatlarını sığortalatmadığını biləndə təəccüblənirdilər. Müharibə zonalarında böyük iş təcrübəsi olan peşəkar reportyorlar jurnalistlərin həyatlarının sığortalanmasını vacib şərtlərdən sayırlar.

Döyüş bölgələrinə getməyə hazırlaşan jurnalistlər üçün sığortanın vacibliyi Sərhədsiz Reportyorlar Birliyinin hələ 1 iyul 1901-ci ildə tərtib etdiyi prinsiplər arasında da xüsusi vurğulanıb. Sayca 6-cı

olan həmin prinsipdə bölgədə istənilən hadisənin baş verə biləcəyi xatırladılaraq, müharibə zonasına yollanan jurnalistlər və onların assistentlərinin həyatlarının sığortalanması vacib bilinir. Həyatının sığortalanması hərbi əməliyyatları işıqlandıran reportyorların fəaliyyətinə müsbət təsir göstərir və o, yaxşı kadrlar və fotolar əldə etmək üçün risk etməkdən çəkinmir. Bu zaman onlara nəsə bir şey olsa, ailələri sanballı pul təminatı alır.

Qarabağ savaşlarını işıqlandıran Azərbaycan, erməni jurnalistləri həyatlarını sığortalatmırdılar. Bu bir tərəfdən yerli jurnalistlərin sığortalanma ilə bağlı maariflənmə səviyyəsinin olmaması və ya çox aşağı olmasıyla bağlı idisə, digər tərəfdən onları döyüş bölgəsinə aparan səbəblərlə, xarici jurnalistləri gətirən səbəblərin tamam fərqli olmasıyla əsaslandırıla bilər. Istənilən halda bu növbəti ezamiyyətə hazırlaşan jurnalistlərə həyatlarını sığortalatmağa biganə yanaşmağa haqq qazandırmır.

Sovet senzurası ləğv edildikdən sonra, belə demək mümkünsə, hər kəsin öz vicdanına qalıb nə istədiyini yazması hökuməti hərbi senzura tətbiq etməyə vadar etdi. Lakin Azərbaycan reportyorları işğala məruz qalan ölkənin jurnalistləri olduqlarından həm də daxili senzura ilə fəaliyyət göstərməyə məcbur idilər. Çünki hazırladıqları materialların təkcə öz soydaşları deyil, düşmənin də diqqətlə izlədiyini anlayırdılar.

Xüsusilə, Bakıdan və Moskvadan gələn müxtəlif telekanalların jurnalistlərinin düşünülməmiş hərəkətləri hərbçilərimizə «baha» oturmuşdu. Telekanallardan birində döyüşçülərimizin qəhrəmanlığından bəhs edən reportaj verilmişdi; "kənd adı çəkdilər və bildirdilər ki, iki döyüşçü həmin kəndi qorusa da, sakinlər onlara güvənir və kəndi tərk etmirlər. Səhəri gün məlum oldu ki, ermənilər çox kiçik qüvvə ilə həmin kəndi işğal edib. Bunları anlayan əksər reportyor öz reportajlarında bu tip informasiyaların açıqlanmasından çəkinməyə çalışırdılar. Amma belə cinayətlər az olmadı.

Beynəlxalq jurnalistikada birtərəflilik qəbuledilməz sayılsa da, o dövrkü reallığı baxımından həmin addımı müsbət qarşılamaq

olar. İstər Qarabağ, istərsə də digər konfliktlərdə jurnalistlərin iş təcrübəsini araşdıranda bəlli olur ki, münaqişə tərəfinə məxsus jurnalistin obyektiv olması çətin məsələdir. Belə demək olarsa, hətta mümkün deyil. Çünki jurnalist ancaq cəbhənin bir və yeganə tərəfində olur. Qismətdən o, artıq mənsub olduğu tərəfin mövqeyini tutmalıdır. İstər-istəməz daxili senzura hakim olur. Konflikt zamanı xarici jurnalistlərin yerlilərdən fərqli olaraq, daha azad informasiya verə bilməsi elə buna əsaslanır. Döyüşən ölkələrin reportyorları istəsələr də, istəməsələr də, müharibənin iştirakçılarına çevrilirlər. Əgər onlar daxili senzuranı yarıb, nəyisə versələr də, həmin material mütləq redaksiya senzurasına məruz qalır.

Erməni jurnalist **A. Barxudaryan** təmsil etdiyi ölkənin hərbçilərinin xarici jurnalistlərlə normal davranmamasını və onlara məhdudiyyətlər tətbiq olunmasını xüsusi qeyd edir. Xatırlayır ki, döyüş zamanı Xankəndinə gedən Hollandiyalı jurnalist işğal edilmiş ərazilərə getmək fikrində israr etdikdən sonra onu aparıblar. Lakin erməni komandirlər ona yalnız məscidi və Böyük Vətən müharibəsi qəhrəmanlarına ucaldılmış abidəni çəkməyə icazə veriblər. Çünki məhz o tikililərə müharibə zərər yetirməmişdi. Erməni jurnalistin etirafına görə, həmkarları xaricilərlə söhbət edərkən belə senzuranı unutmurdular. Hərbçilər isə informasiyanı dəqiqləşdirmək üçün onlara müraciət edən jurnalistlərlə danışmaqdan çəkinirdilər. Aşağı rütbəli hərbçilərin gözünü qorxutmuşdular, onlar dövlət sirrini verə biləcəklərindən ehtiyatlanırdılar.

Yerevanda doğulan rus jurnalisti **Dmitri Pisarenko** xatırlayır ki, hər ay ötdükcə cəbhənin Ermənistan tərəfində jurnalistlərə münasibət dəyişirdi. «Ov tüfəngləri ilə müharibə» mərhələsi sona çatdıqdan sonra, tank, artilleriya, aviasiyadan istifadə olunmağa başladıqca, Ermənistan tərəfdən təmas xəttinə jurnalistlər az-az gedirdi. Yerli KİV nümayəndələrinə cəbhə bölgəsinə getmək üçün heç bir xərc ödənilmirdi. Bu, Ermənistanda «vəzifə borcu» sayılırdı, ancaq cəbhədə vəziyyəti görən reportyorların həvəsi ölürdü.

TASS-ın müxbiri **Vladimir Qondusov** belə qənaətə gəlmişdi ki, xarici jurnalistlərin "reportyoru canavar kimi ayaqları yedizdirir" deyimini "qaynar nöqtələrə", xüsusən də, Qarabağa aid etmək mümkün deyil. Çünki orada çox gəzmək olmurdu, nəqliyyatsız isə mümkün deyil. Maşın xilas edir, ancaq riski azaltmır. Qarabağda aramsız "Daş müharibəsi" getdiyindən döyüş üçün "ehtiyat" yetərincə çox idi, çünki ətraf dağlıq idi.

Azərbaycanlı jurnalist **Salatın Əsgərova**nın onu müşaiyyət edən iki zabit və bir çavuşla olduğu avtomobil məhz, belə yollardan birində hücuma məruz qaldı. Jurnalistlər Dağlıq Qarabağda əhalinin silahla gəzməsindən narahat idilər. Hətta onlardakı silah-sursatın əsgər və zabitlərdəkindən çox olması iddia edilirdi.

Buna baxmayaraq, xarici jurnalistlərin cəsarəti diqqət çəkən idi. Jurnalist Kərim Kərimli xatırlayır ki, 1991-ci ilin dekabrında Şuşaya gələn «Fokus» telejurnalı, «Azadlıq» və «Azad Avropa» radiostansiyalarının əməkdaşları ilə Kərkicahan kəndindən qayıdanda atəşə tutulan zaman yüksək professionallıqla davrana biliblər, güllələrdən gizlənib, həyatlarını qoruya biliblər.

Lakin «Mayak» radiostansiyasının jurnalisti **Leonid Lazareviç** həmin vəziyyətdə, elə Kərkicahan yaxınlığında faciəli ölümdən qurtula bilməmişdi. O, Kərkicahan uğrunda gedən qanlı döyüşləri görmək üçün getmişdi, ancaq imkan verilən təhlükəsizlik qaydalarından kənara çıxması ilə erməni gülləsinə tuş gəldi. Onun göstərmək istədiyi cəsarət «qaynar nöqtələr»də çalışan jurnalistlər üçün qəbul edilən təhlükəsizlik tədbirləri çərçivəsindən kənar idi. Təcrübə göstərir ki, istənilən jurnalist savaş zonasında informasiya toplamaqdan qabaq təhlükəsizlik tədbirlərinə ciddi əməl etməlidir. Çünki reportyor bir vəziyyətdə canlı döyüş kadrları çəkə bilməsə də, başqa bir halda mütləq ona nail ola bilər.

Konfliktin işıqlandırılmasına könüllü «jurnalistlər» də xüsusi kömək göstərmişdilər. Bunlar kiçik videokamera və fotoaparatları olan yerli sakinlər və hərbçilər idi. Onlardan bəziləri baş verən hadisələri xronologiya ilə bloknotda qeydə alırdılar. Həmin könüllülərin hesabına sonradan hərbi döyüşlərin real mənzərəsini

yaratmaq mümkün olurdu. Onlar peşəkar stringerlər sayılmasalar da, konkret iş yeri olmayan yalnız döyüş bölgələrindən qiymətli kadrlar çəkib, xarici telekanallara təqdim edirdilər. Qarabağ münaqişəsinin təcrübəsində belə faktlar az olmayıb. O vaxt Dağlıq Qarabağdan gətirilmiş hər video çəkilişə görə təqribən 500 ABŞ dolları pul qazanmaq olurdu. Yeni qazanc imkanı yerlilərdən daha çox tələbələri maraqlandırmışdı. Xarici kanallar da bu yerlərə daha çox bələd olan tələbələrin xidmətindən istifadə etdiyindən müharibə zonasında əsl «bum» yaranmışdı.

Assoşeyted Press, AFP, «Taym», «Moskva nyus» və «Fokus» üçün işləyən **Ruben Manqusaryan** əsasən, fotojurnalistika ilə məşğul olub. Vacib saydığı hər şeyi çəkdiyini xatırlayan fotomüxbir senzurayla qarşılaşmamasını işinin xüsusiyyətləri ilə izah edir. Onun sözlərinə görə, əsas çətinlik erməni döyüşçülərin şəkillərinin çəkilməsini istəməməsi idi. Onlar «döyüşdə şəkil çəkdirəndən sonra ölür» kimi yayılan şayiələrə çox inanırdılar.

Azərbaycanlı hərbi reportyor **Məqsəd Nur Sarıyev** isə onların belə problemlə qarşılaşmadıqlarını xatırlayır. Hərbçilər də Azərbaycanın məruz qaldığı informasiya blokadasının yarılmasında maraqlı olduqlarından jurnalistlərlə mehriban davranır, istənilən şəkili çəkməyə imkan verir, hətta döyüş əməliyyatlarını işıqlandıranlara ölümə belə hazır olan xüsusi mühafizəçi ayırırdılar.

Ümumiyyətlə, Azərbaycan tərəfdən döyüşlərin gedişini işıqlandıran fotomüxbirlər elə də çox olmayıb.

Araşdırmalar göstərir ki, ermənilərin döyüşə hazırlaşması barədə ilk fotofaktları *(Ermənilər yağış üçün buludları dağıdan topları döyüş vəziyyətinə gətirilməsi ilə bağlı-**red**)* məhz Məqsəd Sarıyev çəkərək «Ədalət» qəzetində çap etdirmişdir. Həmin kadrlar qəzetin tirajının artmasına səbəb olmaqla yanaşı, Röyter və Assoşieyted Press kimi informasiya agentliklərinin də diqqətini cəlb etmişdi.

Bölgədə çalışan jurnalistlər Qarabağ savaşı boyu informasiyanın ötürülməsində problemlərlə qarşılaşırdılar. Mobil və peyk telefonları, internet barədə o vaxt təsəvvür yox idi, telefon xətləri isə pis işləyirdi.

Ümumiyyətlə, araşdırma göstərir ki, «qaynar nöqtələr»dəki iş prinsiplərini öyrəndiyimiz və adını çəkmədiyimiz digər savaş müxbirləri əvvəllər bu sahədə fəaliyyət göstərməyiblər. Patriotik və emosional hisslər onları Qarabağa aparıb və onlar peşə borclarını yerinə yetirə-yetirə müəyyən qədər peşəkarlaşa biliblər.

Azərbaycanda savaş jurnalistikasının inkişafı «sıfır»dan başlayıb, desək yanılmarıq. Lakin cəmi bir neçə ildə keçilən yol peşəkar savaş müxbirlərinin yetişməsinə səbəb oldu. Ümid edirdik, Qarabağ müharibəsi dövründə Azərbaycan jurnalistikasında yeni sahə – savaş jurnalistikası böyük bir yol qət edə biləcək, toplanılan iş təcrübəsindən yararlanacağıq. Bu illərin öyrənc durumunun nəticəsini sevindirici saymaq olmur.

Qaynar obyektlərdən yazmağa hazırlaşan gənc jurnalistlər bunu unutmamalıdırlar. Savaş jurnalistikası yüksək peşəkarlıq istəyir. Xüsusilə də, əgər onların üz tutacaqları ünvan işğal edilmiş torpaqlarımızda başlayası hərbi əməliyyatlar olacaqsa. Mütəxəssis səviyyəsində hazırlıqlı jurnalistin təcrübəsindən yararlanmaq, bilgi bazasını toplamaq gərəkir. Əks halda gənclərə «qocaman» hərbi reportyorlardan dəyərli məsləhət verənlər tapılmayacaq...

Həmin dövrdə yetişən hərbi reportyorlar yaşa dolduğundan, yeni peşəkarlara ehtiyac yaranmaqdadır. Məsələn, o vaxtı səngərdən peşəkar çəkilişlər hazırlayan kinostudiyanın operatoru **Nizami Abbas,** AzTV-inin operatoru **Fikrət Qafarov** (dünyadan gedib), MN-in telereportyoru **Seyidağa Mövsümlü,** AzTV-inin telereportyoru **Ədil Arifoğlu, Allahverdi Əsədov, Zöhrab Mehdiyev,** AzTV-nin operatoru **Tahir Qarayev,** ANS-in məşhur çəkiliş qrupu **Vahid Mustafayev, Mirşahin, İlqar Mikayıloğlu, Asif Bağırov, Şakir Eminbəyli** indi tamam başqa mövzu ilə məşğuldurlar.

Yeni Qarabağ savaşı başlayanda qocaman jurnalistlərin effektiv fəaliyyət göstərəcəyini gözləmək olmaz. Döyüş bölgələrinə çevikliyi və operativliyi ilə seçilən gənclər gərək olacaq. Onların əldə edilən təcrübədən yararlanması, buraxılan səhvləri təkrarlamaması və «qaynar nöqtələr»də səmərəli işləməsi üçün

indidən xüsusi hazırlıq tədbirlərinin gerçəkləşdirilməsi gərəkdir. Bunu həm redaksiyalar və digər media qurumları, həm də ali məktəblərin jurnalistika fakültələri çərçivəsində qurmaq mümkündür. Redaksiyalar döyüş bölgəsinə göndəriləcək bir və ya bir neçə müxbiri seçib, ekstremal yerlərə – təbii fəlakət bölgələrinə, yol və digər qəza baş verən yerlərə, mitinq və nümayişlərə göndərməklə, psixoloji hazırlıq mərhələsində sınaqdan keçirə bilər.

Ali məktəblərində savaş jurnalistikasının tədrisini şərtləndirən səbəbləri açıqladıq. M.I.Lomonosov adına Moskva Dövlət Universitetində «Beynəlxalq humanitar hüququn əsasları və KİV-in hərbi konfliktləri işıqlandırması», Tacikistan Dövlət Universitetində «Tacikistanın kütləvi informasiya vasitələri və hərbi konflikt», Qazaxıstan Dövlət Universitetində «Regional konfliktlər və kütləvi informasiya vasitələri» mövzusunda xüsusi kurslar tədris olunur. Azərbaycanın dövlət və özəl ali məktəblərinin jurnalistika fakültələrində isə indiyədək belə kursun tədrisinə lazımi diqqət yetirilməyib.

Dövlət və özəl ali məktəblərin jurnalistika fakültələrində sözügedən kursun tədris edilməsi yetişməkdə olan jurnalistlərdə məhəlli münaqişələr və döyüş əməliyyatlarının yayımında ilkin təəssürat yarada və onların beynəlxalq humanitar hüququn prinsiplərinə yiyələnməsinə yardımçı ola bilər. Beynəlxalq humanitar hüquq prinsipləri haqqında materiallar, dünyanın aparıcı qəzet, jurnal və telekompaniyalarının təcrübəsinin analizi, təhlükəli «qaynar nöqtələr»də çalışmış jurnalistlərin iş təcrübəsi, həm də nəzəri biliklərin kurslaşdırılması əsasında öyrədilməlidir.

Dağlıq Qarabağ münaqişəsinin hələ başa çatmadığını unutmaq olmaz. Rəsmi Bakı problemin sülh yolu ilə həllinə çalışsa da, İrəvanın qeyri-konstruktiv mövqeyi savaşı qaçılmaz edir. Səbr kasası dolan Azərbaycan xalqı torpaqlarının azad olunması üçün hərbi əməliyyatlara başlasa, ölkənin jurnalistika fakültələrinin tələbələri və məzunları savaş jurnalistləri «ordusu»nun peşəkar «əsgərləri» olacaq. Buna görə də, onlar hələ tələbəlik illərindən hərbi konflikt bölgələrində iş rejimi ilə tanış olmalıdırlar.

Hazırda Azərbaycanın savaş jurnalistikası sahəsində böyük boşluq yaranıb. Qarabağ müharibəsinin səngiməsindən sonra bu istiqamətdə geriləmə gedir. Müharibədən sonrakı bir neçə ildə bəzi reportyorlarmız Çeçenistan və Gürcü – Abxaz münaqişələrinin işıqlandırılması prosesində iştirak etsələr də, sonuncu Əfqanıstan (2001-ci il), İraq (2003-2015-ci il), Suriya (2012-1015), Ukrayna (2014-2015) müharibələrində bir nəfər də olsun jurnalistin fəallıq göstərməməsi müasir tələblərə cavab verən peşəkar savaş müxbirlərinin yetişdirilməsi üçün təlimçilərin olmayacağını xəbər verir.

Azərbaycanda bu sahə yeni olduğundan, onun inkişafı istiqamətində atılan addımlar gücləndirilməlidir. Bu sahənin elmi cəhətdən öyrənilməsi əldə edilən təcrübədən yararlanmağa, müəyyən tövsiyələrlə çıxış etməyə, həmçinin «qaynar nöqtə»yə ezamiyyətə hazırlaşan jurnalistlər üçün ilkin nəzəri bilgilər bazasını yaratmağa imkan verəcək.

Stabil olmayan dünyada, müharibə şəraitində yaşadığımızı unutmamalıyıq. Tarix təkrar olunacaq, yeni münaqişələr baş verəcək.

*PS: Dövlətlərarası oyun qaydalarına görə, ölkənin düzgün informasiya siyasəti müharibədən xeyli qabaq başlayır və savaşı udmağa əvəzsiz stimul yaradır. Bu, başqa mövzudur.*

*İnformasiyanın iç və dış baxışlarla qiymətləndirilməsi xeyli önəmlidir.*

*Bu araşdırmada isə beynəlxalq normalara uyğyn olaraq sırf jurnalist peşəkarlığı nəzərdə tutulub.*

## Məmurla Media arasında narazılıq nədən yaranır?

*Yaxud, sivil cəmiyyətdə "əyri oturub düz danışmaq" mümkündürmü?*



Azərbaycan Silahlı Qüvvələrinin yaranma prosesi qarmaqarışıq, sistemsiz, milli ideologiyamızın hələ formalaşmadığı dövrlə başladı. Bir çox mənalarda ambision qarşıdurmalar... bütün dövlət müəssisələrində olduğu kimi ordunun da qurulma yolunda bu gün də acılarını çəkdiyimiz naqisliklərin təməlini qoydu. Oxucularımıza gün kimi aydın olan ordu – mülki cəmiyyət arası anlaşılmazlıq sindromu jurnalistikanın bu sahədəki fəaliyyətini xoşagəlməz çərçivəyə saldı.

Uzun bir tarix boyu savaş görməyən, müharibənin qan-qadalarına öyrənişməyən, övlad itkisinə dözümsüz, torpaq itkisinə vecsiz yanaşan, döyüşçüsündən çox fərarisi olan, özündən başqa hamıda günah axtaran, iddiası əməllərindən yekə olan azərbaycanlımız təmizliyi qorunası Dövlət atributlarını da sözün birbaşa mənasında gözdən saldı. Vətəndaş halal haqqı olaraq tələb etdiyini necə istəməyi bilmədi. Vəzifə daşıyıcıları verməyə borcu olduğu informasiyanı çaşdırdı, vermədi. Milli mənlik fərdiyyəti maddi qazanc kisəsinə çökdü.

Beləcə, hamının artıq öyrəşdiyi zümrələrarası çəlpəşik ünsiyyət – etibarsız münasibət, xidmətdə qüsurlar, yaxud, qüsursuz xidmətə ehtiramdan daha çox qınama, ittiham etmə, bir-birinin istək və tələblərini nəzərə almama, bir-birinin vəzifəsindən irəli gələn iş prinsiplərini bilməmə... "mənim" dediyimiz bir çox obyektlər kimi silahlı qüvvələrə də mülki vətəndaş sayğısını heçə endirdi. Bu da döyüşçü həyatından, hərbi (hərbiləşdirilmiş) obyektdə baş vermiş – cəmiyyəti narahat edən olaylardan doğru-

dürüst məlumat yaymağa jurnalist yolunu qapadı (hər iki tərəfin düzgün yanaşma normalarını bilməməsi ucbatından). Bü isə narahatçılığımızı bildirdiyimiz problemlə bağlı hər iki tərəfdə nöqsanların daha da çoxalmasına şərait yaratdı.

Əslində necə olmalıdır?

Qəbul edilmiş qaydalara görə yaradılmış Mətbuat Xidmətləri insanların dövlət və b. strukturlardan qanunla müəyyənləşdirilmiş qaydada (məlumat alma mənbəyi kimi) tələblərini ödəməlidir. O cümlədən, hadisəyə, fakta, problemə cavabdeh olan rəhbər (komandir, rəis, müdir...) də müxbirin suallarına münasibət bildirməlidir. Bu, respublikalı dövlət quruluşunda – prezidenti seçən insanların başlıca haqqı və tələbidir.

Ancaq, məxfilik rejiminin qorunmasını və qanunla müəyyənləşdirilmiş qadağaları istisna etsək, informasiyanın verilməməsində iki tərəfində mənfi cəhətlərini görərik.

Birinci, məlumat verməli olan tərəfdəkilər:

*– açıqlayacağı fikirləri tabeliyində olduğu rəhbərin necə qarşılayacağından ehtiyatlanan (passiv məmur);*

*– nöqsanları ört-basdır etməyi bacarmayan, yaxud ört-basdır etmək istədiyinə görə cavab verməkdən yayınan (qanun pozucusu, cinayətkar məmur);*

*– danışmağı xoşlamayan (tribun olmayan);*

*– qarşı tərəfin – cəmiyyətin tələb və təkliflərini (demokratik yaşam normalarını) qavramayan, yaxud bunu istəməyən (meşşan);*

*– ona qarşı yönəlmiş hər hansı prinsipial müraciətə bu və başqa səbəblərdən çox vaxt cavab vermək istəməyən, yaxud sərt reaksiya nümayiş etdirən, daha dəqiq desək, adekvat cavab vermə qabiliyyəti olmayan (bürokrat məmur);*

*– müraciət edənin onun xoşuna gəlməyən dərəcədə tələbkar, iddialı və s. olması üzündən ünsiyyətdən yayınan (eqoist məmur);*

*– "hərbçi heç bir partiyanın üzvü olmamalıdır" tələbinə baxmayaraq, məsələlərə hansısa partiyanın mövqeyindən yanaşan;*

*– müraciət edənin hazırlıqsız, qərəzli, məqsədyönlü olmayan suallarından yorulan, "oyunlara" qoşulmaq istəməyən məmur;*

*– və nəhayət, nöqsanlı cəmiyyətdə öz doğru, ləyaqətli "məni-*

*ni" sübut etmək imkanında olmayan məmur və s. keyfiyyətlərə malik olduqlarına görə.*

İkinci. Məlumat alıb, araşdırıb yayan tərəfdə;

*– bütün sahələrdən material hazırlayan, konkret spesifik fəaliyyət istiqamətini müəyyənləşdirməyən, informasiya almaq istədiyi obyektin xarakterik prinsiplərini, psixologiyasını, konkret mövzuya yanaşma tərzini bilməyən jurnalistlərin işlərindəki qüsurlar, informasiya almada jurnalist fəaliyyətinin ekstremallıq yaratması;*

*– samballı, tutarlı yazıları ilə Media aləmində tanınmadığına görə ciddi jurnalist kimi qəbul olunmaması;*

*– "jurnalist heç bir partiyanın üzvü olmamalıdır" prinsipindən uzaqlaşaraq, partiyalı mövqedə duraraq, əks tərəfə qarşı iddialı (bəzən qərəzli) çıxış edərək bitərəfliliyi pozması;*

*– belə hallardan doğan, həmçinin oxucu (tamaşaçı) cəlb etmək üçün populist sensasion material dalıyca qaçması;*

*– şəxsi qərəzli münasibətlə ifrat kəskin təhlillər aparması;*

*– reketliklə (həmçinin can satmaqla) məşğul olaraq jurnalistikanı gözdən salma halları olduğuna görə.*

Bütün bu səbəblərin heç biri əxlaqlı medianın gərəkliliyini və onları təmsil edənləri nəzərdən qaçırmağa bəhanə vermir. Hər kəs öz "həqiqətini" ortaya qoysa belə qanunlarımızın və çağdaş insanın tələbləri açıq, informasiyalı cəmiyyət istəyir. Çağdaş insan iqtidar və müxalifət mətbuatına bölünmüş bütöv KİV-i oxuyur. Kimin, niyə, nə üçün, nədən və kimdən ötrü yazdığını çox yaxşı görür.

İnformasiya verməli tərəf – ölkə cəmiyyətinin qanunvericiliyinə, idarəçiliyinə, nəzarətinə cavabdeh tərəf dövlətin informasiya strategiyasını konseptual şəkildə, sabit formada müəyyənləşdirməklə problemin həllini xeyli asanlaşdırmış olar. Hələ də bu anlaşılan anlaşılmazlıq həll olunma üçün müstəvi axtarır.

Xüsusi olaraq qeyd edək ki, belə qarşılıqlı qəbuledilməz münasibət hüquq-mühafizə orqanlarının hamısında eyni tərzdə deyil.

Məsələn, xüsusi fəaliyyət sahəsi olan Milli Təhlükəsizlik Nazirliyi bu prinsiplərə xeyli səliqəli yanaşdığından cəmiyyətlə, o cümlədən, cəmiyyətin informasiya yayıcıları olan jurnalistlərlə özü arasında uzaq məsafə saxlayır.

Bundan fərqli olaraq, Daxili Işlər Nazirliyinin işi birbaşa mülki obyektlər və mülki əhali ilə olduğundan, olaylar və faktlar açıq tipli olduğundan yuxarıda sadalanan səbəblər qarşılıqlı münasibətlərdə bəzən gərginlik yaratsa da informasiyanın alınması o qədər də çətinlik törətmir. Hətta istənilən kriminal, ekstremal – yanğın, daşqın, terror və s. olaylardan həvəslə (bəzən özlərinin çağırışı ilə) məlumat verirlər.

Dövlət Sərhəd Xidmətinin və Daxili Qoşunların xidmət təmayülü Silahlı Qüvvələrin xüsusi növü kimi ayrıca müəyyənləşdirildiyindən, burada xidmət etmək maddi, psixoloji və b. cəhətlərdən ayrı cür qavranıldığından, bu kontingentlərdə ekstremal hallar qismən az olduğundan Media ilə münasibətləri də gərgin deyil.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin əsasını təşkil etdiyinə, yarandığı gündən səngərlərdə, savaş meydanında olduğuna görə daha çox diqqət çəkən Müdafiə Nazirliyi:

– *Qarabağda və ətraf rayonlarda gedən döyüşlərin uğur və uğursuzluqlarına birbaşa cavabdeh olduğundan;*

– *mövzumuzun əvvəlində açıqladığımız kimi son iyirmi beş ilin gələnəkliyində cəmiyyətin orduya müsbət psixoloji yanaşma normaları hələ də pərakəndə olduğundan;*

– *buna səbəb kimi bu kontingentdə daha çox döyüş itkilərinin, digər bədbəxt hadisələrin baş verməsi üzündən cəmiyyətdə antipatik hal yarandığından;*

– *şəffaf yanaşma, yəni şübhələrə yer qoymamaq üçün müxbirin olay faktlarının açıqlanması tələbinə xeyli dərəcədə razılıq verilməməsindən;*

– *mətbuat xidmətinin işi bütün göstərilən səbəblər üzündən müəyyən qədər məhdudlaşdırıldığından* və s. asılı olaraq KİV-lə işini informasiya alıcılarının istəkləri bolluğunda qura bilmir.

Bütün bunlara baxmayaraq, ayrı-ayrı redaksiyalar yalnız hərbi vətənpərvərlik mövzusunda material hazırlamaq şərti ilə hərbi obyektlərə buraxılırlar.

Ümumiyyətlə, obyektdən ya hansısa neqativ hadisə (fakt) ilə bağlı, ya da pozitiv durumdan material hazırlanır. Demək,

icazənin verilməsi məhz bu məqsədin nəyə xidmət etməsindən, obyektə cavabdeh olanlara nə qədər sərf etməsindən, həmçinin, bu iş üçün müxbirin nə qədər hazırlıqlı, hazırlıqsız olmasından, əqidəsindən (əqidəsizliyindən), iş yerindən, hətta, yaşından, cinsindən, görünüşündən, temperamentindən də asılıdır.

Bu sahədən yazmaqda təkcə jurnalist peşəkarlığı yetmir. Savaşın, silah sursatın incədən incə bilinməsi gərəkir. Bir misal deyək.

29 yanvar 2015-ci ildə Qarabağ cəbhəsində ermənilərin pilotsuz uçuş aparatını (PUA) döyüşçülərimiz vurmuşdu. Sözügedən sahədə xeyli peşəkarlaşmış jurnalist, "AzeriDefence" hərbi jurnalının təsisçisi və baş redaktoru, **Rashad Suleymanov** bu xəbərin yayıldığı 30 saytı monitorinq edib.




**Nəticə utancvericidir.**

Rəşad Süleymanov yazır:

"Aparıcı KİV-lər daxil olmaqla baxdığım saytlarımızın 24-ünün PUA və hərbi təyyarə barədə anlayışsız olduqları xəbər başlıqlarından görünür.

– saytlardan 12-də PUA yerinə MiQ-29, Su-25, B-52, F-22 Raptor, F-35 və digər döyüş təyyarələrinin;

– 7 saytda Ermənistanda olmayan, Heron-TP, Hermes-450, Hermes-900, Dozor, Aerostar, Orbter, ANKA;

– 7 saytda nəinki Cənubi Qafqaz, Rusiya daxil postsovet məkanında heç bir respublikada mövcud olmayan MQ-9 Reaper, Predator, RQ-4 Global Hawk, RQ-7 Shadow kimi Amerika PUA-larının fotosu;

– cəmi 4 saytda Ermənistanın silahlanmasında olan Krunk tipli PUA-ların fotosu verilib.

Bizim bu saytların fotoları əsasında hesabat hazırlansa Ermənistan Ordusunun pilotsuz aviasiya sahəsində ABŞ-dan sonra «ikinci yerdə» dayandığın düşünmək olar."

Bütün bu və buna bənzər bilgiləri bilməyən müxbir qarşı tərəfi narahat etməsə yaxşıdır.

Prezidentin 24.09.2014-cü il sərəncamından sonra isə KİV-lərimiz o dərəcəyəcən özlərini bu mövzulara qapadılar ki, MN-in bir məlumatında səhv yazılmış sözü də düzəliş etmədən çapladılar...

Bax məsələ burasındadır. Hərb işini bilmək, ekstremal hadisələrin içində bişib çıxmaq bu sahənin yetkin mitəxəssisi olmaq jurnalistə həmişə arzuladığı yüksək nüfuzu gətirə bilər.

Bəlkə bu yolu tutmaq gərəkdir?

## Ekstremal vəziyyətdə mətbu sözün gərəkliyi və məsuliyyəti

*İnsanın öz fikrini hüquqi baxımdan sərbəst ifadə edə bilməsi onun yaşamı qədər zəruri bir keyfiyyətdir. Amma!*
*Bax bu ammadan danışacayıq.*

Toplumun bir hissəsi olan jurnalistin öz fikrini sərbəst, hər hansı bir hakimiyyətin yaratdığı maneəni dəf edə bilərək deyə bilməsinə imkan yaranması bütövlükdə cəmiyyətin inkişafı deməkdir. Yüz illərdən bəridir ki, insanlar öz fikrini maneəsiz, senzurasız başqalarına çatdırmaq yolunda mübarizə aparmış və xeyli dərəcədə istər hüquqi, istərsə də mənəvi cəhətdən buna nail olmuşdur. Cəmiyyətin, insanın bu qələbəsi, bu uğuru uzun müddətdir ki, kütləvi informasiya vasitələri ilə, tirajlanan sözlə həyata keçirilir.

Təcrübə göstərir ki, söz azadlığı və bu azadlığın gerçəkləşməsinə verilən hüquqlar çox olduqca sözün məsuliyyəti də artır. Söz və mətbuat azadlığı haqqında Qanun təkcə jurnalistin hüquqlarını deyil, həm də onun dediklərinə cavabdehliyini təsbit edir. Bu məsuliyyəti dərk etməyən jurnalist məhkəmələrlə, həbslərlə, cərimələrlə, hətta terrorla üzləşməli olur.

Postsovet məkanında, eləcə də demokratik dəyərlərə təzə-təzə yiyələnməyə başlayan Azərbaycan gerçəkliyində ekstremal şəraitdə fəaliyyət zamanı jurnalistin döyülməsi, yaralanması, hətta ölümlə (!?) nəticələnən faktların səbəbi heç də həmişə məmurla, cəbhə qanunları ilə və s. bağlı olmur. Bir çox hallarda bu situasiyalarda jurnalistin öz hüquq və məsuliyyətini bilməməsi üzündən belə məqamlar ortaya çıxır. Bir neçə misal deyək.

✓ *2002-ci ildə Moskvanın teatr mərkəzində baş verən terror hadisəsi zamanı jurnalistlərin öz hüquqlarını aşması, hazırlanmaqda olan xilasetmə əməliyyatının bəzi sirlərini KİV-də açıqlamaları və s. kimi hallar Rusiya Dövlət Dumasında KİV*

*haqqında Qanuna sərt dəyişikliklər etmək təşəbbüsünə əsas verdi.*

✓ *2003-cü ildə ABŞ-İraq müharibəsi zamanı bir neçə jurnalistin həbs edilməsi, ölməsi, işdən çıxarılması və s. hadisələr ciddi təəssüf hissi doğurmaqla bərabər jurnalistin öz hüquq və vəzifə borclarının ekstremal şəraitdəki məqamlarına etina etməmələrindən ortaya çıxmış oldu.*

✓ *2014-cü ilin avqustunda Qarabaşda mini-savaş hadisəsi zamanı müxbirlərin öz xəbərvermə hüdudlarını aşması, yəni səngəryanı kəndlərdən camaatın qaçması, yaxud bizim hərbi hissələrin artıq Ağdamı, bir neçə kəndi alması kimi xəbərlərin KİV-də yaymaları və s. kimi hallar ölkə prezidentinin media yükümlülərinin məsuliyyəti barədə ciddi sərəncam verməsinə gətirib çıxartdı.*

✓ *2015-in yanvarında "Ərəblər bizim qardaşlarımızdır!" deyib İŞİD-in baş kəsdiyi savaş regionuna gələn yapon reportyorlar Yapon dövlətinin İŞİD-lə savaşa maliyyə yatırmasını ağıllarına gətirməmişdi. Nəticədə başları kəsildi.*

Yüzlərlə belə misallar yaza bilərik.

Müxtəlif tipli qaynar nöqtələrdə fəaliyyət göstərməli olan jurnalistlərin bu fəaliyyət hüququ ilk növbədə «Azərbaycan Respublikasının Konstitusiyası»nda təsbit edilmişdir. Konstitusiyanın 50-ci Maddəsində deyilir:

***«1. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.»***

KİV haqqında Qanun, əslində, məhz bu maddədən çıxış edir. KİV haqqında Azərbaycan Respublikasının Qanunu bütövlükdə jurnalistin hüquq və vəzifələrini müəyyənləşdirdiyi kimi, onun ekstremal şəraitdəki fəaliyyətini də ümumiləşdirir: *«Jurnalistin vəsiqəsini təqdim etməklə qəza, təbii fəlakət zonalarında, fövqəladə vəziyyət elan olunmuş yerlərdə, mitinqlərdə və nümayişlərdə olmaq»* hüququ var. Bu maddə onu təsbit edir ki, jurnalistin həmin tipli məqamlarda da informasiya toplamaq hüququ var. Bunlar isə ekstremal şərait anlayışına daxil olan situasiyalardır.

Bu hallarda fəaliyyət göstərən jurnalist KİV haqqında Qanunla bilavasitə əlaqədar olan «Azərbaycan Respublikasının

cinayət məcəlləsi»ni, «Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini, Məlumat azadlığı haqqında, İnformasiya, İnformasiyalaşdırma və İnformasiyanın mühafizəsi haqqında, Rabitə haqqında və s. qanunları bilməlidir. Bu qanunların hər birində jurnalistin söz və mətbuat azadlığı ilə bağlı nəyi yaya bilmək, hansı hüdudlarda dayanmaq məqamları dəqiqləşdirilib.

Yuxarıda qeyd etdiyimiz kimi, ekstremal şərait anlayışı ilə bir sıra situasiyalar nəzərdə tutulur. Bunu bir az da açıqlayaq. Ekstremal şərait bir neçə qrupa bölünür:

✓ ***birinci qurup sözsüz ki, təbii fəlakətlər və qəzalar, hərbi əməliyyat zonaları, fövqəladə vəziyyət elan olunmuş yerlər;***

✓ ***ikinci qurup vətəndaş iğtişaşları, mitinq və nümayişlər;***

✓ ***üçüncü qurup isə nisbətən zəif xarakterli məsələlərdir. Məsələn, jurnalistin şübhəli şəxs kimi saxlanılması prosesi, jurnalist polis idarəsində və s.***

Belə məqamlarda jurnalistin davranışı ilə bağlı maraqlı Qərb standartları mövcuddur. Bütün bunlar da yalnız qanunla tənzimlənir.

***Bunların içərisində ən təhlükəlisi, əlbəttə, döyüş bölgələrində jurnalistin işidir. İki mühüm sahə var ki, burada jurnalistin işi söz və mətbuat azadlığı ilə sərin şəkildə üzləşir*** – savaş və terror hadisəsi.

**Özünü demokratiyanın beşiyi sayan ölkələr belə müharibə vaxtı cəbhə bölgələrində nəinki düşməni, habelə jurnalistləri və sözü də nəzarətdə saxlayır...**

ABŞ-ın körfəz müharibələrində jurnalistlərə münasibəti belə oldu:

*Birinci savaşda jurnalistin cəbhə bölgəsinə girməsini qadağan etdi.*

*İkinci savaşda cəmi iki telekanala eksklüziv imkan verdi...*

**Savaş bölgəsinin, əslində jurnalistin risq zonası olduğunu dəfələrlə vurğulayacağıq. Bu risq zonasında mütləq KİV qanunlarına və etik normalara söykənmək gərəkliyini deyəcəyik. Savaş təhlükəlidir, elə ekstremal jurnalistika özü də təhləkəli peşədir.**

Müharibə zonasında ən çox qorunan və ən çox narahatlıq doğuran milli təhlükəsizlik problemləridir. Hətta ən demokratik hesab olunan ABŞ mətbuatı da savaş bölgəsindən informasiya verəndə milli təhlükəsizlik haqqında Qanuna ciddi əməl edir. Belə məqamda jurnalistin informasiyası cəmiyyətin fəaliyyət istiqamətinə də kömək etməlidir. Burada heç kim informasiya təhlükəsizliyi problemini inkar edə bilməz. O da var ki, **cəmiyyət – azad informasiya – milli təhlükəsizlik** arasındakı tarazlıq çox çətin tənzimlənir. Hətta ABŞ qanunvericiliyində də bu problem tam həll edilməyib. Jurnalistin bu yerdə sosial məsuliyyəti, əlbəttə, öz yerində. Lakin jurnalist eyni zamanda Milli Təhlükəsizlik haqqında və s. qanunları yaxşı mənimsəməyə borcludur.

Məsələn, «Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dövlət sirrinə aid edilə bilən məlumatlar sistemində hərbi sahə ilk sırada durur. Bu Qanunun 5-ci maddəsinin 1-ci bəndində hərbi sahədə dövlət sirri hesab edilə biləcək belə ifadə var:

***«...strateji hazırlanmasına və keçirilməsinə, qoşunların strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsinə dair döyüş idarəetmə sənədlərinin məzmunu haqqında, qoşunların döyüş qabiliyyəti və səfərbərlik hazırlığı, səfərbərlik ehtiyatlarının yaradılması və istifadəsi haqqında».***

**Bu məlumatların hər biri savaş vəziyyətində olan ölkənin taleyüklü mahiyyətini təşkil edir və onların barəsində hər hansı informasiya Milli Təhlükə səviyyəsində facia törədə bilər.**

Cəbhə bölgəsində, bilavasitə döyüş yerində olan jurnalist öz informasiyalarında ən səmimi ictimai maraq prinsipindən belə çıxış edib yuxarıdakı Milli dövlət sirri hesab edilən məlumatları mətbuata çıxara bilməz.

Əlbəttə, «Kütləvi İnformasiya Vasitələri» haqqında Qanun mətbuatın və jurnalistin informasiya almaq və yaymaq hüququ təsbit edib. Lakin jurnalist etibarsız informasiya mənbəyindən aldığı məlumatla özünü və redaksiyanı pis vəziyyətdə qoya bilər.

Əks mənbələrin informasiyası həmişə qərəzli olur. Dəqiq olmaq üçün bu mənbəni yoxlamaq gərəkdir.

Digər tərəfdən, belə qərəzli görünən yazılar sizin həbs olunmağınıza əsas verə bilər.

«KİV haqqında" Azərbaycan Respublikasının Qanunu peşə etikasına hörmətlə yanaşmağı da jurnalistin məsuliyyətinə daxil edib. Doğrudan da peşə etikası ilə qanun arasında səd çox nazikdir və bəzən onların birinin digərindən doğduğu məqamlarda aydın hiss olunur. Bu məqamda jurnalistin ekstremal şəraitdə hadisəni necə işıqlandırmağı mühüm əhəmiyyət daşıyır. Məsələn, heç bir ölkənin sığortalanmadığı – vətəndaş iğtişaşlarından necə yazmanın Qərb standartları bu sahədə Qanunlara söykənir və bizim üçün də maraqlı təcrübə ola bilər.

**"...XXI əsrin birinci on ilində Cənubi Qafqaz muhitində, neft regionlarında (Xəzər neft hövzəsi nəzərdə tutulur.) bir-birini əvəz edən, ciddi nəticələrdə dayanan, güclü ekstremal şəraitlər yaranacaq. Bu, labüddür. Ehtimal etdiyimiz proqnozlar XX əsrdə qaldı..."** (Kanada, "Azad söz və azad fikir cəmiyyəti". 2002-ci ilin yekun hesabatı. Moskvada nəşr olunan "Zavtra" qəzetində jurnalist E. Molçanovun 2003-cü il yanvarın 16-da cap olunmuş yazısından).

Adını qeyd etdiyimiz özəl cəmiyyət 1991-ci il iyunun 4-dən başlayaraq dünyadakı ekstremal şəraitlərin qeydiyyatı, səbəb və nəticələri, mahiyyəti ilə məşğul olur.

Araşdırmalarımıza görə, bu istiqamətdə ciddi proqnozlarda dayanan cəmiyyətin ekspertləri, analitik və strateji təhlilçiləri hazırladıqları hesabat materiallarında Qafqaz regionlarına, o cümlədən Azərbaycana da geniş yer ayırıblar. Məsələn, kanadalı hərbi ekspert Edqar Maqlin göstərir:

"a) Azərbaycanın bitkin konsepsiyası olmadığından çətinliklər qarşısında aciz qalacaq.

b) Gürcüstan uzun illər ayrı-ayrı regiondakı ekstremal şəraitdən əziyyət çəkəcək. Nəticə Tiflisdə daha ağır olacaq. Hakimiyyətin devrilməsi üçün zəmin yaranacaq.

c) Ermənistanda isə hakimiyyətə hərbçilər gələcək. Ekstremal şərait regionun iqtisadiyyatında, digər infrastrukturlarında daha qabarıq olacaq... " və s.

Məlumata görə, cəmiyyətin üzvləri Azərbaycanda olmuş, cənub və şimal regionlarında «Ekstremal mühit»-in səbəb və nəticələrini araşdırmışlar.

Məlumatlara görə, Azərbaycanda bu günə qədər keçirilmiş parlament və prezident seçkilərində siyasi partiyaların hər biri ayrı-ayrılıqda Bakının yaşayış məntəqələrində, hökumət və qeyri-hökumət strukturlarında, güc nazirliklərində, bank və maliyyə sistemində, dini icma və qurumlarda ekstremal şərait üçün mövcud olan mənbələrdən geniş istifadə ediblər və məlumata görə, bununla bağlı ayrı-ayrı səfirliklərin, diplomatik korpusların məxfi «otaq»larında keçirilən siyasi görüşlərdə, məsləhətləşmələrdə regiondakı ekstremal şəraiti yaradan mənbələrlə bağlı ayrıca söhbətlər edilir.

Başqa bir məlumatda isə bildirilir ki, artıq siyasət meydanında hər bir prezidentliyə iddialı şəxsin mənsub olduğu partiya və cəmiyyətlərdə lazım olan vaxt «ekstremal şəraiti yarada biləcək» şəxslərin, jurnalistlərin, informasiya daşıyıcılarının, özəl telekanalların; qəzetlərin, siyasi liderlərin və nəhayət, görünməyən mənbələrin xüsusi siyahısı da tərtib edilir. Olsun. Bunlar yaşadığımız mühitdə təbiidir.

Fikrimcə, bütövlükdə Azərbaycanın heç bir yaşayış məntəqəsi baş verəcək ekstremal hadisələrə və yaxud şəraitə hazır deyil. Başqa regionlardan fərqli olaraq ekstremal şərait Azərbaycan mühitində həm məntiqdir, həm hadisədir; həm də zərurət. Həm təbiətdə, həm də cəmiyyətdə bunun öz qanunauyğunluqları var.

Təbiətdəki ekstremal şərait cəmiyyətə həmişə nüfuz edib və çox zaman dahilərin, tanınmış şəxsiyyətlərin, ciddi məntiqə söykənən yazarların, təhlilçilərin meydana çıxmasına səbəb olub, iqlimin, coğrafi relyefin və sərhədlərin dəyişməsinə gətirib çıxarıb. Məsələn, Azərbaycan təbiətində mövcud olan və bir-birini əvəz edən ekstremal şəraitin nəticəsində regionun 9 iqlimindən 3-ü məhv olub (Tehran. Musa Cəfər Afiyayinin «Xəritəşünaslıq və kartoqrafiya nəşriyyatı»nın 2002-ci il martın 10-da yayılmış məlumatı. «Keyhan» qəzeti). Nəticədə bu ekstremal şəraitdə təbiətlə yanaşı insan orqanizmində də ciddi dəyişiklər baş verib.

Orqanizm bir sıra xəstəliklərin viruslarına qarşı immunitet zəifliyi göstərib sindromlara məruz qalıb. Məsələn, cənub regionlarının üçdə biri, şimal regionlarının isə ikidə biri "ölü iqlim zonası" elan edilib. Rəsmi sənədlərdə qeyd olunmasa da bu, xüsusən həm İranın və həm də RF-nın «Ekoloji kəşfiyyat» sənədlərində xatırlanır.

Digər tərəfdən, məsələn, rus psixoloqu, Moskvadakı Elmi Tədqiqatlar və Araşdırmalar Mərkəzinin əməkdaşı, professor Leonid Davidoviçin fikrincə, Azərbaycanın cənub bölgəsində stress vəziyyətdə yaşayanların sayı regiondakı ekstremal şəraitə uyğun olaraq dəyişir. Professor «Elmi məcmuə»də (RF.MEA.) yazır: «...Stress vəziyyətlərə səbəblər var:

a) iqlim,
b) həyat tərzi,
c) yaşayış səviyyəsi,
d) münasibət,
e) intellekt düşüncə...

Mən bir-birinin ardınca iki dəfə Azərbaycanın cənub və şimal rayonlarında olmuşam. Ərazidəki stress hal məni düşündürdü. Belə stress «mənzərələr» Rusiya Federasiyasının subyektlərində də çoxdur. Fikrimcə, cənub bölgəsinin təqribən 47 faizi stress vəziyyətdə yaşayır...» (eyni mənbə. 2001-ci il N4).

Beləcə, ekstremal şəraitin təbii və süni qolları var. Süni ekstremal şərait xüsusi «Dövlət direktivləri» ilə tənzimlənir (baş verir). Yəni, dövlət ərazisindəki hər hansı bir siyasi, ciddi və təhlükə törədə biləcək qrupu, təşkilatı, dəstəni öyrənmək üçün süni şəkildə həmin regionda ekstremal şərait yaradır. Məsələn, Rusiyada bu istiqamətdə həmişə işləyən 19, Gürcüstanda 6, Ermənistanda 5, İranda 14, Qazaxıstanda 8, Türkmənistanda isə 4 «Xüsusi Direktiv» mövcuddur. Bu direktivlər hazırlanarkən xüsusi xidmət orqanlarının, digər güc nazirliklərinin də tövsiyələri nəzərə alınır. Prosesdə radio və telekanallarda, qəzet və xəbər agentliklərində çalışan yazarlardan da istifadə olunması əsas məsələlərdən biri kimi nəzərdə tutulur. Yəni süni ekstremal

şəraitlərin yaradılmasında jurnalistlərdən geniş və məqsədli istifadə olunur.

Araşdırmamıza görə, Azərbaycan ərazisində 1988-ci ilədək baş verən 1200 ekstremal şəraitdə 486 jurnalist dindirilib, onlardan 347 nəfərinə məhkəmələrdə iş açılıb (O.N. Lavrov «Kavkaz: tolko faktı...» M... İzdatelstvo «Qlebov», 1999). Bu gün o rəqəm iki dəfə çox göstərilə bilər.

Digər bir məlumatda isə göstərilir ki; 1999-cu ildən 2011-ci ilədək Azərbaycanda 183, Ermənistanda 242, Gürcüstanda 209 bir-birini əvəzləyən ekstremal şərait baş verib. Bu ekstremal şəraitlərin böyuk bir qismi süni şəkildə baş verib.

1990-cı ilin yanvarında Azərbaycandakı rus qoşun kontingentinin polkovniki Ilya Qleboviç Polyakov (Puskovdakı 1226/091 №-li hərbi hissəsindən) Moskvada nəşr olunan «Krasnaya zvezda» qəzetinə yazır:

*«... Mən Azərbaycanda olmamışdım. Bakının küçələrini, coğrafi quruluşunu, yaşayış məntəqələrini tanımırdım. Çox mətləblərdən xəbərimiz yox idi. Lakin hərbi hissədəki, vaxtilə Bakıdakı mətbuat orqanlarında çalışan, ərazini yaxşı tanıyan, Azərbaycan dilini gözəl bilən, yerli adamlardan heç də seçilməyən milliyyətcə erməni müxbirlər köməyimizə gəlirdi. Onlar Bakıya bizdən əvvəl girdilər. Bakıdakı Çkalov küçəsindəki 11 nömrəli inzibati bina qərargahımız oldu. Müxbirlərimiz (yəni ermənilər-R.N.) şəhərin gur yerlərini gəzir, Azərbaycan Xalq Cəbhəsinin mərkəzi və rayon qərargahlarında olur... məlumat yığır, ekstremal şəraitlər haqqında hesabatlar hazırlayırdılar. Bundan sonra biz xüsusi operativ planlar cızırdıq...»* (N.Q. Polyakov: «Muharibədən sonra muharibə». M..., RNAN. 2002.

20 yanvar faciəsinin səbəblərindən biri də elə süni şəkildə yaradılmış ekstremal şəraitlər, daha dəqiq desək, süni ekstremal şəraiti yaradan yalançı, hadisələrə məqsədli şəkildə, düşmən mövqedən yanaşan müxbir məlumatları, hesabatları olub. Daha sonra rus polkovniki qeyd edir:

*«Təkcə Nəsimi rayonu ərazisindən gündə 110-120 məlumat gəlirdi." Fikir verin, "Bakının Oktyabr rayonundakı (indiki Yasa-*

*mal) tələbə şəhərciyindən bir saat ərzində bir-birini təkzib edən, bir-birinə zidiyyət təşkil edən 20-25 məlumat alırdıq...» (?)*

Araşdırmamıza görə, Azərbaycanda təqribən 100-ə yaxın ekstremal şərait mənbəyi var. Yəni neftdən gələn gəlirdən tutmuş, qaçqın şəhərciklərinədək ekstremal şərait mənbəyidir. Məlumata görə, RF-dəki 36 qəzet, üc xəbər agentliyi, dörd telekanal (özəl) regionun subyektlərində baş verən ekstremal şəraitdə günahlı bilinib.

Fikrimcə, belə bir siyasi mənzərə Azərbaycan mühitində də formalaşır. Məlumatsızlıq, informasiyasızlaşma, analitik təhlil və araşdırmalardan korluq və yaxud əziyyət çəkən Azərbaycan kütləvi informasiya vasitələrinin bir qismi hələlik xarici xüsusi xidmət orqanları, regionda maraqlı olanlar üçün ... süni ekstremal şərait yarada biləcək mənbələrdəndir.

Regionda fəaliyyət göstərən xarici ölkələrə məxsus və qeyri-rəsmi (çox vaxt rəsmi) yollarla kəşfiyyat orqanlarının tezislərini, proqramlarını yerinə yetirən dostluq cəmiyyətləri, kiçik şirkət və ticarət mərkəzlərilə sıx əlaqələr yaradan jurnalistlərimiz çox zaman həmin ölkənin güclü təbliğatçısına çevrilir. Artıq, məsələn, Azərbaycanda ekstremal şərait mənbələri haqqında, eləcə də bu mənbələrdə «ələ alınmış» və yaxud «maraqlı» qələm sahibləri ilə bağlı Səudiyyə Ərəbistanının, Misirin, Birləsmis Ərəb Əmirliyinin, İranın, Türkiyənin (?), RF-nın, ABŞ-ın, Fransanın, Almaniyanın, İngiltərənin... diplomatik korpuslarında «Xüsusi sənəd»lər də var. Yəni Ölkəmizdə baş verəcək hər hansı ekstremal şəraiti hər bir ölkə üçün, (öz maraq çərçivəsində) məqsədli hesab etmək gərəkdir.

1990-cı ildə 14, 1991-ci ildə 28, 1992-ci ildən isə 46 ciddi nəticələr verə biləcək ekstremal şərait baş verib. Bunun (əsasən 1992-ci ildə) 32-si müxbirin və yaxud strateji araşdırma mərkəzinin yalan və saxta məlumatları əsasında olub. Məlumata görə, Azərbaycan torpaqlarının itirilməsində ilkin mənbə kimi süni şəkildə yaradılmış ekstremal şərait əsas rol oynayıb. Əldə etdiyimiz faktlara görə, 1992-ci ildən 1994-cü ilədək Müdafiə Nazirliyinin informasiya və mətbuat mərkəzi, hərbi kəşfiyyat orqanı kökü olmayan, mənbəyi bilinməyən və ancaq ekstremal

şərait yaradan informasiya və məlumatlara daha çox söykəniblər. Başqa bir araşdırma materialında isə qeyd olunur ki, regionda, müharibə zonasında ekstremal şərait yaratmaq üçün Ermənistanın MN BQ-dən Azərbaycanın MN-nə ötürülən yalan məlumatlar əsas rol oynayıb.

Bu yalan məlumatları, informasiyaları doğru, dəqiq kəşfiyyat materialı kimi həm mətbuata, həm də ölkə başçısına ötürənlərin taleyinə gəlincə isə... Bax, bu işlərin içində deyilik, bu işlərin içində ola bilmirək deyə bu informasiyaları zamanında izləmə, aşkar etmə, zərərsizləşdirmə macalımız yoxdur.

Araşdırmamıza görə, bəzi özəl telekanallarda, mətbuat orqanlarında, xəbər aqentliklərində ekstremal şərait üçün nəzərdə tutulan jurnalistlərin bir qismi xarici ölkələrdə xüsusi «Mətbuat və reportyor kursu» da keçiblər.

Başqa bir məlumata görə isə, respublikanın nazirliklərində, dövlət komitələrində, ümumiyyətlə, infrastrukturlarındakı mətbuat mərkəzini ekstremal şərait üçün ciddi mənbələrdən hesab etmək mümkündür. Çünki bu mətbuat mərkəzlərinin təqribən 90 faizində jurnalistikanın qanunlarından kənar, jurnalistika elmindən uzaq... yazı, fakt, sənəd və söz anlayışının siyasi və məntiqi məzmununu dərk etməyən şəxslər çalışır.

Ümumiyyətlə, MDB ölkələrində baş verən ciddi və təhlükəli ekstremal məsələlərin yaranmasına səbəb, 77,9 faiz mətbuat mərkəzlərindən alınan və yaxud ötürülən məlumatlar olub. *(B: S. Vladimirov: «Slova, informasiya i ...mısl» yazısı «Sov. Rossi» Moskva, 14 dekabr 20012-ci il).*

Tədqiqatçının bu istiqamətdə maraqlı nəticələri də var. Məsələn, professor Stanislav Anisimoviç Vladimirov «Vek i vlast...» jurnalının 7-ci №-sində (Minsk) qeyd edir:

*«... Bizim üçün qaranlıq qalan mətləblər çoxdur. Buna səbəb alınan və yaxud ötürülən məlumatların qeyri-ciddi olmasıdır. Regionlardakı ekstremal şəraitlərin yaranmasına da səbəb elə bu tipli məlumatlardır... Fikrimcə, Ukrayna, Belorus, Rusiya mətbuatı üçün ekstremal şəraitlərin yaranmasına da səbəb elə bu tipli məlumatlardır... Fikrimcə, Ukrayna, Belorus, Rusiya mət-*

*buatı üçün ekstremal şəraitlər yarada biləcək birinci mənbə milli təhlükəsizlik nazirlikləri, hərbi kəşfiyyat orqanlarıdır. Qazaxıstanda, Özbəkistanda və Türkmənistanda isə belə mənbə daxili işlər nazirlikləri, dini işlərlə məşğul olan qurumlardır. Gürcüstanda, Ermənistanda, Azərbaycanda və Tacikstanda isə ekstremal şəraitlər və çaşqınlığa gətirib çıxara biləcək ilkin mənbə müdafiə nazirlikləri, dini və etnik məsələləri araşdıran mərkəzlər, özəl və qeyri-hökumət strukturlarında çalışan, siyasi işlər və tədqiqatlar aparan şəxslərdir...» (Eyni mənbə. Səh. 41-47.)*

Amerikanın kəşfiyyat orqanlarında çalışan və hazırda Harvard Universitetində ekstremal şəraiti araşdıran, öyrənən polkovnik Mayk Linqqtona görə, Qafqaz regionlarının hər biri üçün «Ekstremal cədvəllər» var. Amerikalılar üçün Azərbaycanda qış aylarında ekstremal şəraitin ciddi həddə gətirilməsi üçün 12 gün vaxt gərəkdir. Yaz aylarında 7, yay aylarında 3, payız aylarında isə 5 gün kifayətdir.

RF Federal Təhlukəsizlik Xidmətinin 2-ci söbəsinin isə bu istiqamətdə yekun nəticələri fərqlidir. Təhlükəsizlik polkovniki S. X. Rixskovun nəticələrinə görə, Rusiya üçün Azərbaycanda ciddi ekstremal şəraitin məcrasından çıxmasına 45 dəqiqə kifayət edər. Moskvada «Soldatı udaçi» yə verdiyi müsahibədə (1999-cu il, № 3) polkovnik qeyd edir ki, bunun üçün regiondakı 1988-1989-cu illərdə siyasi liderlərlə qurulmuş «məxvi əlaqələri» bərpa etmək kifayətdir. Görünür, ruslar üçün köhnə «rıcaqlar»ın istənilən vaxt işə salınması strateji planlardan hələ çıxmayıb. S.X. Rixskov "Qorizont" jurnalındakı çıxışlarında isə iddia edir ki, Rusiyanın «siyasi mərkəzlərində» Azərbaycan həmişə maraqlı və gərəkli bir region kimi qalmaqdadır.

Araşdırmamıza görə, Ölkəmizdə xeyli sayda dini təskilat formalaşıb. Bu təşkilatların demək olar, mütləq əksəriyyəti gözlənilməz ekstremal şərait yarada biləcək gücə malikdir. Qorxulu o məqamdır ki, bu dini qurumların özəkləri, üzvləri, idarə edilməsi yetərincə gizlidir. Gizli olduğu qədər də ekstremaldır. Təhlükəsizlik orqanlarının hər addımda axtarıb, tapıb tutduğu,

tutuqladığı bu dinçilərin, dini qrupların gizli tərəflərini araşdıran jurnalistika Ölkəmizdə görükməyən həddədir.

Bu dindarların əksəri İranda, Misirdə din təhsili alıb, qayıdandan sonra ətrafına xolerikal, çılğln xarakterli gəncləri toplaması, silahlandırması hamıya bəllidir. Hətta tutulanda müxbirlərin onları dolayısıyla müdafiə etmələri də bəllidir.

Başqa bir araşdırma materialında isə göstərilir ki, Rusiyadan gəlmiş dini emissarlar da Ölkəmizdə rahatlıqla kök ata bilirlər. Neçə il əvvəl bu əməllə həbs olunanların dörd nəfəri 2001-ci ilin oktyabr, noyabr aylarında Azərbaycana gəlib, regionun üç ərazi dairəsində özəklərini qurublar. Təşkilatın «Miçmanı» adlandırılan istefada olan hərbçi Eduard Yeqorovun verdiyi ifadəyə görə, bu istiqamətdə Azərbaycanın səkkiz nəfər media nümayəndəsi ona yardımçı olub.

Azərbaycanda hələlik qapalı fəaliyyət göstərən, həmişə gözlənilməz ekstremal şəraitlərə təkan verən belə əcnəbi mənbələrin sayı artıq təhlükə həddini ötüb. Məsələn, Oksfordda Kestonovsk İnstitutunun direktoru Lourens Uççel «Baltimore Sun» («Baltimor San») qəzetinə açıqlamasında göstərir ki, Qırğızıstanda, Tacikistanda, Qazaxstanda, Türkmənistanda və Özbəkistanda qapalı fəaliyyət göstərən dini təşkilatların sayı mini kecib. Azərbaycanda, Ermənistanda, Gürcüstanda isə bu tipli mərkəzlərin bir qismi açıq-saçıq öz işlərini dövlət tərəfindən qeydə alınmış başqa təşkilatların, siyasi partiyaların, cəmiyyət və mərkəzlərin nəzdində aparır. Bunun üçün həmin xarici dini radikal mərkəzlərin bir qismi 40 mindən 70 min ABŞ dollarınadək «üzvlük haqqı» da verirlər. Lazım olan ekstremal şəraitin formalaşmasında, regiondan regiona keçməsində yardım edirlər. Mövzu ilə bağlı xeyli fakt həmkarlarımıza bəllidir.

Əldə etdiyimiz başqa bir araşdırma materialında isə «Ordunu xilasetmə dini təskilatı»nın başçısı (Qafqaz üzrə koordinatoru, polkovnik Kennet Berlinin belə bir açıqlaması var:

*«Cənub Qafqazda ... mövcud siyasi qrup və partiyaların ordu ilə qurulacaq əlaqələrinə dair 16 layihəmiz işə keçib (?). Hesabatımızda vermişik ki, 2001-ci idə Ermənistanda müxalifətçi qüvvələrin ordu hissələrindəki fəaliyyətlərinə dair,*

*qoşun kontingentindəki ekstremal özəkləri araşdırmaq, öyrənmək məqsədilə 7 «astroloji-dini» layihə qəbul olunub. Gürcüstanda isə bu tipli layihələrdən 5-i, Azərbaycanda isə 4-ü gerçəkləşdirilib. Layihələrin işlənməsi üçün də yardım və qrantları özümüz ayırırıq.*

*Ermənistan ordu hissələrində bu layihənin reallaşması üçün müxalifətdə dayanan demokratik tipli (?) partiyalara 2001-ci ildə 196 min ABŞ dolları qrant ayırdıq. Gürcüstanda 2002-ci ilin son altı ayı ərzində 57 min ABŞ dollarında qrant və yardımlarımızı sərf etmişik. Azərbaycan mühitində isə təşkilatımızın üzvlərinə 2002-ci ilin son altı ayı ərzində 57 min ABŞ dollarında qrant və yardımlarımızı sərf etmişik.*

*Azərbaycan mühitində təşkilatımızın üzvləri 2002-ci ildə daha aktiv və fəal olublar. Bizim xeyirxah və məqsədli işlərimiz var»* (K Бейли. «Религии, армии и мы... «2000-2002-ci illərdə RF-nın subyektlərində geniş yayılmış dini-siyasi cərəyanın (təşkilatın) xüsusi bülletenindən. Bülleten 2003-cü ilin fevralın 6-da bağlanıldı. Sitat gətirən hissə isə bülletenin yanvar nömrəsində çap olunub).

Polkovnik K. Beyli açıqlamalarında bunu da izah edir ki, onun Azərbaycan mətbuatına ünvanladığı yazıları qəzet səhifələrinə məlum səbəblərə görə çıxarılmadı. O, yazır: *«Bu barədə narahatçılığım yoxdur. Mənim ideyalarımı ordu hissələrində yayan məsləkdaşlarımdan razıyam. Yaxın günlərdə Azərbaycanda özəl nəşriyyatların birində bu barədə kitabım çıxacaq. Tərcüməçilərimə... və çap edən qələm sahiblərinə salamlarımı yetirirəm».*

Təbii, Azərbaycan Silahlı Qüvvələrində yabançı ədəbiyyatın yayılmasına yetərincə həssas yanaşılıb, bu layihə hərbçilər arasında yayıla bilməyib. Söhbət ondan gedir ki, torpaqları işğal olunmuş bir xalqın əhval-ruhiyyəsinə güclü psixoloji və mənəvi zərbə vurmaq üçün yəqin ki, gülləden, ağlasığmaz terrordan öncə bu tipli kitablar öz işini görür, qoşun kontingentinin hansı bölməsindəsə fəsadlar, ekstremal şərait törədir.

Standford Universitetinin (Nyu-York) MDB üzrə mütəxəssisi professor Maykl Makfol yazır. *« ...Orta sinif yoxdursa, demokratiya da yoxdur... Regionda hakimiyyəti çevriliş həddinə gətirib*

*çıxaran ekstremal şəraitin köklərini də elə burda axtarın...»* («Boston Cloke» qəzeti, 26 . 09. 2001-cı il)

Miçiqan Universitetinin professoru Vladimir Şlapentoxun «New-York Tribune» («Nyu-York Tribyun») qəzetinə verdiyi açıqlamaya diqqət yetirin: *"...Rusiyadakı islahatlar qrupu (xüsusən Çubaysın qrupu) istəyirlər ki, öz ölkələrində yaxşı yaşasınlar, ekstremal şəraitin mənbələrini ləğv etsinlər. Xaricdə yüksək hörmət və ehtiram sahibi olsunlar. Bu, çətin məsələdir. Çunki onların və ekstremal şəraitdən yazanların bir qisminin kartı Amerikadadır. Onlar isə RF-də ya*şayırlar...»

Kartı Amerikada, Misirdə, Səudiyyə Ərəbistanında, Birləşmiş Ərəb Əmirliklərində, İngiltərədə, Fransada, İsraildə, İranda, Türkiyədə, RF-də, Almaniyada və s. olanların sayını isə bilmirik.

Lakin onlar – regionda hər an ekstremal şəraitə günahkar bilinənlər Azərbaycanda yaşayırlar.

Bax belə.

# Hərbi informasiya siyasəti və KİV

*Ordu və KİV arasında qarşılıqlı münasibətlər hüquqi və etik aspektlərlə tənzimlənməlidir. Həmişə ehtiramla xatırladığım mərhum polkovnik Nadir Rzayevin bu köhnə araşdırmasını günümüzün istəklərinə uyğun olaraq yenidən işlədim. Güman edirəm gərəkli mövzudur.*

Bütün dünyada olduğu kimi çağdaş Azərbaycan cəmiyyətində də sürətli proseslər gedir. Bu proseslər cəmiyyətin bütün üzvlərindən son dərəcə ciddi yığcamlılıq və mobillik; psixoloji cəhətdən mətinlilik və möhkəmlik; eyni zamanda bu gedişlərdə təmkinlilik tələb edilir. Bu tələb indiki zamanda **insan amilinin həlledici rol oynamasın**dan irəli gəlir. Ona görə də, cəmiyyət üzvləri arasında etibarlı və davamlı, əxlaqlı və ədalətli əlaqə və münasibətlərin qurulması, toplumda qarşılıqlı faydalı ünsiyyət və fəaliyyətin yaradılması nəinki ayrılıqda hər bir fərdin, qrupun, həm də bütövlükdə cəmiyyətin və dövlətin mühüm və arasıkəsilməz işidir.

İctimai-sosial həyatın bütün sahələrinin, o cümlədən hərb sahəsinin üzvləri «özlərini bir-birilərinin rolunda» hiss etməyi, eyni zamanda «daxildə özləri özləri ilə dialoq qurmağı» bacarmaqla cəmiyyətdə sözün geniş mənasında anlaşmaya, müsbət ünsiyyətə nail ola bilərlər. Sosial həyatın iqtisadi, siyasi, mədəni-mənəvi sahələrində, **sərvətin, hakimiyyətin** və nüfuzun düzgün paylaşdırılmasında müstəqil dövlət həm müsbət, həm də mənfi şəkildə təsirlənə bilər. **Münaqişə, razılaşma, konsensus, xoşgörü, tolerantlıq, tanı(n)ma, aqressivlik və mübarizlik, ələbaxımlılıq, passivistlik** və **fatalistlik** bunlardan törəyir.

Cəmiyyət plüralistik münasibətlər, fərqli və üstün baxışlar içərisində yaşayarkən ondan inkişaf və innovasiyalar olur. Yüksək inam, etibar, xeyirxahlıq, tanı(n)ma, «spontan ünsiyyətlilik» əl-

də etmiş, «sosial kapitala» malik cəmiyyətlər daxili və xarici münasibətlərində tarazlı siyasət yeridərək tarixin sınaqlarından qalib çıxırlar. İnformasiya texnika və texnologiyalarının yüksək inkişaf tapdığı və dünyanın bir bütöv informasiya sahəsinə çevrildiyi zamanda bu faktor xüsusi əhəmiyyət daşıyır. Çünki indi «ərazilərin, ölkələrin işğalı» əsasən şü*urların işğalı ilə aparılır.* ***Şüurların işğalı isə onun bu və ya digər kontekstdə məqsədyönlü informasiya manipulyasiyası ilə əldə edilir.***

Müasir müharibələrin xarakteri – fiziki güc tətbiq etmədən, informativ-psixoloji qarşıdurma da bu həqiqəti təsdiq edir. **Strateji anlamda informativ-psixoloji qarşıdurmanın gizli müharibə şəklində həyata keçirilməsi hərbi müdaxilə başlanmazdan çox-çox qabaq planlaşdırılır. Hərbi əməliyyatlar başlayana qədər bu fəaliyyət illərlə davam edir.** Silahlı Qüvvələr qarşısında düşmənin informasiya resurslarına gizli nəzarət olunmasını təmin etmək vəzifəsi qoyulur. Bu nəzarət müxtəlif kanallar, o cümlədən Qeyri Hökümət Təşkilatları, dini və s. ictimai təşkilat və cəmiyyətlər vasitəsi ilə də açıq toplum siyasəti yeridilən ölkələrdə tətbiq olunur.

Dövrümüzdə baş vermiş lokal müharibələrin, o cümlədən Qarabağ savaşının təhlili göstərir ki, KİV-dən geniş istifadə olunması məqsədyönlü, ardıcıl prosesə çevrilir və hərbi əməliyyatlar başlayana qədər işə salınır. Hədəfə alınmış ölkəni təkləmək üçün o, xaricdən informasiya blokadasına alınır. Ölkənin öz daxilində isə düşmən qüvvələrə xidmət edən separatçı informatik vasitələr bu işə (bilərəkdən və ya bilməyərəkdən) cəlb oluna bilərlər.

Göründüyü kimi düşmən ölkənin təməlini öz daxilindən dağıtmaq imkanları güclüdür. Belə hallar düşmənin KİV-ni pulla ələ gətirməklə yararlanmağı da nəzərə alır. Qeyd edilən kontekstdə ***KİV cəmiyyətdə parçalanma, etnik münaqişə yaratma, daxili siyasi stabilliyi pozma, dövlət qurumlarını və iqtisadi strukturları zəifləmə, müxalifətçi qüvvələrin fəaliyyətini gücləndirmə, əhali arasında narazılığı kəskinləşdirmə, silahlı qüvvələri və digər güc qurumlarını dağıtma, onların imicinə xələl gətirərək***

***nüfuzdan salma, xalqda rəhbərlərdən narazılıq yaratma və nəticədə təcavüzə siyasi rəng vermə vasitəsi olaraq böyük rol oynayır.*** *(İ. Vorobyov. "Gələcək müharibələrin xarakteri", Hərbi bilik jurnalı, 1997, №-6)*

*Nəticədə hədəfə alının dövlətin daxili və xarici siyasəti iflasa uğradılır, beynəlxalq aləmdə təklənir, müttəfiqlərini itirir, siyasi, iqtisadi, ümumi böhran yaranır, hərcmərclik idarəedilməzlik şəraiti, ümidsizlik əhval-ruhu yaradır, fərdi mütiləşmə, ələbaxımlılıq, kütləvi* qo*rxaqlıq, şübhə, etimadsızlıq, əsəbilik, daxilə yönəli nifrət və qəzəb hissinə çevrilir, son məqamda isə məhvə gətirib çıxarır.* ***Bütün bunlara görə də dövlətin öz vətəndaşlarının milli və hərbi vətənpərvərlik hissinin tərbiyə edilməsi və milli ideologiyanın formalaşdırması ilə daha əsaslı məşğul olması böyük önəm daşıyır.***

Məqsədyönlü siyasi, iqtisadi, mədəni, ideoloji və həmçinin **hərbi informasiya siyasəti** (HİS) gördüyümüz kimi ən kəskin silah olaraq tərəflərarası qarşıdurmada böyük əhəmiyyət daşıyan işğal vasitəsinə çevrilir. Digər tərəfdən müasir müharibələr «cəbhə xətti», «ön və arxa cəbhə» anlayışları ilə də məhdudlaşmır. Müasir müharibə işğala məruz qalan ölkəni bütövlükdə hərbi fəaliyyət səhnəsinə çevirir. Ölkənin bütün sosial-siyasi sahələrinin mənsubları onun iştirakçısına olurlar. Bu məzmunda münaqişə içərisində olan tərəflər bir-biri ilə uzun – «dinc» və güclü qısa –»savaş» müddətli informasiya mübarizəsi – müharibəsi apararaq bütövlükdə cəmiyyəti, siyasi hakimiyyəti və ordunu deqradasiya etməyə çalışırlar.

Yeri gəlmişkən onu da qeyd edək ki, belə işğal metodu bəşəriyyətə çoxdan məlum olsa da, məsələn; məşhur Çin dövlət adamı və sərkərdəsi Sun Tzu 2500 il bundan əvvəl özünün «Savaş sənəti» adlı əsərində belə savaş metodundan bəhs edir, lakin müasir mənada ondan əsas döyüş vasitəsi kimi istifadə tarixi İsrail-Ərəb ölkələri (1967) arasındakı savaşdan başlayır. «Səhrada tufan», «Əfqanıstan», «Iraq-Amerika» və son Rusiya ukrayna savaşları, o cümlədən qeyd etdiyimiz kimi Azərbaycanın ərazi bütövlüyü

uğrunda müharibə də qlobal, regional və lokal xarakterli «elektron kəşfiyyat – atəş», «informasiya hücum – atəş» səciyyəlidir.

*Bütün bu məlum faktoloji fikirləri bir daha diqqətə çatdırmaqda məqsəd KİV-i, elektron və başqa vasitələrdən öz qloballığı, istifadə üçün açıqlığı, iqtisadi sərfəliliyi və digər texnoloji üstünlükləri ilə seçilən* internet informasiya yayıcıları nümayəndələrinin cəmiyyət və *dövlət üçün necə mühüm və məsuliyyətli fəaliyyət göstərdiklərini bir daha vurğulamaqdır. Hərbi sahənin nümayəndələri isə bu mühüm və məsul strukturlar səviyyəsində cəmiyyət üçün hərbi informasiya siyasəti qurmağın əhəmiyyətini düzgün anlamalıdırlar.*

Məşhur sosioloq Frensis Fukuyama **«Tarixin sonu»** və oradakı fikirlərinin inkişafı kimi **«Tarixin sonu və axırıncı insan»** adlı əsərlərində marksist - hegelçi anlamda insan cəmiyyətinin böyük hərflərlə yazılan tarixinin son məqsədə doğru inkişafını bitmiş hesab edir. Və bildirir ki, **faşizm və kommunizm ilə mübarizədə demokratik kapitalizm – bazar və liberalizm ideyası qalib gəlib.** Bu qalib müasir cəmiyyətlərdə siyasi və iqtisadi inkişaf, həmin toplumların üzvləri arasında bir-birlərinə olan yüksək «inamın», «etibarın»; «irsən keçmiş etik vərdişlərin» – mədəniyyətin nəticəsidir. Dini, ənənəvi və ya tarixi adətlərin, «spontan ünsiyyətliliyin» təsiri ilə formalaşan «sosial kapitalın» hesabına meydana gəlmişdir.

Əlbətdə bu fikirlərlə razılaşmaq da, razılaşmamaq da olar. İnsan ağlı ekspensiv xarakterə malikdir. Akademik A.Mirzəcanzadə belə hesab edir ki, **«Əgər insan razı olursa, bu çox pisdir. Razılaşmaq həyatın sonu deməkdir».** F.Fukuyamanın **«Tarixin sonu və axırıncı insan»** əsərində bəşəri axtarışların sonu kimi təqdim olunan bazar iqtisadiyyatı və liberalizmə növbəti inkişaf mərhələsi kimi də baxmaq olar. Lakin bu mərhələ özü də inkişaf etməkdə olan dövlətlər üçün bir məqsəd kimi qəbul edilə bilər. Cəmiyyətin iqtisadi, siyasi və sosial inkişafının, **sosial kapitaldan** asılılığı tarixi proseslərin gedişatında özünü göstərir. ***Bəşəriyyət daima rifah doyumluluğu və təhlükəsizlik arası ziddiyyətləri***

***«sosial kapital» hesabına həll etməklə harmoniyaya, qarşılıqlı faydalı əməkdaşlığa nail olur.***

XXI əsrin savaşları dövlətin milli gücünün bütün elementlərinin hərəkətə gətirildiyi bir zəmində baş verəcəyi bu gün artıq heç kimdə şübhə doğurmur. Dövlətin Milli gücü bir sistem kimi onun bütün maddi və mənəvi **dəyərlərini** özündə birləşdirir və təsəvvürümüzdə bu cür anlaşılır:




Onların bir bütöv şəkildə əlaqələndirilməsi və sistem olaraq hazırlanması potensiyalılığı və aktiv fəaliyyətə qoşulması qələbənin taleyini həll edir. Ölkədə **millət – vətəndaş – dövlət identikliyi düşüncəsinin** bərqərar olması, **milli, hərbi təhlükəsizlik şüurunun** inkişaf etdirilməsi, eyni zamanda **siyasi rəhbərliklə hərbi komandanliq arasinda yüksək anlaşmanin yaradilmasi** xüsusi əhəmiyyətə malik məsələlərdir. Bütün burada deyilən və deyilməyən bir sıra amillər müstəqil dövlətin *«İnformasiya siyasəti konsepsiyasının»*, orduda vahid informasiya mühitinin olmasını – *«Hərbi informasiya siyasətinin»* müəyyənləşdirilməsini tələb edir.

Qeyd olunanlar baxımından KİV, elektron və internet sahəsində sülh və müharibə dövrlərində praktik informasiya işi ilə bağlı fəaliyyətlər ordu və cəmiyyət kontekstində də öz həllini almalıdır.

Müasir siyasi-sosial sistem, həm də savaşlar hərbçilərdən əvvəllər demək olar ki, çox az məşğul olduqları bir işi də mənimsəməyi

**tələb edir**. *Onlar KİV nümayəndələri ilə nəinki işləməyi, həm də özləri müstəqil olaraq hərbi informasiya siyasətini yürütmək üçün ictimaiyyətlə informatik əlaqələr qurmağı öyrənməlidirlər.* Bu baxımdan KİV nümayəndələri ilə hərbçilər arasında düzgün əlaqə və münasibətlərin formalaşdırılması cəmiyyət və dövlət əhəmiyyətli bir işdir.

Açıq cəmiyyət üzvləri ilə qapalı qrup üzvləri arasında formalaşan ünsiyyət normaları spesifik xarakterli hərbi işin bütün nüanslarını, gizli və açıq kəşfiyyat məsələlərini nəzərə almaqla qurulmalıdır. O, daxili və xarici istiqamətli xüsusiyyət daşımalıdır. İnformasiyanın toplanması, işlənməsi, yayılması və ötürülməsi analitik xarakterli iş kimi aydınlıq, dəqiqlik, konkretlik və yığcamlıq tələb edir, məqsədyönlü əhəmiyyətə malik olur. İnformasiyanın strateji, taktiki xarakteri daim nəzərə alınmalı, onun şəxsi heyətə və ictimayyətə çatdırılması və ötürülməsi texnologiyası işlənməlidir. Ümummilli mənafe hər cür korporativ maraqlardan üstün tutulmalı, xalq və ordu birliyi qorunmalıdır. Xalq və ordu arası əlaqə və münasibətlərdə əsas məsələ, ordunun, əhalinin və ərazinin hər cür silahlı təcavüzdən qoruma vasitəsi, dövlətin milli maraqlarının müdafiəçisi olduğunu unutmamaqdır.

KİV yükümlüləri bu ümumi məqsədləri önə tutaraq Silahlı Qüvvələr və ordu mənsubları haqqında verilən informasiyalarda onun spesifik təyinatını, cəmiyyət və dövlət üçün əhəmiyyətini bir an belə unutmamalıdırlar. Bu anlamda Silahlı Qüvvələr və onun onurğa sütunu hesab olunan daimi kontingent – zabitlər haqqında, verilən informasiya özünün korrektliyi, və obyektivliyi, konkret fakt və arqumentliyi, yığcamlığı və qərəzsizliyi ilə diqqəti çəkməlidir. Unudulmamalıdır ki, *«Hər bir ordunun dəyəri onun zabit və komandan heyətinin dəyəri ilə ölçülür.»* (Mustafa Kamal Paşa Atatürk)

İnsanlararası əlaqə və münasibətlərin qurulmasına, ünsiyyətin yaradılmasına rəvac verən, ilk növbədə tərəflər üçün əlverişli şəraitin və şərtlərin olmasıdır. Ünsiyyətin yaranmasında mühüm yer tutan ikinci amil maraqların eyniliyinə söykənir. Üçüncü amil

isə tərəflərdən hər biri üçün dəyər motivasiyasının fəaliyyət və hərəkət üçün əsas verməsidir. Məqsədbirliyi isə onların ünsiyyətinə səmimilik gətirir, arada inam, etibar yaradır.

İnteraksionist yanaşma baxımından insan davranışlarının mahiyyəti təkrarlanan proseslərlə bağlıdır. Ta hamımızın anladığımız faktır ki, cəmiyyət insanlararası ünsiyyətdir. İnsan özü, onun nitqi, təfəkkürü və ağlı da gündəlik təkrarlanan ünsiyyət, kommunikasiya nəticəsində formalaşıb ortalığa çıxmışdır. (latınca «communic» sözü ortaqlığı, cəmiyyətləşməyi, bərabərliyi, toplum halda yaşamağı mənalandırır.)

İnsan davranışına biokimyəvi proses, əzələlərin fiziki gərilməsi və ya şəxsiyyət strukturu kimi də baxmaq olar. Sosial psixologiya bu baxışlardan birinin mövqeyində durur və «insanlara qrup iştirakçıları kimi baxır». İnsanlar bir-birindən ayrı yaşasa idilər onlar tamamilə başqa baxımdan öyrənilə bilərdi. İstənilən sosiallaşma prosesi kommunikasiya, ünsiyyət nəticəsi kimi baş verir. Lakin insanın gizli davranışı ilə açıq davranışı, həm də fərdi və kütləvi davranışları fərqli xarakter daşıyır. İnteraksionizm insan təbiətini və sosial qaydaları kommunikasiyanın məhsulu hesab edir. Bu baxımdan davranışa təkcə mühitin stimuluna cavab reaksiyası və ya daxili orqanizmin tələblərinin ifadəsi, yaxud da mədəni şablonların təzahürü kimi baxmaq olmaz. Sensor siqnalların, orqanik stimulların və mədəniyyətin insan davranışına təsirləri, sözsüz qəbul edilib etiraf olunsa da, insan davranışına aldığı yönümə, bir-birinə uyğunlaşan və bir-birindən asılı olan insanların qarşılıqlı güzəştinin nəticəsi kimi baxılır. Bundan başqa yad, hətta tamamilə yad insanın mövcudluğu sözsüz ki, hər hansı sosiallaşmış şəxsiyyətin davranışını dəyişir. Nəhayət qrup mədəniyyəti nəsə xaricdən, dışdan insana sırınan şey kimi qəbul edilmir, kommunikasiyaya ünsiyyət zamanı yaranan və daim həyat tərzi ilə bağlı olaraq insanların qarşılıqlı birgə hərəkətlərindən möhkəmlənən bir növ müvafiq davranışlar modeli kimi baxılır.

Beləliklə insan, bütövlükdə qruplar və cəmiyyət ünsiyyət və kommunikasiyanın nəticəsi kimi gözə çarpır. Deməli insanlar bir

birlərindən asılıdır və qrup həyatı onun əsasıdır. **Bu mənada həm hərbi, həm də jurnalist qruplarinda həyat tərzinin özünəməxsus xarakterik xüsusiyyətləri, psixolojisi vardir.** Dövrümüzün əsas paradokslarından biri də bundadır ki, biz bütün maddi mühit üzərində nəzarət etməyə qabil olduğumuza baxmayaraq, yenə də özümüzün-özümüzü başa düşmək qabiliyyətimiz yoxdur. Sənaye cəmiyyətlərində insanın statusu işi ilə deyil, işdə tutduğu yerlə müəyyən edilir. İnsanlar başqalarını hiss etmə qabiliyyətlərini itirirlər, onlarda bir qrupa mənsubluq eyniyyətlilik itir.

Ordu, hərb və hərbçilər haqqında verilən informasiya sülh və müharibə şəraitində olmaqla iki qismə ayrıla bilər. Lakın ordunun təyinatı hər an əldə silah döyüşə hazır, ayıq-sayıq olmaqdır. Ona görə də sülh dövrü hərbi informativ məlumatlar preventiv və eventual (ehtimal və qabağlayıcı) xarakterli düşmən hərəkətləri nəzərə almaqla verilməlidir.

Müharibə dövrü informasiya işi döyüşlərin xarakteri ilə bağlı olur. Ona görə də informasiyaya:

✓ *qəti qadağa qoyulur, («Səhrada tufan» ABŞ) döyüş əməliyyatları haqqında heç bir məlumat verilmir;*

✓ *məqsədəuyğun informasiya verilir Qarabağ (ER), (Əfqanıstan (ABŞ);*

✓ *təbliğat-təşviqat xarakterli sübutedici, bəraətqazandırıcı informasiyanın yayımlanması üçün əməkdaşlıq edilir (İraq-Amerika müharibəsi, Donetsk (RF).*

Müasir müharibələrin xarakteri tələb edir ki, hərbçilər fərqli auditoriya üçün müxtəlif mövzulu brifinqlər və mətbuat konfransları keçirsinlər. Bu brifinq və mətbuat konfransları zamanı həm mövzu ilə bağlı bir sıra nəzərdə tutulmayan, eləcə də mövzudan kənar suallar KİV nümayəndələri tərəfindən verilə bilər. Preventiv və eventual xarakterli bu suallar üzrə cavablar əsasən mövzu ilə bağlılıq dərəcəsi kontekstində olmalı və yayğınlığa yol verilməməli, «teleqraf dili» kimi dəqiq və aydın, birmənalı olmalıdır. Məlumatın məzmunu emosional və ya rəsmi hərbi üslubi xarakterin müəyyənləşdirilməsi üçün əsas təşkil

etməlidir. Auditoriyanı tanımaq, orada iştirak edən jurnalistlərin (müxbirlərin tərkibini müəyyənləşdirmək gərəkdir. Bu anlamda KİV nümayəndələrinin verilən məlumatları necə qavrayacaqları və obyektiv ötürəcəkləri, düzgün şərh verə, ya verməyə biləcəkləri anlamında onlarla müsahibənin xarakteri dəqiqləşdirilməlidir.

Hərbdən yazan və hərbi informasiyanı geniş ictimaiyyətə çatdıran, hərbçi obrazını, imicini toplumun gözündə formalaşdıran da əsasən KİV nümayəndələridir. Peşəkarlıq baxımdan onları bir neçə dərəcəyə bölmək olar:

- ✓ *hərbi repartyorlar – savaş müxbirləri;*
- ✓ *hərbçi jurnalistlər;*
- ✓ *hərbdən yazan mülki jurnalistlər;*
- ✓ *ümumiyyətlə jurnalistlər;*
- ✓ *qeyri peşəkarlar.*

İnformasiya verilərkən onu da nəzərə almaq gərəkdir ki, jurnalistlər müxtəlif dövlətlərin informasiya agentliklərini, KİV-in və ya müxtəlif yerli KİV-in təmsilçiləri ola bilərlər. Deməli suallar müxtəlif mövqe və maraqlar kontekstində verilə bilər.

Amerikada hərbi fəaliyyət teatrından yazmaq istəyən jurnalistlər üçün «İlkin hərbi hazırlıq kursları» təşkil edilir. Burada məqsəd jurnalistlərə hərbi ənənələrdən, orduda özünü aparmaq qaydalarından, komandanlığın strukturundan, silah və sursatlardan, ilkin tibbi yardımın necə göstərilməsindən və s. danışılır. Əlbəttə, bununla yanaşı, təbii olaraq jurnalistlərə hərbi sirr və məxvilik haqqında da məlumat verilir. Bütün bunlar sonradan keçirilən döyüş əməliyyatları zamanı jurnalistlərin düzgün mövqe tutmasına, «oyun qaydalarına» əməl etməsinə imkan verir.

ABŞ-İraq müharibəsi zamanı keçirilən hazırlıq nəticəsində jurnalistlər müəyyənləşmiş qaydalara, əsasən əməl etmişlər. Göründüyü kimi görülmüş tədbirlər imkan verir ki, repartyor və jurnalistlərin təcrübəsizliyi, səhvi və ya səhlənkarlığı ucbatından keçirilən əməliyyatların, hərbçilərin imici korlanmasın.

Hərbi hissələrin təhlükəsizliyi məsələsi nəzərə alınmaqla mətbuata düzgün məlumatların verilməsi gərəkdir. **Hərbi informasiya siyasəti** cəmiyyətə baş vermiş, verə biləcək hərbi proseslər,

hadisələr haqqında hərbçilərin real baxışlarını doğru-dürüst, düzgün çatdırmağa xidmət etməlidir. Digər tərəfdən çalışmaq gərəkdir ki, HİS hərbi vətənpərvərlik nümunəsi olaraq cəmiyyətə bir nizam-intizam aşılasın. **hərbi təhlükəsizlik şüurunun formalaşdirilmasi** işində əhəmiyyətli rol oynasın, ordu və cəmiyyətarası qarşılıqlı təsir və əlaqələrə bir aydınlıq gətirsin. Cəmiyyətdə isə öz gələcəyinə güvən, əminlik, inam oyatsın. Onda **milli iftixar və milli mənlik şüurunu** möhkəmləndirsin. Ümumi **milli mənafelərin qorunmasi istiqamətində fəaliyyətlərə** həvəs yaratsın, dünyaya münasibətdə **fəal həyat mövqeyi, cavabdehlik hissləri hadisələri obyektiv qiymətləndirmək qabiliyyəti doğursun**.

Bir sözlə, HİS özünün təkrarolunmazlığı və spesifikliyi ilə fərqlənən, «**Mən**» fenomeninin, formalaşmasına yardımçı olmalıdır. Sosiologiya elminin banilərindən olan Dyurekheym özünün «Sosioloji metodun qaydaları» adlı əsərində etiraf edir ki, **vətənsevərlik ideyalarına tabelilk** ağlı inqilabiləşdirir. «Dini həyatın elementar formaları» adlı digər əsərində isə o mərasim və rəmzlərin dini həyata təsirini araşdırır. Bu anlamda hərbi mərasim və simvollar onların təbliği işinin də cəmiyyətdə milli və hərbi vətənpərvərlik, millətsevərlik ruhunun formalaşdırılmasında mühüm yer tutması HİS-də nəzərdən qaçırılmamalıdır.

Hərb tarixi, hərbi qəhrəmanlıq nümunələri, unikal hərb mədəniyyətimizin öyrənilməsi və təbliği, bu işə intellektualların cəlb edilməsi işi də HİS-nin daha dolğun və sistemli şəkil almasına, həm cəmiyyət arasında təhlükəsizlik şüurunun, həm də şəxsi heyət içərisində **hərbi əqidə və tərbiyənin** yüksəlməsinə, möhkəmlənməsinə, həm də gənc nəsildə hərbi peşəyə marağın güclənməsinə səbəb ola bilər.

Milli birliyin, azərbaycançılıq ideyasının həyata keçirilməsi ictimai həyatın bütün sahələrində əhəmiyyətli keyfiyyət dəyişikliklərinin yaranmasına qətirib çıxara bilər. Bu konteksdə milli ideal məsələsinə də toxunmaq vacibdir. Böyük türk filosofu Z. Göyalpın fikirincə toplumda milli ideal yoxdursa, millətin millətləşməsi mümkün deyil. Milli şüurdan məhrum olan millətin Vətəni yox, malikanəsi ola bilər. Digər tərəfdən milli mənliyin

yaranışını yalnız şüura bağlamaq doğru olmaz. Milli mənlik şüuru milliyyətin siyasi iradəsinin ortalığa çıxması ilə əlaqədardır. Deməli bütövlükdə bu istiqamətdə görülən iş həm də siyasi birliyə, səbəb olur. Vahid bir dövlətə mənsubluq hisslərini formalaşdırır.

Bu sahədə göstəriləcək fəaliyyətlər təkcə xülasə şəklində söylədiyimiz müddəalarla bitmir. HİS-nin bütün istiqamətləri, o cümlədən müəyyən qədər şəxsi heyətlə bağlı istiqaməti, bütün bunların cəmiyyətdə təbliğı və şüurlara çatdırılması işi də mülki KİV ilə birbaşa bağlıdır. Bu istiqamətdə mülki müxbirlərlə hərbçilər arasında vahid məqsəd, əqidə birliyinin inkişaf etdirilməsi vacibdir.

Z. Göyalpa görə **xalqın bütün birgə yaşayışını və iradəsini bir yerə toplayan və güclərini artıran qərarlı qüvvə xalqın düşüncəsi, duyğuları və davranışları ilə ortaya çıxan kütləvi şüurdur. Dolayısı ilə əsl olan xalqın düşüncəsi deyil, kütləvi duyğusudur».**

Ordu ilə cəmiyyətarası qarşılıqlı təsir və asılılıqlar orduda dəyişgən və daimi kontingentin davranış, düşüncə və psixologiyasının mənsub olduğu etnos və sosiumun xarakterik xüsusiyyətləri ilə birbaşa bağlılığına səbəb olur.

Xarici rəqabət və əməkdaşlıqda tanı(n)ma, özünütəsdiq üçün isə dövlət ən güclü bir sistemdir. Bu sistemin yaşarılığı isə dövlətdə yüksək mənəvi dəyərlərin bərqərar olunmasını tələb edir. Azərbaycanın tanınmış şərqşünası və sosioloqu Mirzə Kazım bəy Roma imperiyasının süqutunu iqtisadi səbəblərlə yox, mənəviyyatın pozulması ilə izah etmişdir. Bu və buna bənzər bir sıra digər məqamlar, dünya miqyasında baş verən iqtisadi, siyasi qloballaşmalar və hərbi koalisiyalar, ixtiyari cəmiyyət və onun siyasi qurumlarınnın məhvə səbəb olmaması üçün zamanla ayaqlaşma və inkişaf çağırışına cavab verməsini zəruri edir.

Deyilən və deyilməyən bir sıra başqa müddəalar da cəmiyyətdə, orduda və dövlətdə ümummilli mənafelərin qorunmasında sözdə, fikirdə, əməldə birlik tələb edir. Ümumi milli mənafe daxili və xarici, millətlərarası vəziyyətləri nəzərə alan, milli hədəfin əldə edilməsi üçün, milli siyasət və strategiya yürüdərək milli təhlükəsizliyin təminatı ilə bağlı hərbi siyasət və strategiyanı özündə birləşdirir və bu şəkildə əlaqələndirilir.

Məhz bu kontekstdə də ümumi anlaşma şəraitində KİV və hərbçilərarası əlaqə və münasibətlər öz həllini tapmalıdır. Dövlətdə milli mənafelərin əleyhinə getməyə heç kəsin ixtiyarı yoxdur. Milli mənafelər şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafelərini özündə birləşdirərək milli təhlükəsizliyi təmin edir və aşağıdakı şəkildə təsəvvür olunur.



Ordudan və hərbçilərdən yazan jurnalist ilk əvvəl bu suallara cavab verməlidir: Ordunun gücü nədədir?

Bizcə, onun xalqa və dövlətə yaxınlığında və özünün «zabit və komandan heyətinin» əqidə bağlılığı və hazırlığında.

**Zəifliyi nədədir?**

Bu sualı isə belə cavablandırmaq mümkündür – «daxili düşmənlərdən» qoruna bilməməsində – «informasiya diversiyasından», özü də təkcə ideoloji yox, həm də məişət zəminində təbliğatdan qoruna bilməməsində.

Napoleon deyirdi ki, *«dörd qəzetin orduya vurduğu zərbəni heç bir düşmən ordusu vura bilməz».* Ordu əmr verən deyil, əmri icra edən, yerinə yetirəndir və məhz bu xarakterik xüsusiyyət də onu xaricə – düşməninə qarşı güclü, daxilə – mənsub olduğu cəmiyyətə qarşı «zəif – gücsüz» edir.

Real, günümüzdə baş vermiş fakta müraciət edək. Hadisələrə obyektiv münasibət olsun deyə ona iki ölkənin – Azərbaycanın və Rusiyanın ordusu, kütləvi informasiya vasitələri və cəmiyyətləri müstəvisində, qarşılıqlı münasibətlərin formalaşma zəminində baxaq. AAHM-də, Rusiyanın II motoatıcı Taman diviziyasında və HHM qoşunlarının I korpusunda baş vermiş, hərbi hissələri özbaşına tərketmə hadisələri haqqında KİV-də jurnalistlər və hərbçilərin mövqelərinin ifadəsi və ictimai rəyin formalaşması necə getmişdir? *(Faktlara münasibət respublika mətbuatı, televiziyası və Rusiyanın «Krasnaya zvezda», «Nezavisimaya qazeta» həftəlik əlavəsi «Nezavisimoye voennoye obozreniye» qəzetlərinin materialları üzrə mü*əyyənləşdirilib).

**Mövqelər necədir?**

✓ kütləvi, qeyri-rəsmi rəy «yaranmış ağır şəraitə» etiraz əlaməti olaraq hərbi hissəni özbaşına tərk edənlərin tərəfindədir. Burada həm cəmiyyət və orduarası əlaqələrdən formalaşan, həm də KİV-nin kütləviləşdirdiyi (əsasən neqativ) rəylərin üstünlüyü başlıca rol oynayır. Lakin övladı hərbi xidmətdə olan və ya hərbi təhsilini davam etdirən əsgər və kursantların valideyinləri son-

radan yarana biləcək «daha böyük» problemə görə «şikayət edə bilmirlər». Burada, əlbətdə konkretlilik yoxdur, ümumi, ünvansız, mahiyyəti açıqlanmayan fikirlər mövcuddur;

✓ hakimiyyət orqanları bütün vasitələrlə «kütləvi rəyə» qarşı müqavimət göstərirlər;

✓ hərbi hissənin həyat tərzi ilə tanış olub məsələnin mahiyyətini (səbəbini) bilənlər yaranmış situasiya ilə razılaşmırlar, lakin hər hansı bir fikri bildirmək iqtidarında deyillər.

Belə bir vəziyyətin davam etməsi isə ümumilikdə orduya ünvanlandığı üçün orada qayda-qanunun, nizam-intizamın get-gedə zəifləməsinə aparıb çıxara bilər. Digər tərəfdən belə vəziyyət məsələnin mahiyyətindən baş açmayan adamları başqa cür fikirləşməyə sövq edər.

Orduda, şəxsi heyət içərisində şərəf və ləyaqət hissinin gözlənilməsi ən vacib və əsas məsələlərdən biridir. Onda təşkilatçılıq, idarəetmə və rəhbərlik, mənəvi-psixoloji amillərin, düzlük, dürüstlük, ədalətlilik kimi hərbi əxlaqi keyfiyyətlərin yüksəldilməsinə xidmət etməlidir. Rəis, komandir tabeçiliyində olan şəxsi heyətə yoldaşlıq münasibəti, şəxsi heyət isə komandirə, rəisə sözsüz ehtiram bəsləyərsə faydalı nəticə əldə edilər.

Orduda «dedovşina» – «dədəlik» qayda-qanun yaratmanın bir elementi olaraq çoxdan mövcuddur. Bu münasibət öz-özünə yaranmır. Bütün bunlar Sovet dövründə, o cümlədən bu gün də səmərəsiz, qeyri-effektiv rəsmi qəbul olunmuş təşkilati, idarəetmə və rəhbərlik mexanizminə bir reaksiya olaraq yaranır.

Özünün və tabeçiliyində olan şəxsi heyətin şərəf və ləyaqət hissini gözləyən tələbkar zabit ordunun onurğa sütunudur. Belə zabitlər korpusunu diskreditasiya etmək ordunu məhvə sürükləyər. **Silahlı qüvvələrdə nizam-intizama zabitdən başqa heç kəs cavabdehlik daşımır. Sülh vaxtında əsgəri, kursantı nizam-intizamlı olmağa «məcbur etmək» müharibə zamani qələbəni əldə etmək imkanı yaradır. Gələcək zabitə və əsgərə dözümlü olmağı, «öldürməyi» komandirdən başqa heç kim öyrətmir. Hətta bu öyrəncləri komandir əcbur öyrədir.** Nə prokuror, nə

ana, nə QHT-lər, nə də insan haqlarını müdafiə komitələri. Belə əlverişsiz, çox mürəkkəb və böyük qüvvə tələb edən bir şəraitdə hər an həyatı təhlükə ilə üzləşən bir fəaliyyət içərisində olmaq çox da sadə və asan deyil. Mülki həyatdan baxanda bu bəlkə də çox adi görsənir. ***Liberal dəyərlərin həddindən çox təbliğ olunduğu, cavabdehlik və məsuliyyət hissinin itirildiyi vaxtda ümummilli dövləti dəyərlər, millətə və dövlətə bağlılıq hissləri çox zəifləyir, itirilir. «Hər kəs özünü» düşünüb yerdə qalanlara tüpürəndə ordunun ən qorxunc qalib gəlmə silahı – mənəviyyat ölür.*** Ona görə də orduya qarşı sistemli, diqqətli, düşünülmüş, davamlı, məqsədyönlü və təyinatı daha yüksək səviyyədə yerinə yetirməyə kömək edən münasibət olmalıdır.

Əgər milli, dövləti maraqlar istiqamətində ordu haqqında düşünülər və təbliğat aparılarsa çox şey dəyişilə bilər. Ordunun statusu qalxar, problemləri həll olunar.

Yuxarıda haqqında bəhs olunan faktın hüquqi aspekti isə belədir: Birincisi bilmək gərəkdır ki, beynəlxalq hüquq tabeçilikdə olanların bilərəkdən cinayət tərkibli əmrləri yerinə yetirmə işinə baxmanı nəzərdə tutur. *Ordudan təyinatından kənar istifadə edilməsinə əvvəlcədən son qoymaq, vahid komandanlığın özbaşınalığa doğru böyüməsinin və bilərəkdən cinayət tərkibli əmirlərin verilməsinin, ordunun təchizatı üçün ayrılmış maddi material ehtiyatlarından sui-istifadənin, talanın, eyni zamanda onun say və ştat tərkibinin, texniki təminatının ölkənin yetərli müdafiəsi üçün tələb olunan səviyyəni keçməməsini, həmçinin ictimai sərvətdən bu xərclərin ödənilməsinə ayrılan hissələrinin təyinatı üzrə xərclənməsi üçün* ***Silahlı Qüvvələr üzərində vətəndaş nəzarətinin olmasını tələb edir.*** Qaldı, hərbi hissəni şəraitə etiraz əlaməti olaraq özbaşına tərk etmək – cinayətdir. Əgər bu hərəkət sülh zamanı, ağır şərait zəminində baş veribsə, törədilən hərəkətə görə məsuliyyətə cəlb olunma (ARCM 333 mad.) qeyddə, (bu 334-cü maddəyə də aiddir) nəzərdə tutulmur. Lakin belə hərəkət Silahlı Qüvvələrin vəzifəsini yerinə yetirmə imkanlarını zəiflədir, hərbçiləri və dövləti nüfuzdan salır.

Belə vəziyyətdə Rusiya əsgərləri «Əsgər anaları» və digər cəmiyyətlərə müraciət ediblərsə bizim kursantlar evlərinə dağılışıblar. Hər iki hal düzgün deyildir. Xidməti işdə qanundan, nizamnamədən kənar bir hal varsa, komandirə, və ya hərbi prokurorluğa müraciət olunmalıdır. **Kütləvi informasiya vasitələri də məsələni bu cür qoyaraq onun həllinə ictimai nəzarəti təşkil edə bilər. Hüququn üstünlüyünə doğru can atan dövlətdə baş vermiş insidentlə bağlı digər hərəkətlər qeyri məqbul hesab edilməlidir.**

Müdriklər deyiblər: *«Xalqın rəhbər rəislərinin hörmətini saxla və qoru, dalınca danışıb onları hörmətdən salma. Bu günahdır!»* Digər bir hədisdə isə *«Rəislərin əmrlərinə onlar qanunlara müvafiq olduqda əməl et deyilmişdir».*

Qaldi siyasi informasiya vasitələrində iqtidar və müxalifət yönümlü mətbu orqanlarda orduya münasibətdə fərqli mövqelərə, ümummilli mənafe naminə belə münasibətlərə yol verilməməlidir. **Onların orduya münasibətləri həqiqəti yox, hakimiyyətə loyallıqlarının kriteriyasını əks etdirir.** Dünyada marqinal və merkantil maraqlardan müdafiə azdır. Həm də marionet və satellit olmaqdan da qorunma gərəkdir. Ordu savaş zamanı döyüşür, sülh dövründə isə müharibənin qarşısını alma aləti və müharibəyə hazırlaşma işi ilə məşğul olur.

Burada zənnimcə neoinstituional nəzəriyyə mövqeyindən də mövzuya yanaşmaq pis olmazdı. Bu nəzəriyyəyə görə cəmiyyətdə, həm də onun müxtəlif qrup, təbəqə və siniflərinə aid «institut»lar vardır. Əslində neoinstituional nəzəriyyə çərçivəsində institut qurumları deyil, "oyun qaydaları"ndan danışılır.

Bu «institut»lar şəxsiyyət, qrup, təbəqə və siniflərin bu və ya digər istiqamətdə birgə fəaliyyətlərinin: (rasional, şüurlu, məqsədyönlü, azad, yaradıcı – burada predikatlar müxtəlif ola bilər) nəticəsi kimi yaranıb və yaranır. İnstitutlar öz növbəsində mümkün olan vəsaitələrlə, mövcud institutlarla, informasiya daşıyıcıları ilə, koqnitiv strukturlarla (yəni bilgi toplayan qurumlarla) məhdudlaşır. Onda dəyişmələrin mənbəyi kimi; ya təsadüfi və qabaqcadan məlum olmayan hadisələr **(Coodin**

**1996)**, ya qiymətlərin dəyişməsinə gətirib çıxaran texnoloji innovasiyalar və demoqrafik dəyişiliklər **(Nort 1997)**, ya siyasi aktorların (subyektlərin) strateji fəaliyyəti **(Patnem 1996)** hətta sosial sistemlərin tarixi inkişafının və fəaliyyətinin tələblərinə optimal surətdə cavab verən institutların əmələ gəlməsini və möhkəmlənməsini təmin edən özünəməxsus təkamül mexanizmi göstərilir. **(Hall, Taylor, 1996; Coodin - 1996).** Deməli müxtəlif institutların – qurum mənasında mövcudluğu və bu qrumlarda özünəməxsus «institut»ların, yəni «oyun qaydaları»nın, qayda-qanunların olması olarsa onlara tabeçilik müəyyən dərəcədə inzibati xarakter daşımalıdır. Hər halda hərbçilər arasında – onların həyat tərzi nizamnamələrlə müəyyənləşir – «oyun qaydası» onun yerinə – yetirilməməsi halında sanksiyanın olmasını da nəzərdə tutur. KİV nümayəndələri tərəfindən də müəyyənləşmiş «oyun qaydaları»na əməl edilməsi «opportunist hərəkətin» sanksiya mexanizmi ilə aradan qaldırılmasına kömək olar.

***Cəmiyyətdə bir sıra problemlər var və onlar orduya da sirayət edir.*** *Hər şeyi onun ayağına yazmaq lazım deyil.* Cəmiyyət, cəmiy***yətdən çıxan çağırışçılar necədirsə, ordu da elədir.*** *Ona görə də ordunu tapdaq yerinə çevirmək heç kimə xeyir verməz.* Müharibə yalnız qəhrəmanlıq deyil, əzab-əziyyət, dəhşət və həm də fa***ciədir.***

İnkişaf etmiş dövlətlərin ordularında bizdə olan problemlər yoxdur və onların KİV-ində belə məsələlər***dən yazmırlar.***

Mətləbə F.Nitşenin çağırışı ilə son qoyaq: *«O adamları sevirəm ki, keçmiş qarşısında ehtiram, indinin önündə fədakarlıq, gələcək qarşısında məsuliyyət duysun!»*

müharibə dövrünün qanunlarına uyğun olaraq hərəkət etməlidir. *«Сегодня мы оказались на войне» ©İnternetdən tapa bilərsiniz.*

2. İkinci, əksər hallarda jurnalist olmayanların törətdiyi informasiya təcavüzü ilə rastlaşırıq, istər-istəməz qoşuluruq, məşğul oluruq. Onların peşəkar təbliğatçılar, informasiya ordusu, informasiya xüsusi təyinatlıları olduqlarını unuduruq.

Yaxşı, bəs informasiya savaşında necə davranmalı?

## İnformasiya təcavüzkarına münasibətdə necə davranmalı?

3. Söz azadlığı prinsipinin tətbiqində zəruri düzəlişlər gərəkdir. Gəlin bir anlığa təsəvvür edək ki, indi 2015-ci il deyil, 1944-cü ildir və biz indiki Bakıda deyil, 1944-cü ilin Böyük Britaniyasındayıq. O zaman Britaniya Avropada mövcud olan iki-üç azad cəmiyyətin biri idi. Faktiki olaraq bütün qitə ya mühasirə dövlətlərinin, ya da Stalin SSRİ-sinin nəzarəti altında idi. Necə düşünürsünüz, əgər bir qrup alman jurnalisti, məsələn, Völkischer Beobachter, Britaniya adalarına görüşə gəlməyi istəsəydilər, azad Britaniya hakimiyyətinin reaksiyası necə olmalı idi? Deyək ki, onlar Böyük Britaniyanın cənub sahilində vəziyyət haqqında məlumat əldə etmək üçün Southamptonu, Portsmouthu, Braytonu görmək istəyəcəkdilər, təbii ki və əlbəttə ki öz təəssüratlarını Berlinə çatdıracaqdılar. Bax, məsələ burasındadır. Azad cəmiyyətdə məlumatların axtarılması və yayılmasına məhdudiyyət qoyulmaması prinsipinə baxmayaraq, Britaniyalılar, bəlkə də, buna imkan verməzdilər.

Müharibə şəraitində, azad cəmiyyətlərin hətta baza prinsiplərinin istifadəsində məhdudiyyətlər ortaya çıxır. Bu cür həddlər bu savaşın gedişində də özünü göstərir. Biz hazırkı vəziyyətdə və şəraitdə nə etməli mövzusu üzərində düşünməliyik. Bir daha xadırlayaq: bu gün biz jurnalistlərlə məşğul deyilik, biz informasiya ordusunun xüsusi təyinatlıları ilə məşğuluq və məşğul olmalıyıq.

4. Başqa bir ciddi və mürəkkəb məsələ. Söhbət informasiya təcavüzünün potensial qurbanları olan insanların qorunmasına münaisbətdən gedir. Bütün insanlar fərqlidir. Ancaq bu fərq, söz-

**Onuncu bənd. Çağımızın inform.savaşı yeni azad cəmiyyətə çox ciddi çağırışlardan biridir.** Yəni bu savaşın mahiyyəti azad cəmiyyətlərə meydan oxuma deməkdir. Nə üçün?

Azad cəmiyyətin ən mühüm prinsiplərindən biri söz azadlığıdır. Volterin isnad ediləsi bir yaxşı sözü var: *«Mən sizin qənaətinizi bölüşmürəm, amma onları ifadə etmək haqqınızın uğrunda ölməyə hazıram».*

Lakin informasiya savaşı şəraitində bu prinsipi tam mənası ilə izləmək, həm virtual olaraq, bəzi hallardasa real olaraq intihar deməkdir. İkincisi, bu prinsip informasiya terrorçularına əhəmiyyətli məlumatların verilməsində yardımçı ola bilər. Buna görə də, bu şəraitdə azad cəmiyyətin bu fundamental prinsipinin praktik tətbiqində bir uyğunlaşdırılma (korrektə) tələb olunur.

İnformasiya təcavüzü törədənə qarşı informasiya müqaviməti təşkil edə bilməyən şəxslər, xalqlar, cə**miyyətlər məğlub olmağa məhkumdur.** İnformasiya təcavüzkarı hansı sosial, insani, mənəvi fəlakətlə Rusiyada qələbə qazandığını gördük. Rusiya hüdudlarından kənarda buna oxşar olayların necə baş verdiyini görürük. Başlanğıcda informasiya savaşında məğlubiyyət gəlir, sonra belə adlandırdığımız Dördüncü Dünya Müharibəsinin qalan cəbhələrində nələrin olacağı bizi narahat etməyə biləz.

Görünür, bu rəhbər prinsiplərə düzəlişlər etməyimiz gərəkdir. Yaxud, bir müzakirə başlayaq, azad cəmiyyətin mühüm prinsipi olan söz azadlığının, ifadə azadlığının, informasiya alma və yayma azadlığının qorunmasının, eyni zamanda cəzasızlıq mühitində qərəzli, pis fikirli (dez)informasiya yayılmasının, yalanın, açıq-aydın fırıldaqçılığın aradan qaldırılmasının üsullarını çözək.

***

Dediklərimizin nəticəsi olaraq bunu deyək: – **informasiya müqaviməti necə təşkil edilə bilər, informasiya müdafiəsinin strategiyası hansı əsaslarla işlənə bilər.**

1. Öncə anlamaq gərəkdir: bu savaşdır. Bu, bir zarafat, ya bir oyun deyil. Bu, sosial şəbəkələrdə dostlarla ediləsi xoş bir söhbət deyil. Bu, əsl müharibədir. Hətta bu debatlarda, müzakirələrdə, informasiyanın alınıb yayılmasında iştirak etmək istəməyənlər də,

sözlərlə təhqir edildikdən sonra təcavüzə, kobudluğa, ədəbsizliyə tab gətirmir, informasiya savaşı meydanından gedir.

Adi adamlardan çox azı şəxsi hücumlara tab gətirə bilirlər və açıq-açığına qarşılaşdıqları kobudluq qarşısında geri çəkilmirlər. Onların çoxu buna sadəcə psixoloji hazır deyil, ona görə də bu cür hücumlardan sonra disskusiyalarda fəal iştirakı dayandırmağa dirənirlər. İnformasiya məkanında adi insanların, fərqli **düşünənlərin və əks mövqe sərgiləyənlərin fəal iştirakının sıxışdırılması informasiya təcavüzkarının ən mühüm hədəflərindən biridir.**

Belə bir informasiya təcavüzünə parlaq misalı Rusiya bloq mühitinin tarixçəsi ifadə edir. Onun mənzərəsi son 15 il ərzində qəti şəkildə dəyişib. 1990-cı illərin sonu – 2000-ci illərin başlanğıcında Rusiya bloq mühiti olduqca yüksək səviyyədə intellektual və mədəni müzakirə yeri idi. Orada o vaxt fərqli baxışlara dözümlülük hökm sürürdü. Orada o vaxt müzakirə iştirakçılarının çoxu mənalı-məzmunlu dialoqa, tolerantlığa həqiqətən maraqlı idi. Təxminən 2003-cü ildə informasiya təcavüzkarının quldur dəstəsi bloqmühitə yönəldilmiş həmlə edib "kütləvi işğal törətdi", həmçinin fərdi hücumlar etdi. O sıradan, bir çox bloqçuları ədəbsiz dillə aşağıladı, layiq davranışdan uzaqlaşdırdı. Bloq mühiti sahəsində diskussiya praktik olaraq mümkün olmadı, debatlar isə demək olar ki, şəxsi münasibətlərin aydınlaşdırılmasına, qarşılıqlı təhqirlərə çevrildi. Bu müdaxilə nəticəsində, o müzakirələrin fəal iştirakçılarının bir çoxu bloqmühitdən uzaqlaşdılar. Bundan sonra bir neçə il fərqli düşünənlərin nümayəndələrinin qarşılıqlı münasibətləri haqqında müşahidəçidə təhrif olunmuş təsəvvür yarana bilərdi, o barədə ki, Rusiya ictimaiyyətinin siyasiləşmiş hissəsi intellektual və mədəni inkişaf sarıdan inanılmaz dərəcədə aşağı səviyyədədir, rus cəmiyyəti isə əsasən ünsiyyətin primitiv və aqressiv üsullarına meyl edirlər.

İnformasiya təcavüzünə qarşı dayanmaqdan ötəri Rusiya bloqmühitinə tədbirlər hazırlamaq üçün bir neçə il gərək oldu. Amma həmin bu bir neçə ildə informasiya təcavüzkarı geridönməz qələbə qazandı.

etdiklərinin şahidi olduq. Sonra bu siyahı *«Putin təbliğatının 40 yalan faktı»*-na qədər, sonra *«Putin təbliğatının 60 yalan faktı»*-na qədər, sonra *«Putin təbliğatının 80 yalan faktı»*-na qədər, daha sonra *«Putin təbliğatının 100 yalan faktı»*-na qədər genişləndi. Bu «Yalan faktlar» foto və videoların kəskin saxtalaşdırılmış və quraşdırılmış nümunəsidir. Xüsusilə, Rusiya-Ukrayna döyüşlərində hadisələrin əyaniliyini göstərmək üçün Çeçenistanda, Dağıstanda, Kabardin-Balkarda, Suriyada, Yuqoslaviyada, eləcə də Ukraynanın özündə başqa bir zaman faktlaşdırılmış foto və video materiallar işlədilmişdir. Bu materiallar elə emal edilmiş, mətnlərlə təmin edilmişdir, sanki bu faktlar bu gün Ukraynada baş verən hadisələrin içində yer alır. Yalnız bu nümunə texnoloji, yaradıcı, təşkilati, maliyyə, xüsusən xeyli insan resurslarının saxtalaşdırma və quraşdırma konveyerinin istehsal prosesinə cəlb edildiyini göstərir.

Bu prosesdə, xüsusi *«şəbəkə agent qrupları»*-nın köməkliyi ilə yeni texnologiyalar və sosial şəbəkələr vasitəsilə (dez)informasiyaların yayılmasının yeni üsulları əsas rol oynayır.

**Doqquzuncu bənd. İnform.savaşın hədəfləri nədir?** Belə adlandırdığımız «Beyin yuyulması» – insanların ətraf aləmi ənənənvi qavrayışını dəyişməsidir. Əslində, insanlarda rəy formalaşdırmaqdır, əhalinin ən azı, bir hissəsinin neytrallığına nail olmaqdır, digər hissəsinin emosional və siyasi dəstəyini almaqdır, onu yayılması gərəkən ideologiyaya cəlb etməkdir, qüvvədə olan rejimə loyallığı doğurmaq və gücləndirməkdir. Əslində, tərəfdarları daimi səfərbər etməkdir, əks mövqedə, fərqli düşüncədə olanları tərxis etməkdir. Əslində, müxalif düşərgədə olanları vurub sıradan çıxartmaqdır, informasiya təcavüzünə müqavimət göstərə bilənləri informasiya döyüşü meydanından uzaqlaşdırmaqdır.

Xüsusilə vacib bir məqamı qeyd etmək gərəkdir, hər şeyin doğrusunu aydınlaşdırmağa cəhd edən adi insanlara qarşı istifadə edilən bu üsullar son dərəcə təcavüzkar, hədsiz həyasızlıq, ifrat kobudluqdur.

Siyasi mövzularda diskussiyalara cəlb edilən çoxlu adi insan, sərt təpkilərə məruz qaldıqdan, o cümlədən, kütləvi şəkildə vulqar

*asanlıqla işğal etdi.* İctimai şüurda gözə çarpan dəyişikliklər nəinki Rusiyada, nəinki bir çox post-sovet ölkələrində, həm də Mərkəzi və Qərbi Avropada, Şimali Amerikada və dünyanın digər bölgələrində müşahidə olunur.

Azadlığına qovuşandan bəri savaşlarla, təhdidlərlə müşaiyət olunan Azərbaycan cəmiyyətində insanlar həmişə səksəkədədirlər. İnsanların söhbətlərindən cəbhədə hər gün atılan güllələrin sayını da bilmək olur. Ancaq resursların və təcrübələrin az olduğundan, hegemon dövlətlərin inform.savaşları bizi dönədönə üstələdiyindən bizdə inform.savaş baş vermir. Sadəcə, vaxtlı-vaxtında informasiya müqaviməti, informasiya müadafiəsi müşahidə olunur.

Bu gün informasiya savaşının daha bir mühüm aparıcı elementi – onun intensiv emosional xarakterə, müntəzəm isteriya səviyyəsinə çatma xarakteridir.

Bunları **informasiya təcavüzkarları** şüurlu və qəsdən edirlər, belə ki isteriya – informasiya hücumuna məruz qalan o auditoriyada rasional düşüncə prossesini ən səmərəli yatırtma, söndürmə effektidir. Lüğətdə emosuonal yüklənmiş və ümumiyyətlə tabulaşdırılmış sözlərin kəskin artımı müşahidə olunur. O sıradan «nasistlər», «faşistlər». Belə sözlərin sivil müzakirələrdə tarixi kontekstdə yox, çağımızın hadisələrinə tətbiq edilməsi, bir qayda olaraq, qarşı tərəfin ittihamı kimi səslənir.

Müasir informasiya təcavüzünün növbəti diqqətəlayiq xüsusiyyəti – məlumatların saxtalaşdırılması səviyyəsidir. Rastlaşdığımız informasiya təcavüzü bircə məlumatın təhrif olunması ilə və real faktların təhrif olunmuş şəkildə təqdim edilməsi ilə məhdudlaşmır. İndi biz kütləvi **«alternativ reallıq»** istehsalı ilə qarşı-qarşıyayıq. Hətta Stalin dövründə tüğyan edən olayları xatırlayan insanlar təsdiq edirlər ki, indi yayılan saxtakarlığın miqyası və qəsdən törədilən yalançılıq, fırıldaqçılıq görünməmiş ölçüdədir.

Rusiya-Ukrayna qarşıdirması mərhələsində, biz, **informasiya müqaviməti təşkilatlarının** *«Putin təbliğatının Ukrayna və Rusiya-Ukrayna döyüşləri haqqında 20 yalan fakt»ı* necə ifşa

aparılması ilə müqayisədə o qədər də çox vəsait tələb etmir.

**Səkkizinci informasiya savaşının xüsusiyyətləri bəndidir.** İnformasiyanın bu cür təsirlilik əlamətlərinin dərk edilməsi sayəsində, görünür, inform.savaş belə demək mümkünsə, bir «kamil silah» kimi dəqiqləşdirilib. Bu barədə xəyalpərəstlər dəfələrlə danışıblar, yazıblar.

Bu "silah" tamam fərqli-fərqli hədəfləri darmadağın etməyə, cürbəcür nəticələr əldə etməyə qadirdir. Bu "silah"ın təsir dairəsi heç nə ilə məhdudlaşmır. (Dez)informasiya ucuzdur, genişliklə əldə ediləndir, ciddi maneələrlə qarşılaşmadan dövlət və digər sərhədləri asanlıqla aşıb keçir.

Çağımızın informasiya savaşları indiyəcən görünməmiş intensivlik səviyyəsinə çatıb. Bu, kütləvi kommunikasiya, televiziya, radio, sosial şəbəkələrin yaranmasının və inkişafının texnoloji tərəqqisi, həmçinin informasiya savaşında yararlanılan metodlarının və kompleksləşdirilmənin intensivliyi ilə izah olunur. Müqayisə üçün bəzi nümunələr gətirək. İndiki informasiya savaşının intensivlik səviyyəsi, bəlkə də, yalnız 1930-cu illərdə «xalq düşmənlərinə» qarşı, 1940-cı illərin sonunda «köksüz kosmopolitlərə»qarşı, 1950-ci illərin başlanğıcında «qatil həkimlərə" qarşı kampaniyalar ilə müqayisə edilə bilər. Hələ Stalin təbliğatının 1930-1950-ci illər kampaniyalarını unutmayan vətəndaşlar bu günkü təbliğatın o dövrlə uyğun bir təəssürat olduğunu söyləyirlər. Hər halda Sovet İttifaqının son onillikləri ərzində belə kompaniyalar müşahidə olunmurdu. Belə deyə bilərik ki, biz indi informasiya savaşları tarixinin tarixən ən böyük, ən geniş miqyaslı və ən intensiv kampaniyasının təəssüratlarını yaşayırıq.

İnform.savaşın səmərəliliyi. Rusiyada və bir sıra ölkədə topladığımız rəy sorğusunun nəticələrinə görə son vaxtlar insanların şüurunda əhəmiyyətli tərpənmə, irəliləyiş baş verib, yaxud baş verməkdədir, bu dəyişiklik yaxın keçmişdə görünmürdü və hətta, belə tez ola biləcəyi gözlənilmirdi. ***Mürgüləyən Rusiya cəmiyyətində imperiyaçılıq virusu informasiya savaşının köməyi ilə oyadıldı və rus əhalisinin mühüm bir hissəsinin şüurunu***

ilə sərhədləri və qoyulmuş həddləri tanımadan yayılmaq keyfiyyəti var. Buna görə də, inform.savaşın cinahları, arxa cəbhəsi yoxdur. İnform.savaş cəbhəsinin istənilən yerdə açılması mümkündür.

**Müasir cəmiyyətin ən məşhur xüsusiyyətlərindən biri onu «İnformasiyalı cəmiyyət» kimi müəyyən etməkdir.** Müasir cəmiyyətin bir çox üzvləri informasiya istehsalı, emalı, ötürülməsi, paylanması və istehlakı ilə məşğudur. Müasir insanı tamamilə *"homo informaticus"* adlandırmaq olar. Buna görə də, inform. savaş müasir «informasiyalı cəmiyyətin» ən ucqar guşələrinə də nüfuz edir. Hər kəs, ən azı, müəyyən savadı olan, xüsusilə hər bir ali təhsilli insan arası kəsilməyən informasiyalanma prosesinə cəlb olunub, buna görə də, nəticə etibarı ilə müxtəlif dərəcədə inform.savaşda təbii olaraq iştirak edir. Elə buna görə də, informasiya prosesinə daha çox cəlb olunmuş insan daha çox informasiya təcavüzünə məruz qalır.

Şübhəsiz, inform.savaşa qarşı hansısa əngəllər mövcuddur. Belə ilk gözəçarpacaq manea dildir, daha döğrusu dili bilməməkdir.

İnsanlar xeyli məlumatı əsasən danışdığı dilin (və ya bir neçə dilin) vasitəsiylə alır. Sözsüz ki, bu, hansı dildə danışmağından asılı olmayaraq, hər kəsə çatımlı olan vizual və ya musiqi məlumatlarına aid deyil.

Lakin, dil məhdudiyyətləri tədricən aradan qalxır. Dilin istifadəçiləri inkişaf edən təhsillə, zamanın tələb etdiyi istiqamətdə xarici dilləri öyrənirlər. Digər tərəfdən, istehsalçılar, mal göndərənlər təkcə rus dilində deyil, müxtəlif dillərdə (dez) informasiya yayırlar. Məsələn, təbliğat kanalı «Russia Today» ingilis, ispan, ərəb dillərində verilişlər yayımlayırlar, üstəlik tezliklə alman və fransız dillərində də yayımlayacaqlar.

Bundan əlavə, «(dez)informasiya briqadaları»nın yüz minlərlə döyüşçüsü sosial şəbəkələrdə dünyanın çox-çox ölkəsində yerli dillərdə fəal informasiya yayırlar. Bu cür inform.savaş böyük pullar tələb edir. Onlar ənənəvi jurnalistika ilə müqayisədə çox nəhəng işlər yapırlar, lakin bu, standart üsullarla klassik savaş

**Bu cürə, Dördüncü dünya savaşı doğrudan-doğruya klassik hərbi toqquşmalar mərhələsinə keçməzdən xeyli qabaq informasiya savaşı açıldı.** Ciddi desək, Qərbə qarşı informasiya savaşı bir neçə il öncə başlayıb, indi isə intensivliyi ilə yeni, görünməmiş, yüksək həddə çatıb.

**Altıncı bənd.** İnform.savaşın üsulları və müəyyə**nliyi hansılardır?** Burada xüsusi təbliğat dərsliyindən bir misal deyək:

*«İnformasiya savaşı insan kütləsinin şüuruna təsir edir və fərqli sivilizasiya sistemləri arasında mübarizənin bir hissəsidir. Bu savaş irəlicədən xüsusi təyinatlandırılmış informasiya vasitələrinin idarəedilməsi üsulları və informasiya silahlarının köməyi ilə informasiya məkanında keçirilir.»*

İnformasiya savaşının əsas üsulları və alətlərinin bəzilərini deyək.

✓ *sosial nəzarət, yəni cəmiyyətin geniş təbəqəsinə təsir etmə;*

✓ *sosial manipulyasiyalar, yəni müəyyən məqsədlərə nail olmaq üçün cəmiyyətə təsir etmə;*

✓ *informasiya manipulyasiyaları, yəni doğru məlumatların yanlış nəticələr çıxarılması üçün işlənməsi;*

✓ *(dez)informasiya, yəni təhrif edilmiş və ya uydurma məlumat yaymaq (və ya eyni zamanda onların hər ikisi);*

✓ *quraşdırma informasiyalar, yəni bilərəkdən saxta məlumatlar yaradılması;*

✓ *lobbiçilik;*

✓ *şantaj;*

✓ *qəsb;*

✓ *informasiya terroru.*

**Yeddinci bənd** çox əhəmiyyətli olduğuna görə xüsusi vurğuyla deməк gərəkir.

İnformasiya savaşı – doğrudan ilkin total dünya mü**haribəsidir.** Birinci və İkinci Dünya müharibəsində, elə bu cür adlanan Üçüncü Dünya (Soyuq Müharibə) savaşlarında inform.savaşın dəqiq cızılmış əməliyyatlar meydanı, ön cəbhələri, cinahları, arxa cəbhəsi var idi. Çoxlu dövlət bu savaşlara cəlb edilmişdilərsə də, döyüş dünyaya yayılmadı. Çünki informasiyanın özününəxas gücü

Bununla belə, indiki Rusiyanın nisbi informasiya açıqlığına baxmayaraq, bu ölkədə milyonlarla insanın ağır formada (dez) informasiyaya, fırıldaqçılığa yoluxduğu, gizlədilməsi mümkün olmayan yalanla zəhərləndiyi göz önündədir.

Üçüncü bənd inform.savaşının köklərinə aiddir. Bu köklərin müasir formaları sovet dövrünün dərinliklərinə gedir. SSRİ-də uzun müddət "xüsusi təbliğat"la məşğul olan əlahiddə hərbi hissələr olub. Universitetlərdə və digər təhsil müəssisələrində xüsusi təbliğat-təşviqatçılar hazırlayan kafedralar və fakültələr var idi. Bu mərkəzlərin çoxu 1990-ci illərin başlanğıcında bağlanmışdı, lakin indi bəzi dəyərlərə görə onların fəaliyyəti bərpa edilib. Hazırda Rusiyada xüsusi təbliğatçılar hazırlayan 74 təlim mərkəzi var. Orada hərbi xidmətçilərə, jurnalistlərə, müharibə müxbirlərinə, psixoloqlara, dilçilərə, filoloqlara, digər peşədən olan insanlara təlim verirlər. Onlara informasiya müharibəsinin əsaslarını və üsullarını öyrədirlər.

**Dördüncü bənddə** inform. savaşın əsaslarından biri olan, bəlkə də başlıca elementi olan hibrid müharibədən danışacağıq. Hibrid müharibə təkcə «klassik» savaşla edilmir. Hibrid müharibəyə həmçinin güllələmələr, partlatmalar, təxribatlar, korrupsiya fəaliyyəti, enerji savaşı, iqtisadi savaş, maliyyə savaşı və təbii ki informasiya savaşı daxildir.

**Beşinci bənd.** İnformasiya savaşı, belə desək, o cümlədən Dördüncü Dünya Savaşı kimi adlanan müharibənin əsas elementlərindən biridir. Kreml təbliğatçılarının terminologiyasına əsasən, Rusiya rejiminin 2014-cü ildən başladığı müharibə, sadəcə bir Rusiya-Ukrayna savaşı deyil. Rusiya-Ukrayna qarşıdurması Dördüncü Dünya Savaşının baçlanğıcı kimi təhlil edilir. 2014-cü ilin sentyabrında Rusiyanın baş nazirinə yaxın olan bir şəxs – İqor Yurgens Kiyevdə çıxışında, açıq bəyan etmişdi: «Bu Ukraynaya qarşı savaş deyil. Bu Rusiya ilə Qərb arasında qarşıdurmadır.» Başqa sözlə, Putin rejimi üçün Ukrayna – sadəcə qərblə, «Atlantik», Anqlo-Sakson sivilizasiyası ilə savaşa başladığı ərazidir. (Qərbin təhrik etdiyi Rusiya-Gürcüstan savaşının davamıdır).

orqanizminin ən plastik hissəsidir, informasiya təcavüzünün təsirlərinə daha çox məruz qalır.

Uinston Çörçillin *Fulton nitqindən* keçən az qala 50 il ərzində **Qərbdə** (təkcə Qərb yox, bəzi yerlərdə də) **bir çoxları «beyin yuyulması»nın (indokrinasiya) yalnız «qapalı» cəmiyyətlərdə mümkün olduğunu hesab edirdilər.** Yəni, düşünürdülər ki, yalnız bütün informasiya resurslarının inhisara alındığı, cəmiyyətin özü isə Berlin, ya Çin səddi kimi və buna bənzər şəkildə təcrid olunduğu, Dəmir Pərdə arxasında, insanların məlumat mənbələrini sərbəst seçmək imkanı olmadığı şəraitində informasiya blokadası mümkündür.

Məhz buna görə, azad dünyanın azad olmayan cəmiyyətlərlə bağlı strateji məqsədlərindən ən əsası bu formada olan divarları və pərdələri dağıtmaq idi. Ronald Reyqanın məşhur sözlərini xatırlayırıq: «Cənab Qorbaçov, bu divarları sökün!» Düşünülürdü ki, divarların və pərdələrin sökülməsi, məlumat almanın açıqlığı müxtəlif məlumat mənbələrinin azad rəqabətinə zəmanət verəcək, insanlara dünyada baş verən ən məqbul, adekvat, xoşlarına gələn, maraqlı olan hər şeyi sərbəst seçmə imkanı qazandıracaq, bununla da informasiya şəffaflığı təmin ediləcək.

Son 20-25 il ərzində əmin olduq ki, sən demə, real həyat bizim əvvəlki təsəvvürlərimizdən əhəmiyyətli dərəcədə fərqlənir. Ən böyük sürpriz – bunu xüsusi vurğulamaq gərəkdir – xoşagəlməz sürpriz odur ki, milyonlarla, on milyonlarla insanın effektiv şəkildə **«beyinlərinin yuyulması»** hər şəraitdə mümkündür – hər mühitdə, təcrid olunmuş və ya təcrid olunmamış cəmiyyətlərdə, onların ətrafında divarların, sərhədlərin, pərdələrin olub-olmamasından asılı olmayaraq.

Məsələn, SSRİ-dən fərqli olaraq hazırda Rusiyada informasiya məkanında heç bir məlumata inzibati nəzarət yoxdur. Şübhəsiz, televiziyaya və çaplanan medianın əksərinə rejim nəzarət edir. Lakin sosial şəbəkələrdə, ən azı bu an üçün, faktiki olaraq heç bir məhdudiyyət yoxdur. Xarici dünyayla informasiya mübadiləsində də heç bir ciddi məhdudiyyətlər yoxdur.

elə Rusiya vətəndaşlarıdır. Məhz Rusiyada, bayaqdan dedilkərimizin anlamında çox şeylər artıq qaranlıq-qarışıq reallıq halına gəlib.

Çoxunuzun artıq yaxşı bildiyiniz faktları təkrar etməyəcəm. Yalnız inform.savaşın xüsusilə əhəmiyyətli məqamlarına diqqətinizi çəlb etmək istəyirəm. Rusiyanın birinci televiziya kanalı, «Russia Today», RTR, «Rusiyanın səsi» kimi təşkilatların fəaliyyətinə baxanda biz ənənəvi jurnalistika ilə, adi media ilə rastlaşmırıq. Biz informasiya qoşunu ilə, informasiya briqadaları, diviziyaları, orduları ilə ixtisaslaşmış informasiya qüvvələri ilə üz-üzə gəlirik. Onlar Rusiya əhalisinə də, dünyanın digər ölkələrinin vətəndaşlarına da informasiya döyüşü başlayırlar, informasiya hücumları edirlər.

Birinci bənddə gəldiyimiz başlıca nəticə bizi demokratik cəmiyyətlərlərdə qəbul edilmiş informasiyanın yayılması azadlığı prinsipinə ənənəvi yanaşmaya düzəlişlər edilməsi ehtiyacına gətirib çıxarır. Bu nəticə informasiya müqaviməti vacibliyi barədə – möhkəm informasiya müdafiəsi sistemi zəruriliyi haqqındadır. Belə müdafiənin və müqavimətin olmaması çoxsaylı və ağır informasiya təcavüzü qurbanlarının olmasına, informasiya məğlubiyyətilə sonuclanır, bu da, azad cəmiyyətə kriminal avtoritarizminin təpkisi zamanı cəmiyyətin digər sahələrində də pozuculuğun yaranmasından xəbər verir.

İkinci bənddə deyəcəyimiz budur ki, informasiya təcavüzünün məqsədi ərazilərin tutulub qapsanmasından daha çox insanların, daha doğrusu, onların ağlının işğalıdır. İnsanların şüurunda, düşüncəsində, dünyagörüşündə, dünyabaxışında, onların dəyərlər sistemində **nəzarət yaradılması ilə köləliyə məhkum edilmələridir. Buna son zamanlar Ç. Aytmatovdan iqtibas olaraq manqurtlaşma da deyirlər.** Belə kölələşdirmə potensial qurbanların hansı ərazidə yaşadığından asılı olmur. İnformasiya savaşında azad düşüncəni itirməmək **üçün qoruyucu tədbirlər yaratmayınca, insanlar bütün hallarda belə basqıların qurbanı ola biləcəklər.** Məhz idrakı, duyğusu, düşüncəsi insan

yətlərin, dəyərini uca tutduğumuz cəmiyyətlərin bəzi baza prinsiplərində düzəlişlər edilməsinin gərəkliyi ortaya qoyulacaq.

İnformasiya savaşı barədə mülahizələrimizi bəndlərlə deyəcəyik, bundan sonra mümkün olan əks fəaliyyət strategiyası barədə məsləhətləşəcəyik.

**Birinci bənd** olduqca sadədir, ancaq xoşagələn deyil. Haqqında danışdığımız **inform.savaş real müharibədir.** Bununla barışmaq çətindər, amma neyləməli, bu faktdır. İnform.savaş faktiki olaraq bütün xüsusiyyətləri ilə «klassik» müharibə elementləri kimi xarakterizə olunur. İnform.savaş hər şeydən öncə (dez)informasiya silahlarından yararlanaraq, informasiya təcavüzü, məlumatlar döyüşü, informasiya cəbhəsi ilə xarakterizə olunur.

Məsələyə aydınlıq gətirmək üşün belə deyək:

*informasiya həmləsinə qarşı informasiya müdafiəsi,*
*informasiya hücumlarına qarşı informasiya müqaviməti,*
*informasiya basqısına qarşı informasiya mühafizəsi,*
*informasiya düşmənləri və informasiya müttəfiqləri,*
*informasiya qələbələri və informasiya məğlubiyyəti,*
*informasiya ordusu ( diviziyalar, briqadalar, ordu, və s. ) və informasiya savaşının qurbanları,*
*informasiya terroru, informasiya agentləri, informasiya təxribatçıları, xüsusi informasiya əməliyyatları, opponentlər və məlumatların məhvi,*
*hətta inform.savaş və informasiya xüsusi təyinatlıları,*
*informasiya blokadası və informasiya savaşı meydanı kimi anlayışları var.*

Sadaladıqlarımın çoxu heç də yeni termin deyil. Onların bir çoxu son vaxtlar xüsusilə zənginləşən inform.savaş haqqında ədəbiyyatdan götürülüb. Rusiyada və bir sıra digər ölkələrdə infor.savaşlar və onun reallaşdırılması üsullarını araşdıran xeyli müəllif var. Rahat danışaq deyə həssas oxucularımıza yalnız Rusiyada vaş verənləri misal gətirəcəm.

Son zamanlar ən təhlükəli inform.savaşı Rusiyanın indiki rejimi başlayıb və davam etdirir. İnformasiya təcavüzünün ilk qurbanı da

olduğundan Qarabağ sindromunun bu qədər asanlıqla baş tutması və həllinin çətinləşdirilməsi düşmənin məhz informasiya savaşında qələbəsinin nəticəsidir. Bu gün Ermənistanda əleyhimizə yönəlik giber-informasiya savaşı o səviyyədə inkişaf edib, demək olar dünyanın əksər dövlətləri erməniləri tanıyır və onların "əzabkeş, başı bəlalar görmüş" halına acıyırlar. Bir tərəfdən Qafqazda kütləvi qırğınlar törədən düşmən o biri tərəfdən "inform.savaşla" özünə yetərincə haqq qazandıra bilir.

Qarşı durmaq üçün əks-strategiyanın planlanması üçün cəhdlərimiz çox azdır. Ümumiyyətlə bu sahənin mütəxəssislərinin hazırlanması da indiyəcən qarşıya qoyulan məqsəd olmayıb. Yalnız erməni şantajlarının dalıyca yürümüşük. Hələ indiyəcən hücum, yaxud ciddi qarşıdurma xarakterli bu və buna bənzər bir neçə məqalədən özgə əlimizdə material yoxdur.

Ermənistanda isə ölkəmizdə çap olunan bütün mətbuat, TV-lər, bütün saytlar, bütün sosial şəbəkələr izlənilir, həftəlik yekun hesabatlar hazırlanır, xalqın sosial-psixoloji vəziyyəti, hökumətin siyasi durumu dəyərləndirilir və nəinki qarşılayıcı tədbirlər görülür, hətta hücum, təpki, basqı, şantaj, terror variantları dəqiqləşdirilir, planlanır və gerçəkləşdirilir.

Bu məruzəni yazmaq üçün Rusiyalı ictimai-siyasi xadim Andrey İllarionovun 18 sentyabr 2014-cü ildə Tallinn şəhərində XIX Açıq Cəmiyyət Forumundakı çıxışından bəhrələnmişəm. Məqsədim bu mövzu ətrafında beyin mərkəzi yaratmaqdır. Mövzunu oxuduqca bu işin vacibliyinə əmin olacaqsınız.

Qarşımızda inanılmaz dərəcədə mürəkkəb olan məsələ durub. Lütfən mənim mülahizələrimi problemin həllinə cavab kimi qəbul etməyin. Bu mövzu birgə intellektual disskusiya istəyir. Ola bilsin qeyri-standart, daha optimal cavablar məsələnin həllinə açar ola bilər. O cavablara hamımız hazır olmalıyıq.

Deyəcəyim bəzi düşüncələr bəzilərinizə, ola bilsin, pessimist görünsün. Ancaq ümid edirəm, dediklərimiz daha ciddi təkliflər və müzakirələr üçün yardımçı olacaq, liberal, demokratik cəmiy-

# İnformasiya savaşları və mümkün əks-strategiyalar

Baş alıb gedən informasiya ((dez)informasiya) savaşı çağımızın azad cəmiyyət prinsiplərinə qarşı çox təhlükəli problemlərindən biridir və bizdən bu mövzuda ciddi düşünmək tələb edir. Bu savaş yaxın müddətdə daha şiddətlə özünü göstərməyə başlayıb, indi isə görünməmiş qızğınlıq həddində aparılır.

Bu söhbətimizdə bizim kimi məhdud resursları olan, nisbətən kiçik dövlətin informasiya təcavüzünə hansı üsullarla qarşı dura bilməsi, müqavimət göstərə bilməsi barədə danışacayıq. Olduqca təhlükəli informasiya təcavüzü məkanında belə dövlətin mənafeinin daşıyıcıları necə olmalıdırlar, bu gedişlərdə vətəndaş məsuliyyəti bizə nələri diktə edir və etməlidir, ümumiyyətlə necə hərəkət etməyimiz mümkündür? Azad, təhlükəsiz informasiya məkanını qorumaq üçün hansı alətlər, vasitələr mövcuddur?

İnformasiya savaşının prinsipləri lap qədimlərdən mövcuddur. Fatehlərin atlarının nalları təcavüzə məruz qalan ölkənin var-dövlətini tapdalayıb keçməzdən öncə o bədbəxt ölkənin torpaqlarına "informasiya yayıcıları" ayaq basırdılar, gələn ordunun oxbatmaz, qılınckəsməz, məğlubedilməz əzəmətindən dəm vururdular, əhalidə isterika, vahimə yaradırdılar, yerli hakimiyyətə etimadsızlıq, inamsızlıq formalaşdırırdılar. Demək olar, gələn qoşunun edəcəyini xeyli asanlaşdıran mühit sahmanlayırdılar.

Ölkəmizin son 200-250 illik tarixində yerli durumdan güclü düşmənə ötürülən informasiya və (dez)informasiya sürəkliyi bu torpaqda yaşayanların rahat yaşamasına dinclik verməyib. Qısaca deyək, Azərbaycanın işğal olunmasından bəri ermənilərin və başqa etnosların barəmizdə ötürdüyü informasiyalar o qədər çox və dəqiq olub ki, bunları heç özümüz də axıracan dərk edə bilməmişik.

SSRİ dövründə, o dövlətin yıxılması ərəfəsində hadisələri dəqiq analiz edib düzgün nəticələrə gəlməkdə də xeyli gecikmələrimiz

süz, insan azadlığından və əsas hüquqlardan ibarət deyil, azad cəmiyyətdə bu hüquqlar hamıya bərabər səviyyədə təminat verir. Fərq, psixoloji və psixo-fiziki imkanları bərabər olmayan ayrı-ayrı insanların informasiya hücumlarına, (dez)informasiyalara, fırıldaqçılığa müqavimət qabiliyyətlərindən ibarətdir. Eynilə, müxtəlif insanların məişət zorakılığına müqavimətdə müxtəlif fiziki gücə malik olduqları kimi.

İnformasiya hücumlarına yetərincə səmərəli müqavimət sərgiləyə bilən insanlar var. Söz yox ki, bu fenomen daha ciddi araşdırma tələb edir, lakin Azərbaycanın timsalında deyə bilərik ki, Ölkə əhalisinin təxminən 15%-i informasiya təcavüzünə daha az və ya sabit şəkildə qarşı durma qabiliyyətinə malikdir. Əksər vətəndaş bu savaşa yaramır. Sosial şəbəkələrdə ağına-bozuna baxmadan yazılanlar ölkənin, hökumətin, cəmiyyətin düşüncələrini oyun kartı kimi açır. İntellektual fazada formalaşan, ucuz özünügöstərmələrdən, yersiz, bayağı keçid paylaşmalarından arınmış sosial şəbəkəyə rast gəlinmir. Alimlərin yaratdıqları sosial qruplara qatılan gərəksizlər gerçək intellektualların tezliklə o qrupu tərk etməyə məcbur edir. Bir sözlə azərbaycan vətəndaşı internet şəbəkələrdə işləmək üçün yetərincə savadsızdır. İnformasiya savaşında demək olar ki əlləri ba başı boşdur.

Belə halda yeni məsələ ortaya çıxır. Yaxşı, tutaq ki, insanların 15%-i özünü qoruya bilir, **bəs yalan və saxtakarlığa qarşı dura bilməyən, asanlıqla (dez)informa-siya hücumlarının qurbanı olan insanlarla nə etməli, yaxud onlar üçün nələri etmək gərəkdir? Onlar müdafiə etmək gərəkdirmi? Ya gərək deyil? Ya müdafiə etsək, onda necə?**

Bəzi vətəndaşlarının seçdiyi, ən sadə və geniş yaylmış müdafiə üsullardan biri – (dez)informasiya mənbələri ilə əlaqələrini maksimum məhdudlaşdırmalarıdır. Xeyli vətəndaş ölkə TV-lərini izləyə bilmədiklərini və heç baxmadıqlarını deyirlər: *«Xeyr, televiziyalara baxmıram.»* Bu, informasiya təcavüzündən alınan zərəri minimuma qədər azaltmaq üçün bir xeyli vətəndaşın şüurlu seçimidir. Bu, infeksiya mənbəyinə hələ yoluxmamış insanın təbii reaksiyasıdır, belə bir sahəyə girişməyə maksimum məhdudiyyət

qoymasıdır. Başqa sözlə, kollektiv və ya fərdi karantinin bir növ təşkilidir. Öxşar yanaşma ənənəvi halda, ən təhlükəli infeksiyaların - taun, vəba və ya zəhərli, ya radioaktiv maddələrlə əlaqə təhlükəsi hallarında istifadə edilir. Doğrusuna baxılsa, inform.savaş xarakterinə görə epidemiyadan və ya bakterioloji müharibədən çox az fərqlənir. Yeganə fərq ondadır ki, bakteriya və viruslar insanın orqanizmini zəhərləyir. (dez)informasiya isə insanın ictimai şüurunu, düşüncəsini, idrakını, ictimai duyğusunu, anlayışını zəhərləyir – o şeyləri ki, insanı insan edir.

*(Dez)informasiyaya qarşı dura bilmə təcrübəsi və biliyi olanlar informasiya basqılarını, inform.savaş məhsullarını analiz edə bilər və etməlidir; onların görüntüyə gəlməsinə göz yetirməli, görünən kimi məhv etməlidir; (dez)informasiya ları ifşa etmək üçün öz materiallarını yaratmalıdır.* Bəs öz gücünə müqavimət göstərə bilməyənləri (dez)informasiyalardan, informasiya təcavüzünün güdazına getməkdən necə qorumaq?

**5. Əks-(dez)informasiya (sanitar-epidemioloji) tədbirləri və əks-(dez)informasiya xidməti gərəkdir.** Keçən ilin mart ayında anti-Ukrayna təbliğatına, (dez)informasiyaya, yəni informasiya təcavüzünə qarşı mübarizə aparmaq üçün Ukrayna hakimiyyətinə bir mərkəz yaratmaq tövsiyə edildi. Ukrayna hakimiyyəti bunu rədd etdi. Amma bununla Ukrayna vətəndaş cəmiyyətinin nümayəndələri, daha dəqiq desək, Kreml təbliğatının analizi ilə məşğul olan və Rusiyanın anti-Ukrayna (dez)informasiyalarını ifşa edən Информационное сопротивление, Inforesist, StopFake, özəl təşkilatları məşğul oldular. Bu təşkilatlar Ukraynaya qarşı yüzlərlə informasiya təxribatı hallarını müəyyən edib doğru ilə tutuşdurdular və bu informasiya təxribatlarının necə təşkil olunduğunu nümayiş etdirdilər. Buna baxmayaraq, qlobal informasiya müharibəsi resurslarının kontekstində yalnız özəl təşəbbüs axıra qədər yetənəkli olmur.

6. Ən əhəmiyyətli bir məsələni xatırlamaq gərəkdir «informasiya döyüşünün idarə edilməsi qaydaları.» Ən **mühüm şey – informasiya məkanını informasiya təcavüzkarlarına, informasiya terrorçularına vermək olmaz.**

7. Nəhayət, ən sonuncu. Rusiya, Ukrayna və digər ölkələrin vətəndaşlarına qarşı aparılan informasiya savaşında strateji qələbəni necə, hansı üsullarla qazanmaq mümkün ola bilər?

Məsələnin ən ciddi tərəfi dövlət və dövlətçilik əleyhinə yönəlmiş informasiya təcavüzüdür. Sərhədlərin o tayından gələn bu savaşa qarşı durma vətəndaşdan hər şeydən öncə belə təcavüzün nə demək olmasını anlaması və adekvat cavab verməyi bacarmasıdır. Ölkəmizdə bu sahədə tədrisin – təbliğın – təlimin qorxulu səviyyədə aşağı olması qarşı gələn uğursuzluqlarımızdan bizi sığortalamır. Yəni sosial sferada bu fəaliyyət sahəsi demək olar ki boşdur. Bəs, vətəndaş olaraq nə etməli?

Bunun üçün böyük-böyük işləri gerçəkləşdirmək tələb olunur. Lakin informasiya təcavüzü və informasiya işğalçısı üzərində son qələbə yalnız təcavüzkar ölkələrdə azad və demokratik bir dövlət qurulandan sonra olacaq. Ona isə hələ çox qalıb.

*http://aillarionov.livejournal.com/735489.html*
*http://aillarionov.livejournal.com/735134.html*
*http://www.youtube.com/watch?v=MdhvrHEzld4&feature=youtu.be*

*Rusiya təbliğata ayırdığı dövlət xərclərinə görə dünyada birinci yeri tutur.* Hökumət mənafelərini təbliğ edən kütləvi informasiya vasitələrinə dövlət büdcəsindən ayrılan məbləğ 2012-ci ildə 48.65 milyard rubla (1.6 milliyard dollara) çatıb. *Lakin bu rekord xərclər 2014-cü ildə bir neçə dəfə çoxaldılmışdır.*

*Rusiyanın dövlət büdcədən ağılasığmaz miqdarda pul alan KİV-lərin sırasında:* ВГТРК (19,1 *milyard rubl), Russia Today (11 milyard rubl), Голос России (4,4 milyard rubl), Российская газета (3,95 milyard rubl), РИА Новости (2,9 milyard rubl), 1 Канал, НТВ, ТК «Петер*бург» (5 *milyard rubl).*

*Dövlət büdcəsindən çoxlu pul alan 2-ci dövlət sayı Rusiyanın əhalisindən 10 dəfə çox olan Çin Respublikasıdır. Fərqə baxın.*

*Putinin zamanında Rusiya təbliğata ABŞ-dan 2 dəfə çox xərləyib. Barak Obamanın idarəçilik aparatı bu məqsədlə 2012-ci ildə 752 milyard, 2013-cü ildə 756 milyard, 2014-cü ildə isə 731 milyard dollar xərləyib. Diqqət çəkən odur ki, 2000-ci ildən üzü*

*bəri Amerikanın xarici təbliğata xərclər büdcəsi 500 milyonu keçmirdi.*

Əlavı bilgiləri oxumaq istəsəniz internetdən bu başlıqlı yazını ara*yın:* <u>Россия – родина слонов. Результаты России в чемпионате мира по эффективности президентов и правительств.</u>



# Güc qurumlarına vətəndaş nəzarətinin formalaşmasında KİV-in rolu

Ədalət güclü olmalıdır!

**Gücsüz ədalət, ədalətsiz güc kimi anormaldır. Hər bir vətəndaş cəmiyyətinin gücü də onun ədalətliliyində, qanunlarla idarə olunmasında və qanunların aliliyindədir.**

*"İnsanın xoşbəxtliyi üçün nə gərəkdir"*– sualına qədim filosoflardan biri *«Ədalətli cəmiyyətdə doğulması kifayətdir»*– cavabını vermişdir.

Hər hansı bir vətəndaş cəmiyyətinin ədalətliliyi də o cəmiyyətə vətəndaşların nəzarət edə bilib-bilməməsindən irəli gəlir. Bu hüquq dövlətlərin Konstitusiyalarında öz əksini tapır.

Məsələn, Azərbaycan Respublikasının Ali Qanunu olan Konstitusiyanın 54-cü maddəsində göstərilir ki, ***ölkə vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ var.***

Məhz bu hüquq cəmiyyətə və dövlətə Vətəndaş nəzarətinin əsaslarını yaradır. *Vətəndaş nəzarətinin olmadığı, bu nəzarətin həyata keçirilməsinə maneçilik törətdiyi hər hansı bir dövlət demokratik, hüquqi, dünyəvi sayıla bilməz.*

**Güc qurumları dövlətin ən əsas institutlarından biri sayılır. Bu qurumlar təşkil edilmədən dövlətin normal fəaliyyətini qurmaq mümkün olmadığı kimi bu qurumların özünə də vətəndaş nəzarəti həyata keçirilmədən normal cəmiyyət haqqında düşünmək mümkün deyil.**

Belə bir nəzarətin həyata keçirilməsində isə dördüncü hakimiyyət sayılan medianın rolu əvəzolunmazdır. Ona görə, bu qurumların üzərində Vətəndaş nəzarətini bütövlükdə formalaşdırmaq funksiyası da məhz medianın üzərinə düşür.

Azərbaycan Respublikasının Konstitusiyasının 47-ci maddəsinə görə ***hər kəsin fikir və söz azadlığı var.*** Kütləvi informasiya azadlığı («KİV» haqqında qanun, maddə 1) isə ***vətəndaşların***

***qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır.*** Bu təminat olmadan fikir, söz, informasiya azadlığından söz açmaq mümkün deyil. Çünki belə halda nəinki güc qurumlarına, hətta bu qurumları formalaşdıran dövlətin özünə də nəzarət etmək mümkünsüz olur. Bu isə cəmiyyətin demokratiya ideallarına sadiq qalmasına deyil, əksinə diktaturaya üz tutmasına şərait yaradır.

Güc qurumları üzərində Vətəndaş nəzarətini Media apardığı jurnalist araşdırmaları ilə formalaşdırır. Yəni Media vətəndaşların öz cəmiyyətləri barədə nələri bilməli olduqlarını, nələrin isə onlardan kimlərin və nə üçün gizlətdiyini apardığı araşdırmalar nəticəsində açıb ortaya qoya bilir.

Burada media bir sıra maneçiliklərlə də üz-üzə qalır. Belə maneçilikləri bir neçə qrupa bölmək olar:

- *birinci, jurnalist araşdırması aparan medianın araşdırma apardığı mövzunun və sahənin dərk edilib-edilməməsindən irəli gələn maneçilikdir;*
- *ikincisi, araşdırma aparan mediaya qarşı yönəlmiş inzibati maneçiliklərdir;*
- üçüncü, barəsində araşdırılma aparılan şəxslərin göstərdiyi müqavimətlər daxildir;
- *dördüncü qrup maneçiliklər qanunvericilik bazasında öz əksini tapıb;*
- *nəhayət, beşinci qrup naneçilikləri bir-biri ilə rəqabət aparan media təmsilçiləri özləri özlərinə qarşı yaradırlar.*

Adından göründüyü kimi güc qurumları üzərində vətəndaş nəzarətini həyata keçirmək o qədər də asan məsələ deyil. Çünki bir tərəfdə güc dayanıbsa, o biri tərəfdə də hər cəhətdən azad və sərbəst, eyni zamanda güclü olan media dayanmalıdır.

Digər tərəfdən araşdırma aparan media və yaxud jurnalist onun qarşısında dura biləcək gələcək maneələri lap başlanğıcdan anlamalı, bilməli və bu maneçiliklərdən yaxa qurtarmağın yollarını dərk etməlidir.

Ona görə də əvvəlcə dərketmə çətinliklərindən söhbət açmaq yerinə düşər. Ümumiyyətlə götürdükdə, *jurnalist tərəfindən aparılan hər hansı bir araşdırma, baxmayaraq bu nə barədə araşdırmadır, hansı mövzuya toxunur, hansı üsullarla aparılır, hansı mənbələrdən informasiya əldə olunur – bütünlükdə bu proses bir dərketmə fəaliyyətidir.*

İlkin olaraq yenicə fəaliyyətə başlayan jurnalistlərin araşdırma aparmaq istəyi qeyd olunmalıdır. *Belə halda jurnalist elə bir situasiyaya düşə bilər ki, o ümumi halda hansısa həqiqət barədə cəmiyyətin maraqlı olmasını anlayar, lakin bu haqda dəqiq informasiyaya malik olmaya bilər. Həmçinin araşdırma aparmaq istəyən jurnalist məlumat əldə edə bilər ki, hansısa güc qurumu mənsubu cəmiyyətdən nəyi isə gizlədir, ancaq onun məlumatı o qədər dağınıq ola bilər ki, bu məlumat əsasında araşdırmanın konkret predmetini müəyyən etmək mümkün olmaz.* Bəs nə etməli? Belə halda məntiqi cəhətdən ilkin informasiya *müəyyən* edilməli, onun köməkliyi ilə araşdırmanın sonrakı istiqaməti tapılmalıdır.

*Araşdırma predmetinin mürəkkəbliyi də jurnalistin dəf etməli olduğu maneələrdən biridir.* Adam oğurluğu, reketçilik ilə əlaqədar aparılan araşdırmalarla ölkədən qeyri-qanuni valyuta axını barədə aparılan araşdırmanı eyniləşdirmək olmaz. İlk iki halda araşdırmanın predmeti müəyyən həddə sadə görünsə də, üçüncü halda araşdırma predmeti bir o qədər mürəkkəbdir.

Belə ki, adam oğurluğu faktları ilə əlaqədar araşdırma aparan jurnalist istintaq və məhkəmə araşdırmasının materiallarını əldə edə, onlara əsasən mülahizələr yürüdə bilər. Hətta güc qurumu mənsubu olan polisin özünün bu adam oğurluqlarında əlinin olub-olmamasını da müəyyənləşdirər. Lakin ölkədən qeyri-qanuni valyuta axını ilə əlaqədar iştirakçı şəxslərin dairəsinə düşmək, valyuta axını kanalının təşkilatçılarını müəyyən etmək çox çətindir.

Jurnalist araşdırmalarının bir çox növləri mövcuddur.

Bunların demək olar hamısı çox böyük informasiya kütləsini öyrənməkdən keçir. Oxumaqdan yox, məhz öyrənməkdən.

Böyük həcmdə informasiya kütləsi isə əldə olunmuş sənədlər toplusundan meydana çıxır. Belə sənədlər də hamının bildiyi kimi heç də küçələrdə tökülüb qalmıyıb. ***Bəzən isə bu sənədləri lap «pul ödəyib» əldə etmək gərəkdir.*** (Buna isə heç də bütün jurnalistlərin və ya media qurumlarının gücü çatmır). Bizim mətbuat pul verib informasiya almaqdan daha çox pul alıb yarımçıq, heç kimə gərək olmayan «araşdırma» aparmağa daha çox öyrənib.

Digər tərəfdən hər bir araşdırmanın uğuru jurnalistin araşdırma metodlarını hansı səviyyədə bilməsi ilə qırılmaz surətdə bağlıdır. Bu, informasıyanın axtarılması, tapılması və onun üzərində işlənilməsinə də aiddir.

Əgər jurnalist hansısa haylı-küylü cinayət işinin araşdırmasını aparırsa, onun əlində cəmiyyətdən giz***lədilmiş istintaq ifadələri və sair kimi təkzibedilməz faktlar olmalıdır.*** Məsələn, Ziya Bünyadovun qətli ilə əlaqədar bu gün cəmiyyətdə heç də birmənalı mövqe yoxdur. Cəmiyyətin əksər hissəsi bu cinayətin tam, hərtərəfli və obyektiv istintaq edilmədiyi fikrindədir.

Söhbət açdığımız məsələdə zəif araşdırma metodları ilə nəyə isə nail olmaq mümkün deyil. Bunun üçün jurnalistdən xüsusi sahəvi hazırlıq və bilik tələb olunur. Belə xüsusi hazırlıq və bilik araşdırmanın predmeti ilə qırılmaz tellərlə bağlıdır. Bütün bunlara isə güclü məntiq də əlavə olunmalıdır.

***Araşdırma aparan jurnalist həmsöhbətini, ona informasiya verən mənbəni inandırmağı bacarmalıdır. Bu şəxs və ya mənbə güc qurumlarında olduqda inandırma, mənbəni özününkü etmə, onun ürəyinə yol tapma*** heç də asan olmur. Axı güc qurumlarındakı mənbələr danışmaqdan daha şox susmağa üstünlük verirlər. ***Jurnalist araşdırıcının məharəti isə onları danışdırmağı bacarmaqdadır.***

Güc qurumları üzərində vətəndaş nəzarətini formalaşdıran araşdırıcı jurnalistikanın ən böyük çətinlik aspektləri onların birbiri ilə əlaqələrində meydana çıxır.

Bu da birmənalı aksiomadır ki, nə hakimiyyət, nə də onun güc qurumları hər şeyi bilmək istəyən jurnalistikanı sevmir və sevə də

bilməzlər. Ona görə də güc qurumları ilə əlaqədar araşdırma aparan jurnalistika tez-tez böyüklü-kiçikli qalmaqallarla üzləşməli olur.

Bu, heç də təzə söz olmaz desəm ki, hər bir cəmiyyətdə hakimiyyət funksiyalarını, o cümlədən güc qurumlarına rəhbərliyi insanlar həyata keçirirlər. Hansılar ki, hamı kimi adı insana məxsus yaxşı və pis xüsusiyyətlərin heç birindən tamamilə sığorta olunmayıblar.

Belə halda jurnalistlərin onların vəzifə səlahiyyətlərini aşması, korrupsiya ilə məşğul olması, vəzifə səlahiyyətlərindən şəxsi məqsədləri üçün istifadə etməsi barədə apardığı araşdırmalar necə xoşa gələ və sakit qarşılana bilər?

***Misal üçün deyək ki, jurnalist araşdırma apararaq üzə çıxarır ki, ölkənin Milli Təhlükəsizlik Naziri və ya daxili işlər naziri cinayətkar aləmə «stavka» edir. Yaxud orduda korrupsiya elementləri var və bunlardan müdafiə naziri xəbərdardır. Təbii ki, bundan sonra belə halları meydana çıxaran jurnalistlərlə güc qurumları arasında çox tarıma çəkilmiş münasibətlər yaranır.*** **Hər bir halda isə udan cəmiyyət olur.** Çünki cəmiyyət onun dövlətinin güc qurumlarının güclərini nəyə «xərclədiyini» bilməlidir. Cinayətkarlığa qarşı mübarizəyəmi?

İstənilən ölkədə ordunun gücündən vətəndaşlara qarşı istifadə halları da az deyil. Bəs bu düzdürmü? Bu gücün tətbiq olunmasına əsaslar var idimi? Bütün bunları araşdıran jurnalistlə münasibətlər heç də dost münasibətlər ola bilməz. Belə araşdırma aparan media dərhal bu qurumların və hakimiyyətin inzibati və sair diqqət mərkəzinə düşə bilər.

Bu isə aşağıdakı tədbirlərdən birinə əl atılması ilə nəticələnə bilər:

*1. İnformasiya almaq, əldə etmək, toplamaq hüququndan məhrum etməklə;*

*2. Məhkəmə təqibləri ilə;*

*3. İqtisadi təzyiqlərlə;*

*4. İnzibati asılılıq yaratmaqla.*

Birinci halda daha çox «Dövlət sirri» haqqında qanuna istinad

edilə bilər. Baxmayaraq ki, istinad edilən bu qanunda nəyin dövlət sirri olması açıq-aşkar sadalanıb və göstərilib.

İkinci halda sözə baxmayan, cəmiyyətdən gizlədilmiş müəyyən mətləbləri çatdırmaq istəyən media təqibə məruz qalar məhkəməyə çəkilər, fantastik cərimə məbləğləri ilə «mükafatlandırıla bilər». «Yeni Müsavat», «Təzadlar», «Avropa» və sair qəzetlərlə əlaqədar məhkəmə proseslərini yada salaq.

Üçüncü hal monopoliya nəticəsində qəzet kağızının bahalaşması, vergilərin artırılması ilə bağlı ola bilər.

Nəhayət, dördüncü hal kirayə, təsisçilik və sairlə əlaqədar ola bilər.

Araşdırma ilə məşğul olmağı qərarlaşdırmış hər bir jurnalist ilk andan fəaliyyətini araşdırdığı şəxsin əks addımlar atacağını unutmamalıdır. Bu əks addımın nədən ibarət olacağını qabaqcadan söyləmək çətindir.

Yada Napaleonun *«Mən üç qəzetdən qorxduğum kimi heç min süngüdən də qorxmuram»* sözləri düşür. Axı **qorxu həmişə əks reaksiyanın əsasını təşkil edir.**

Əks addımlar, əks reaksiyalar isə müxtəlif ola bilər. Bu, jurnalist-araşdırıcının hansı güc mənbəyi ilə üz-üzə gəlməsindən asılıdır. Bir halda bu, hazırlanmış araşdırma materialının çapına maneçilikdirsə, digər halda jurnalist-araşdırıcının qorxudulması, şantaj edilməsi və ya döyülməsidir.

Azərbaycanımızda araşdırma aparan jurnalistin öldürülməsi faktı azdırsa da var. Araşdırmaçı jurnalist, "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovu mənzilinin qapısında güllə ilə, sərbəst yazar, publisist Rafiq Tağını küçədəcə bıcaqlamaqla öldürüblər. Ancaq ölümlə hədələnmə halları istənilən qədərdir. Son illər ərzində nə qədər jurnalist həmkarımızı (qadın və kişi olmasından asılı olmayaraq) naməlum şəxslər hədələmiş, döymüş, söymüş, təhqir etmişdir. Amma cinayətkarlar yaxalanmamışlar.

Qonşu və yaxın xarıc sayılan ölkələrdə də jurnalistlərin qətlə yetirilməsi faktları çoxdur. Məsələn, «Moskovskiy Komsomoletc» qəzetinin müxbiri Dmitri Xolodovun, Ukraynada Qonqadzenin, Gürcüstanda «Rustavi-2» televiziyası əməkdaşı

Georqiy Sanayanın öldürülməsi. Ümumiyyətlə son iyirmi ildə belə situasiyada 800-dən çox jurnalist öldürülüb.

Qanunvericilik bazasında da medianın güc qurumları üzərində vətəndaş nəzarətinin formalaşdırılması sahəsindəki fəaliyyətinə maneələr var. Belə maneələrə hüquqi maneələr də demək olar. Məsələn, Azərbaycan Respublikasının «KİV» haqqında qanunun **«Gizli lent yazıları» adlanan 10-1 maddəsində deyilir: «...Gizli audio və video yazılardan, kino və foto çəkilişdən istifadə etməyə və ya hazırlanmış məlumat və materialları yaymağa yalnız aşağıdakı hallarda yol verilir:**

✓ *şəxsin və vətəndaşın bu barədə yazılı razılığı varsa, habelə kənar şəxsin Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş hüquq və azadlıqların qorunması üçün zəruri tədbirlər görülmüşdürsə;*

✓ *məhkəmənin qərarı ilə nümayiş etdirilirsə.*

"Bu maddənin tələblərini pozaraq gizli audio-video yazılardan, kino-foto çəkilişdən istifadə olunması və onun yayılması Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun şəkildə məsuliyyətə səbəb olur...»

İndi gəlin görək güc qurumunun hansı rəhbər vəzifəli şəxsi və ya əməkdaşı hansısa qanunsuzluq barədə yazılış aparmağa razılıq verər. Özü də şifahi yox, yalnız yazılı razılıq. Absurddur, elə deyilmi? Və bu qadağa cəmiyyətin, onun vətəndaşlarının xeyrinə yox, əksinə əleyhinədir. Ən əsas da bu hal medianın güc qurumlarına vətəndaş nəzarətini həyata keçirmək sahəsindəki fəaliyyətini demək olar, tam zəiflədir.

Rəqabət aparan mediaların bir-birinə qarşı mübarizəsi də jurnalist araşdırmalarının keyfiyyətini xeyli aşağı salır, cəmiyyətdə anlaşılmazlıq yaradır. Məsələn, hər hansı bir qəzet və ya bir neçə qəzet araşdırma apararaq DİN-də, Baş Prokurorluqda, Müdafiə Nazirliyində xeyli qanuna zidd faktlar, korrupsiyaya və sairə aid sənədlər üzə çıxarır. Dərhal bir neçə digər qəzet həmin araşdırmaların həqiqət olmadığı barədə materiallar dərc etməyə başlayır və həmkarlarına qarşı çıxırlar.

Əlbəttə, bütün bunlar cəmiyyətdə medianın üzərinə düşən əsas funksiyanın həyata keçirilməsinə mane olur.

Media sosial, vətəndaş nəzarətini gerçəkləşdirən mərkəzdən uzaqlaşıb, «hakimiyyətdən» kiminsə alətinə çevrilir. Alət olmuş media isə heç vaxt cəmiyyətdə vətəndaş nəzarətinin həyata keçirilməsini formalaşdıra bilməz.

Bu da jurnalistikanın, medianın çox təhlükəli bir korroziyaya uğramasına səbəb olur. Çalışıb bu korroziyadan qaçmaq, ondan uzaq olmaq, şəxslərə yox, bütövlükdə cəmiyyətə, dövlətçiliyə xidmət etmək gərəkdir.

Mafıyanın Vətəni sayılan Siciliyanın yerləşdiyi İtaliyanın qəzet krallarından biri görün nə deyib: *«...Qulaq asın həmkarlarım. Mətbuat nə Bibliyadır, nə də Quran. Və ondan həyatın bütün sahələrinə dair suallara hazır, müdrik məsləhətlər, həmçinin əxlaqı cəhətdən nöqsansız cavablar tələb etmək düzgün deyil. Yaxşısı budur ki, qoy mətbuat müxtəlif formada informasiya versin. Oxucular isə bu məlumatları tutuşdursun, özü həqiqi nəticəyə gəlsin...».*



# Ekstremal şəraitdə jurnalist etikası Fərqli situasiyalarda davranış

«Kütləvi İnformasiya Vasitələri hakimiyyətə malikdirlər:

✓ *təsir göstərmək hakimiyyətinə,*

✓ *tənqid etmək hakimiyyətinə,*

✓ *gündəliyi təyin etmək hakimiyyətinə.*

Kütləvi İnformasiya Vasitələrinə

✓ *qısamüddətli perspektivdə müzakirə mövzuları və xəbərlər üzərində hakimiyyət,*

✓ *uzunmüddətli perspektivdə isə cəmiyyətdə vacib hesab edilən şeylər üzərində, meylin inkişafı üzərində hakimiyyət məxsusdur.*

**Hakimiyyət ictimaiyyətşünaslığın elmi axtarışının predmetidir, çoxsaylı və heç də mübahisəsiz olmayan fikirlər anlayışıdır.»**

Məhz bu səbəbdən jurnalist, ilk növbədə özünün etik kodeksini qabaqcadan formalaşdırmalıdır, çünki gündəlik təcrübədə ***«oyun qaydaları»*** haqqında düşünmək ən azı vaxt çatışmazlığı baxımından mümkünsüzdür. Materialın bilavasitə çapa hazırlandığı vaxt ümumi işi ləngitməmək, sənə ayrılan sahəni doldurmaq fikri digərlərini, o cümlədən yazılan sözlərin məsuliyyətinin dərk edilməsini arxa plana ata bilər və bu da başadüşüləndir. Ona görə də oxucu qarşısında etik məsuliyyət və şəxsi «oyun qaydaları» öncədən dəqiq müəyyənləşdirilməlidir. Təbii, o bunlara əməl edərək günbəgün, real həyatla toqquşmalıdır. Qəhrəmanlıqda da kompromisə yer var, amma kompromisin də hüdudu var.

Azərbaycanla Qərb ölkələrini müqayisə etməyi çox sevirik. Bu ölkələrin bizi qabaqlamasının səbəblərindən biri də odur ki, onlarda dəqiq çərçivələnmiş şəxsi və ictimai münasibətlər var. Bunlar da bir qayda olaraq kəsişmir, yəni bir-birinə mane olmur.

**Vətəndaş cəmiyyətinin özü seçim azadlığı, insanların bir-birinə hörməti və qarşılıqlı anlamı, mətbuatda «oyun qayda-**

**ları»na əməl edilməsi, şəxsi və işgüzar münasibətlərin bir-birinə qarışmaması deyilmi?**

**«Səthi və populist jurnalistika"ya** qarşı etiraz reportyorlar arasında artmaqdadır. ABŞ-da bu etiraz **public journalism**, yəni ictimai jurnalistika adını daşıyan cərəyanın yaranmasına səbəb olub. Bu cərəyana qoşulan jurnalistlər qarşılarına belə bir vəzifə qoyublar: "**ölkənin vətəndaşları ilə birlikdə cəmiyyət üçün ən mühüm və vacib olan məsələləri müəyyən etmək.**"

İnsan fəaliyyətinin ictimaiyyətlə bağlı bütün sahələrinə dair qanunlar hazırlanır. Bu qanunlar insanın belə sahədəki müəyyən işinin fəaliyyət mexanizmi olur.

Bunsuz iş görmək çox çətindir. Bir də elə sahələr var ki, burada insanın fəaliyyəti üçün qanunlarla birlikdə etik normalar da iştirak edir. Etik normalar o sahələrə daha çox aiddir ki, orada işin obyekti, fəaliyyət sferası insanla, cəmiyyətlə bağlıdır.

**Həm də o yerdə ki, peşə sahibinin öz işinə səhlənkar, etinasız, başqalarına ziyan vura biləcək davranışları ortaya çıxır, insanların bu tipli bir çox sahələrdəki tarixi təcrübəsindən peşə etikası doğur.**

Peşə etikası tarixən yazılmamış «qanunlar» şəklində ortaya çıxır. İnsan hər hansı fəaliyyət sahəsində vicdanın səsinə, ədalətə, cəmiyyətdə müsbət qəbul olunan qaydalara söykənməklə iki başlıca məqsədi izləmişdir:

*1. Peşənin, eləcə də bu peşənin ifaçısının lazımlılıq, yararlılıq səviyyəsini qaldırmaq;*

*2. Cəmiyyət – insan qarşısında məsuliyyəti dərk etmək.*

Hər bir xalqın, hər bir millətin öz fərqli mentalı, zövqü və abırı var. Məsələn, Azərbaycan xalqında böhtan atmaq, yalan danışmaq, başqasının əleyhinə fakt yığmaq tarixən nakişilik kimi qiymətləndirilib. Sonralar bu keyfiyyətlərin bir çoxuna qanunla cəza işi təsbit olunsa da, çox zaman yazılmamış «qanunlar» daha kəsərli olur. Xalqımızın tarixində ən ağır qətl cinayətinin də günahın etirafı, üzr istəməklə bağışlandığı məqamlar çox olub.

Jurnalistlərin peşə etikası kodekslərində səhv məlumata, təhqirə görə üzr istəməyin bir üsulu kimi tətbiq olunan təkzib forması

günahın səmimi etirafına görə ölüm faktını belə bağışlayan xalq adətinə bənzəyir.

Jurnalistlərin peşə etikasının nəzəri əsasları xeyli vaxtdır öyrənilməyə başlanıb. Nəzəri fikirlərdə belə bir həqiqət ifadə olunur ki, **peşə etikası jurnalisti qanunlardan da artıq məhdud çərçivəyə salır,** *lakin bu çərçivə* peşəkarın istəyə biləcəyindən daha çox *cəmiyyətin tələbindən doğduğuna və məhz cəmiyyətə xidmət etdiyinə görə məqbuldur.* Jurnalistin – əsl jurnalistin istəyi ilə onun fəaliyyət göstərdiyi mətbuat orqanının istəyi üst-üstə düşməlidir.

Jurnalist yaradıcılığının əsl azadlığı mübarizədə yaranır və bu mübarizə iki istiqamətdə gedir:

*«Birincisi – azadlıq prinsiplərinin, səmərəli yaradıcılıq fəaliyyətinin həyata keçirilməsinə zəmanət verən şəraitin yaradılması;*

*ikincisi – jurnalistlərin özlərinin gərgin işi.*

**Aydın olmalıdır ki, yalnız azad xalq azad mətbuata» sahib ola bilər.»**

Jurnalistin peşə etikası ilə bağlı maraqlı əsərlərilə Qərbdə məşhur olan Valter Xaheman mətbuata xas əsas keyfiyyətlər içərisində qərəzsiz, hərtərəfli informasiyanı, heç bir şəxsi nöqteyi-nəzərdən asılı olmayan şərhi, xalqa yaxın, kütləvilik prinsipi ilə fəaliyyət göstərən mətbuat orqanının nəşrini, nəşrin cəmiyyət qarşısında məsuliyyətini, jurnalistin həqiqəti cəsarətlə müdafiə edə bilən mənəvi müstəqilliyini, mətbuatın dövlət və partiya maraqlarından xilas olmasını, naşirlərin yüksək işgüzarlığını və jurnalistlərin mənəvi müstəqilliyinə hörmətini xüsusi qeyd edir.

***Jurnalistin peşə həmrəyliyi də etik prinsiplərdəndir.*** Azad söz, azad fikir, demokratik ideallar, aşkarlıq, hakimiyyət strukturlarının işinə nəzarət və s. kimi ictimai maraqlara xidmət edən onlarca missiyanı yerinə yetirən jurnalistikaya və jurnalistə həmişə təzyiqlər olur. Bu təzyiqlərə məruz qalan qəzeti, telekanalı, jurnalisti müdafiə etmək, ədaləti müdafiə etməkdir. Dünya təcrübəsində özünü doğruldan bu praktika son on ildə Azərbaycanda da geniş yayılıb.

**Nəzəri ədəbiyyatın birində çox düzgün qeyd edilir ki, *«peşə etikasının qəsdən pozulması azadlıq prinsiplərinin pozulması kimi qiymətləndirilməlidir.»***

**Bu prinsipləri əngəlləyən əməllərdən danışaq:**

**1. Vətəndaşların informasiya almaq hüququnu məhdudlaşdıran əməllər:**

1. *jurnalist məqsədindən asılı olmayaraq dəqiq, yoxlanılmamış, səhv informasiyanı təqdim edirsə;*
2. *jurnalist ictimai maraq kəsb edən informasiyanı şəxsi maraqlarına görə gizləyirsə;*
3. *jurnalist informasiyanı saxtalaşdırırsa, gətirdiyi sitatı qəsdən təhrif edirsə;*
4. *jurnalist hər hansı bir ictimai maraq kəsb edən faktla bağlı qəsdən susmaq işində iştirak edirsə;*
5. *jurnalist "etibarlı mənbə" pərdəsi altında şayiələrə, dedi-qodulara söykənən informasiyanı ictimaiyyətə ötürürsə.*

**2. Vətəndaşların öz fikirlərini azad ifadə etmək hüququnu məhdudlaşdıran əməllər:**

1. *jurnalist öz mənəm-mənəmliyi ilə, yaxud qrup maraqlarına görə plüralizm prinsiplərini pozaraq diskussiyaya qəsdən imkan yaratmırsa;*
2. *təkzib verilməsinə əsassız əngəl törədirsə;*
3. *jurnalist əvvəl dərc olunmuş materiallarla bağlı tənqidi qeydlərin ifadəsinə mane olursa;*
4. *jurnalist konfidensiallıq prinsiplərini qarşılamırsa;*
5. *materialını KİV-ə çıxardığı, yaxud müsahibə aldığı adamla sonuncu variantı müzakirə etməkdən yayınırsa.*

**3. Şəxsiyyətin şərəf və ləyaqəti əleyhinə əməllər:**

1. *jurnalist şəxsiyyətin şərəf və ləyaqətinə toxunan – hətta dəqiq informasiya alsa belə – materialı verirsə;*
2. *yalan və təhqiredici materialı, qəzetə, efirə çıxarırsa;*
3. *jurnalist insanı təhqir etmək məqsədilə onun fiziki çatışmazlığını, adını və soyadını məsxərəyə qoyursa;*
4. *jurnalist məhkəmənin qərarına qədər müttəhimi cinayətkar, terrorist adlandırırsa.*

**4.Jurnalistin peşə şərəfinin pozulması:**

1. *jurnalist öz vəzifəsindən şəxsi məqsədlər üçün istifadə edirsə;*
2. *jurnalist maraqlı tərəfdən hədiyyə qəbul edirsə;*
3. *jurnalist informasiya almaq üçün məqbul sayılmayan şantaj, yalan, xof və hədələrə əl atırsa;*
4. *jurnalist danışıqlar çərçivəsində şəxsin dərcə layiq bilmədiyi, ancaq ona etibar etdiyi informasiyanı yayırsa;*
5. *jurnalist plagiatçılıq edirsə;*
6. *jurnalist əsassız olaraq gizli şəkildə eyni materialı iki və daha çox redaksiyaya təqdim edirsə;*
7. *jurnalist informasiya vasitəsi olmayan orqanlara informasiya toplayırsa.*

**5.Xidməti etikanın pozulması:**

1. *jurnalist öz həmkarının materialında etdiyi redaktələri ona bildirmədən dərc edirsə;*
2. *jurnalist öz vəzifəsindən sui-istifadə ilə əməkdaşları onun istəyinə uyğun redaktəyə məcbur edirsə;*
3. *jurnalist öz karyerası, yaxud başqa məqsədlər üçün həmkarını qəsdən gözdən salan əməllərə yol verirsə;*
4. *jurnalist yaradıcılıq rəqabətinə səhv baxışları ilə öz həmkarının materiallarına mane olursa;*
5. *jurnalist öz vəzifəsindən istifadə edərək əməkdaşının müstəqilliyinə mane olursa.*

Bütün bunlarla jurnalist təkcə qanun qarşısında hüquqi məsuliyyəti deyil, habelə peşə etikası prinsiplərinin dünya təcrübəsi qarşısında da mənəvi məsuliyyət daşıyır.

Xoşbəxt o ölkədir ki, orada informasiya yayımı üstünlük təşkil edir, yəni orada informasiyalı cəmiyyət mövcuddur. İnformasiyalı cəmiyyət isə demokratik cəmiyyətin sinonimi kimi qəbul edilə bilər.

Ölkə müdiasında nələr baş verdiyi hamımıza bəllidir. Bütün olmuşlar cəmiyyətin mediamıza münasibətini yetərincə soyudub. Bəs necə olmalı? Baxaq.

# ABŞ jurnalistlərinin etik normaları:

***(Jurnalistlərin yeganə öhdəliyi cəmiyyətə həqiqəti çatdırmaq borcudur.)***

1. *Hədiyyələr, xidmətlər, pulsuz səyahətlər, xüsusi qəbullar, ya*xud üstünlüklər jurnalistin və onun fəaliyyət göstərdiyi nəşrin üzə*rinə kölgə sala bilər.*
2. *Jurnalistlərin başqa sahədə də işləməsi, siyasi fəaliyyət göstərməsi, seçkili və inzibati vəzifələrdə olması, ictimai təşkilatlarda çalışması da onun işini şübhə altına ala bilər.*
3. *«Şəxsi mənbələrdən» alınan informasiyanı dərc etmək, efirə vermək yaramaz.*
4. *Jurnalistlər manеələrə baxmayaraq cəmiyyəti maraqlandıran informasiyanı əldə edirlər.*
5. *Jurnalistlər konfidensial mənbələrin açıqlanmasını etik normadan kənar hesab edirlər.*
6. *Plagiatçılıq vicdansız işdir və qəbul olunmur.*

*Bu kodekslərdə dəqiqlik və obyektivlik, məsuliyyət, peşəyə məhəbbət kimi məqamlar izah edilir. Bu və ya digər etik normaların əksəriyyəti Qərb jurnalistlərinin əxlaq kodeksində öz əksini tapmış və onların peşə fəaliyyətinin əsasını təşkil etməkdədir. Məsələn, bu gün Almaniya mediası bazar münasibətlərinin doğurduğu gerçəklikləri hər cür adət və ənənədən, mənəvi dəyərlərdən üstun tutur. Reytinq və tiraj uğrunda mübarizə çox güclənmişdir. Belə şəraitdə jurnalist etik normalara qanunların özü qədər əməl etmək məcburiyyətindədir.*

*Almaniya Mətbuat Şurasının öhdəsinə mətbuat azadlığına nəzarət və əxlaq kodeksinin tətbiqi ilə bağlı vəzifələr daxildir.* ***Bu kodeksin prinsiplərinə baxaq.***

1. *Mətbuatın ən yüksək qanunu həqiqətə hörmət, insan ləyaqətini müdafiə etmək və cəmiyyəti düzgün informasiya ilə təmin etməkdir.*

2. *Dərc edilən materiallar dəqiq yoxlanmalı, onların saxtalaşdırılmasına yol verilməməlidir. Şayiələrə, dedi-qodulara söykənmək olmaz.*
3. *Dərc edilən informasiya səhv olduqda dərhal təkzib verilməli, səhv düzəldilməlidir.*
4. İnformasiya toplamaq prosesində qəbul olun*mayan metodlar tətbiq edilə bilməz.*
5. *Konfedensiallığa riayət edilməlidir.*
6. *Hər bir mətbuat işçisi nəşrin nüfuzunu qorumalıdır.*
7. *Mətbuatın cəmiyyət qarşısında məsuliyyəti tələb edir ki, redaksiya materialları heç kimin təsiri altında ola bilməz.*
8. *Mətbuat insanların şəxsi və intim həyatına hörmət edir. Şəxsi davranış yalnız ictimai maraqlara toxunanda onu müzakirə etmək olar.*
9. *Mətbuat təhqirə yol vermir.*
10. *Mətbuatda gedən mətn, yaxud illüstrasiya öz məzmunu, ya*xud formas ilə hər hansı bir qrup insanın dini, milli adətlərini təhqir etməməlidir.
11. *Mətbuat özünü doğrultmayan gücü və kobudluğu qəbul eləmir.*
12. *Cinsi, etnik, dini, sosial, milli fərqlərlə bağlı heç kəsin heysiyyatına toxunmaq olmaz.*
13. *Məhkəmənin gedişinə mane olan prosesləri işıqlandırmırıq. Məhkəmə hökm çıxarmayınca «cinayətkar» sözünü işlətmirik.*
14. *Tibbi mövzuda yazılarda özünü doğrultmayan qorxu və ya təsəlli barədə söz demirik.*
15. İnformasiya ilə bağlı kənar öhdəlik götürən, onun çapına, ya gizlədilməsinə görə rüşvət alan jurnalist vicdansızdır.

Bütün bunları tənzimləmək üçün Azərbaycan Mətbuat Şurası yaradılıb. Bu qurumun idarə heyətinə qəzetlərin, jurnalların, internet saytların, ictimai təşkilatların, jurnalistlərin həmkarlar ittifaqının rəhbərləri, nüfuzlu jurnalistlər daxildirlər.

Mətbuat Şurasının bəyan etdiyi, 15 mart 2003-cü ildə Azərbaycan jurnalistlərinin birinci qurultayında qəbul edilmiş

## "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nı bütövlükdə oxuyaq

***PRİNSİP 1: Həqiqətə xidmət, dəqiqlik və obyektivlik***

*1.1. Jurnalistikanın ali məqsədi həqiqəti yaymaqdır, obyektivlik isə əsas peşəkarlıq meyarıdır.*

*1.2. Jurnalist hazırladığı yazıda tənqid obyektinin mövqeyini öyrənib bildirməlidir. Bu, mümkün olmadıqda, tənqid obyekti tələb edərsə, öz fikirlərini çatdırmağa çox qısa vaxtda ona şərait yaradılmalıdır. Plüralizm prinsipinə əməl edilməlidir.*

*1.3. Yazıda şərhlər elə şəkildə ifadə edilməlidir ki, oxucu onu xəbərdən, faktdan ayıra bilsin, bunun məhz jurnalistin mövqeyi olduğunu anlasın.*

***PRİNSİP 2: İnformasiya qaynaqlarına sayğılı yanaşma***

***2.1.** Təşkilatların, partiyaların, cəmiyyətlərin, birliklərin və hər hansı digər maraqlı qrupların rəsmi məlumatları yayılarkən mənbə mütləq göstərilməlidir. Lakin bilgi verən şəxs adının gizli saxlanması şərtini irəli sürürsə, jurnalist və informasiya orqanı bu şərtə mütləq əməl etməlidir. İnformasiya qaynağının **gizliliyi qorunmalıdır.***

*2.2. Qeyri-rəsmi mənbələrin məlumatları onların həqiqətə **uyğunluğu və informasiya dəyəri yoxla**nılmadan yayılmamalıdır. İnformasiya çapa hazırlanarkən onun mənası təhrif olunmamalıdır. Başqa mətndən və ya çıxışdan sitat gətirərkən jurnalist həmin sitatın harada başlandığını və bitdiyini dəqiq bildirməlidir. Foto-simvolların (illüstrasiya, fotomontaj və s.) dərci zamanı şəklin sənədli xarakter daşımadığı qeyd olunmalıdır. Yazıların sərlövhələri onun məzmununa uyğun gəlməlidir.*

*2.3. Jurnalist çalışmalıdır ki, götürdüyü müsahibəni onu verən adamın özü, yaxud da vəkil etdiyi şəxs imzalasın. Bu, mümkün olmadıqda, müsahibənin hansı şəkildə çap ediləcəyi, hətta jurnalistin özünün verdiyi sualların belə sonradan dəyişdirilib-dəyişdirilməyəcəyi müsahibə öncədən bildirilməlidir.*

*2.4. Jurnalistin müstəsna hal kimi digər imkanları mövcud olmadıqda, ictimai əhəmiyyət kəsb edən informasiyanın əldə edilməsi üçün xüsusi avadanlıqlardan (gizli kameralar, gizli mikrofonlar və sair gizli vasitələrdən) və ya üsullardan ("qurama" kimlik və s. ) istifadə edə bilər.*

*2.5. Jurnalist məlumatların və ya təsvirlərin əldə edilməsi məqsədi ilə hədələməyə, güc tətbiqinə və ya təhdidə yol verməməlidir.*

***PRİNSİP 3: Şərəf və ləyaqətin qorunması, şəxsi həyatın toxunulmazlığı***

*3.1. Jurnalist adamları millətinə, irqinə, cinsinə, dilinə, peşəsinə, dininə, yaşadığı və ya anadan olduğu yerinə görə pisləməməli, onlar haqqında bu qəbildən olan bilgiləri qabartmamalıdır*

*3.2. Jurnalist görüşdüyü, haqqında yazdığı hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdır.*

*3.3. Jurnalist vətəndaşların şəxsi həyatına aid faktları, onlar cəmiyyətin maraqlarına toxunmursa, hüquqa zidd deyilsə və ya ictimai əhəmiyyət kəsb etmirsə, özlərinin razılığı olmadan yaya bilməz.*

*3.4. Jurnalist və kütləvi informasiya vasitəsi buraxdığı səhvi, həmin səhvi kimin müəyyən etməsindən asılı olmayaraq, maksimum qısa müddətdə və tam həcmdə aradan qaldırmalıdır. Düzəliş zamanı aydın olmalıdır ki, əvvəl verilən məlumat tam, yoxsa konkret hansı hissədə səhvdir*

*3.5. Şəxsi xarakter daşıyan məktublar dərc edilərkən onların müəllifindən, göndərildiyi şəxsdən və ya həmin şəxsin varislərindən icazə alınmalıdır.*

*3.6. Bədbəxt hadisələr və ya cinayət nəticəsində zərər çəkmiş şəxslərin razılığı olmadan onların adları açıqlanmamalı, şəkilləri verilməməlidir. Bu, yalnız xüsusi məqamlarda və zərərçəkənin ictimai fiqur olduğu hallarda mümkündür. Əgər cinayəti yeniyetmələr və ya uşaqlar (18 yaşı tamam olmamış şəxslər) törədibsə, bu zaman da cinayətkarın adını açıqlamaqdan və şəklini yaymaqdan çəkinmək lazımdır.*

*3.7. Jurnalist, cinayətdə şübhəli bilinən şəxsin təqsirsizlik prizumpsiyası hüququna hörmətlə yanaşmalı, onu təqdim edərkən*

*onun cinayətkar kimi yox, şübhəli şəxs qismində saxlanılan şəxs kimi təqdim etməlidir.*

*3.8. Kütləvi informasiya vasitəsi hər hansı vətəndaşın şübhəli şəxs kimi həbs olunması, yaxud istintaqa cəlb edilməsi barədə məlumat yaymışsa və sonradan onun təqsirsizliyi sübuta yetmişsə, həmin informasiya orqanı bu barədə mütləq xəbər verməlidir.*

*3.9. Jurnalist uşaqların məsumluğu və inamından sui-istifadə etməməli, onların hüquqlarına hörmətlə yanaşmalı və onların fikirlərinin çatdırılması ilə bağlı xüsusi məsuliyyət nümayiş etdirməli, valideynlərinin və ya qanuni himayəçilərinin icazəsi olmadan uşaqlardan müsahibə götürməməyə səy göstərməlidir. Daha vacib ictimai əhəmiyyət kəsb edən maraqların mövcud olduğu hallar istisna olmaqla, jurnalist uşaqların şəxsi həyatı barədə məlumatları və ya fotoşəkilləri dərc etməməlidir. Jurnalist facia və ya cinayət əməli nəticəsində zərər çəkmiş, yaxud belə hadisələrə cəlb edilmiş uşaqların kimliyini mütləq qorumalıdır.*

*3.10. Cinayət əməli törətməsi ilə bağlı şəxsə qarşı ittiham irəli sürülmüşsə, bu mövzuda məhkəmənin obyektivliyinə təsir göstərəcək reportajlar hazırlanmamalı, hazırlanan reportajlarda isə bütün tərəflərin fikirləri əks olunmalıdır. Cinayət əməllərinin qurbanları öz kimliklərinin açıqlanmasına razı olmadıqda jurnalist belə şəxslərin kimliyinə həssaslıqla yanaşmalıdır. Seksual təcavüzlə bağlı hallarda bu qaydaya xüsusi əhəmiyyət verilməlidir. Şahidlər öz kimliklərinin açıqlanmasına razı olmadıqda jurnalist, ictimai əhəmiyyət daşımırsa belə şəxslərin kimliyinə həssaslıqla yanaşmalıdır.*

*3.11. Jurnalist cinayət əməlləri, zorakılıq, qəddarlıq və intihar halları barədə reportajlarda belə əməllərin təşviqi və ya əsassız olaraq sensasiyalı formada təqdim olunmasından çəkinməlidir. Jurnalist zorakılığı təşviq edən, təhrik etməyə səy göstərən və ya belə hallara əl atan şəxslər tərəfindən vasitə kimi istifadə olunmamalı, əksinə, öz reportajlarında belə*

*şəxslərin fəaliyyəti barədə müvafiq məhdudiyyətləri tətbiq etməli və yalnız müvafiq informasiyanın ictimai əhəmiyyət kəsb etməsi şübhə doğurmadıqda bu barədə reportajlar hazırlamalıdır.*

*3.12. Jurnalist və redaksiya terror hadisəsini şişirdən, terrorçuların məqsədinə xidmət edə biləcək qorxu effekti yaradan, terroru təblig edən və terror hərəkətinə bəraət qazandıran reportajlar verməməlidir.*

***PRİNSİP 4: Jurnalistin özünün və çalışdığı orqanının reputasiyasının qorunması***

*4.1. Jurnalist cəmiyyəti dəqiq informasiya ilə təmin etmək qabiliyyətinə mənfi təsir göstərə biləcək hər hansı şəxsi, siyasi və ya maliyyə xarakterli həvəsləndirmələr qəbul etməməli, qiymətli hədiyyə almamalı, yaxud özünə pulsuz xidmət göstərilməsinə şərait yaratmamalıdır. Jurnalist redaksiya sənədindən və informasiyaya çıxış imkanlarından, habelə, biznes fəaliyyəti və maliyyə bazarları barədə məlumatlardan şəxsi mənfəət əldə etmək məqsədi ilə istifadə etməməlidir. Jurnalist birbaşa şəxsi marağının olduğu məsələlər barədə reportajlar hazırlamaqdan çəkinməli və belə maraqları olduqda həmin maraqları öz müvafiq reportajında bildirməlidir.*

*4.2. Jurnalist redaksiyanın verdiyi qərarlarla media qurumunun kommersiya siyasətini bir-birindən fərqləndirməli və bu barədə dəqiq təsəvvürlərə malik olmalıdır. Jurnalist redaksiyada çalışdığı vaxtda onun və ya işlədiyi informasiya orqanının reputasiyasına gölgə salan, obyektivliyinə inamı azaldan hər hansı başqa işlə məşğul olmaqdan, siyasi təşkilatlara üzvlükdən çəkinməli, siyasi və ya kommersiya xarakterli təzyiqlərə məruz qalmamalı və müstəqil olmalıdır.*

*4.3. Jurnalist redaksiya mətnləri, marketinq, reklamlar və ya sponsorluq vasitəsi ilə dərc olunan materialları bir-birindən dəqiqliklə fərqləndirə bilməlidir.* ***Redaksiya tapşırığı qanunlara və peşə əxlaqına zidd olduqda, jurnalistin həmin tapşırıqdan imtina etmək hüququ var.*** *Redaktə zamanı*

*jurnalistin fikirləri təhrif olunubsa, o, həmin materialın öz imzası ilə verilməsindən imtina edə bilər.*

*4.4. Redaksiya sirri Azərbaycan Respublikasının qanunlarının və Peşə Davranışı Qaydalarının pozulması ilə bağlı deyilsə, jurnalist həmin sirri qorumağa borcludur.*

*4.5. Jurnalist hazırladığı materialı işlədiyi kütləvi informasiya vasitəsinin rəhbərliyi ilə razılaşdırmadan başqalarına təklif edə bilməz.*

*4.6. Plagiat yolverilməz hərəkətdir.* ***Bütün hallarda ədəbi oğurluğun hər hansı forması qəbuledilməzdir.*** *Jurnalist müəlliflik hüquqlarına və müəlliflik hüquqlarına dair müqavilələrin şərtlərinə hörmətlə yanaşmalıdır. Jurnalist media vasitələrindən götürməklə istifadə etdiyi bütöv materiallar və ya qısa çıxarışların mənbələrini hər bir halda göstərməlidir. Jurnalist digər media vasitələrində dərc olunmuş bütöv materiallardan və ya geniş həcmli çıxarışlardan təkrarən istifadə etdikdə, mütləq müvafiq müəllif və media vasitələrini xəbərdar etməli və həmin mənbələri göstərməlidir.*

*4.7. Jurnalist yazılarında vulqar ifadələrin, jarqonların işlədilməsindən çəkinməli, Azərbaycan dilinin zənginləşməsinə öz töhfəsini verməklə yanaşı, onun təmizliyinin qorunub saxlanmasına da çalışmalıdır.*

*4.8. Jurnalist zərurət olmadıqca informasiya mənbələrinə pul ödəməməlidir. Lakin ictimaiyyətin əldə etmək hüququnun olduğu informasiyanı toplayarkən ödənişlərə zərurət duyulduğu hallarda belə ödənişlərin həyata keçirilməsi müvafiq reportajda göstərilməlidir.*

*4.9. Müxtəlif media vasitələri və media sahəsindəki peşəkarlar arasındakı münasibətlər medianın dürüstlüyünü qoruyub saxlamaq baxımından qarşılıqlı hörmət və vicdanlı rəqabətlə şərtlənməlidir.*

*4.10. İctimaiyyətin media vasitələrinin sahibləri və belə vasitələrə nəzarət edənlər barədə məlumatlandırılmaq hüququ vardır.*

*4.11. Jurnalist hücuma və ya qərəzli olaraq tənqidə məruz qalan*

*həmkarlarını dəstəkləməlidir. Bununla yanaşı, peşəkar həmrəylikdən informasiyanın gizlədilməsi və ya təhrif edilməsi üçün bəhanə kimi istifadə edilməməlidir.*

**Bu qaydaların pozuntusu yalnız o halda əsaslandırıla bilər ki, nəşr olunmuş müvafiq material ictimaiyyətin maraqlarına xidmət etsin.**

**Bu qaydaların ifadə etdiyi maraqlar nəzərə alınmaqla, "ictimai əhəmiyyət" anlayışı "ictimaiyyət üçün maraqlı" olan informasiya ilə qarışdırılmamalıdır.**

**Nəşr olunmuş materiallar ictimai əhəmiyyət kriteriyasına yalnız aşağıdakı hallarda cavab verir:**

✓ *sağlamlıq və təhlükəsizliyin qorunması;*

✓ *ictimaiyyətin ağır cinayətlərdən və vəzifədən sui-istifadə hallarından müdafiə olunması;*

✓ *ictimaiyyətin əhəmiyyətli dərəcədə yanlış istiqamətləndirilməsi təhlükəsinin aradan qaldırılması.*

***Göründüyü kimi, ictimai sözün tirajlanması yetərincə gəlişmiş sivil normalara söykənməkdədir. Deməк olar ki, mətbu söz cəmiyyətin qayğılarına xidmət edir.***

Son vaxtlar «**empatiya**» kimi bir anlayış həm leksik vahid kimi, həm də peşənin bir məqamının ifadəsi kimi dəbə minim. Yunan dilində olan «**patho**» (dərdə şərik olmaq) sözündən və özünə istiqamətləndirmək perifeksi kimi anlaşılan «**et**» şəkilçisindən ibarət olan «empatiya» yaranışının ilk çağlarında etika və estetikanın predmeti kimi qəbul olunmuşdur. İstər estetikada, istərsə də jurnalistin peşə keyfiyyətində «empatiya» insanın özgə dərdini özününküləşdirmək, başqasının dərdini, yaxud sevincini özününkü kimi qəbul etmək şəklində izah edilir. **Peşə fəaliyyətinin çox böyük vaxt çər**çivəsini cəmiyyət üzvləri arasında keçirən və əsasən insanı obyekt seçən jurnalistin empatiya keyfiyyəti onun əxlaq normasında mühüm əlamət kimi qəbul oluna bilər.

Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti haqqında danışmaq, uzaq gələcəkdən danışmaq deməkdir. Müşahidəçisi və iştirakçısı olduğumuz müasir jurnalistikadakı mənəvi durum ruh düşgünlüyü

doğurmaya bilməz və bu yalnız fərdi əhval-ruhiyyənin verdiyi təəssürat deyil, bu cür mövqe cəmiyyətin ümumi mövqeyinin əks-sədasıdır. Əvvəla, kənardan baxanda görürsən ki, jurnalistlər sözün həqiqi mənasında maliyyə mənbəyinə işləyirlər və bu zaman əqidələrin tez-tez dəyişməsini müşahidə etmək ən azı təəssüf doğurur. Lakin başqa faktorlar – hakimiyyət orqanlarının təzyiqi, informasiyanın əldə edilməsində yaradılan süni maneələrin də əhəmiyyətini azaltmaq olmaz. Amma düşünməyək ki, bu yalnız demokratiya quruculuğu prosesində olan ölkələrə xasdır.

Sissela Bok yazır: ***«Həmişə hakimiyyət nəyisə gizlətməyə çalışır, ictimaiyyət isə daha çox bilmək istəyir. Hətta məxfilik azarına tutulmayan vəzifəli şəxslər də ara-sıra qapalı iş rejiminin üsullarından istifadə edirlər. Hakimiyyətin fəaliyyətinin tam aşkarlığını təmin etmək niyyəti ilə işə başlayan, lakin sonradan informasiya sızmasının qarşısını almaq məqsədi ilə məxfi materialların saxlanması qaydalarını daha da möhkəmləndirən o qədər lider görmüşük ki...»***

İlk baxışdan KİV-lə vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətləri kifayət qədər sadədir: ***KİV vətəndaş cəmiyyətinin onun vəzifələrini yerinə yetirməkdə yardım etməli olan alaltısıdır.*** Bu münasibətlərdə bəlkə də ən önəmli olan KİV-in sosial məsuliyyətidir. ***Vətəndaş cəmiyyəti baş verən sosial, iqtisadi, siyasi məsələlərdə öz şəxsi məsuliyyətini hiss edən Vətəndaşların cəmiyyətidir.*** Öz peşəkar fəaliyyəti ilə ictimai rəyə nəinki təsir edən, hətta çox hallarda hadisələrin inkişafı üçün fon yaradan sənətin sahibləri kimi jurnalistlərin öz məsuliyyətlərini anlaması xüsusi önəm daşıyır.

Bütün çatışmazlıqları ilə birlikdə sovet jurnalistika məktəbini geridə qoyduq və jurnalist peşəkarlığına çatmağın yeni üsullarına keçdik. Yeni KİV-in peşəkar təhsildən uzaq yeni işçiləri isə peşəkarlığa gedən yolu qət edərkən yeni «prinsipləri» mənimsəyirlər ki, bunlardan da başlıcaları belə sıralanır – mənə və sifarişçiyə əlverişli olan hər şey olar – yalan yazmaq, məlumatı yoxlamamaq, təhqir və böhtandan istifadə etmək və s.

Bəlkə bu mətbuatın mənəvi böhranı deyil, sadəcə peşəkarlığın böhranıdır? Bəlkə daha öncə təklif edilən **«etik audit»** prinsipi yaranmış problemlərin orijinal həlli yolu ola bilər. Redaksiya cəmiyyətin etibarını qazanmaq məqsədi ilə öz fəaliyyətinin cəmiyyət tərəfindən obyektiv qiymətləndirilməsi üçün müzakirələr açır. Qoy qiymət versinlər: bu qəzetdə ədalətlilik, vicdanlılıq, obyektivlik, məsuliyyətlilik prinsiplərinə əməl olunurmu? Nəticələr isə sağlam rəqabətə yol açar və oxucuya bir növ deyər ki, ***«baxın, mənə etibar etmək olar, ya yox»***.

Xaricdə geniş tətbiq olunan Kütləvi Təvliğat Vasitələrinin (KTV) ***«oyun qaydaları»***na gəldikdə isə, istifadə olunmağı bir yana, bizdə bu, bir anlayış kimi də yoxdur. «Oyun qaydaları»nın məğzini geniş yayılmış bir ifadə ilə anlatmaq olar: ***«mətbuat cəmiyyətin aynasıdır, cəmiyyət necədirsə, onun mətbuatı da elədir»***.

Yəni, ***sivil tənzimləyici qaydalar sivil cəmiyyətdən – vətəndaş cəmiyyətindən gəlməlidir.*** Bu, o demək deyil ki, mətbuatda KİV-i idarə edən qeyri-rəsmi qaydalar yoxdursa, bu cəmiyyət sivil dünyadan kənardır. **«Krisçen Sençuri»** qəzetinin redaktoru Ceyms Uol yazır ki, *«İndi «müqəddəs» heç nə yoxdur. Hamının əməl etməli olduğu əxlaq və davranış qaydalarına artıq nə cəmiyyət, nə ailə, nə də ayrı-ayrı fərdlər inanır. Nə həqiqət carçısı olan nüfuz sahiblərinə hörmət hissi, nə də hökumətdən qorxu hissi onlarda bu inamı yaratmağa qadir deyil.»* Uol hesab edir ki, *məhz bu – cəmiyyətdə ümumi mənəvi dəyərlərin aşılanması, mənəvi avtoritetlərə inamın sınması professional davranış qaydalarının, peşə əxlaqı kodeksi və standartlarının vacibliyini ön plana çəkir.*

Amma jurnalistlərin etik davranışından danışarkən bəlkə də, birinci müzakirə obyekti müasir KİV-in iqtisadiyyatı olmalıdır.

Postsovet dövründə mətbuatın fəaliyyətinin iqtisadi əsaslarının dəyişməsi etik normalara da güclü zərbə vurdu. Təzə qazanılan azadlığın eyforiyası keçənden sonra köhnənin ideoloji senzurasından təzə qurtulan jurnalistlər ondan da qəddar maliyyə senzurası ilə üzləşdilər. Nəticədə jurnalistlərin söz azadlığı məsələsində demək

olar ki, nəsə dəyişmədi, peşəkar etikaya riayət yenə də ağır seçim olaraq qaldı. Belə çıxır ki, iqtisadi baxımdan yalnız tək-tək müstəqil qəzetlərin etik normalara riayət imkanı var.

Tanıdığımız jurnalistlər arasında elələri var ki, müəyyən həddə çatana qədər yüksək ideyaların həyata keçirilməsini bir mətbuat işçisi kimi öz peşə borcları hesab ediblər. Xüsusən bu, hazırda mətbuat işçilərinin əsas kütləsini təşkil edən, ailə və digər problemlərlə yüklənmiş gənc jurnalistlərə aiddir. Mətbuatımızın banisi Həsən bəy Zərdabinin sözləri ilə desək: ***«Hər bir əyalətin qəzeti onun aynasıdır və həmin əyalətin nöqsanlarını bir ayna kimi göstərməlidir».*** Doğrudur, jurnalistika cəmiyyəti əks etdirən aynadır, amma bu aynaya müxtəlif cür baxmaq, aynada müxtəlif şeylər görmək olar. Və aynanın özü, yəni biz özümüz də cəmiyyətin bir hissəsi kimi müxtəlif ola bilərik.

Beləliklə, özünütənzimləmə və jurnalistin şəxsi mə***suliyyəti jurnalistikanın daimi diqqətində olsaydı siyasi qüvvələrin tənzimləyici vasitələr axtarışına ehtiyac qalmazdı.*** Etik kodeks jurnalistlərin fəaliyyətinə kifayət qədər təsir göstərə bilsəydi, bəlkə **«mətbuata təzyiqlər»** öz-özünə aradan qalxardı. Amma bu təzyiqlər olsaydı belə, cəmiyyət jurnalistin müdafiəsinə qalxardı.

Azərbaycanda 1980-ci illərin sonları 1990-cı illərin əvvəllərində məlum olaylar başlayarkən, Türkiyənin TRT televiziyası, «Günaydın», «Hürriyət», «Sabah», «Milliyət» qəzetləri, Rusiya, ABŞ, Fransa, Almaniya və dünyanın digər dövlətlərinin müxtəlif kütləvi informasiya vasitələrinin nümayəndələri ölkəmizə ezamiyyətə gəlmişdi. Onlardan yalnız bəzilərinə o vaxt sovet «KQB»-sı rəsmi icazə vermişdi. Bəzi jurnalistlər isə, ölkəsini və dünya dövlətlərini məlumatlandırmaq üçün Azərbaycana gizli yollarla gəlmişdilər.

Dünya ölkələrində belə jurnalistləri savaş müxbirləri adlandırırlar. Ancaq hərbdən yazan hər jurnalist savaş müxbiri ola bilmir. Adi, dinc vaxtlarda hərbi hissələrdən, hərbi texnikadan, ordudaki vəziyyətdən peşəkarlığa yaxın səviyyədə yazanlar hərbdən yazan jurnalist sayılır. Lakin onlardan fərqli olaraq,

savaş müxbirləri güllələr, mərmilər altında işləyir. Bəziləri haqlı olaraq təsdiq edir ki, «**qaynar nöqtələr»də çalışan jurnalistlərin fəaliyyəti kəşviyyatçının işinə oxşardır.** *Onların hər ikisi informasiya əldə etməyə çalışır, hər ikisi ekstremal şəraitdə işləyir, hər ikisi həyatını riskə atır. Buna görə də, mütəxəssislər* ***«qaynar obyektlər»də*** *çalışanların qarşısında ciddi tələblər qoyur. Bura psixoloji, yemək, geyim, konflikt zonası haqqında bilqi, təhlükəsizlik tədbirləri və s. daxildir.*

İraqda, Balkanlarda, Çeçenistanda, Əfqanistanda, Suriyada, Ukraynada baş verənlərdən Azərbaycan vətəndaşları əsasən, xarici telekanallar və informasiya agentlikləri vasitəsilə xəbər tutur və indinin özündə həmin KİV-lər Azərbaycan tamaşaçısı, dinləyicisi və oxucusunu «qaynar nöqtələrdən» məlumatlandıran əsas mənbədir. Bəzi hallarda onların informasiyanı öz maraqlarına uyğun yayması isə vətəndaşlarda yanlış fikir formalaşdırır. Buna görə də, dünyanın hər yerindən, hərbi əməliyyatların içindən yozmadan xəbər verən Azərbaycan vətəndaşının inana biləcəyi savaş müxbirlərinə ehtiyac var.

# Strinqer – qanunlara sığmayan peşə



***"Strinqer"*** sözü ingilis dilin*dən alınıb, "azad ovçu" mənasını verir. Adından göründüyü kimi strinqerlik savaşın, yaraq-yasağın meydanında yaranan peşədir.*

İnsanlar bu peşə barədə düşünmür. Bu peşəni heç bir məktəb öyrətmir.

*Qanunları dövlətlər yaradırlar, dəyişdirirlər, yeniləşdirirlər. Stringer qanunlara məhəl qoymur, dövlətlərin qanunlarını aşıb insanların bilməli olduğu*

*informasiyanı əldə edir – insan namına. Onları satqınlıqda hədsiz dərəcədə abırsızlıqda, həyasızlıqda günahlandırırlar. Ancaq onların məşğul olduğu iş həm də romantika ilə, zövqlə, intellekt yaradıcılıqla doludur.*

***Stringerlər*** *– birinci növbədə, görüntülü materiallar yaradan sərbəst fotomüxbirlər, teleoperatorlardır. Ancaq, təhlükəli yerlərdən yazan, müsahibə alan, yaxud olayı şərh edən tele-radio reportyorlar da stringer ola bilərlər. Ancaq, onlar bu "yalquzaqların" getdiyi təbii fəlakət yerinə, döyüş bölgəsinə, terror meydanına və s. düşə bilirlərsə.*

*Kompaniyalar öz daimi işçilərini qorxulu yerlərə göndərməyə üstünlük vermirlər. Yaxşısı bu ştatda olanlar yox, oğlanlar, ştatda olmayanlardır. Amma bunlara daha çox bel bağlamaq olur, daha etibarlıdırlar. Stringer aldığı tapşırığı mütləq önərləməlidir, yoxsa o telekompaniya, redaksiya o olaydan gözlənilən informasiyanın birinci yayılması fürsətini əldən verə bilər. Bu isə nüfuz söhbətidir.*

*Məsələn, stringerə Əfqanıstana getməyə sifariş verilir. Amma üç günə o birbaşa efirə çıxmalıdır, yaxud materialla gəlməlidir. O cavan oğlan bir çox səbəbdən gəlməyə bilər. Deyək ki, uçaq olmaz, yaxud başqa nəsə. Uçaq yoxdursa, hava limanının rəisini tapır, danışıqlara girişir, hətta uçağı kirayələməli olsa da deyilən vaxtdan gecikmir. Stringer diridirsə, məlumat vaxtında çatır.*

*Peçəkar stringerlərin gizli cib dəftərçələri olur. Orada bütün hava limanlarının rəislərinin, dispetçerlərin, nüfuzlu işçilərinin, pilotların, deputatların, generalların, dövlət məmurlarının, hətta taksi yiyələrinin telefon nömrələri olur. O, bu sadalananların vərdişlərini, şakərlərini bilir. Onlara ən bahalı hədiyyə də almaqdan geri durmur. Təki qarşıya qoyduğu tapşırığı yetirsin.* (Эдуард Джафаров*, *«Коммерсант Деньги»)*

*Sərbəst jurnalist iş prosesini özü təşkil edir, təhlükəsizliyinə özü cavabdeh olur. Lakin, sərbəst qaydada işlədiyi KİV-in ştatına müəyyən vaxtdan sonra yazıla bilər. Hər halda stringer özünün qurd kimi azadlığını əldən vermək istəmir – eyni zamanda bir neçə redaksiyaya işləmək imkanından ötrü.*

*Bir çox telekompaniyalar çəkiliş materiallarını, fotoları satın alıb özünün mülküyyəti eləmək barədə stringerlə müqavilə bağlayırlar. Stringerin qonorarının məbləğu çəkilişin kəmiyyətindən, reportaşın uzunluğundan yox, bu "yalquzaqların" atıldığı döyüşlərin risk dərəcəsindən asılıdır. Bütün hallarda stringerlər öz həmkarlarından qat-qat çox qazanırlar.*

*Strinqer qorxulu hadisə yerində olan insandır – cəmiyyətin qulağı və gözüdür. Yalnız strinqerlər savaşı, fəlakəti... olduğu kimi göstərirlər – bütün dəhşətləri ilə. Ancaq onların kadrları müharibəyə nifrət oyadır. Onların sayəsində bütün sirlər açılır. Onlar güllə yağışının altından çəkiliş aparırlar. Onların kameraları sındırılır, döyülürlər, həbs edilirlər. Lakin bu "yalquzaq"lar, belə olaylarsız yaşaya bilmirlər.*

*Dünyada 70-dən çox stringer var. Ölüm xəbərini eşitdiyimiz reportyorların içində stringerlər o dəqiqə bəllənir. Onların demək olar, hamısı savaş səhnələrində bu dünyadan gedirlər. Çünki savaşlar, terror meydanı, epidemiyalar, zəlzələlər, sunamilər, böyük qəzalar onlar üçün işdir.*

*Onlar söhbətlərində "turist səfərlərinin" zənginliyini Əfqanıstanla, İranla, İrakla, Qarabağla, Efiopiyayla, Suriyayla, Afrikanın keçilməz cəngəllikləriylə dəyərləndirirlər. Yaralanmalar, kontuziyalar, əsir düşmələr, girov götürülmələr, günlərlə aclıq, susuzluq, fiziki işgəncələr onların tale kitabını daha da oxunaqlı edir. Onlar beynəlxalq təşkilatlardan, redaksiyalardan çoxlu mükafatlar, qonorlar alırlar. Hətta dövlət başçılarından bahalı hədiyyələr, təltiflər də qazana bilirlər.*

*Onlar savaşların olmaması üçün xarici işlər nazirliklərindən, güc strukturlarından, rəsmi KİV-lərdən də çox xidmət edə bilirlər. Bütün həqiqətləri canları bahasına görkə gətirirlər.*

*Onların reportajları dünyanın bütün böyük televiziya kompaniyalarını gəzir. Məşhur TV-lər, İnform. agentlikləri sevinclə onlara özlərinin reportyor vəsiqəsini verirlər: CBC (Kanada), NBC və CNN (ABŞ), Frans Press, Reyter, Əl-Cəzirə... Lakin onlar sərbəstdirlər, heç bir redaksiyanın qaydaları ilə məhdudlaşmırlar.*

*Sonuncu sənədli film – "stringer" – REN TV kanalında nümayiş edilib – yeganə kanaldı ki, belə bir səmimi və qəddar filmi kütləyə nümayiş etdirdi. İndi internetdə tapıb baxmaq olar.*

*Olayların məkanı, məqamı, məziyyətləri cürbəcür olur. Ayrıca göz yetirmək istədiyimiz olayda da stringerin davranışı o məziyyətlərə uyğun olur. Ona görə də biz bu çabaların ümumi cizgilərini söyləyəcəyik.*

*Məsələn siz stringerlə televizor önündə şirin söhbət edib, şirin çay içdiyiniz zaman ekranda Suriya terrorçularının bir neçə qız uşağını sürüdüklərini, işgəncə verdiklərini, soyundurduqlarını görürsünüz, əzablı qışqırtılar qulaq batırır. Ətiniz tikanaqlayır, acıqlı duyğular yumruğunuzu düyür, terrorçulara nifrətinizi sərgiləmək istəyirsiniz! Yaxud, Rus zabitlərinin Ukrayna göylərində vurduğu uçağdan tökülüşüb, səpələnmiş insan meyidlərinin yandığını, bir körpənin hələ də oyuncağını əlindən buraxmadığını, dişlərini sıxıb ölmüş kişinin qəzəbli baxışında haqq tələbini görürsünüz. Savaşlar, terrorçular, yaramaz hökumət idarəçiləri, o cümlədən qırğına uğrayan insanların haray səsləri duyğularınızı titrətdiyi an stringer deyir:*

*"Gözəl şəkildir!" Özü də fərəhlə deyir, özü də qürurla deyir, rəğbətlə deyir.*

*Onun bu arsızlığı, abırsızlığı, vecsizliyi, etinasızlığı sizi çaşdırmaya bilmir. Anlaşılmaz-barışılmaz baxışla geri durmaq istəyirsiniz, bu deyilənləri özünüzdən qırağa itələmək istəyirsiniz. Hələ bir soruşursan da:*

*"Sən nə danışırsan! Demək istəyirsən, sənin üçün meyid, qırğın, fəlakət görmək dəhşətli deyil?"*

*Qarşılığında o gülümsəyəcək, "biz səninlə ayrı düşüncələrlə ekrana baxırıq" deyəcək. Hələ də sənin ağlına gəlməyən baxış bucaqlarıyla o öz peşəsinin gərəkliyini açıqlayacaq, insanlığın başına gətirilən fəlakətlərin "hamıya görkünün" gərəkliyini, bunu sərgiləyənlərin cəsurluğunu alqışlamaya bilməyəcəksən. Sənin də duyğularının ünvanı dəyişəcək – bu peşə yiyələrinə rəğbətin, etinan yaranacaq. Hələ bir onlara mərhəmətin oyanacaq. Onların*

*yaşam yollarından rahatsızlaşacan. Sənə elə gələcək, bu peşə seçimi ağılsız dəliqanlıların özlərini oda atmasıdır – avantüradır, macərabazlıqdır, öz canı, soyu üçün məsuliyyətsizlikdir.*

*O, səni baxışlarından oxuyacaq: "Yox, elə deyil, stringer, həm də yüksək məharətlə özünüqorumadır" deyəcək. Axı silahların tüğyan elədiyi meydanda xüsusi qaydalar, qanunlar, yəni sağqalma elmi varmı? Stringer sənin bilmədiklərini söyləyəcək Bax bu cür:*

*"Hə! O qaydalar, üsullar bir stringer kimi yalnız sənin duyduğundur, sezməndir. Hadisələrin gedişini təcrübə və məntiqdən daha çox seyr etmə yolu ilə, ürəyinə dammaqla dərk edirsən. Bu gedişlərdə minlərlə incə məqamlar, nüanslar olur. Seçim sənin əlahəzrət duyğularınla bağlıdır."*

*Deməк, olayın nə qədər qorxulu olması maraqlı deyil. Sən döyüş meydanındasan, bir yerdə olduğun insanlarla birgə bir "tamaşanın" oyunçususan: döyüşçülər qacır – sən də qacırsan, səngərdə, sipərdə, ziqzaqda, arxda, yarğanda, çolada, hər harada uzandılar, sən də uzanırsan. Onlar ətrafı müşahidə edirlər, sən də göz gəzdirirsən.*

*Belə gedişdə zirehli maşına girmək özünü hədəfə təqdim etməkdir. Olmaz!*

*Hələ bu döyüşlərin sədası var – "döyüş avazı". Məsələn, minamyotun mərmisi ucur, əgər o fitəbənzər səsi eşidirsənsə, demək səndən kecdi. Səni öldürməyə gələni eşitmirsən.*

*Hələ bundan qabaq, deyək ki, Suriyaya gəlibsən. Öncə "pressa" mərkəzinə getmisənmi? Burada olduğunu bildirmisənmi? Yoxsa, ölsən, itsən, tutulsan, əsir düşsən heç kimin xəbəri olmayacaq.*

*Ön səngərə keçməyə kimdən icazə almalısan? Komandirlər sənin təhlükəsizliyinə sorunludurlarmı? Hələ orasını da deyək, nizami ordu zabitləri əsasən dövlət TV-lərindən gələn reportyorları qoruyurlar, çünki onlar orduya işləyirlər. Onları gözdən qıraqda qoymadan zirehli maşınlarla, mühafizə tağımı ilə qoruyurlar, yanlarında hər zaman cangüdənləri olur. Belə reportyorları təmas döyüşləri olmayan, nisbətən qorxusuz yerlərə aparırlar, topun, tankın, raketin, başqa ağır zərbələrin gözlənilən istiqmətini göstərirlər, çəkiliş qrupu da tezcənək mövzu kadrlarını doldurub əkilirlər.*

*Stringer isə belə qurama tamaşalarla işləmir, gerçək savaşları çəkirlər. Rəsmi redaksiya reportyorları bəzi nüansların bilməyərəkdən ipucunu verəndən, gedəndən sonra bu "yalquzaqlar", yəni "tənha qurdlar" hansı yolla olursa olsun özlərini ölüm-dirim səngərinə çatdırırlar. Buna görə də, məsələn Mosula, Ərbilə, ya Əfqanıstanın nəşə plantasiyaları yayılan dağ yamaclarına, dərələrinə gedəndə, öncədən – pressa xidmətinin rəhbərliyi ilə və ya komandirlərin hansı iləsə etibarlı, sıx əlaqə yaratmalısan. Əgər bunlardan keçərək sanballı müşahidəçi tapdınsa, deməli, dünyaya yayılası əsər yarada biləcəksən. Konkret şəraitdə sənə gərəkən adamlarla, komandirlərlə, yerli rəislərlə, ağsaqqallarla, nüfuzlu şəxslərlə, etibarlı və bacarıqlı dəliqanlılarla çulğaşmaq üçün* "dil tapmaq" qabi*liyyətin olmalıdır. Əks halda, güdaza gedə bilərsən.*

*Komandirlərin hər biri ilə onların öz dilində danışmaq gərəkir. Hərbçilər onlarla danışanda: "Elədir ki var!", "Oldu!", "İcazə verin müraciət edim!" deyəcəyini xoşlayırlar. Onda sənə: "Bizim adamdır!" deyirlər.*

*Elə məmurlarla da o cürdür. Çox vaxt onlara pul da verməli olursan. Oğul odur, inandırma yolu ilə pul verməsin.*

**Ən başlıcası operativ düşünmə qabiliyyətidir.** O ge*dişdəcə inandırıcı aldatma bacarığın olmalıdır. Əgər səni gözlənilmədən yolda saxlayıb, "Sən kimsən!?" soruşsalar, hə cür cavab verməyi həmin dəqiqə qarşı tərəfin intonasiyasından, sorum tərzindən aydınlaşdırmalısan. Durum dəyişdikcə sən də duruma uyğun dəyişməlisən. Olayların dalğalarından qırağa çıxmaq olmaz.*

*Stringer sənədləşməni də unutmur. Xüsusi akkreditasiyanı min bir yolla əldə edir. Axı demişdik, peşəkar stringer-reportyora bütün redaksiyalar sevinclə əl uzadır. Bəzən onların cibində 40-50 redaksiyanın işlək vəsiqəsi olur. Vaxtı kecmişləri hələ demirəm.*

*Stringer-reportyor inadçıl, təkidli, israrlı, səbatlı, sözünün üstündə duran, həm də hiyləgər, kələkbaz, fəndgir, bacarıqlı olmalıdır. O, səhər saat 6-da cantasını yığıb işi keçən məmurun (komandirin, rəisin, silahlı qruplaşma başçısının, ya hansısa cavabdeh şəxsin) yanına gəlib deyə bilər ki, məsələn, "Mən qızğın*

*döyüşlır gedən "Cəhənnəm dərəsi"nə getməliyəm". Və nə olursa olsun ora getməlidir. Lap, belə yol bələdçisi olmasa da.*

*Döyüşçülər müstəqil jurnalistlərə daha maraqla baxırlar. Onlara cəsarətlə, qorxmadan yaxınlaşmaq gərəkdir. Elə sezdirməlisən, guya köhnə dostların yanına gəlmisən.*

*Nizami orduda davranış həddi var. Separatçı, dağıdıcı, terrorçu döyüşçülərdə isə qadağan həddi yoxdur. İstənilən şəraitdə onlarla işləmək çətin və böyük riskdir. Onlar jurnalistə bazardakı mal kimi baxırlar. Səninlə danışırlar, ancaq duyursan ki, o düşünür: "Qəşəng kamerası var... Hələ vəsiqəsi... Yaxşıdır... Görsəsən o neçəyədir?"*

*Təhlükəli zonalarda stringer harada gəldi yatır, dincəlir. Əsgərlərlə birgə alaçıqda, səngərdə, qazmada... Oralarda ən sərt, pozuq xarakterli adamlar çox olur, fahişələrdən belə. Nələr baş vermir! Səngərdən arxada öyrəşmədiyin vaqonlar, budkalar, alaçıqlar, yarıuçuq evlər, onlardan arxada ucuz mehmanxanalar, silahlı qruplaşmanın qərargahı, Onlardan arxada isə öyrəşdiyimiz həyatdır. Səngərə yaxın olduqca şərait pis olur.*

*Döyüş zamanı səni unudurlar. Döyüşdə ançaq güllənin "gözündən oğurlanmalısan". Hamı üçün görünməz olman gərəkir. Vəziyyətin gərginliyi hər kəsi yükləyir. Səninlə heç kimin işi olmur. Arabir döyüş sakitləşəndə döyüşçülər kameraya əl edirlər, yəni guya onları tanıyanlara salam göndərirlər.*

*Zabitlərlə ünsiyyət asan olmur. Onların çoxu pressaya acıqlıdırlar, jurnalistləri yalanlarına görə sevmirlər. Və belə baxanda səhv etmirlər. Döyüş görmüş zabitlərin hamısının dərdi, kədəri olir. Cəmiyyət bunları çətin anlayır. Bu jurnalistlər də bir tərəfdən ağıllarına gələni yayırlar. Qərb ölkələrində münasibət bambaşqadır. Orada informasiyanı olduğu kimi verirlər. Döyüşdən sonra, bir dolça cay içib dincələndə jurnalist zəhmətinin gərəkliyini zabitlərə uzun-uzadı inandırmalı olursan.*

*Zabitlərdə o cür sərt və ərdəm xarakteri görəndən sonra hazırladığın reportajların düzgünlüyünə vicdanla yanaşırsan. İnformasiya savaşlarında yayımlanan dezinformasiyaların əley-*

*hinə işləyəndə daha böyük nüfuz qazanırsa. Redaksiyalar sənin materialının saxta olmadığını, qaynar hadisələrdən isti-isti gəldiyini biləndə donluğun, mükafatın daha çox olur.*

*Yalan yaymaq olmaz. Niyə? Düşünərsən, çəkilişlərinin düzgünlüyünü sübut edən yoxdur ha! Hərbi senzura səni sıxmır ha, xarici efirdə yoxlama yoxdur ha. Amma, yox! Onsuz da həqiqət üzə cıxacaq. Yalan yaymaqla o səngərə yolunu birdəfəlik bağlayırsan. Yaxud, sən getməsən də, başqa sringerlər bu yalanlardan əziyyət çəkirlər.*

*Bütün bunlara baxmayaraq, doğrunu yaydığına görə stringerləri xüsusi jurnalistlər, onların rəhbərləri, heç qəlibçi siyasilər də sevmirlər. Həm də ona görə gözləri götürmür ki, stringerlər operativdirlər, sərbəstdirlər, mobildirlər (yerlərini sürətlə dəyişə bilirlər), çoxlu pul qazanırlar. Onlar dövlət KİV-lərinin işini "qarışdırırlar", sirrləri açırlar. Hökumətə sərf etməyən xəbərlər yaydıqlarına görə onları çox yerə buraxmaq istəmirlər. Amma cəsur stringerin keçə bilmədiyi hədd yoxdur, o işinin başındadır.*

*"İnform. Agentlik stringerdən satın aldığı materialda müəllifin adını çox vaxt göstərmir. Ona görə də bu peşə yiyələri xalq içində hələm-hələm şöhrətlənə bilmirlər. Əvəzində özünə, cəsurluğuna, işinə sevgi onları yaşadır: sən birinsi oldun, hamıdan yaxşı, hamıdan tez məlumat gətirdin, sən hər şeyə qadirsən!*

*Qazanmaq üçün xərcləmək gərəkdir. Stringer xüsusi avadanlıqlarını özü alır, qırılanda özü düzəltdirir. Yol xərci, yemək, səfərlərdə qalacaq yer – hamısı onun öz cibindən gedir. Beləcə, "yalquzaqların" qonorarı ov gedişində yeyilib gedir." (Stringer Vitali Aqayev)*

*Onları bütün yollarla cəbhəyə buraxmamağa calışırlar. Dağıstanda müharibə başlayanda ora stringerlərin düşməməsi barədə qərar var idi. II İraq döyüşlərinə də NATO qadağa qoydu. İŞİD-də stringerləri amansızca ovlayır. Çeçenistanda MN-nin ağır qadağa qərarı var idi. Buna baxmayaraq "yalquzaqlar" hər yerdə dolaşırlar, həddləri keçə bilirlər.*

*Bəs biz onları niyə "stringer" – yəni "tənha ovçu", "yalquzaq", (tənha qurd) adlandırırıq? Çünki onlar "ov" dalıycan gedirlər. Bunun üçün gərək olan qədər pul xərcləyirlər, risk edirlər. Çünki informasiyanı onlar birinci çatdırmalıdırlar. Dünyanın harasındasa ictimai-qlobal hadisə baş veribsə, "qurdlar" ora yürüyürlər. Təbiətdəki kimi, qurdlar arasında heç vaxt dostluq ola bilməz, əksinə, çox ciddi, sərt, arsız-abırsız rəqabət var.*

*İnformasiya obyekti müəyyən olunduqda onlar bir-birini didirlər. Hətta hadisə yerinə başqa birinin tez çatmaması üçün bilet kassalarına, kimlərəsə rüşvət də verərlər.*

*Dövrümüzün tanınmış srtingeri, bakılı Eduard Cəfərovdan bir misal deyək: "Bir dəfə stringer "yoldaşlarla" restoranda oturmuşduq. Mobil telefona zəng gəldi. Sakit, həvəssiz danışırsan – heç kim bilmir kimlə, nədən danışırsan. Əslində telefonla Özbəkistanda, Yeni-Üzəndə kütləvi qırğın barədə təcili xəbər çatdırırdılar. Sakitcə, bir-iki bakal da ötürürsən, "həmkarlarının" şübhəsini öldürüsən, sonra deyirsən, "yarım saatlıq getməliyəm!", guya, məsəlçün, nənəm xəstədir. Bu arada yoldaşların da telefonları zəng çalır. Hərə öz rolunu oynayır, hərə bir yasdıq qoyur: kimi – qaynanasını basdırmağa, kimi mədəsini yudurtmağa. Hamı da vəd edir ki, burada gözləyin, tezliklə qayıdıram. Amma, bir saatdan sonra eyni uçaqda görüşürük. Bu – stringerin oyun qaydalarıdır. Məhz bu məsələdə onlardan təmizlik, düzlük, alicənablıq gözlənilmir. Bu lap "Cunqli qanunları"na oxşayır. Hamısı ondan ötəridir – hər bir əldəyməmiş ekskluziv məlumata çoxlu pul verəcəklər.*

*Hələ bu hamısı deyil, belə bir anlayış var: "kompaniya imici". Əgər sənin, məsələn, Bi-Bi-Si ilə müqavilən varsa, özümü o kompaniyanın fədakarı hesab edirən, onun şöhrətini qoruyuran, ortada lap pul olmasa belə. Stringerlik ançaq qazanc deyil. Siftə-siftə puldan ləzət alırsan, sonra isə qazanc üçüncü plana keçir. Stringerlik, nəsə başqa anlayışdır – idmandır, adrenalindir, özünəxas düşüncədir, ildırımgedişli diaqnozdur. Bir sözlə, həyat*

*tərzidir, narkomaniyanın müalicəsindən də çətin olan sağalmaz xəstəliyin ağır formasıdır." Bax, bu cür.*

*Bu peşənin şərtləri belədir. Durub burnunun suyunu axıtsan, kövrəlsən heç nə çəkə bilməyəcəksən, əldən düşəcəksən. Sonra da dizinə döyürsən, araba təkərləri kimi yerində eşələnirsən.*

*Amma o fəlakət səhnələrində iş var – öldürürlər? Hönkür-hönkür ağlaşırlar? Nə olsun ki... Stringerə elə bu gərəkdir – qoy yaxşı-yaxşı ağlasınlar. Sən də çəkdin və getdin... Bu hallardan heç də tükləriniz tikanaqlamasın. Reportyor bunları çəkməlidir! Məsələn, ORT, RTR jurnalistləri abxaziyada çəkilişlər edirlər. Nənələr ağlaşır, orada qadın haray çəkir, 10 tabut yan-yana. Dərd! Çəkiliş qrupu operatorla birlikdə göz yaşı içində, burunlarından selik axır. Belə də obyektiv olmayan, birtərəfli reportaj alınır.*

***Başqa bir misal. 2014-ün avqustu. Qarabağ savaşından gətirilən meyidləri çəkən reportyorlar bir-biri ilə sözləşibmiş kimi "Ananın fəryadı!", "Şəhid atasının harayı!", "Şəhid bacısının göz yaşları", "Bir ailənin fəlakəti!", buna bənzər incə-mincə titrək səslə tabutun üzərinə sərilən valideynləri göstərməsi stringer xarakterinə yaddır. Stringer fəlakət səhnələrini canlı çəkənlərdir.***

*Stringer yola çıxıb. Yol bağlıdır – ora düşmək demək olar, çətindir. Orada sənin çənəni də qıra bilərlər, tikə-parça da edə bilərlər. Qorxuludur! Sən isə qorxma – sərhəddi keç, cəbhə xəttini gəz. Bu keçilmiş nümunədir: ağ parça götürüb qorxuya və riskə doğru get. Alınır. Sonra fırlanıb çəbhənin o biri tərəfinə keç, orada da oxşar mənzərədir: meyidlər və ağlar analar. Sən hər iki tərəfin mövqeyini bildirməlisən. Ancaq ehtirassız, soyuq başlı faktlarla. Tele seyrçi özü ayırd etməlidir, nə baş verir, kim haqlıdır, kim haqsızdır. Bütün hallarda, öldürülən yerdə haqq axtarmaq mümkün deyil.*

*Bu hadisələri görə bilmək, insanları xəbərdar etmək üçün o maneələri keçmək gərəkdir. Bu isə yerindən, milliyyətindən, coğrafiyasından asılıdır. Əgər komandirlər araq içəndirsə onlarla yaxşıca oturub içməyi bacarmaq, buna görə ora gedəndə azı*

*bir yeşik araq aparmaq gərəkdir. MDB məkanında içki ən yaxşı ünsiyyət yoludur. Ondan sonra sənə etimad və etibar göstərirlər.*

*Təhlükəli zonalara gedəndə hansı milliyyətdən olmağı da stringerin düşünməli olduğu anlayışdır. Qarşı tərəf özününkünə və neytral insana rəğbət bəsləyə bilir.*

*Savaş meydanı dustaqxana kimidir. Sən ovucun içindəsən. Döyüşçülər qorxaqlığı, satqınlığı, əfəlliyi həzm edə bilmirlər. Zarafat eləmək olmaz. İkicə saniyəyə kitabını qatlayarlar. Fiziki zəiflik bağışlanılır – hər adam ştanq qaldıra bilməz, çiyni ilə ZTR itələyə bilməz. Savaşda bütün hisslər gərginləşir: inciklik, acıq, hiddət, qəzəb, kin, qərəz, paxıllıq, həsəd, qibtə... Və əgər razılıq ortaqlığına gəlmədinsə səni heç bir yerə götürməyəcəklər. Orada heç vaxt yürüşün necə olacağını bilmək olmur, asan olacağını düşünürsən, əvəzində ölümlə də üzləşə bilirsən.*

*Heç bir jurnalistin döyüşçü paltarı geyinmək ixtiyarı yoxdur. Sıravi paltarda olanları öldürmək snayperlərə sərf eləmir, onlara buna görə pul vermirlər. Əgər hərbi geyimdə əsir düşərsənsə, 40 dənə vəsiqə göstərsən də sənə inanmayacaqlar. Hətta döyüşçünün alt tumanını belə geyinmək olmaz.*

*Ölüm qorxusu stringerin huşundan heç vaxt çıxa bilməz. O, da insandır, lakin bu barədə danışmaq bu peşə yiyələrinə qadağandır. Qapanmış mövzudur. Amma, döyüşdə əli silahlılardan daha çox əlində fotoaparat, ya kamera olan adam həyacan keçirir. Unutmayaq, göydə uçan sağsağan deyil – güllələrdir.*

*Eduard Cəfərov birinci Çeçen savaşından bir epizodu xatırlatmışdı: "Amerikalı stringer-jurnalsit Sintiya Elbaum ilə Qroznuda yol ayrıcında durmuşduq. Gedəcəyimiz səmti razılaşıb ayrılmağımızdan bir necə saniyə geçmiş meydana bomba düşdü, Sintiyanın başını qopartdı, baş bizim ayağımızın altına dığırlandı. Biz həmən dəqiqə kameralarımızı götürdük." Bu professionalın ilk reaksiyası idi. Bizə belə epizodlar gərəkdir. Çərrahın, pataloqoanatomun, travmotoloqun da işi buna bənzəyir. Belə peşə çoxdur...*

*Fəlakət anlarında yaralananlar da, ölənlər də, yardımçılar da, xilasedicilər də, həkimlər də olur. Bu yaxşıdır. Sən də öz işindəsən. Əgər heç kim yoxdursa, yanında insan ölürsə, bilirsən*

*ki, ona kömək edə bilməyəcən. Ona görə də çəkməlisən, birdən o nəsə deyər, bu da onun sonuncü sözü olar? Bu qiymətsiz faktdır. Ancaq ora bura qaçıb ona yardım etməyə çalışsan, nə onu xilas edə biləcən, nə də o qiymətli anları yaddaşa yaza biləcən.*

*Bu anlar doğrudan da dəyərlidir. 1 dəqiqəlik reportaja 500 dollar verən kompaniyalar var. Eləsi var bütün materialı alır. Əgər səni professional kimi tanıyırlarsa əlavə ezamiyyət xərcləri də verirlər. Sən özünlə super material – həqiqi döyüş, ölənlərin, yaralıların görsənişlərin gətirmisənsə 1500-dən 10.000 dollara kimi ala bilərsən. Hamısı materialın dünya miqyasında mənasından asılıdır.*

*Eduard Cəfərov fotoqraf Viktoriya İvleva ilə 20 yanvar 1990-cı ildə Moskvanın cəza ordusunun Bakıya girişini birbəbir çəkib – tankları, atışmanı, qırğını... Onun video materialını BBC və NBC 20 min dollara həmən almışdı. Dəyər bu deyil, dünyanın bir andaca bütün gerçəkləri görə bilməsindədir.*

*Zamanına və məkanına, sosial-qlobal dəyərinə görə qiymətlər dəyişir. İndi dünyanın çox-çox sərhədləri açıqdır. İndi ən əlcatmaz sərhəd İŞİD-dir, Nigeriyada terror aktları törədən "Boko Haram" qruplaşmasıdır, bir də keçidləri bərk-bərk qapadılmış Quzey Koreyadır. Kim İr Sen öləndə heç olmasa Pxenyan meydanını çəkənə CNN 25 min dollar mükafat verdi. Koreyanın qiyməti bu gün də çox bahadır.*

*Amerika ordusu Əfqanıstanı bombardman edəndə fakt toplamaq çox çətinləşmişdi. Bombaların hara düşdüyü görünmürdü, tüstünü belə çəkmək mümkün deyildi, təmas döyüşləri yox idi. Jurnalistlər əfqanlara atəş açmağı xahiş edirdilər və onlar da hara gəldi güllə səpələyirdilər. Ekranda elə təsəvvür olunurdu ki, orada döyüş gedir. Bəzən belə də olur. Stringer videoyazıda harada düzəliş olduğunu rahatca ayırd edə bilir.*

*Əsl döyüş qorxunc, müdhiş, faciəli, tük ürpərdici mənzərədir. Bu ekstrim deməkdir. O yerdə, görcəkdən, hər şey yanır, o yerdə yalnız söyüş-bağırtı səsləri eşidirsən, o yerdə insanların gözləri dəhşətlidir, gözlərdə qorxu var, qanda adrenalinin həddi*

*kəlləçarxa çıxır, bilmirsən canını harada gizlədəsən, əsl məhşər! Sənin barəndə heç kim düşünmür. Hamı qaçır, yerə sərilir, yıxılır, Hamı sağ qalmağa çalışır, düşmənləri yerə sərirlər. Bax, bu savaşdır, döyüşdür. Sən də oradasan.*

*Axıra kimi orada olmalısan, axıra kimi də çəkməlisən. Bu sənin işindir. Olacaqlar isə taleyin işidir. Gözünü çəkdinsə, görünməzə çəkildinsə orada bir daha təkrar olunmayan kadr itir. Döyüşün sonunu oncədən bilmək olmur. Döyüşdə hər şey ola bilir – qorxmaq da, qaçmaq da...*

*Müharibədə ancaq zarafat edirlər, yəni şuxluq etmək istəyirlər. Belə olanda qorxu üstələnir, gün hiss edilmədən keçir. Kövrəlmək olmaz. Zəif bəndə düşə bilərsən.*

*Dağ cığırlarını, aşırınmları, təpələri qalxanda, təkcə 25 kq-lıq aparaturanı – kameranı, kassetləri, batareyaları, ehtiyat kameranı, üstəlik belindəki əşya çantasını – cəmi 40-50 kq-a yaxın yükü sürüyüəndə inildəmək olmaz! Çarə ancaq şuxluq etməyə qalır. Hələ çəkiliş zamanı gərəkən yüksəkliyi tapmaq, sürətlə orada mövqe tutmaq, tez-tez yerini dəyişmək, dəyişə bilmək. Şeylərini haradasa qoysan, sonra ora qayıtmaya bilərsən. Yaşayış yerlərində evlərin çardaqlarına çıxmaq, yuxarı mənzillərdən birində yer tapmaq asan olmur.*

*Daha qorxulu anlar kütlə özbaşınalığı zamanı olur. Şəhər döyüşlərinin şəraiti xüsusən təhlükəlidir. Bakıda, Sumqayıtda məlum erməni təxribatları zamanı, Fərqanədə özbəklər Mesheti türklərini öldürən zaman, sonra Qırğızıstanda qırğızlar özbəkləri doğrayan zaman, Tiflisdə də Qamsaxurdiya sarayını ələ kecirərkən kütlə içində olmaq təhlükə idi. Saniyə anında halı müəyyən etmək gərəkir – yanındakı kimdir. Çox ehtiyatla danışmaq lazımdır. Birdən bilmədən Qamsaxurdiyanın dalınca nəsə deyərsən, oda Qamsaxurdiyanın adamı olar, sənin qarnını cırar.*

**Savaşlar heç vaxt bitməyəcək.** Ona görə ki, bir adada cəmi iki insan yaşasa belə, onlar mütləq nədənsə ötəri savaşacaqlar. Biz qalmaqalsız, qovğasız, cəncəlsiz, vuruşmasız qala bilmirik. Yaradan bu savaşlarla, bəlkə də, Yer üzündə bəşərin artım balansını saxlayır, yoxsa coxdan bizə yaşamağa yer olmazdı.

**Savaşlar heç vaxt bitməyəcək, stringerlər də həmişə gənc qurd kimi yollarda olacaqlar.**

Ps! *Sabit əmək haqqı ilə yaşamağa çalışan insan stringer ola bilməz.*

*Stringer olmağı arzulayan hər kəs unutmamalıdır – bu peşənin yükümlüləri uzun ömür yaşamırlar.*

Mühüm keyfiyyət

Yüksək özünüqoruma hissi ilə cəsarəti, cürəti, igidliyi, qoçaqlığı, ürəkliliyi, hünəri şəraitə uyğunlaşdıra bilməsi; təşəbbüskarlığı və aydın məqsədli olması – məqsədyönlülüyü; intellekti, insanları tanıma qabiliyyəti və müxtəlif insanlarla ümumi dil tapmaq bacarığı; intuisiya, sürətli reaksiya, yüksək mütəşəkkillik; yaxşı fiziki forma, işləmək bacarığı; çeviklik, araşdırıcılığı; yalnız özünəgüvən düşüncəsi.

Stringerin bilik və bacarıqları

Stringerə təkcə jurnalist bilik və bacarıqları (janrdan asılı olaraq yazmaq, ya şəkil çəkmək) yetərli deyil. O, cari hadisələrlə, siyasətlə maraqlanmalıdır. Ayrı-ayrı ölkələrdə işləmək üçün xarici dilləri bilməlidir.

*(Mühazirədə Etibar Cəfərovun, Vitali Ağayevin müsahibələrindən geniş istifadə edilib.)*

# Fövqəladə halların xarakteri

Fövqəladə hallar minlərlə insanın həyatına son qoyur, külli miqdarda iqtisadi ziyan vurur, əsrlərlə yaradılmış maddi, mədəni nemətləri dağıdır, yox edir. Bununla bağlı müxtəlif şəraitlərdə yaşayanların mühafizəsi üsulları bütün tarixi boyu düşüncə mövzusu olub.

Bütün yaşam və fəaliyyət sahələrində insanların mühafizəsi probleminə nəzər saldıqda tam təhlükəsizlyin mümkün olmadığı nəticəsinə gəlirik. Maksimal təhlükəsizliyi (imkan qədər) həyat fəaliyyətinin optimal təşkili yolu ilə təmin etmək mümkündür.

*Ekstremal halın istənilən fazasında böhranın səngidilməsində, əhalinin ayıq-sayıq – informasiyalı olmasında, ekstremal şəraitə nəzarət edənlərə nəzarət etməkdə, ümumiyyətlə hadisənin məqsədəuyğun yönə istiqamətləndirilməsində jurnalist məlumatı, şərhi, bir sözlə müdaxiləsi çox ciddi təsir və xidmət vasitəsidir.*

Fövqəl adi – qeyri adi, insanların gözləmədiyi, onların həyatına, duyğu və düşüncələrinə həmin anda dəhşətli təsir göstərən olaylara insanlar qeyri ixtiyari maraq göstərirlər. Bu, insanların həm özünümüdafiə instinkti, həm yeniyə dəyişilmişə maraq, həm də belə proseslərdən öyrənmək istəkləri ilə izah oluna bilər. Daim oxucu, seyrçi, dinləyici ajiotajı yaratmaq cəhdi ilə yaşayan Kütləvi İnformasiya Vasitələri insanlığın bu təbii və fövqəl-təbii istəklərini təmin etmək üçün daim bu tip olay yerlərinə can atır.

*Hadisə yerində naşı olmayaq deyə fövqəladə halların xarakterini öyrənməliyik.*

*Fövqəladə hadisə, fövqəladə hal, fövqəladə vəziyyət, ekstremal hadisə,* ümumiyyətlə *ekstremallıq* nədir?

**Fövqəladə hadisə** – qəzalar, texnogen, təbii və ya digər fəla_ kətlər, epidemiya, epizotiya, epifitotiya, habelə müasir qırğın vasitələri işlədilməsi nəticəsində müəyyən ərazidə insan tələfatına, xeyli maddi itkilərə, ətraf mühitə zərər

dəyməsinə səbəb olan, yaxud ola biləcək və əhalinin normal həyat fəaliyyətini pozan olaylardır.

Fövqəladə hadisələr nəticəsində yaranmış və müəyyən müddət davam edən belə əlverişsiz şəraitə **fövqəladə hal** deyilir.

Fövqəladə hadisə və hallar zamanı əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Respublika Qanunvericiliyinə uyğun olaraq müəyyən ərazidə, yaxud rayonda qoyulan müvəqqəti hüquqi dövlət idarəetmə rejimi isə **Fövqəladə vəziyyət** adlanır. Adətən hərbi-siyasi hadisələrlə əlaqədar elan edilir. Fövqəladı vəziyyətdə idarə üsuluna **fövqəladı rejim** deyilir.

**Ekstremal hadisə** – təsirinə görə adi, normal halda baş verən hadisələrdən və proseslərdən xeyli dərəcədə kəskin surətdə fərqlənən olaydır. *Bunlar sosial-siyasi, texnogen, ekoloji, təbii mənşəli də ola bilər. Ekstremallıq qorxunun, fəlakətin, gərginliyin son həddi, ölüm-qalımla çarpışma anı kimi də anlaşılır. Müxbirin qarşı tərəflə münasibətlərinin qəzəb səviyyəsi də ekstremallıq yarada bilir.*

Təsir dairəsinə (miqyasına) görə və nəticələrinin ağırlığı üzrə fövqəladə hadisələr: lokal (qismi), obyekt səciyyəli, yerli, regional, milli və ya qlobal xarakterli ola bilər.

**Lokal (qismi) fövqəladə hadisələr** – iş yerindən, iş sahəsindən, mənzildən kənara yayılmır.

**Obyekt miqyaslı (səciyyəli) fövqəladə hadisələr** – sənaye obyektində, bina və qurğu hüdudlarında məhdudlaşır.

**Yerli fövqəladə hadisələr** – ancaq yaşayış məntəqəsinin, təkcə bir şəhərin və ya kənd təsərrüfatı müəssisəsinin ərazisində özünü göstərir.

**Regional fövqəladə hadisə** – bir neçə sənaye və ya kənd təsərrüfatı rayonları, bütünlüklə şəhəri və onun ətraflarını əhatə edir.

**Milli miqyaslı fövqəladə hadisələr** – respublikanın xeyli ərazisini əhatə edən, lakin dövlətin inzibati sərhədlərindən kənara çıxmayan hadisələrdir.

**Qlobal fövqəladə hadisələr** – bir ölkənin ərazisində məhdudlaşmır, qonşu dövlətlərin də ərazilərinə yayılır.

Təsir dairəsindən (yayılma miqyasından) əlavə, Fövqəladə hallar insan tələfatının miqdarına, zədələnmiş (köçürülmə ehtiyacı olan) əhalinin sayına, habelə dəymiş zərərin miqyasına görə də təsnif edilir.

Milli və qlobal fövqəladə hadisələrə aid keyfiyyət və kəmiyyət xarakteristikasının qiymətləndirilməsi məsələləri indiyədək daha az işlənib öyrənilib. Ümumiləşdirilmiş statistik materialların nəticələri bu boşluğun aradan qaldırılmasına, bir sıra yeni qiymətləndirmə xarakteristikalarının, o cümlədən dövlət idarəetmə sisteminin fövqəladə hadisələrə davamlılığı dərəcəsinin qiymətləndirilməsi üzrə xarakteristikalar əldə edilməsinə imkan verdi.

*(İnkişaf etmiş ölkələrdə təhlükəsizliyin təmin olunması sahəsindəki təcrübə göstərir ki, fövqəladə hadisələrin qarşısının alınması (problemin həlli) üçün nəhəng xərclər qoyulur. Təhlükələrin azaldılması məqsədi ilə tənzimləyici tədbirlərin həyata keçirildiyi Avropa ölkələrində 10 il ərzində fövqəladə hadisələrin sayı 7-10 dəfə az olmuşdur. Məhz belə tədbirlər iqtisadi cəhətdən daha az xərc tələb edir.)*

Ümumiyyətlə fövqəladə hadisələrin qarşısının alınmasında və bunların nəticələrinin zəiflədilməsi tədbirlərinin əsasında **əhalinin fövqəladə hadisələrə hazırlıq səviyyəsi** durmalıdır.

*(Azərbaycanımızın ərazisinin geosiyasi, coğrafi mövqeyi, onun mənfi 28 metrdən müsbət 4466 metrə qədər dəyişən relyefi, iqlim müxtəlifliyi, rəngarəng landşaftı insan həyatı üçün əlverişli şərait yaratmaqla yanaşı, məhəlli münaqişələri, həmçinin hər vaxt baş verə biləcək bir sıra dağıdıcı prosesləri də təbiət ondan əsirgəməmişdir.)*

Xarici ölkələrin təcrübəsi Azərbaycan əhalisinin fövqəladə hadisələrə hazırlıq səviyyəsi ilə müqaisədə çox zəngindir. Bu sahədə geniş məlumatların televiziyada, mətbuatda verilməsi, əhalinin maarifləndirilməsini artırmaq məqsədi ilə külli miqdarda yeni

ədəbiyyatın çaplanması, "Həyat fəaliyyətinin təhlükəsizliyinin əsasları", "Riskin idarə olunması", "Mülki mühafizə" və digər jurnalları göstərmək olar.

Hazırda respublikamızda fövqəladə hallardan mühafizə sahəsində əhalinin maarifləndirilməsi və mütəxəssislərin hazırlanmasının kifayət qədər əməli sistemi formalaşmaqdadır. Belə ki, Fövqəladə Hallar Nazirliyinin, bu sahədə ixtisaslaşan QHT-lərin, "Fövqəl" Assosiasiyasının mütəxəssisləri tərəfindən müxtəlif insan qrupları üçün təhsil, tədris proqramları, dərsliklər, təlim-metodik vəsaitlər hazırlanıb.

Buna baxmayaraq, əhalinin böyük hissəsinin fövqəladə hallara hazırlanması, riskli obyektlərdə işləyənlərə bu sahədə biliklərin aşılanması üçün görülən tədbirlər yetərli deyil.

*Hazırda əhalinin geniş kütləsinin – uşaqların, işləməyən əhalinin, qaçqın və köçgünlərin böyük hissəsinin fövqəladə halların baş vermə səbəblərindən, qorunma və davranış qaydalarından məlumatları yox dərəcəsindədir. Araşdırmalar göstərir ki, əhalinin ən zəif qorunan qrupları da onlardır. Bütün fövqəladə hallarda məhz bu insan qrupları daha çox təhlükəyə məruz qalırlar. Belə lokal, yerli fövqəladə hadisə yerinə gələn müxbir, reportyor informasiya almaqda çətinliklər yaşayır.*

Fövqəladə hallarla bağlı istənilən spesifik sahənin sözügedən mövzuda məziyyətləri barədə bilgilərinizi artırmaq istəsəniz Fövqəladə Hallarla Nazırliyinə, sizin dostunuz "Fövqəl" Assosiasiyasına mütləq müraciət edin. Fövqəl hallarda bilgisizlikdən çaşmayasınız deyə.

# Ekstremal şəraitdə davranış
## yola çıxmazdan öncə

Redaksiyada səlahiyyətli şəxslər tərəfindən təhlükəli bölgələrinin siyahısı hazırlanır.

**Təhlükəli bölgə** ekstremallığı nöqteyi-nəzərindən fövqalədə, yaxud anormal risk dərəcəsi daşıyan yerlərdir. Durumun kateqoriyasına uyğun olaraq hazırlaşılıb gedilməsi gərəkir:

✓ ümumiyyətlə döyüş əməliyyatları gedən böyük risk bölg**ələri;**

✓ **yanğın, sel, terror dəstəsi, daxili sabitsizlik, yaxud qruplararası savaşın davam etdiyi anormal və yüksək risk bölgələri.**

Təhlükəli bölgələr siyahısına salınan yerlərə müxbir göndərilməsindən əvvəl redaksiyada aşağıdakı mövzuları əhatə edən təlimat mətni hazırlanmalıdır:

1. *qarşıya qoyulan hədəf/məqsəd:*
2. *göndəriləsi müxbirlərin siyahısı (yardımçı, tərçüməçi, operator və s.)*
3. *qoyulmuş tapşırığın müddəti;*
4. *yemək, içmək və s. təchizat şərtləri;*
5. *mənzil başına çatmaqdan ötrü nəzərdə tutulan nəqliyyat vasitələri (mümkün olduğu hallarda zirehli texnika da daxildir).*
6. *hadisə yerində əməkdaşlıq ediləcək şəxslər (tərcüməçi, yardımçı və s.);*
7. *dosye təlimatları.*

***Göndərilməsi müəyyənləşdirilən heyət mütləq tibbi müayinədən keçirilməlidir.***

**Tibbi müayinə:**

1. ümumi *müayinə,*
2. ürək kardioqramı,
3. *köks qəfəsinin rentgeni,*
4. *ağız və diş müayinəsi,*

5. *peyvəndləri yoxlama,*
6. *uşaq iflici və tif,*
7. *vərəm,*
8. *meninqit,*
9. *sarı humma (məcburi).*

Bundan sonra bir ay müddətində başqa bir peyvənd edilməməli, hepatit A (tövsiyə edilir), hepatit B (tövsiyə edilir). Qızdırma həbləri (yola çıxarkən atmağa başlanmalı və geri döndükdən sonrakı 45 gün ərzində davam etdirməli).

**Bu mövzularda məlumatlandırılmalı:**

1. *AİDS,*
2. *qızdırma,*
3. *narkotika,*
4. *diş, ağız qiqiyenası,*
5. ümumi gigiyena.
6. *qan qurupunun dəqiqliyi.*

(Qanköçürmə zərurəti hallarında xəstənin və donor qrupunun məlum olması müalicə prosesində gecikmələri aradan qaldıra bilər.)

İlk yardım kursu keçilməsi məsləhətdir. Təkbaşına yola çıxacağınız hallarda bu daha vacibdir.

**Cibinizdə olması vacib sənədlər:**

1. şəxsiyyət vəsiqəsi (ən azı altı ay müddəti olmalıdır),
2. *jurnalist vəsiqəsi,*
3. *akreditasiya vərəqəsi,*
4. *beynəlxalq peyvənd sənədi,*
5. *beynəlxalq pasport,*
6. *nəqd dollar,*
7. *yol və şəhər xəritələri,*
8. *planlaşdırılan marşrutun rəsmi təsdiqlənmiş yol vərəqi (diplomatik təmsilçilik, beynəlxalq təşkilatlar və s. siyahısı).*

**Redaktorun Riski Dəyərləndirmə Formasının doldurulması gərəkdir. Formada bu mövzular yer alır:**

- ✓ *vəzifə borcundan irəli gələn risklər (təfsilatlı);*
- ✓ *vəzifənin jurnalistika nöqteyi-nəzərindən daşıdığı dəyərin təsdiqlənməsi;*
- ✓ *göndərilən hər bir şəxsin təhlükəsizlik kurslarından keçməsinin təsdiq edilməsi;*
- ✓ *göndərilən hər bir şəxsin konkret risklər baxımından təhlükəsizlik kurslarından keçməsini təsdiq etməsi;*
- ✓ *göndərilən hər bir şəxsin vəzifə başında qar*şılaşa biləcəyi şeylər, ***təhlükəsizlik şərtlərinin proqramın şərtlərindən vacib olması haqda məlumatlandırılmasını*** *təsdiq etməsi.*

*Bütün sənədlərlə birlikdə qoyulmuş qaydalara uyğun formada sığortalanma proseduru da həll edilməlidir.*

**Redaksiya əməkdaşlarının ərazidə təhlükəsiz çalışmaları üçün lazımi geyimlə təmin edilmələri vacibdir.**

*Müxbir (reportyor) təhlükəli situasiyalara dair siyahılara salınmış bölgələrdə özünün və heyətin bütün hərəkətləri üçün məsuliyyət daşıyır.*

**Müxbirdən tələb olunur:**

- ✓ *hərəkat ərazisində çalışan hər bir əməkdaşın fəaliyyətindən hər an xəbərdar olmaq;*
- ✓ *həyata keçirilən bütün hərəkətlərə razılıq verib-verməmək, irəlicədən razılaşdırılmış hərəkətlərin doğuracağı riski dəyərləndirmək, gündəlik iş planını tərtib etmək.*

***Beləliklə, siz həyatınız üçün yüksək risq edərək təhlükəli bölgəyə gedirsiniz. Bü kifayət qədər böyük cəsürluq və şərəf gətirən addımdır. Siz insanların daha dürüst informasiya alması üçün peşənizin sizə verdiyi ən uca şansdan yararlanırsınız.***

## Savaş meydanına ezamiyyə akkreditəsi

Müxbirin hərbi (hərbləşdirilmiş) obyektlərdə qəbulu və alınmış məlumatin (məktub, teleqram və s.) araşdirilmasi ayrıca bir prosedurdur.

Öncə, bölmələri nəzərdə tutduğunuz yerdə döyüş aparan, ekstremal şəraitə nəzarət edən Güc qurumunun (MN, DİN, MTN, SQ,) Mətbuat Xidmətinə yazılı və şifahi şəkildə müraciət etməlisiniz. Burada KİV-lə işləməyə cavabdeh olan zabitlə görüşürsünüz.

"Müdafiə Nazirliyin Mətbuat xidmətinə gündə orta hesabla 30-35 şifahi müraciətlər edilir və Mətbuat Xidmətinin əməkdaşları bu sualları dərhal cavablandırırlar. Belə olmadıqda, cavabı dəqiqləşdirmək üçün müraciət edəndən bir neçə (1-2) saatlığa möhlət istənilir, cavab dəqiqləşdirilib ona çatdırılır.

Arxa cəbhədə KİV təşkilatları *(qəzet redaksiyaları, tele-radio şirkətləri, internet sayt işçiləri, ayrı-ayrı KİV nümayəndələri, və s.)* hansısa mübahisəli məsələnin *(tədris müəssisələrində, h/hissələrdə və s.)* mahiyyətini aydınlaşdırmaq üçün Nazirliyin Mətbuat Xidmətinə yazılı müraciət etməlidirlər. Əgər olay "açıq məlumat" xarakterlidirsə, Nazirliyin uğurundan bəhs edirsə, onlar özləri bu infor*masiyanın yayımlanmasında maraqlıdırlarsa telefon zəngi də bəs edəcək.*

Müraciət alındıqdan sonra Mətbuat Xidməti onun mahiyyətini aidiyyəti olan komandirə (rəisə) catdırır və **lazım bilinirsə** komandirin (rəisin) ünvanına məktub (akkreditə) yazılır və bu barədə komandirə (rəisə) məlumat verilir. Siz gözlənilə bilən hər hansı xoşa gəlməz hadisədən "sığortalanmaq" üçün bu icazəni almalısınız.

Obyektə gəlmiş jurnalist (müxbir) komandirlə (rəislə) görüşüb özünü təqdim edir və gəlişinin səbəbini deyir. Bu məqamdan mübahisəli məsələnin araşdırılması başlanır.

Komandir (rəis) məsələnin mahiyyətini öyrəndikdən sonra komanda üzrə aidiyyatı olan şəxslərə xəbərdarlıq edib onları jurnalistlərlə görüşdürür.

Obyektin araşdırılması bitdikdən sonra jurnalist bu barədə hissə komandirinə (rəisə) məlumat verib son nəticəni ona bildirir. Bu şəkildə müxbir hərbi obyektlərdə qəbul edilir.

*Müxbir araşdırma apararkən tam səmimi olmalı, heç bir qərəzli məqsəd güdməməlidir. Onun hərbi hissədə (obyektdə) araşdırma aparması hissə komandanlığına həm də yardım göstərmək məqsədi daşımalı və qaranlıq mətləblərə işıq salmalıdır.*

***Qəzet, jurnal, tele-radio sirkəti və digər təşkilatlar ordu mövzusunda yazan jurnalistlərin püxtələşməsi məqsədi ilə bu sahəyə daimi olaraq eyni şəxsi təyin etmələri məsləhətdir. Bu, ordu mövzusunda yazan müxbirlərin kamilləşməsinin ən kəsə yoludur.***

**Akkreditasiya** «akreditə etmək» latıncadan (acredere) tərcümədə «etibar etmək», «etimad göstərmək» deməkdir. Əvvəllər «akreditasiya» anlayışından beynəlxalq hüquqda istifadə olunurdu və o, xarici dövlətlərdə və ya beynəlxalq təşkilatlarda digər ölkənin nümayəndəsinin təyin edilməsi və tanınması prosedurasını, habelə beynəlxalq təşkilatlarda jurnalistlərin təmsil olunması (səlahiyyətlərinin təsdiq olunması) prosedurunu bildirirdi. Sonradan bu termindən daha geniş mənada – təkcə beynəlxalq təşkilatlarda yox, həm də istənilən dövlət orqanlarında jurnalistlərin səlahiyyətlərinin tanınması prosedurası kimi istifadə edilməyə başlandı.

Kütləvi informasiya vasitələri haqqında Qanunun 50-ci maddəsinə əsasən ***kütləvi informasiya vasitələri dövlət orqanlarının idarə, müəssisə və təşkilatların, ictimai birliklərin razılığı ilə və müəyyən etdikləri akkreditə qaydalarına əməl etməklə onların nəzdində öz jurnalistlərini akkreditə etdirə bilərlər.*** Həmin orqanlar *akkreditə olunmuş jurnalistə* ***qapalı tədbirlər istisna olmaqla*** *iclas, müşavirə və başqa tədbirlər barədə qabaqcadan məlumat verir, onun stenoqramlarla, protokollarla və başqa sənədlərlə tanış olması üçün şərait yaradırlar. KİV redaksiyalarının xüsusi müxbirlərinin akkreditəsi də bu qaydada həyata keçirilir.*

Kütləvi informasiya vasitəsinin verdiyi ərizədə adları göstərilən jurnalistlər akkreditə olunurlar. Akkreditasiya KİV haqqında Qanun və akkreditə edən subyektlərin təsdiq etdiyi akkreditasiya qaydaları əsasında tənzimlənir.

Akkreditasiya institutu jurnalistlərin peşə fəaliyyətinin həyata keçirmələri üçün daha əlverişli şərait yaratmaqla, informasiya mənbəyi olan təşkilatlara kütləvi informasiya vasitələrinin qarşılıqlı əlaqələrini tənzimləməyə xidmət etməlidir. Məsələn, iclasın, müşavirənin və ya digər tədbirin qapalı keçirilməsi haqqında qərar qəbul edildiyi hallar istisna olmaqla, akkreditə edilmiş jurnalistlərə akkreditə edən orqanın bütün iclaslarında, müşavirələrində və digər tədbirlərində iştirak etmək hüququ verilir. Qeyd etmək gərəkdir ki, jurnalisti akkreditə etmiş orqanın üzərinə bu cür tədbirlərin keçirilməsi barədə ona qabaqcadan məlumat vermək, habelə audio və videoyazı üçün, foto və kino çəkilişi üçün əlverişli şərait yaratmaq vəzifəsi qoyulur.

KİV haqqında Qanunun 50-ci maddəsi bütün təşkilatlarına, siyası və ictimai təşkilatlara öz Akkreditasiya Qaydalarını müstəqil müəyyən etmək hüquqi verir. Həmin Qaydalar qanunlara uyğun olmalı, məlumat və mətbuat azadlığına, jurnalistlərin hüquqlarına zərər vurmamalıdır. Akkreditasiya haqqında Nümunəvi Qaydalar, həmçinin onların işlənib hazırlanması üçün vahid norma və anlayışlar yoxdur. Lakin bir çox məsələlər bərqərar olmuş ənənələr əsasında, sağlam düşüncə, daxili mədəniyyət, hüquq düşüncəsinin səviyyəsi və yazılmamış əxlaq qaydaları, əxlaq standartları əsasında tənzimlənir.

# Ekstremal şəraitdə informasiya almağın bəzi psixoloji məqamları

***Müxbir üçün informasiyanın toplanılması*** informasiyanın təhlil edilib auditoriyaya catdırılmasından son dərəcə ağır bir işdir. Kifayət qədər məsul və ciddi olan bu iş təkcə müxbirdən təhsil səviyyəsi və peşəkarlıq tələb etmir. Bəlkə də daha çox ***fitri qabiliyyət, adaptiv temperament, psixoloji həssaslıq və möhkəmlik, cins, yaş, zahiri görkəm adekvatlığı tələb edir.***

Qeyd edilən vəziyyətlərdə ***informasiya toplanışı müxbirdən*** həmçinin ***kəşfiyatçı keyyfiyəti və müxtəlif ampluada çıxış etmə qabiliyyətinə malik aktyor bacarığını istəyir.***

Müxbirin «kəşfiyatçı» olması nə üçün gərəkdir:

- ✓ ilk növbədə göndərildiyi obyektdə işləməsi üçün şəraitlə tanışlıq;
- ✓ obyektdə qarşılaşacağı müsahibinin şəxsi dosyesi, fərdi-psixoloji keyfiyyətləri (eqoist, altruist, qaraqabaq, ünsiyyətli, ciddi, zarafatcıl, psixi kompleksli və s.) ilə tanışlıq, bunun əsasında davranmaq, söhbəti qurmaq, beləliklə də informasiyaya yiyələnmək.

Redaksiya obyektlə bağlı ilkin informasiyanı topladıqdan sonra oraya həmin informasiyanı əldə edən müxbiri qöndərməsi hökm deyil. Çünki obyektlə, o cümlədən orada nəzərdə tutulan müsahiblərlə qiyabi *(ya əyani)* tanışlıqdan sonra oraya **münasib informasiya toplayıcısını** *(müxbiri, reportyoru)* göndərmək məqsədəuyğun olar. Bu o zaman ola bilər ki, ilkin informasiya *(sınaq sorğu)* obyektin kişi müxbir üçün *(yaxud qadın)* əlverişsiz olmasını, müsahibin şəxsi-psixoloji və sosial keyfiyyətinin xüsusi *(yaxud ənənəvi)* müxbir, *(çılğın, yaxud müdaxilə etməyən, müsahibin fikrini təsdiqləyən və ya onun danışığına nisbi laqeyd qalan),* yaşlı və ya cavan, yüksək səviyyəyə malik, yaxud diletant, məşhur və ya qeyri-populyar və s. tələb etsin. Bu keyfiyyətlərin çoxunu özündə ehtiva edən uğurlu müxbir sayılır. Bu professional keyfiyyətlər xüsusilə ekstremal vəziyyətdə işləyən müxbir üçün arzuolunan, hardasa tələb olunan keyfiyətdir.

***Ekstremal vəziyyət həm də tez-tez dəyişmə ehtimalı olan şəraitdir.*** Bu şərait müxbirdən də adekvat dəyişmə tələb edir. Bu zaman artıq müxtəlif amplualı rol ifa etməyi bacaran «aktyor» müxbirin yeri görünür.

*Təcrübə göstərir ki, ekstremal şəraitdə müxbirin uğurlu işində ona kömək edən cins, peşəkarlıq faktorundan heç də geridə qalmayan amil informasiya toplayanın maskalanmasıdır. Deməli,* ***ekstremal şəraitdə müxbir daha çox qoşulma müşahidəsinin imkanlarından bəhrələnməlidir.***

Nədir qoşulma müşahidəsi?

**Qoşulma müşahidəsi** – müxbirin *(informasiya toplayanın)* maraq doğuran obyektin müvəqqəti olaraq (1 gün, 1 ay və s.) «üzvünə» çevrilməsi, onu maraqlandıran kollektivin nəfəri olması (gizli, maskalanmış) hesabına informasiya toplama yoludur.

Bu, müxbirdən xüsusi «aktyor keyfiyyəti» tələb edir.

Ekstremal şəraitdə müxbirin daha tez-tez istifadə etdiyi janr müsahibədir. Ancaq bütün müsahibə növlərinin bu işə yaramadığını qeyd etmək yerinə düşər. Belə ki, sənədli müsahibəyə nisbətən, rəylər müsahibəsi, daha məqsədəuyğundur. Əgər birincisi, keçmiş hadisə haqqında bilqiyə şərait yaradırsa, ikincisi dünən və bu qün olan hadisə haqda rəyləri aşkarlayır. Bu zaman, həmçinin klinik və fokslaşdırılmış intervyüdən istifadə daha məsləhətlidir. ***Kilinik intervyüdə soruşulanın daxili niyyətləri öyrənilir. Fokslaşdırılmış intervyüdə isə daha konkret nüansa münasibət öyrənilir.***

Fövqəladə şəraitdə, müxbirdən tələb olunanlar içərisində qarşı tərəfin konkret zaman anında əhval-ruhiyyəsinə uyğun yanaşma yolunu seçməsidir. Bu isə həm də aşağıdakıları nəzərə almağı zəruri sayır:

– *söhbətin tempi qarşı tərəfin ənənəvi, xüsusilə də hazırki durumuna uyğundurmu;*

– *sorğu zamanı seçılmış leksika onda necə reaksiya doğura bilər;*

– *mənim paltarım (rəng, dəyər) onda hansı reaksiya doğura bilər;*

– *mənim oturuş qaydam söhbət üçün əlverişlidirmi;*

– *verəcəyim suall qıcıqlandırıcı səviyyədə yönəldici deyil ki.*

Çox zaman bu tipli suallar arzu olunan nəticə vermir. Ona görə ki, qarşı tərəf qeyri-iradi olaraq sənin sualının xarakterinə uyğun rəğbər nümayiş etdirməli olur.

Bu isə düzgün rəy öyrənməyə macal vermir.

Ümumiyyətlə, sualın sonunda *«mənimlə razısınızmı?», «deyilmi?»* və s. şəkildə sual qoymaq uğursuz sorğuya səbəb olur. Çünki təqdir etmək üçün dəvət edilmiş müsahib sənə maraqlı heç nə deməyəcək. Belə olduqda cavab daha çox səninki olur.

Bəzən lazımsız rəsmiyyət, formal görüntülər *(kameranı, diktafonu və s. müsahibin «gozünə soxmaq»)* səhih, səmimi informasiya toplanmasının qarşısını alır.

İnformasiya toplanışı üçün uğurlu metod söhbətdir. Söhbət xüsusilə o vaxt effektli informasiya toplama vasitəsi ola bilər ki, həmsöhbətin məqsədin hansısa informasiyanı «oğurlamaq olduğunu hiss etməsin.

**Fövqəladə haldan, ekstremal şəraitdən yazan müxbirin işinin uğurluluq effektinə neqativ təsir edən amillərdən biri, bəlkə də ən mühümü jurnalistin müsahibi (ekstremal şəraitə cavabdeh şəxsi) peşə əməkdaşlığına – vəziyyətdən çıxmaqda ona yardım etmək istədiyinə inandırmaqdır. Müsahib inanmalıdır ki, KİV ümumi işə xidmət edir.**

Sözü gedən şəraitdə informasiya toplanışı, ötürülməsi sahəsində **problemlərdən biri də peşə marağı ilə vətənpərvərlik, dövlətçilik dəyərləri arasında mövcud olan disharmoniyadır.** Belə ki, peşə marağı jurnalisti çox şeylərlə maraqlanmağa, onu tirajlamağa həvəsləndirir. Bu isə qeyd olunan dəyərləri tapdalamağa gətirib çıxara bilər. Ən yaxşı variant qeyd olunan dilemmanı inteqrativ həll modeli ilə tənzimləməkdir. Yəni ***peşə marağı ilə Vətənçilik, milli təhlükəsizlik və.s. məsələləri uzlaşdırmaq***dır. Bu o halda mümkündür ki, jurnalist fəaliyyət göstərdiyi ölkənin yazılan və yazılmayan qanunlarını, o cümlədən çalışdığı sahəni tənzimləyən qanunları yaxşı bilsin, təcrübəsində istifadə etsin.

***Ekstremal şərait (fövqəladə hal) müxtəlif təzahür və tiplərə (qəza, təbii fəlakət, siyasi gərginlik və s.) malik olduğu kimi, bu şərait jurnalistikanın öz daxilində də sahə müxbirlərinin olmasını tələb edir.***

Hətta ekstremal jurnalist hazırlığı məsələsinin yeni şəraitdə təhsil ocaqlarında nəzərə alınması yaxşı olardı.

Ekstremal şəraitin daxili təbiətindən doğan mürəkkəblik və müxtəliflik bu sahədə çalışan müxbirlərin öz daxilində də dar ixtisaslaşmanı zəruri edir. Belə ki, epidemiya mövzusu üzrə ixtisaslaşmış müxbir siyasi gərginlik sahəsində həmin sahənin yazarı səviyyəsində iş görə bilməyəcəyi şəksizdir. Bu zərurət yuxarıda qeyd olunan ixtisaslaşmaların qaçılmaz olduğunu ortaya qoyur.

***Fövqəladə vəziyyət, ekstremal şərait, adından göründüyü kimi qeyri-adi, qeyri-ənənəvi vəziyyət olub elə həmin xarakterli idarəetmə qayda və normalarının təzahürü kimi meydana çıxan rejimi şərtləndirir.*** Müxbir bu qeyri-adi rejimə tolerant münasibət bəsləməli və dərk etməlidir ki, adi şəraitdə mövcud olan informasiya toplama münbitliyi bu şəraitdə mümkünsüzdür. Belə vəziyyətdə yaxşı olardı ki, peşə marağı dövləti marağa güzəştə getsin.

Əks tərəf, yəni ***ekstremal şəraitdə cavabdeh idarəetmə strukturları da dərk etməlidir ki, belə şəraitdən sui-istifadə edib müxbiri informasiya tədricinə məruz qoymaqla problem həll edilmir. Bu, əksinə idarəetmə sahəsində bifulikasiya (partlayış, böhran) effekti ilə nəticələnə bilər.*** Məqsədə uyğundur ki, idarəetmə strukturları ictimai rəyə güclü təsir imkanı olan KİV-lə əmakdaşlıq yaratsın, idarə olunanla özü arasında körpü olan dördüncü hakimiyyətin vasitəçi imkanlarından səmərəli şəkildə bəhrələnsin.

Belə **qarşılıqlı anlaşma hər iki tərəf üçün ən çətin situasiyalardan çıxışı asanlaşdıra bilər.**

**Düşünürəm, bu qədər bulgilərdən sonra qaynar obyektlərə gedə bilərik.**

# Siz yola çıxırsınız

1. Əlinizdə sizi döyüş bölgəsinə göndərən redaksiyanın ezamiyyə vərəqəsi mütləq olmalıdır.
2. Döyüş gedən yerə hərbçilərlə – onların nəqliyyat vasitəsi ilə getməyiniz məsləhətdir. Onda ora getmə problemini daha asan həll etmiş olacaqsınız.
3. Özünüzlə götürdüyünüz şeylərə xüsusi fikir verməlisiniz. Şəllək əşya çantası götürməyiniz yaxşıdır ki, **qələm-dəftər, tele-video,** yaxud **foto aparat** üçün əlləriniz sərbəst olsun.
4. İçində isti paltarlar, yataq torbası, ilk yardım vəsaitləri, su və ərzaq olan yol çantası hazırlayın.

Uzunmüddət xarab olmayan ərzaq, **dərman apteçkası, fleş-kart, saat, uzunboğaz ayaqqabı, boyunduruqlu isti kürk** götürməyi unutmayın.

5. Nə qədər ürəyiniz istəməsə də, üstündə sizin kimliyiniz qazılmış xüsusi **metal jeton** mütləq cibinizdə olmalıdır.
6. Jurnalist olduğunuzu bildirən yaxa kartının – **kimlik göstəricisinin** olması olduqca vacibdir.
7. Bəzək şeyləri taxmayın, paltarınız açıq rəngdə, cəlbedici olmamalıdı. Çalışın boz, tünd rəngli geyimdə olasınız, **geyimləriniz ətraf mühitə uyğun rənglərdə olmalıdır.** Mümkünsə yüngül geyinin.
8. **Komufulyaj geyinmək qəbul olunmazdır.** Jurnalist hərbi forma daşımamalıdır, bu, bütün dünyada qəbul olunmuş birmənalı qaydadır.
9. Diqqətçəkən cisimlər, məsələn **durbin** götürməkdən ehtiyatlanın.
10. Qaranlıqda parıltı verən əşyalar götürməyin.
11. Yollandığınız ölkənin **pulundan** cibinizdə olsa yaxşıdır. Çətin anda gərəyiniz olar. Ancaq çox pul başınıza bəla ola bilər.
12. Çantanızda yer varsa, ön cəbhədəki döyüşçülərə paylamağa öz qəzetinizin bir neçə nüsxəsini, yaxud, başqa uyğun **qəzet, jurnal, kitab** aparın.

13. Döyüş bölgəsində çox gərəkli olan xırda hədiyyələr də – **siqaret, kibrit, alışqan, qələm, zərf** və s. götürmək pis olmaz.
14. Bahalı hədiyyə almaq yaramaz – siz qonaq yox, iş dalıyca gedirsiniz.




**Beləliklə, Siz yoldasınız.**

15. Yol boyu çalışın hərbçilərlə yoldaşlıq edəsiz. Onlar çox olsalar daha yaxşı. Onların harada xidmət etdiklərini öyrənin. Əgər yolunuz ora düşsə bu tanışlarınızın sizi necə sevinclə qarşılayacaqlarını görəcəksiniz.
16. Yol yoldaşınız söhbət əsnasında sizə maraqlı mövzu verə bilər, məsələn, hansısa döyüşçünün, zabitin qəhrəmanlığından, yaxud savaşda ortaya çıxan müşküllərdən danışa bilər. Bir sözlə tanışlıq dairəsini genişləndirmək sizin xeyirinizə olar.

17. Marşrutu xəritə üzərində öyrənin.
18. Yol nəzarəti və atəşkəs təqvimlərini öyrənin.
19. Marşrutunuzdan və proqramınızdan çıxmamağa çalışın və qərargahınızla, jurnalist yoldaşlarınızla əlaqədə olun.
20. Mümkünsə, yolunuz üzərində əlaqə və istirahət məntəqələri müəyyənləşdirin.
21. Gecələr yol getməyin.
22. Tanımadığınız adamların paket və ya əşyalarını, təkliflərini rədd edin.
23. Hərbi və ya humanitar yardım konvoyu ilə gedirsinizsə, konvoy rəisinin əmrlərinə əməl edin.

## Ekstrim hadisə yerində informasiya toplamağa şərait yaradılması

Demokratik cəmiyyətdə informasiya yayımı maksimum dərəcədə geniş olmalıdır. Bu Konstitusiyanın:

1-ci maddəsinin *«Azərbaycan Respublikasında hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqıdır»,*

54-cü maddəsinin *«Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüquqi var»,*

55-ci maddəsinin *«Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ var.»* müddəalarından doğur.

**Göstərilən konstitusion hüquqlarını gerçəkləşdirə bilmək üçün vətəndaşların dövlətin, vəzifəli şəxslərin fəaliyyəti barədə maksimum məlumatı olmalıdır."**

*Bütün vətəndaşların informasiya alma hüquqları eyni olsa da, jurnalistin məlumat toplaması üçün hüquqi imkanları daha genişdir.*

*"Ekstremal hallarda (vətəndaşların təcili məlumatlandırılması zərurəti yarandıqda) dövlət hakimiyyəti orqanları, idarə, təşkilat*

*və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxslər vətəndaşları dərhal qəbul etməlidirlər."*

Fövqəladə vəziyyət haqqında Qanunun 17-ci maddəsi konkret şəraitdən asılı olaraq fövqəladə vəziyyətin tətbiq edildiyi əraziyə gediş-gəlişin xüsusi rejimi, habelə bu ərazidə hə əkət sərbəstliyinin məhdudlaşdırılması ilə bağlıdır. Bu məhdudlaşdırma jurnalistin fövqəladə vəziyyət elan olunmuş yerlərə daxil olmasına və işləməsinə qadağa qoyulması demək deyil. Məhdudiyyət jurnalistin sənədlərinin yoxlanılaraq həmin əraziyə buraxılmasında, əşyaların və nəqliyyat vasitələrinin yoxlanılmasında, qadağan saatının qoyulmasında və s. ifadə oluna bilər.

KİV cəmiyyəti məlumatlandırmaq vəzifəsi daşıdığı üçün müxbirin döyüş, qəza, fəlakət və cinayət yerinə buraxılması təmin edilməlidir. **Jurnalistin belə yerlərdə işləməsinə görə qanunvericiliklə məhdudiyyətlər nəzərdə tutulmayıb.**

*Məlumatın verilməsindən əsassız olaraq imtina etdiyinə, ya məlumatı qanunda müəyyən olunmuş müddət ərzində vermədiyinə görə cavabdeh məmuru jurnalist məlumat almaq hüququnu pozduğu* üçün məhk*əməyə verə bilər.*

Bütün bu və qalan hüquqi qaydaları biləndən sonra müxbir ekstremal hadisə yerinə yollanır.

## Nəzarət məntəqəsindən keçirsiniz

24. Nəzarət məntəqəsini kimlərin tutduğuna diqqət yetirin: *Silahları necədir (nə geyiniblər, süngü taxıblarmı və s.), silahlarını əllərində tuturlar, yoxsa çiyinlərindən asıblar; hansı yaşdadırlar; təlim keçiblərmi, yoxsa hərbi savadları yoxdur; geyim-keçimləri necədir, polismi, yoxsa nizamı ordu qulluqçularıdırmı; ciddilik, əsəbilik, yaxud təcavüzkarlıq dərə ələri necədir.* Bunları nəzərə alaraq qarşılaşacağınız vəziyyətə özünüzü hazırlayın.
25. Ciddi təhlükə gözlənilirsə, sizə yönəlik atəş açılmamış diqqəti çəkmədən geri dönün. Maşınlarınız çoxdursa, nəzarət məntəqəsindən bir-bir keçin.

26. Əlinizə bir şey götürməyin, əqər götürmüsünüzsə, görünən şəkildə tutun.
27. Nəzarət zamanı qəfləti hərəkətlər etməyin.
28. Məcbur olmayınca maşından düşməyin. Motoru söndürməyin.
29. Özünüzü sakit və dostcasına aparın. Günahkar, ürkək, yalvarıcı görünüş almayın.
30. Üstünüzdə müxtəlif vəsiqələr varsa, xoş təsir yaratmayan sənədləri göstərməyin.
31. Dilinizi anlaya biləcək şəxslərin ola biləcəyinə əmin olun.
32. Dediyiniz sözlərə diqqət yetirin.
33. Əşyalarınızı yoxlayırlarsa, bundan xoşlanmadığınızı hiss etdirin, lakin onları geri almağa səy göstərməyin.
34. Dil tapmağa çalışın, qrupun rəhbəri ilə görüş tələb edin.
35. Sahə mühafizəyə alınmışsa, keçmək üçün minaların təmizlənib-təmizlənmədiyini mühafizəçilərlə məsləhətləşin. Bunu özbaşına əsla etməyin.
36. Sahə mühafizə edilmirsə, oradan keçməyə çalışmayın. Dolanın, ya da geri dönün.
37. Hər hansı növ silahlı qüvvənin ünvanına gəlmiş müxbiri nəzarət-buraxılış məntəqəsində (NBM) saxlayacaqlar. Siz təmkinlə redaksiyadan gəldiyinizi, bu barədə akkreditənizin olduğunu bildirməlisiniz. NBM növbətçisi hərbi hissə üzrə növbətçiyə məruzə etdikdən, ona buraxılmanız barədə əmr verildikdən sonra komandirin təyin etdiyi zabitlə görüşmək üçün sizi bir döyüşçü müşaiyət edəcək. Güman ki, hər halda ilk öncə şəxsi heyyət rəisi (komandir müavini) ilə söhbətləşməli olacaqsınız.
38. Əmin olun ki, komandir (rəis) olan yerdə başqa zabitlər sizə çay verməkdən, əvəzində çoxlu-çoxlu suallarına cavab almaqdan savayı heç nə edə bilməyəcəklər. Bu söhbətlərdə cəmiyyətdə baş verənlərə mümkün qədər loyal, bitərəf yanaşmağa, dövlətçiliyimizə böyük sevgi, döyüşçü həyatına sonsuz rəğbət bəslədiyinizi ifadə etməlisiniz.
39. Ancaq, tapşırığın uğurla sona çatması üçün mütləq komandirlə (rəislə) görüşməlisiniz. *Sənədlər qaydasında, məqsəd aydın,*

*davranış peşəkar olduqca komandirin (rəisin) istədiyiniz mövqeyə getməyə icazə vermə mümkünlüyü daha çox olur.*

40. Döyüş (terror aktı) yerinə sizi təkbaşına buraxmayacaqlar. Heç siz də buna cəhd etməyin. Ən azı bir müşaiyətçiniz olacaq. Bir sözlə, sizə xüsusi mühafizə xidməti təşkil ediləcək. Təsadüf ola bilər ki, maşın ayırmasınlar, yaxud texnikanın çatışmazlığı, coğrafi şəraitin əlverişsiz olmasına görə ön xəttə ayaqla getməli olasınız. Bu yollarda isə cığırdan kənarda sizi mina-sürprizlər güdə bilər.
41. Hər keçiddə, aşırımda, döngədə müşaiyətçinin komandasına əməl edin. Müşaiyətçi ön xəttə sizi tabor (bölük, yaxud bölmə, dəstə) komandirinə təqdim edəcək.
42. Siz burda da özünüzü təsdiq etməlisiniz. Birinci növbədə bu komandirin media üçün demək istədiklərini böyük ehtiramla qeyd etməlisiniz. Öncə onun təqdim etdiyi seçilmişlərlə görüşməlisiniz. Əslində isə sizin missiyanız bununla bitməməlidir. Fikir verməli çox şeylər var.
43. Hadisə yerinə çatan kimi komandirlə görüşüb sənədlərinizi təqdim etməlisiniz. Gəlişinizin səbəbini dəqiqliklə açıqlamalısınız. *«Savaş barədə bir şey yazmaq istəyirəm»* tipli ümumi frazalardan uzaq olun. Sensasiya törətməyin. Ən yaxşısı odur ki, döyüş məqamında olan əsgər və zabitlərlə görüşməyə icazə verməyini xahiş edin. Komandirin (rəisin) turş sifəti sizi qərar verməkdən çəkindirməsin. Onları anlamağa çalışın – onlar döyüşürlər, işləri, qayğıları başlarından aşır, üstəlik sizin də qayğınızı çəkmək – bu onlara gərək deyil. Ancaq yuxarı komandanlıqdan icazəniz var deyə, redaksiyanın tapşırığını yerinə yetirmək üçün sizi təmin etməyə borcludurlar.
44. Döyüşçülərlə görüşdə öz igidliyinizdən bəhs eləmək yerinə düşməz. Hər an ölüm və qan görən insanları belə söhbətlərlə şaşırmaq çətindir. Əksinə, qürrələnməyiniz ikrah oyada bilər: – *"buna bax, şəhərdən gəlib, özünü qəhrəman sayır"*. Döyüş bölgəsində ilk dəfə olmadığınızı qabartmanız o qədər vacib deyil. Məsələn, *«bir dəfə Əfqanıstanda (Iraqda,*

*Çeçenistanda, Yuqoslaviyada, Ukraynada...) belə bir hadisə oldu...»* kimi ortaya atacağınız söhbətlər dinləyənlərin sizin barənizdə cürəbəcürə düşünməyə əsas verə bilər.

45. Ön cəbhədə olarkən düşmən tərəfə atəş açmaq marağınızı ödəmək üçün silah istəməkdən çəkinin. Unutmayın ki, sirkdə deyilsiniz, bütün mənalarda ciddi olan döyüş meydanındasınız.
46. Özünüzü cigit kimi apararaq düşmənin görmə zonasında gəzişməyi ağlınıza gətirməyin. Optik nişangahlı snayper sizi əskərdən seçməyə bilər. Artıq atılmış güllə hədəfi fərqləndirmir.
47. Gecələr diqqəti cəkmədən yerimək sürətli getməkdən daha mühümdür. Radio, kamera, diktafon – **cihazların işıqlarını söndürün**, yaxud örtün. Marşrutunuzu elə müəyyən edin ki, nəzərə çarpmayasınız. Nisbətən qaranlıq yerlərdən gedin, dolanmaq lazım gələrsə, tərəddüd etməyin.
48. Tez-tez ətrafınıza baxın və ətrafı dinləyin. Kollektivlə gedirsinizsə, yola çıxmazdan əvvəl görüşəcəyiniz nöqtələri müəyyənləşdirin.
49. Üzərinizə işıq (məsələn, güllə işığı) saçılarsa, yerə uzanın və sakitlik düşənə qədər qözləyin.
50. Hərbi əməliyyat bölgələrində həmişə müxtəlif tələlərlə qarşılaşa bilərsiniz. Buna hazır olun.
51. Belə mövqelərdə olarkən döyüş başlayarsa, sığınacaqlarda gizlənməyə çalışın. **Foto, video çəkilişləri oradan da aparmaq olar, atəş altına can atmaq ağılsızların işidir.**
52. Silah barədə xüsusilə bunu bilməlisiniz! Görürsünüz düşmən hücuma keçib. Bu məqamda necə hərəkət etməyə özünüz qərar verməlisiniz. Neytral müşahidəçi kimi qala bilərsiniz. Sizi heç kim günahlandıra bilməz. Ancaq, eyni zamanda ölən, yaxud yaralananların silahını götürüb döyüşə qoşula bilərsiniz. Hərgah belə etsəniz ikiqat təhlükə ilə üzləşəcəksiniz – həlak olmaq, yaxud əsir düşmək. Sonuncu halda sizə mülkü vətəndaş kimi yox, döyüşçü kimi baxacaqlar. Bu məsələ jurnalistin özünün şəxsi işidir. Bu barədə hansısa maddə nəzərdə tutulmayıb.

53. Döyüşçüylə söhbətləşərkən *«sən şəxsən neçə düşmən öldürmüsən?»* tipli axmaq suallar verməyin.
54. Komandanlığın ünvanına təhqirli sözlər deməyin, həmsöhbətləriniz bunu etsələr də. Onların buna haqqı ola bilər... Öz düşüncələrinizi yazacağınız məqalə, material üçün saxlayın.
55. Söhbətlərinizdə yalnız suallar verməyin, həm də dünyada baş verən, bununla bağlı ölkədə görülən işlər barədə şərh verin. (Bu zaman qəzetlərinizi paylamaq yerinə düşər.)
56. Çalışın, zabitlər sizə görə artıq əziyyət çəkməsinlər.
57. Təmtəraqlı süfrə açılacağını gözləməyin, çörək kəsməkdən də imtina etməyin – belə süfrə təmiz ürəklə açılır. Süfrəyə özünüzün qida ehtiyatınızdan da mütləq nəsə qoyun.
58. **Təklif etsələr də spirtli içkilərdən içməyin.**
59. Döyüşçünün geyim, ərzaq rasionunu, onunla elementar davranış normativlərini nəzərdən qaçırmayın. Hətta bəzən ötəri mimika da müxbirə çox mətləbləri aça bilər. Siz bu normativləri bilməmiş gəlmisinizsə verəcəyiniz informasiya mütləq gerçəklikdən uzaq olacaq. Hər halda, belə təzahürlərə fikir verərkən ciddi görkəm almayın, komandirlə öz aranızda gərginlik yaratmayın. Ancaq hansısa variantla səbəbləri soruşmağı bacarın. Elə şeylər var ki, onun təminatı bu komandirlərdən asılı deyil.
60. Proses boyu hamını danışmağa həvəsləndirməlisiniz. Döyüşçü olmadığınıza təəssüfləndiyinizi səmimi şəkildə ifadə edin. Çalışın çoxlarıyla ünsiyyət qurasınız. Təbii ki, kiçik komandirlər istəyəcəklər ki, daha çox onlarla söhbət edəsiniz.
61. Ola bilsin, həmsöhbətiniz emosional halda və s. hərbi sirri sızdırmış olsun. Belə məlumatlara həssas yanaşmalı, sui-istifadə etməməlisiniz. Həmçinin, hərbçilərin özünəxas danışıq tərzinə də soyuqqanlı, öyrəşmiş kimi yanaşmalısınız. Dinamik, istiqanlı ünsiyyətiniz döyüşçüləri sonralar sizinçün darıxdıracaq.
62. Mümkün qədər çoxlu foto şəkil çəkin onlar buna gözlədiyinizdən də artıq həvəs göstərəcəklər. Sonradan bu şəkilləri

onların ünvanına göndərsəniz allahın da xoşuna gələsi iş tutmuş olacaqsınız. Təcrübəmdən deyirəm ki, bundan böyük hədiyyə edə bilməzsiniz.

63. Çalışın, proses boyu döyüş vəziyyətində olan döyüşçülərin nizam qaydalarına əngəl olmayın, iş başında olan zabitin vaxtına və işinə müdaxilə etməyin, bunları sadəcə izləmək də mümkündür.

64. Əgər gözlənilmədən döyüş başlasa müşaiyətçi sizə atəş altından uzaqlaşmağa kömək edəcək. Bu şəraitdə sizin sağ qalmanıza heç kim cavabdeh deyil. Əvvəla bu situasiyadan sağ qalmaq üçün kimin taledən sığortalandığını bilmək bəndənin işi deyil. **Sizin stringerlik edib döyüşü izləmək birinci vəzifənizdir.** Döyüşçülər də sizin kimi insandır. Üstünlüyünüz ondadır ki, əsir düşsəniz azad olma şansınız onlardan çox olacaq və döyüşçü taleyinin kinayəsinə baxmayaraq siz daha məşhur olacaqsınız...

65. Döyüş səngərində gecələməyi özünüzə rəva bilsəniz demək cəsursunuz, ancaq komandanlıqdan mütləq icazə gərəkdir. Ona görə ki, qalmaqla əlavə iş artırmış olursunuz. Bu onlara gərək deyil. Lakin qalmağınız sıravi heyətin çox xoşuna gələcək, çox şeylər görəcəksiniz. Gecə səngərində qalmamaq, səngər həyatı yaşamamaq deməkdir.

66. **Unutmayın, sizin hərəkətləriniz nəzarətsiz deyil. Sizi müşahidə edirlər.** Bura gələnə qədər ***hərbi nizam qaydalarını, hərbçi psixologiyasını, silahları, silah-sursatla davranmanı, ekstremal vəziyyətdə davranış normalarını, psoxoloji yüklənmiş insanlarla ünsiyyət xüsusiyyətlərini, ekstremal şəraitin açıqlanması qadağan olunan tərəflərini, rejimin ciddilik mahiyyətini...*** *yaxşıca bilirsinizsə, ən başlıcası, ustalıqla əməl edirsinizsə demək səmimi ünsiyyət qurmuş olacaqsınız və bununla da redaksiyanın tapşırığını yüksək səviyyədə yerinə yetirmiş olacaqsınız.* Beləcə, gələnəkli tapşırıqlar sizi peşəkar jurnalist kimi yetişdirəcək.

**Mübahisəsiz həqiqətdir ki, bu sahə ən uğurlu jurnalist karyerası qazandırır.**

67. Qərargaha qayıdanda komandirlə mütləq görüşməyə çalışın. Şərait yaratdığı üçün təşəkkür edin. Geniş auditoriyaya bildirmək istəmədiyiniz əsaslandırılmış faktlarla irad və təkliflərinizi bildirmək sizin vətəndaşlıq və konstitusion hüququnuzdur. Münasibət bildirməniz o qədər səmimi, savadlı, peşəkar olmalıdır ki, daim komanda verən, əmr edən və belə həyat tərzi qarşı tərəfin iradlarını hələm-hələm qəbul etməyə uyğunlaşmayan zabiti inandıra və o, sizin söhbətinizə əhəmiyyət verə bilsin. Ancaq iradlarınızı bildirməyə də bilərsiniz. **Hər halda cəmiyyətin ən ağır yükünü həyatı bahasına çiyinlərində çəkən insanlarla sevgi ilə danışmaq gərəkdir – o halda ki, o şəxs doğrudan da bu sevgiyə layiq olsun.**
68. Qayıdarkən ezamiyyə sənədlərində müvafiq qeydlər etdirməyi unutmayın. Əmin olun ki, səmimiyyətlə ayrılsanız sizi NBM-ə qədər ötürəcəklər, yenə gəlmək üçün dəvət alacaqsınız. Beləcə bir də gəlmək üçün körpüləri salamat saxlayın.

# Zabitlərlə ünsiyyətdən yol qeydləri

*Yəqin, ezamiyyənin üzü geri qayıdışında zabitlərin davranışından xeyli fərqli çalarlar tutduğunuz barədə yol boyu düşünəcəksiniz. Bunun bəzilərini mən deyim.*

Bütün ölkələrdə jurnalistlərlə hərbçilər arasındakı münasibətlərdə problemlər mövcuddur. Bu problemlərin səbəbləri iki ayrı-ayrı kateqoriyalara mənsub insanların daşıdıqları vəzifələrdə funksional fərqlərin olmasından irəli gəlir.

İstənilən jurnalist öz fikrini, ilk növbədə maksimum məlumatın operativ toplanmasına və alınmış məlumatın həmin operativliklə də oxucuya (dinləyiciyə) catdırılmasına yönəldir. Hərbi qulluqçular isə öz növbələrində, hər bir məlumatı *(hərbi sirr olub-olmamasından asılı olmayaraq)* yaymamağa öyrədiliblər. Məhz, bu əks düşüncələrin nəticəsi olaraq hər hansı informasiyanı məxfi saxlamaq kimi vəzifə borcunu yerinə yetirən hərbçi məlumatı yaymaqda maraqlı olmadığından, onu vermək istəmədiyindən jurnalist əldə olunan məlumatın nə dərəcədə məxfi olub-olmamasını dəqiqləşdirməkdə obyektiv imkana malik olmur və material dəqiqləşdirilməmiş faktlarla çapa gedir.

**Yaradıcılığını hərbi mövzulardan yazmağa həsr etmiş jurnalist, informasiya mənbələrinə düzgün yol tapmalı və onların informasiyanı tam açıqlamamaq istəklərini *(ehtiyat edənin durumunu)* düzgün anlamalıdır.** Bu kontekstdə, bizim fikirimizcə, problemlər həm də jurnalistin informasiya mənbəyini səhv salmasından yaranır. (*Məsələn: cəbhə, yaxud hərbi hissədəki vəziyyət barədə sıravi əsgərdən götürülən müsahibə, bu barədə daha düzgün informasiyaya malik olan zabiti qıcıqlandırır. Həmçinin, qızğın döyüş zamanı əməliyyatda iştirak etməyən və təbii ki, bu barədə obyektiv məlumatı olmayan ikinci eşelonun, yaxud qonşuluqda yerləşən bölmələrin hərbi xidmətçilərinin danışıqlarına əsasən informasiya götürülməsinə çox rast gəlinib).*

Məhz bu cür, buna bənzər hallar hərbçilərdə jurnalistlərin asan tapılan məlumatların dalıyca qaçmaları, qeyri-obyektiv olmaları barədə stereotip yaradır.

Jurnalistlərdə də hərbçilər barədə müəyyən stereotiplər yaranır. *(Bu başqa mövzudur.)*

***Bütün reallıqları nəzərə alaraq, jurnalist əldə etdiyi məlumatı dönə-dönə yoxlamalı, hərbi idarə isə xüsusi kateqoriyalı informasiya yayan və onu şərh etməyə səlahiyyətli olan zabitlər müəyyənləşdirməlidir.*** *Baxmayaraq ki, bu cür tədbirlər KİV ilə hərbçilər arasında mövcud olan ziddiyyətləri tam aradan qaldırmasa da, mövqelərin əhəmiyyətli dərəcədə yaxınlaşmasını mümkün edərdi.*



# Hərbçi psixologiyası

***Sülh dövründə müxbirin hərbçilərlə ünsiyyət xüsusiyyətlərindən danışacağıq.***

Hərb yönümlü olaylardan yazan jurnalist, sözsüz ki, hansı kateqoriyaya aid olan insanlarla işləməli olacağını və onu maraqlandıran məlumatları necə əldə etməyi dolğun təsəvvür etməlidir. Bir az irəliki mövzuda hərbçilərin və jurnalistlərin funksional vəzifələrində hansı fərqlərin olması barədə danışdıq. Bu baxımdan, yalnız funksional vəzifə baxımından yanaşıldıqda, vəzifə fərqlərindən əlavə, hərbçilərin uzun illər boyu şəxsiyyətini formalaşdıran xüsusiyyətləri də bilmək gərəkdır. Bu, əlbəttə, ilk növbədə kadr zabitlərə aiddir.

Zabitin xarakterinin və şəxsiyyət əlamətlərinin formalaşması onun professional zabit kimi hazırlığı ilə paralel gedir. Nəzərə alaq ki, hərbi özünə ixtisas seçmiş insan, bütün ömrünü bu peşəyə həsr edir. Cavan adam, 18 yaşından başlayaraq, (bəziləri daha tez, hərbi litseydən başlayır) hərbi intizamın hökm sürdüyü şəraitdə yaşayır. Yəni, 15-18 yaşından etibarən, insan kifayət qədər sərt, ciddi sistemdə ordunun əsas postulatını – əmrə sözsüz tabe olmağı öyrənir. Bununla birgə, həm də əmrin tam qanuni olması, yəni, komandirin verdiyi bütün komandalara görə tam məsuliyyət daşımağı onun şüuruna yeridilir. Bu komandalar nizamnamənin bütün müddəalarına uyğun bir qaydada tərtib edilib. Zabitin bütün fəaliyyəti onun qarşısında qoyulmuş vəzifələrlə şərtləndirilib. Qoyulmuş tapşırıq əhəmiyyət daşımır, əsas vəzifə borcu və yuxarı komandanlığın əmrinin yerinə yetirilməsidir. Fikrimizcə, hərbçilərin və jurnalistlərin qarşılıqlı münasibətlərində yaranan «konfliktlilik» məhz, bu məsələdə açılır.

*Jurnalistlərlə ünsiyyətdə olmaq və onlarla əlaqə yaratmaq yalnız mətbuat xidməti zabitlərinin vəzifəsidir.* ***Digər xidmət***

***sahələsi zabitlərinin jurnalistlərlə ünsiyyətdə olması funksional vəzifə borcu deyil.*** Belə bir tapşırıq əvvəldən onların qarşısında qoyulmayıb. Başqa sözlə desək, zabit əmr almayıbsa, hansısa bir məlumatı verə bilməz, yaxud, verməк istəməz (!!!). Burada psixoloji aspektlərlə hüquqi aspektlər qarışıq düşür. Mətbuat haqqında qanununa əsasən hər bir vəzifəli şəxs, məxfi deyilsə, ondan tələb olunan informasiyanı verməyə borcludur. Ancaq hərbi nizamnamə bunu qadağan edir.

Onda qanunun icrasının müəssisədaxili nizamnamələrin yerinə yetirilməsindən daha vacib olması etirazı yarana bilər. Lakin, təkcə psixoloji baxımdan zabitlər buna hazır deyil. Nəyə görə?

Orta statistik azərbaycanlı polkovnik ömrünün 35-40 ilində bir neçə dəfə konstitusiyanın, xeyli sayda fərqli qanunların dəyişilməsinin şahidi olub, ancaq hərbi nizamnamələr praktiki olaraq dəyişməz qalıb. Zabit nizamnamələri əla bilir. Bu onun həyat tərzinə və düşüncələrinə yaxın və anlaşıqlıdır, nəinki, hərbi sahəni pis bilən şəxslər tərəfindən yazılmış və qəbul edilmiş mülki qanunları.

Qeyd edək ki, bu ziddiyyətlər, bütün dünya ölkələrində olduğu kimi iki ixtisasın daşıyıcıları arasında olan gərginliyin əsasında durur. ***Hər halda, gərginlik bu iki kateqoriyalı insanların bir-biri ilə ünsiyyət həddi əsnasında artır.***

Əgər, zabit intizam qaydalarına və nizamnamələrə tabedirsə, bir qayda olaraq improvizasiya etməyə yer verilməyən, ciddi dəqiqləşdirilmiş qaydalar və qoyulmuş vəzifələr çərçivəsində fəaliyyət göstərirsə, yalnız ona verilən əmri həyata keçirmək məsuliyyətini daşıyırsa, jurnalist faktiki olaraq onun tam əksinə, azad fəaliyyət spektrinə malikdir.

Jurnalist ona verilən tapşırıq üçün gedərkən, ən yaxşı halda redaktordan yalnız təxmini mövzu alır. Sualların çoxu isə müsahibə zamanı doğulur. Professional, yaxşı hazırlığı olan jurnalist adəti olaraq improvizə edir. Redaksiyanın tapşırığını yerinə yetirərkən jurnalist paralel olaraq gələcək materialın, yaxud silsilə məqalələr üçün faktlar yığmaq niyyəti ilə əsas mövzuya aid olmayan sualar da verə bilər. Bu zaman, *konkret mövzu üzrə suallarına cavab*

*verməyə tapşırığı almış zabit, mövzudankənar suallara cavab verməyə daxilən etiraz edir və başqa suallara cavab verməyə hazır olmur.* Jurnalist unutmamalıdır ki, ***özünə hörmət edən zabit, mülkü məmurdan fərqli olaraq, sualların mahiyyətini sənədlərdən və xüsusi ədəbiyyatdan dəqiq öyrənmədən, bu mövzuya öncədən hazırlaşmadan heç bir müsahibə verməyəcək.*** Düşüncənizdə zabitin yaradıcılıq qabiliyyətinin olmaması, improvizə və ekspromt etməyi bacarmaması kimi səhv təsəvvür yaratmaq istəməzdim. ***Sadəcə olaraq, zabit, yalnız öz biliyi çərçivəsində funksional vəzifə borcunu həyata keçirən zaman, döyüş şəraitində, yaxud manevr edən zaman prosesə yaradıcı yanaşa, improvizəyə, ekspromta baş vura bilər.***

Yəni, tankçı zabit tank döyüşündə, hərbi təyyarəçi yalnız uçuş vaxtı, və s. improvizə edə bilər, edir də. Bunu caz improvizəsi ilə müqaisə etmək olar. O cür yeni melodiya konsertin gedişindəcə doğulur. Hərgah bu improvizələr uzun illərin təlimi və hazırlığın nəticəsidir. Zabit improvizəsi də elədir – öz sahəsinin sərişdəsindən doğur. Jurnalistin qoyduğu mövzu çox vaxt onun səriştəsi bazasına aid olmur.

Kadr zabit, adəti olaraq, mülki şəxslərlə ünsiyyətdə çox zaman gərgin və qapalı olur. Hətta, hərbi yumor və zarafatlar da mülki lətifələrdən tamamilə seçilir. Onların hansının yaxşı, ya pis olması barədə mülahizə yürütmək olmaz. Onlar sadəcə, bir-birindən fərqlidirlər.

Təəccüblü olmasa da hər halda faktdır, siz dəfələrlə şahidi olmusunuz, hərbçilər arasında casusluğun mümkün olmasından asılı olmayaraq, zabitlər xarici zabitlərlə daha tez və həvəslə ünsiyyət yaradırlar, nəinki, öz mülki həmvətənləri ilə.

Bizə belə gəlir ki, casusluq barədə ayrıca danışmaq gərəkdir. Zabitlərimizin çox hissəsi, elə bizim özümüz də, sovet dövründə böyüyüb formalaşmışıq. Heç kəsə sirr deyil ki, rəqabət, yaxud düşmənçilik yürüdən ölkələrin xüsusi xidmət orqanları öz casuslarını *(ört-basdır etmək üçün)* jurnalist kimi qələmə verirdilər.

Uzun illər zabitlərə təlqin edilmişdir ki, jurnalistlər casus ola bilərlər, ayıq-sayıq olmaq gərəkdir. Yalnız öz müxbirinə etibar etmək olar.

Zamanın gərdişi keçdikcə, zabitlərimizin düşüncəsində azad və hökumət mətbuatı stereotipi yarandı – indi hər bir azad fikir yürüdən müstəqil mətbuat müxalifət mətbuatı kimi qəbul edilir və mümkün qədər yaxına buraxılmır. Bu stereotip onlara belə diktə edir ki, müxalifət mətbuatı öz xüsusi məqsədlərini güdür, ordu barədə yaxşı heç nə yazmayacaq.

Yuxarıda dediklərimizi nəzərə alaraq, müsahibənin hansı tərzdə keçməsi barədə təsəvvür yarada bilərik. ***Müsahibə verən zabiti eləcə müsahibə vermək deyil, kompleks tapşırığı yerinə yetirmək maraqlandırır;***

***– hərbi sirri açmamaq,***

***– qeyri obyektiv qiymət verməklə qoyulmuş tapşırığı yerinə yetirmək,***

***– dediyi sözləri müxbir istədiyi kimi yozmasın deyə dolaşıq suallardan yayınmaq,***

***– söhbət prosesində minimum söz işlətmək.***

Təbii ki, qısa, quru verilən, axıra qədər öyrənmədiyi məlumat oxucu üçün maraqlı olsun deyə, jurnalsit öz mülahizələrilə, özü düşündüyü yekunla materialı genişləndirməyə, emosional koloritlə bəzəməyə məcburdur.

Məhz bu məqamdan həmən zabitin həmən müxbirə və o müxbirdən dolayı onun həmkarlarına – bütün müxbirlərə qarşı şəxsi ədavəti baş qaldırır. Jurnaslist də hərbçilərə qarşı təxminən elə bu cür hisslər keçirir.

Ekstremal hallardan və döyüş nöqtələrindən yazan jurnalistlərin reportajları və analitik məqalələri üzərində xüsusi dayanmaq gərəkdir. Bura müxbirlə zabitin münasibəti üçün ən mürəkkəb yerdir.

Bəllidir ki, jurnalist zabit qədər hərbi işin məziyyətlərini bilmir, bilirsə də zabitdən pis bilir. Buna əsaslansaq, çox mümkündür ki, materialın hazırlanmasında o bir neçə kifayət qədər ciddi terminoloji səhvlərə yol verə bilər. Əgər bu materialda zabitin adı da varsa, bu cür səhvlərə görə məsuliyyət istər-istəməz həmən zabitin üzərinə düşür, buna görə rüsvayçılıq hissi keçirir. Təbii ki,

bundan sonra, bir qayda olaraq, heç kəs media ilə əlaqə yaratmaq fikrində olmaz.

Bundan əlavə, bir az açıq desək, bəzən jurnalsitin "özününümayiş"-inə, yaxud hadisə subyektinin qeyri-real təqdim edilməsi hallarına rast gəlirik. Biz bunu əvvəldə də qeyd etmişdik ki, döyüşün əsas iştirakçısı kənarda qaldığı halda, arxa cəbhə zabiti, yaxud jurnalist özü ön plana çıxır. Döyüşən zabitlərlə uzun müddətli söhbətləşmələr və Qarabağ savaşı veteranlarının psixoloji reabilitasiyası zamanı aparılan işlər bəyan etməyə əsas verir deyək – doğrudan da o insanların ki, zəngin döyüş xidmətləri var, özlərindən daha az danışır, öz xidmətlərini nümayiş etdirmək istəmirlər. Əksinə, xidmətləri daha az olanlar daha çox müharibədən dınışırlar.

Bu psixoloji fenomenin kifayət qədər dəqiq izahı var. Rəşadətlə, bütün imkanları ilə döyüşən, ancaq, Vətən torpağının azad olunmamasına, qələbəyə çatılmamasına görə rüsvayçılıq keçirən zabit bu haqda danışmağa utanır və öz məğlubiyyətini xatırlamamağı daha üstün tutur. O bunu öz uğursuzluğu kimi qəbul edir. Ancaq, qorxan, döyüşdən qaçan, gizlənən insan, əksinə – öz naqis hisslərini uydurma "qəhramanlığı" barədə danışmaqla kompensasiya etmək istəyir.

## Ekstremal jurnalist xüsusi xarakterdir

*Deyəsən dediklərimiz sizdə nə qədərsə çöçünlük yaradıb. Yəni bu qədər çətinliklərə, risklərə qoşulmağa dəyərmi? Bax bu barədə danışacam.*

*400 illik dünya jurnalistikasında artıq çoxdandır müxbir-stringerlik, reportyor-stringerlik formalaşıb.*

*Onlar məhz ekstremal hallardan çörək qazanırlar. Yəni bu onların həyatıdır.* **Ona gırə də ekstremal hallardan yazan jurnalistlərin psixoloji hazırlığı üzərində xüsusi ilə dayanmaq gərəkdir.**

Hərbdən yazan jurnalist, həyatı üçün təhlükə yaradan risqli zonalarda işləməyə məcburdur. Hər bir ekstremal situasiya qanda adrenalini çoxaltdığına görə insan orqanizminin bütün psixo-fiziki prosesləri aktivləşir. Bu özünü nəbzin tez-tez vurmasında, ürək döyüntüsündə, arterial təzyiqin yüksəlməsində, ağız quruluğunda, fiziki aktivlikdə, yuxunun pozulmasında, iştahanın pisləşməsində və s. əlamətlərlə göstərir.

Ekstremal hallarla tez-tez üzləşən insanlar qanda adrenalinin yüksək olmasına alışdığından, «sərgüzəştsiz» adi həyat ritmi ona darıxdırıcı və maraqsız görünür.

Həyat üçün təhlükə yaradan olayları gündəlik hal kimi qəbul etməyi hər kəs bacarmaz. Ona görə də özünü ekstremal şəraitli peşəyə bağlamış insan ya öz işlərinə sidq ürəkdən vurğun olduqlarından onun bütün çətinliklərini qəbul edir, başqa heç nə ilə məşğul ola bilmir, ya da, öz işini müəyyən qədər sakit profilə dəyişirlər.

1950-ci illərdə SSRİ-də fəaliyyət göstərən hərbi elmi-tədqiqat institutunun psixoloji laboratoriyasında keçirilən məxfi tədqiqatlarda II Dünya müharibəsi dövründə Sovet İttifaqının Qəhrəmanı adına layiq görülmüşlərin insani xüsusiyyətləri düzünə və dolayı yol ilə tədqiq edilmişdir. (Göstərilən dəlillər Ümumittifaq Psixoterapiya və tibbi psixologiya mərkəzinin arxivindən götürülmüşdür.) Tədqiq olunmuşların 70 %-ə qədəri həddindən artıq risqə meylli, bir qədər avanturist xüsusiyyətlərə malik insanlardır. Buna görə də belə adamlar verilmiş əmrləri və xidməti vəzifələrini icra edərkən riskdən zövq alırlar. Məhz risqə və avantüraya yüksək meyllilik insan üçün təbii refleks olan özünüxilas hissini qapaya bilər.

Belə desək, **psixo-astenik xüsusiyyəti olan adamlar riskə daha meylli olurlar.** Belə insanlar *uçurumun qırağı* ilə gəzməyi, yüksək sürətlə maşın sürməyi, hündür b*inaların damından aşağı baxmağı, paraşüt ilə tullanmağı*, mağaraları tədqiq etməyi və s. sevirlər. Belə insan*lara alpinistlər, qayalara dırmaşanlar, idmançılar, paraşütçülər* arasında tez-tez rast gəlinir. Belə fikrə gəlmək

olar ki, ekstremal jurnalistika ilə maraqlananların arasında olan, xüsusilə, qaynar zonalarda işləyən – **"stringer"** adlanan reportyorların əksəriyyəti məhz, sadalanan xarakterə malik insan tiplərinə aiddirlər. Ona görə də ekstremal situasiyalardan yazmağı peşəsinin əsas istiqaməti kimi qəbul edən, jurnalist, əməlli başlı bilməlidir – nələrlə qarşılaşacaq. Özü üçün bu suala cavab verməlidir: – belə risklərə getməyə hazırdırmı?

Onu da qeyd etmək gərəkdir ki, ***«strinqerlər» arasında xüsusi jurnalist təhsili olmayanlar az deyil,*** daha doğrusu, onları ekstremal jurnalistikaya, hər şeydən öncə, ürəklərinin səsi gətirib – onlar deyildiyi kimi xüsusi tip adamdır, «macəra axtaran». Bu tip jurnalistlərin hazırladıqları materiallar keyfiyyət baxımından aşağı səviyyədə olsa da, əldə olunan informasiyanın nadirliyi ilə seçilirlər.

Yuxarıda sadalanan riskə meyilliliklə yanaşı, ekstremal jurnalistikada başqa bir keyfiyyət də var. Bunu açıq demək gərəkdir. Bu xüsusiyyəti «özünü nümayiş» kimi adlandıra bilərik. Hər bir ekstremal haldan, xüsusilə də müharibədən hazırlanan material dərhal diqqət mərkəzinə çevrilir. Belə məlumatlar, dünyanın bütün agentliklərindən ilk növbədə yayılır, məşhur televiziya kanalları döyüş bölgəlrindən hazırlanan 1-2 dəqiqəlik video, foto çəkilişə görə strinqerlərə külli miqdarda pul ayırır, müharibə iştirakçılarından alınan reportajlar, müsahibələr istənilən qəzetin səhifəlrini, televerilişləri bəzəyir. (Hətta söhbət uzaq keçmişdə baş vermiş – II Dünya müharibəsindən bəhs etsə də). Təbii ki, materialla birlikdə onu hazırlayanlar da çox qısa müddətdə məşhurlaşır, bir andaca jurnalistika ulduzuna çevrilirlər. Çox az oxucunu jurnalistin professionalığı və əldə etdiyi materialın keyfiyyəti maraqlandırır. Bizi – tamaşaçıları və oxucuları ilk növbədə orada nə baş verməsi maraqlandırır. Bundan sonra materialın necə təqdim edilməsi maraqlandırır.

Təbii ki, ekstremal jurnalistin qısa vaxtda məşhurlaşması eqosentrik adamları, məşhurlaşmağa cəhd edənləri daha çox özünə cəlb edir və onlar gözə girmək və diqqət mərkəzidə olmaq xatirinə

həyatları ilə risk etməyə hazır olurlar. (Bizim jurnalistlərinin xətrinə dəyməmək üçün rus jurnalisti Aleksandr Nevzorovun səs-küyə səbəb olan, cəsarətli, lakin əksəriyyəti qeyri-obyektiv hazırlanan materialarını misal gətirmək istəyirəm. Bu cür misalları öz jurnalistlərimizdən də gətirmək olar.)

Çüzi yaralanma, dərisinin bir balaca sıyrılması jürnalisti məşhurluğun elə bir əlçatmaz yüksəkliyinə qalxızır ki, başqa jurnalistlər, bundan qat-qat artıq döyüşlərdən baş aça bilməyən, ciddi yaralar, ağır xəsarətlər alan döyüşçülər, daha çox zabitlər ona həsəd aparmaya bilmirlər. Bu cür amillər də hərbçilərin jurnalistlərə neqativ münasibət bəsləməsinə hansı dərəcədəsə təsir edir.

Məhz, ekstremal jurnalistin eqosentrizmi və özününümayişçiliyi bu gedişdə onunla bir "acıqlı" zarafat edə bilər. O artıq məşhurdur. Bir tərəfdən ondan davamlı olaraq maraqlı, sensasiyalı informasiya gözləyirlər, ancaq o biri tərəfdən informasiya mənbələri artıq belə jurnalistlə iş birliyindən imtina edirlər... Buna əlavə edək ki, həmkarları onun materiallarında bəzi qeyri-professionallıq aşkar edirlər... Xeyli pul qazanılıb, ta sakit, dinc həyat yaşamaq istəyir, lakin məşhurluq hər zaman riskə getməyə sövq edir və s.

Ekstremal şəraitlərdə işləyən insanlar öz həyatına risk etməklə yanaşı, başqa adamların da ağrısı, ölümü ilə tez-tez üzləşməli olurlar. Bu da insanda emosional reaksiyalar doğurur. Ancaq, ***ekstremal hadisəni təsvir edən jurnalist emosional gərginlik keçirməməlidir.*** Belə ki, ondan hadisəni düzgün qiymətləndirən obyektiv, qərəzsiz material gözləyirlər. Əgər jurnalist emosialara qapanarsa, obyektivliyi itirir, başlıcası isə peşəkarlığı təhlükə qarşısında qalmış olur.

Təsadüfi deyil ki, strinqerin kodeksində döyüşü işıqlandıran zaman odlu silahdan istifadə etmək qadağandır. Əks halda döyüşmək azarı, qan, çörək kəsdiyin, söhbətləşdiyin insanların ölümü kameranı, qələmi, qeyd dəftərini atıb, silah götürüb, jurnalist olmasını unutmağa insanı məcbur edə bilər. (Sözsüz ki, bütün qaydalarda istisna halları da ola bilər.) Xatırlayaq, gür*cü-abxaz müharibəsi zamanı artıq həlak olmuş iki azərbaycanlı*

*strinqer Suxumidə gedən döyüşləri işıqlandırırdılar. Onların biri abxaz hərbi döyüşçüləri tərəfində, digəri isə gürcü tərəfində işləmişdilər. Yetərincə təhlükəli olan bu ezamiyyətdən qayıdandan sonra o iki dost kəskin qəzəblə bir-birlərinə abxaz və ya gürcü tərəfin bu savaşda haqlı-haqsız olmasını sübut etməyə çalışırdılar.*

Onların yüksək profesısionallığı hadisənin obyektiv işıqlandırılmasında özünü göstərdi. Amma işlərini başa çatdırandan sonra döyüş zamanı birlikdə riskə məruz qaldıqları insanların ağrısı, itkisi ilə bağlı onlarda emosiyalara qapılmalar baş verdi.

Belə isə publikaya məlumat çatdırmağın bu sayaq fədakar sahəsiylə bağlanmaq isyəyirsinizmi? Elə isə tövsiyələrimizi oxuyaq.

## Tövsiyələr, tələblər, tapşırıqlar

70. *Riskə tam hazır olduğunuzu dəqiq bilməyiniz gərəkdir.*
71. *Hərbi tematika yalnız hərbi paradlardan reportajlar, yaxud istefada olan zabitlərin mətbuat konfransları deyil. Bu həm də, döyüş zonalarından reportajlardır – o yerdə ki, sizi öldürə, şikəst edə, ya əsir götürə bilərlər. Bura, komandirlərlə, rəislərlə tez-tez rastlaşılan konfliktlərdir – sizin döyüş bölgəsində zorla saxlanmanız, məhkəməyə verilməyiniz, hərbi xidmətə çağırılmanızla nəticələnə bilər. Əgər, siz bütün bu çətinlikləri dərk edir, bu işə hazır olduğunuzu, sizin üçün maraqlı olduğunu qərarlaşdırmısınızsa, ehtirasa uymamağı, risk dərəcəsini nəzarətdə saxlamağı öyrənməlisiniz.*
72. ***Risk etməklə məşhurlaşa bilərsiniz.** Amma. Əsas məsələ ulduz xəstəliyinə tutulmamaqdır. Ekstremal hallardan yazmaq adi bir peşədir. Sizin professionallığınız nə dərəcədə riskə getməyinizdən asılı deyil. Yüksək səviyyəli professional məktəbdən, xəstəxanadan və ya digər bir yerdən də gözəl reportaj hazırlaya bilər. "Ulduz" xəstəliyinə tutulmaqla əhali arasında məşhur ola bilərsiniz, ancaq professionalların, həmkarlarınızın və hərbçilərin arasında hörmətdən düşəcəksiniz. Bütün bunları sizə bəslənən həsəd hissi kimi düşünməyin. Özünüz günahkarsınız.*

73. *Özgənin ağrısını özünüzə qəbul etməməyi öyrənin. Bu peşə soyuqqanlıları sevir.*
74. *Ekstremal jurnalistikada ağrı, qan, ölüm çox olur. Siz, sadəcə, öz professional vəzifənizin gedişində bu ağrıları gündəlik həyatında hər gün görən həkim kimisiniz. Əgər siz emosional durumunuzu idarə edə bilmirsinizsə, hər bir ölüm üçün gərginlik keçirirsinizsə, sizin əsəb sisteminiz buna tab gətirməyəcək. Sizin obyektivliyiniz və professionallığınız itəcək.*

## Pa hooo! Əsir düşmüsünüz?!

75. *Savaş elə savaşdakı kimidir. O andaca jurnalist olduğunuzu bildirin.*
76. *Onların komandirləri ilə görüşməyə çalışın, vəziyyəti danışın, bütün sənədlərinizi göstərin.*
77. *Haray-həşirə düşməyin, xilasınız üçün kiminsə verə biləcəyi pul təklif etməyin.*
78. *Ola bilər ki, o düşərgədə həmkarınız – jurnalist, yaxud Qırmızı Xaç Cəmiyyətindən kimsə olar. Onlarla görüşünüz qurtuluş şansınızı artırar.*
79. *Prosesdə əldə etdiyiniz plyonkanı, videoyazını, qeydləri onların vasitəsi ilə ötürməyə cəhd edin.*
80. *Özünüz barədə məlumat verin ki, bu xəbər redaksiyanıza mümkün qədər tez çatsın.*
81. *Bundan sonrası sizin rəhbərliyin necə addım atacağından asılıdır.*

## Qadın müxbir döyüş bölgəsinə gedir? Yox!

82. *Müxbir-qadınların döyüş bölgəsinə göndərilməsindən çəkinin. Onların döyüşçülər arasına düşməsi arzuedilən deyil.*
83. *Onların ön xəttə görünməsi özü ilə əməlli-başlı problemlər gətirir (döyüşdə ayrıca qadın tualeti və dincəlmə otağı olmur).*
84. *Uzun müddət qadın görməyən oğlanların nə duyğular yaşadığını, o qadın barədə necə düşündüyünü siz də düşünün.*
85. *Hərbçilərin özünəxas danışıq dili, davranışı hər iki tərəfi pis*

*vəziyyətdə qoya bilər.*

86. *Qadınlar hərpçi psixologiyasını çox pis qavrayır, onlara daha tez vurula bilirlər. Qadın emosiyası döyüşçü mühitinə yaxşı heç nə gətirməz.*
87. *Zabitlər ifrat səmimiyyətə yuvarlana bilərlər.*
88. *Ən əsası, dediyimiz, doğruluğuna çübhə etmədiyimiz şəraitdə qadın jurnalist bitərəfliyini, reallıq hissini itirir.*
89. *Onların əsir düşməsi isə... Dözülməzdir.*
90. *Bu və buna bənzər çoxlu səbəbdən qadın müxbirin lap sülh vaxtı da hərbi obyektdə olmasından çəkinmək gərəkdir.*

*(Tövsiyələr dünya üzrə ekstremal jurnalistika təcrübələrindən yararlanılaraq hazırlanıb)*

## Hərbi qulluqçularla ünsüyyətə içdən baxış

***Bu mühazirəni döyüşçüərlə unsiyyət zamanı baş verə biləcək psixoloji məqamları önərləmək üçün jurnalistlərin öncədən bilməsi amacından yazdım. Ola bilsin deyilənləri dəqiqliklə bilirsiniz, Hər halda yaddaşımızı təzələmək pis olmaz.***

Ünsiyyət – *iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq məqsədi ilə öz səylərini əlaqələndirməyə, birləşdirməyə yönəldilmiş qarşılıqlı təsir prosesidir.*

Şəxsi ünsiyyət, *adətən həmsöhbətlərin bir-birinin təfəkkür tərzi, dünya görüşü, daxili aləmi haqqında təsəvvürləri ilə tənzim olunur.*

Ünsiyyətin növləri: 1) verbal və 2) qeyri-verbal:

1. şifahi (monoloji, dioloji), yazılı;
2. təbəssüm, tərs baxış, mimika, əl və bədənin ifadəli hərəkətləri, vokal mimika (eksressiv-mimik vasitələr),

Əşyavi-hərəki vasitələri:

a) ünsiyyət məqsədi ilə istifadə olunan lokomotir və əşyavi hərəkətlər;

b) başqa adama yaxınlaşma, ondan uzaqlaşma, nəyi isə vermə, ya uzatma, onu özünə doğru çəkmə, özündən itələmə və s.;

Ünsiyyətin üç forması var: **kommunikativ, interaktiv, perspektiv.**

**Kommunikasiya** – ünsiyyətin informasiya mübadiləsidir. Adə ətı kommunikasiyadan söhbət gedərkən dar mənada insanların birgə fəaliyyət prosesində bir-biri ilə müxtəlif təsəvvür, ideya, fikir, maraq, hisslər, əhvalların və s. mübadiləsi nəzərdə tutulur. Bu prosses bir tərəflə olmur, qarşılıqlı xarakter daşıyır.

**İnteraktiv** – insanların ünsiyyət vasitəsi ilə bir birinə qarşılıqlı təsir prosesidir. Ünsiyyətə girərkən insanlar hər hansı sual, xahiş, əmr, izahat zamanı qarşılarına başqasına bu və ya digər şəkildə təsir etmək məqsədini qoyur.

Bu zaman o başqalarından nəyisə öyrənmək, ona təsir etmək, onu yersiz hərəkətlərdən uzaqlaşdırmaq, dostluq əlaqələri qurmaq, ondan hansısa köməyi əldə etmək, ya da ona öz kömək əlinii uzatmaq və istəyini güdə bilər.

**Perspektib** – insanların bir-birini qavraması, anlaması prosesidir.

İnformasiya özü-özlüyündə iki tipi ilə fərqlənir:

– **Təhrikedici informasiya** əmr, məsləhət, xahiş formasında ifadə olunur. Onlar respientin hər hərəkətini müxtəlif formalarda (təhriketmə, qadağan etmə və s.) stimullaşdırmağı nəzərdə tutur.

– **Təsbit edici** isə məlumat formasında meydana çıxır.

**Mütəxəssisin şəxsiyyətini xarakterizə edən mühüm amil fərdi psixoloji hazırlığıdır.**

**İnsan amili insana xas olan sosial-psixoloji, psixoloji və psixofizioloji xassələr dairəsini nəzərdə tutur. İnsan amili demokratik cəmiyyətdə daha çox qabarır. Şəxsiyyətin peşə səriştəsi təkmilləşir, tələbatı fərdiləşir, mənəvi potensialı artır, iddia səviyyəsi yüksəlir, özünü müdafiə meylləri daha dolğun formada ifadə olunur. Ətrafdakı insanlarla işləmək çətinləşdiyi vaxtlarda yüksək intellektual və iradi-emosional keyfiyyətlər gərək olur.**

**Şəxsiyyətin formalaşması** – *müəyyən həyat mövqeyi, hər şeydən öncə, əxlaqi mövqe tutmaq, öz mövqeyini aydın dərk etmək və onun üçün məsuliyyət daşımaq, bütün həyatı boyu özünün əməlləri ilə onu təsdiq etmək deməkdir. Bir şəxsiyyət olaraq*

*hərbçinin tələblərinin (maraqlarının), davranış motivlərinin, qabiliyyətinin (yaradıcılıq imkanlarının), əmək qabiliyyətinin, intellektinin və emosiyasının, iradəsinin və xarakterinin, şüurunun və mənlik şüurunun, sosial durumunun və sərvət meyllərinin formalaşmasında hərbi həyat mühüm rol oynayır.*

Döyüşün gedişində hərbi qulluqçuların subyektiv vəziyyətləri, müxtəlif qrup motivlərinin analizi, döyüşə meylliliyi, dərketmə qabiliyyətinin xüsusiyyətləri, emosional və iradi proseslərin öyrənilməsi döyüş fəaliyyətinin effektivliyinin xüsusi və ümumi şərtlərinin müəyyən edilməsinə imkan verir.

Xüsusi şərtlər dedikdə, ayrı-ayrı psixi vəziyyətlərin, motivləri dərk etmə proseslərinin (təfəkkür, təsəvvür, hafizə, diqqət), psixi əmələ gələnlərin (bacarıq və vərdişlərin möhkəm və faktiki olması) verilmiş döyüş tapşırığının yerinə yetirilməsində çevikliyi, anlamada məqsədyönlülük, bilik, bacarıq və vərdişlərdə səmərəliliyin müxtəlifliyi, yüksək səviyyədə iradəlilik nəzərdə tutulur.

Ümumi şərtlər dedikdə – xasiyyətin, bütün psixi proseslərinin, məqsədin, şəraitin, öz silahına inamın, davranış tərzinin müntəzəmliyi, diqqət fəallığının paylanması və mərkəzləşdirilməsi, psixikada dinamik və sarsılmazlıq başa düşülməlidir.

Ümumi və xüsusi şərtlər vəhdət halında olmalıdır. Bu, hərbi qulluqçunun ekstremal şəraitdə qarşıya qoyulmuş tapşırığın yerinə yetirilməsində, psixikasının fəallığını və sarsılmazlığını göstərir.

Ekstremal fəaliyyətdə hərbi qulluqçunun şüurlu surətdə özünü idarə etməsi xüsusi rol oynayır, bu isə öz növbəsində hərbi qulluqçunun ideya əqidəliliyində, əxlaqi duyumunda, ustalığında, təcrübəsində, ağlında və iradi keyfiyyətlərində özünü büruzə verir. Bu, hərbi qulluqçunu effektiv çılğınlıqdan, şablon fəaliyyətdən, ətraf mühitə mənfi təsir etmədən qoruyur.

Zabitin ətraf mühitlə əlaqəsi və ona təsiri həmişə özünü psixika vasitəsi ilə ifadə edir. İnsanın psixi fəaliyyəti psixi proseslərin, vəziyyətlərin və psixi əmələ gəlmişlərin mürəkkəb qarşılıqlı təsiri şəraitində baş verir. Bu zaman psixi fəaliyyətin və reaksiyaların

xüsusiyyətlərinə xarici səbəblər bir başa təsir etməyib daxili şəraitlə təsir edir.

**Psixi proseslər** hərbçinin istənilən fəaliyyət aktını müəyyən edir. İnsanın ətraf mühiti düzgün anlaması, davranış tərzi, əməlləri, qanunları öyrənməsi psixi prosesdən asılıdır. Komandir zəruri olan prosesləri analiz edir, dəyərləndirir, istiqamətləndirir, təlim-tərbiyə normativləri ilə qarşıya qoyulmuş tapşırıqların icrasına rəhbərlik edir.

## Hərbiçilərin həyatının və xidmətlərinin zəruri psixoloji xüsusiyyətləri:

1. *Hərbi-humanitar – yüksək döyüş hazırlığı; ustalıq; qarşıya qoyulmuş tapşırığın icrası; nail olma;*
2. *Hərbi-taktiki – daxili səfərbərliyin artırılması; soyuqluq; fəaliyyətdə mütəşəkkillik; döyüş ustalığının təkmilləşməsi prosesinin sürətləndirilməsi;*
3. *Hərbi-əxlaqı – birliyə səy göstərmə; dostluğun, yoldaşlığın inkişaf etdirilməsi; qarşılıqlı hörmət.*

Hərbçilərdə iradə möhkəmliyini formalaşdırma və onlara mənəvi-psixoloji hazırlığın əsas istiqaməti olan qorxunu dəf etmə qabiliyyətini aşılamaq üçün komandirlər və onların tərbiyəvi işlər üzrə müavinləri hissənin döyüş əməliyyatını xatırladan təlimlər zamanı mümkün olan çətinlik, gərginlik və təhlükə şəraitində şəxsi məsuliyyət hissini öz üzərinə götürməli olurlar.

*Adamların imkanlarını üstələyən təhlükələr, vəzifələr, məhrumiyyətlər, düşmənin fəallığı və atəşi, həll olunan vəzifələrin mürəkkəbliyi, bütün qüvvələrin son həddə qədər gərginləşdirilməsi zərurəti* ***döyüşçülərin fəalityyətini çətinləşdirən və qarşıya qoyulmuş məqsədlərin əldə olunmasına maneələr yaradan müxtəlif psixi vəziyyətlər yarada bilər.*** *Bunlara narahatlıq, həyəcan, inamsızlıq, qorxu, məyusluq, ümidsizlik, apatiya, məhkumluq hissi və s. aiddir.*

Bu və digər mənfi psixi vəziyyətlər aşağıdakı əsas vəziy-

yətlərdə birləşirlər: **frustrasiya, gərginlik, yorğunluq, qorxu və panika.** *(Frustrasiya - insanın məqsədə doğru yolunda çətin, mürəkkəb və dəfolunmaz kimi dəyərləndirdiyi real və ya təsəvvür olunan mane*ələrin yaranması zamanı psixi vəziyyətidir.)

**Stress** (ingiliscə «stress» – təzyiq, gərginlik deməkdir) – insanın gözlənilməz, gərgin şəraitlə rastlaşarkən keçirdiyi şiddətli emosional haldır.

**Qorxu** – təhlükənin dərk edilməsi ilə bağlı psixikanın və fəaliyyətin həyəcan vəziyyəti, onun nəticəsində yaranan ruhi əzablar və ya ehtiraslardır.

**Qorxu – ağır emosional vəziyyət – yalnız real şəraitdə deyil, təsəvvür olunan təhlükə nəticəsində də təzahür edir.** *Mühasirə barədə yalan şayiələr, fitnəkar məzmunlu vərəqlər yayan, öz hərbi-texniki qüdrətini, döyüşdə üstünlüyünü təbliğ edən düşmən buna ümid edir, bunu nəzərdə tutur.*

Ən güclü **affektiv qorxu** ən təhlükəli, həddindən artıq ağır vəziyyətlər nəticəsində yaranır, hərəkət və mübarizə qabiliyyətini müəyyən müddətə iflic edir. İnsan donub qalır, öz taleyini passiv şəkildə gözləyir və ya hara gəldi qaçmaq istəyir.

Amerika psixoloqu R.U. Storm yazırdı: *«Hər bir ayrıca əsgərin ürəyinə düşmüş qorxu panikaya, kütləvi şoka və ya davranışın pozulmasına gətirib çıxara bilər».*

**Çaxnaşma (panika)** – həqiqi və ya yalançı təhlükə zamanı adamı və ya toplunu dərindən əhatə etmiş güclü çaşqınlıq və qorxu vəziyyətidir. Bu vəziyyət başlanmış işin icrasını davam etdirməyə yol vermir və eyni zamanda adamları və bütöv kollektivləri planlaşdırılmamış, təsadüfi, obyektiv surətdə mənasız hərəkət və əməllərə sövq edir.

Qorxuya, hay-küyə düşmüş hərbi qulluqçuların davranışına nəzarət, onların idarə edilməsi üsulları və vasitələrinin imkan daxilində seçilməsi onları törədən səbəb və formalardan çox asılıdır.

**Qorxunun meydana çıxmasının səbəbləri:**

1. *Biliklərin zəif olması;*
2. *Döyüşün gedişində düşmənin bir çox səbəb üstünlükləri ilə*

*sıxışdırması;*

3. *Hərbi bölmədə parçalanma (rəhbərlikdə, qarşılıqlı anlaşmada və əlaqədə narazılıq, böyük sayda itkilər, təsadüfi adamların toplanması, insanların bir-birini yaxşı tanımaması);*
4. *Şəxsi heyətin mənəvi və fiziki cəhətdən yorğunluğu;*
5. *Düşmənin yeni silah tətbiq etməsi;*
6. *Şəxsi heyətdə öz silahına inamın olmaması;*
7. *komandirin ona tapşırılan vəzifə borcunun yerinə yetirilməsinə yalançı inamın olması.*

## Qorxunun aradan qaldırılması üçün zəruridir:

1. *Nizamnamələrin qaydalarına ciddi əməl olunması;*
2. *Ciddi rəhbərliyin, təşkilatçılığın möhkəm saxlanılması;*
3. *Kollektivdaxili əlaqələrə və münasibətlərə istiqamətlənmiş mənəvi, əxlaqi-humanitar işin bərpası;*
4. *Ağır və çətin döyüşdən əvvəl və sonra döyüşçülərə asudə vaxtın verilməsi;*
5. *Komandirin özünü ələ almaq qabiliyyəti, optimistliyi, inamlılığı, cəsurluğu və fasiləsiz olaraq tabeçilərlə ünsiyyətdə olma qabiliyyəti;*
6. *Şərait haqqında şəxsi heyətə məlumat verməsi;*
7. *Şəxsi heyətdə nailiyyət qazanmağa inam yaratması, beləliklə sayıqlılığı yüksəltməsi.*

## Hərbi təlimlərin üç vacib elementi:

**1. Döyüş hazırlığı zamanı formalaşır:**

- *döyüş ustalığı;*
- *gələcək müharibə barədə düzgün anlayışlar;*
- *emosional - iradi psixi möhkəmlik (davamlı);*
- *döyüş mətinliliyi, şüurluluq, qorxmazlıq.*

**2. Psixoloji hazırlıqda tərbiyə olunur:**

- *yüksək şüurluluq;*
- *müharibənin məqsəd və tapşırıqlarını başa düşmək;*
- *müharibəyə daxili hazırlıq və qələbəyə inam;*

– *vətənpərvərlik hissələri;*
– *düşmənin məhv edilməsi.*

**3. Fiziki hazırlıq zamanı formalaşır:**

– *güclülük və dözümlülük;*
– *fəaliyyətdə razılaşdırılma;*
– *psixi funksiyaların davamlılığı;*
– *vestibulyar aparatlarda, digər analizatorlarda davamlılıq.*

Buna görə də Silahlı Qüvvələrdə keçirilən təlimlər öz borcunu yüksək məsuliyyət hissi ilə dərk edən komanda-rəis heyəti və şəxsi heyət qarşısında ciddi tələblər qoyur. Bu da döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi üçün çox əhəmiyyətlidir.

Ekstremal şəraitində ətraf mühütdə baş verən hadisələr ilə insanın idrak prosesi arasındakı əlaqə mürəkkəb və ziddiyyətlidir. Axı, bu əlaqə vasitəsi ilə qərar qəbul etmə, şəxsi planın hazırlanması və onun həyata keçirilməsinin formalaşması prosesi baş verir.

İnsan hər hansı bir əməliyyatın icrasına başladıqda, hər şeydən əvvəl duyğular sistemi fəaliyyətə başlayır.

Psixologiya elmi tədqiqatçıları müəyyən ediblər ki, insanın reseptor aparatlar sistemi yalnız orta qüvvəyə malik qıcıqlandırıcılara düzgün cavab verə bilən finksiyalarla yaradılıb. Təcrübi yolla sübut edilib ki, ***əgər ekstremal hal əhəmiyyətli qıcıqlandırıcılarla xarakterizə olunursa, onda real həqiqətlərin təhrif olunmuş formada əks olunması tam mümkündür.*** Praktik cəhətdən bu hal nüvə partlayışı, kimyəvi və artilleriya atəşi, kəşfiyyat əməliyyatı, eləcə də müəyyən üz-üzə döyüşlər zamanı meydana çıxa bilər.

Buradan isə ekstremal hallar üçün psixoloji hazırlığın konkret məsələləri meydana çıxır:

– *hərbçilərin situasiya ilə tanış edilməsinin zəruriliyi;*
– *adaptasiya probleminin həll edilməsi;*
– *meydana çıxan qıcıqlandırıcıların duyulması;*
– *ona vərdiş hisslərinin yaradılması.*

Təlim prosesində ekstremal şəraiti yaratmaq olduqca çətindir,

ancaq döyüş hazırlığının praktik məşğələlərində ekstremal vəziyyətə uyğun şəraitlərin yaradılması zəruridir.

Hərbçinin ekstremal şəraiti (vəziyyəti) qavraması və qiymətləndirilməsi mühüm əhəmiyyət daşıyır. ***Qavrama prosesi analiz və sintez elementlərindən ibarətdir.*** *Qavrama ali idrak prosesinə istiqamətlənmiş körpüdür – bu körpü təfəkkür prosesinin meydana çıxmasında mühüm rol oynayır. Bu zaman insan situasiyanın bütün tərəflərini yox, ancaq onun üçün hər şeydən əvvəl həyati əhəmiyyət daşıyan tərəflərini beynində (düşüncəsində) canlandırır və qeyd edir.*

Məsələn, eyni bir ekstremal şəraitdə:

- ✓ ***bir döyüşçü beynində qorxulu faktorlarla, təhlükəli siqnallarla əks etdirər,***
- ✓ ***başqa bir döyüşçü isə həmin faktor və siqnallar əsasında düşmən üzərində inamlı qələbə qazanmaq üçün özünün döyüş planlarını hazırlayar, başqa sözlə, düşmənin zəif və qüvvətli tərəflərini anlayıb qiymətləndirər, döyüş texnikasından, silahlardan daha da effektli istifadə etmək üçün düzgün qərar qəbul edər.***

Belə bir hərbçinin hərəkətində və fəaliyyətində qələbəyə inam, qarşıya qoyulmuş tapşırığın yerinə yetirilmə zəruriliyi və öz imkanlarından istifadə etmə mənəvi parlaqlığı ilə nəzərdə canlanır.

Qavrayışın (mənimsəmənin) müxtəlif olma səbəbi *(deməк olar ki, bu, həmişə meydana çıxır)* hər şeydən əvvəl insanın dünya görüşündən asılıdır. İnsanın dünya görüşü onun təcrübəsindən, ustalıq səviyyəsindən, qazandığı biliklər sistemindən və s. asılıdır. Bunu keyfiyyətcə müvəqqəti təsir səbəblərindən olan psixi vəziyyətin xüsusiyyətlərinə aid etmək olar.

**Döyüş əməliyyatı zamanı əhval-ruhiyyə, ruh yüksəkliyi, nikbinlik və yaxud da ruhi sıxıntı, əlacsızlıq, qorxu hissləri şəxsi heyətin qarşıya qoyduğu məsələlərin yerinə yetirilməsinə müxtəlif təsir göstərir.**

**Deməli hərbçinin özünə, döyüş texnikası və silahına, yoldaşlarına, xüsusən də komandirinə (rəisinə) inamın formalaşması, döyüşün getdiyi zaman düzgün istiqamətlənmə, dö-**

**yüş əməliyyatının uğurla icrası üçün əsas şərtdir.**

İstənilən silah növünün tətbiqi, təbii olaraq özündə bir çox qeyri-müəyyənlik (naməlum hadisələr və hisslər) əks etdirir. Ola bilsin, əsgər dağıntını, yanğını, dostunun ölümünü, döyüşçü yoldaşının müxtəlif zədə aldığını, onun qeyri-adi hərəkətlərini ilk dəfə görsün, yalvarıcı səsini eşitsin, yaxud da düşmənin gözlənilməyən üsullarla atəş açıb döyüş aparmasının şahidi olsun.

Buradan belə bir sual meydana çıxır: gözlənilməzlik və qeyri-müəyyənlik faktları hərbçilərin fəaliyyətinə, özünü aparmasına və əməllərinə necə təsir göstərir?

*Hər şeydən öncə gözlənilməz hadisə fəaliyyət zamanı inamın itirilməsinə səbəb olur, döyüş tapşırığının əzmlə yerinə yetirilməsinə bütünlüklə təsir edir.*

Aydın olur ki, qarşıda duran döyüş zamanı meydana çıxa biləcək situasiya haqqında söhbətlər aparmaq, yaranacaq mürəkkəb şəraitdə davranış, fəaliyyət üçün təcrübə toplamaq əsas şərtdir. Döyüş qabiliyyətinin yüksəldilməsində vərdişlərin möhkəmləndirilməsinin böyük əhəmiyyəti vardır. *Vərdişlərin fizioloji əsaslarını hərəkətlərin təkrarlığı təşkil edir və təsadüfən nəzarətin müəyyən qədər zəifləmdilməsi döyüş şəraitində hərbçi fəaliyyətinə mənfi təsir göstərir.*

İradi keyfiyyətin hərbçi fəaliyyətinə təsiri qarşıya qoyulmuş döyüş tapşırığının uğurlu olmasına müsbət təsir edir. *Güclü iradəyə malik hərbçi bütün psixi proseslərin fəaliyyətinə möhkəmləndirici təsir göstərərək, öz diqqətinin müəyyən qıcıqlandırıcılara qarşı istiqamətlənməsinin qarşısını alır, (necə güclü, təhlükəli məlumat olursa olsun) öz düşüncəsini, fikrini qarşıya qoyulmuş məsələnin həll edilməsinə yönəldir.* ***Döyüşçü vətəndaşlıq borcunun yerinə yetirilməsində möhkəm əqidənin əsasını, hərbi anda sadiqliyini, istənilən şəraitdə fəaliyyətini nizama salan iradə yiyəsidir.***

Döyüş şəraiti insan psixikasının hiss və həyacan tərəfinə, onun formasına, istiqamətinə və tərkib hissələrinə çox mürəkkəb təsir edir. Obyektiv reallığın əks olunması həyacan və hisslərdə özünü biruzə verir.

Döyüş şəraitində fəallıq duyma, sezmə qabiliyyətinin yüksəl-

məsi ilə şərtləndirilir.

**Döyüş şərtləri ekstremaldır:** *döyüş vəziyyətlərinin təhlükəliliyi və dinamizmi, yuxu, istirahət və fəaliyyətin adi növbələşməsinin yoxluğu. Döyüş tapşırıqlarını sutkanın müxtəlif vaxtlarında, pis hava şəraitində, düşmən haqqında kifayət qədər məlumatın olmadığı hallarda gerçıkləşdirmək lazım gəlir. Bundan başqa, bir sıra hallarda üstün düşmən qüvvələrinə qarşı döyüş əməliyyatları aparmaq gərəkir.*

Adamların imkanlarını üstələyən təhlükələr və ekstremal hallar, məhrumiyyətlər, düşmənin fəallığı və atəşi, həll olunan vəzifələrin mürəkkəbliyi, bütün qüvvələrin son həddə qədər gərginləşdirilməsi zərurəti döyüşçülərin fəalityyətini çətinləşdirən və qarşıya qoyulmuş məqsədlərin əldə olunmasına maneələr yaradan müxtəlif psixi vəziyyətlər yarada bilər.

*Qorxunun meydana çıxması səbəblərini komandirlərin düzgün dərk etmələri, nizamnamə qaydaları əsasında aradan qaldırmaları optimal xidmət şəraitini, imkanlarını genişləndirir. Qorxunun aradan qaldırılması üçün psixi inkişafı zəruri edir.*

Bunun üçün də həqiqi döyüş modeli yaradılır.

Hər bir təlim və məşğələlərin döyüş şəraitinə uyğunlaşma ölçüsü, həlledici anda döyüş hazırlığı ilə bərabər şəxsi heyətin mənəvi-psixoloji hazırlığının hansı səviyyədə təşkil edilməsi ilə bilavasitə təyin olunur.

**Döyüş şəraitini şərtləndirən bir neçə ekstremal vəziyyəti nəzərdən keçirək.** Bu:

*I növbədə məqsədəuyğun fiziki və psixoloji çətinliklərin, süni surətdə ortaya çıxarılan çatışmazlıqların yaradılması,*

*II əsas amil təlimə şərti düşmənin cəlb edilməsidir.*

*III səslərin effekti, partlayışların təqlid edilməsi, güllənin uçuş səsi, uçqunlar, dağıntılar, şərti döyüş itkiləri vasitəsi ilə döyüş mənzərəsinin yaradılmasıdır. Dördüncüsü isə, təlim sınaqlarının və süni təhlükənin təşkil edilməsidir.*

Hərbi əməliyyatlar zamanı ilk vaxtlarda təcrübəsiz komandirlərin rəhbərlik etdiyi, döyüş hazırlığı çox aşağı səviyyədə olan özünümüdafiə bölmələrimiz üzərinə yaxşı silahlanmış, lakin

üzbəüz döyüşə atılmağa curət etməyən təcavüzkar erməni silahlı birləşmələri əksər hallarda çoxlu zirehli texnika tətbiq edərək hücuma keçmək yolu ilə vahimə yaradır, döyüşçülərimizi öz mövqelərini tərk edib getməyə vadar edirlər.

Ekstremal hallarda püxtələşən döyüşçülərlər **"Qorxaq o adamdır ki, təhlükə vaxtı ayaqları ilə düşünür!"** deyəndə doğru düşünmüş olurlar.

Həmin bölük qorxuya üstün gələ bilməyərək itki ilə geri çəkilir. Komandir sonradan, iş işdən keçəndən sonra öz səhvini anlayır. Üstəlik onu da anlayır ki, döyüşdə komandirinin vahimələnməsi tam məğlubiyyət deməkdir. Savaş prosesində bir əsgər qorxarsa, bununla keçinmək, müəyyən qədər ötüşmək olar. Lakin komandirin sadəcə bir təşviş halı bütün şəxsi heyətin əl-qolunu bağlayır, təxribat üçün əlverişli əsas yaratmaqla yanaşı istənilən həmlə prosesini düyünə salır.

Hərbi təlimlər bir çox vəzifələrin geniş kompleksdə öyrənilməsi zəruriliyini ortaya çıxarır. ***Mənəvi və fiziki gərginliyin dəf edilməsi, kollektivin sağlamlaşdırılması, döyüş hazırlığının formalaşdırılması, əməliyyatlar zamanı kollektivçilik ənənələrinin möhkəmləndirilməsi və təkmilləşdirilməsi belə mühüm vəzifələrdəndir.***

Həmin vəzifələrin həlli yalnız təlimin döyüş şəraitinə maksimum yaxınlaşdırıldığı təqdirdə reallığa çevrilir və ekstremal hallardan baş çıxartmaq məlum vəziyyətlərdə xeyli asanlaşır.

**Düşündüm ki, bu mühazirənin dolayısıyla jurnalist bilgilərinə qatılmasının səmərəsi var. Konkret döyüşün gedişini izləyən, nəticələrin nədənliyini anlayan müxbir-reportyor bu amilləri biləndə daha doğru şərhlər yaza bilir.**

Yuxarıdakı qeydlərimizi ümumiləşdirərək səngərdə konkret ekstremal situasiyalarla üzləşən müxbir-reportyorlara tövsiyə edirik:

91. *Münaqişədə olan adamla davranarkən, onun sakitləşməsini gözləyin. Qəzəbi soyumayubsa, onunla dil tapmaq çətin olacaq.*
92. *Qoy tələsmədən iddialarını söyləsin. Amma deyin ki, yalnız*

*fakt və dəlilləri nəzərə alacaqsınız. Soruşun: «Dedikləriniz faktdır, yoxsa siz belə güman edirsiz?"*

93. *Gözlənilmədən mövzunu dəyişin. Məqsəd həmsöhbətinizin bir az sakitləşməsidir.*
94. *İnamsızlıq, inadçıllıq göstərməyin. Deməyin «Siz yalan deyirsiz».*
95. *Qoy arzu etdiyi nəticəni və real problemi izah etsin.*
96. *Təqsirkar axtarmayın. Müsahib problemin həlli üçün öz fikrini desin.*
97. *Zora qarşı zor tətbiq etməyə çalışmayın. Onun şəxsiyyətini alçaltmayın. Yalnız onun hərəkətlərini qiymətləndirin. Çalışın müsahibiniz səmimi olsun.*
98. *Onun mülahizələrindən, iddialarından çıxış edərək danışın.*
99. *Günahın sizdə olduğunu hiss edən kimi çəkinmədən üzr istəyin.*
100. *Bu hərəkət qarşıdaki adamı tərk-silah edər, onda sizə qarşı rəğbət oyanar. Yalnız özünə inanan və kamil adamlar üzr istəməyi bacarırlar.*

Ümumiyyətlə ideal zabit haqqında düşünəndə bu peşənin məsuliyyətinə kompleks baxmağımız gərəkir. Unutmayaq ki:

## Zabit peşəsi Vətən qoruqçusudur!

*Bütün cəmiyyətdə ən böyük və ən vacib olan zabit peşəsidir. Kimlər üçünsə bu fikir mübahisəli ola bilər. Mən öz düşündüklərimi deyirəm.*

1. ***Zabit ömrü – döyüşçü peşəsidir.*** *Savaşçı işi Vətəni qorumaqdır. Onlar sərhədlərdə və səngərlərdədirlər. Onların arxasında Ölkədir – onun insanları, torpaqları, sərvətləridir. Zabitin çiyinindəki cavabdehlik yükünü heç bir peşənin məsuliyyəti ilə müqaisə etmək mümkün deyil.*

✓ *Ölkəyə təcavüz yarandıqda birinci zərbəni onlar öz üzərlərinə alırlar.*

✓ *Savaş kino pavilonu deyil, savaş bir dəfə başlayır. Onu yenidən başlamaq, səhvlərə düzəliş vermək olmur.*

- ✓ *Zabitin rahat yatmaq ixtiyarı yoxdur – savaşlar adətən gecə başlayır.*
- ✓ *Zabitin dincəlmək imkanı yoxdur – tarix göstərir ki, savaşlar adətən bayram qabağı və ya şənbədən bazara keçərkən başlayır.*

2. ***Zabit peşəsi – qəhrəmanlıq və yüksək əxlaqlılıq peşəsidir.***
- ✓ *Onun kökündə yurda sevgi və sədaqət durur.*
- ✓ *Onun kökündə xilaskarlıq və fədakarlıq durur.*
- ✓ *Onun kökündə özünü qurban verməyə hazır olmaq və lazım gələrsə "layiqli ölmək" durur.*

3. ***Zabit peşəsi – təmənnasız peşədir.***
- ✓ *Zabit üçün ən uca varlıq –* Vətəndir.
- ✓ *Zabit üçün Vətənə xidmət mənfəət deyil.*
- ✓ *O, Yurd uğrunda müqəddəs xidmət borcuna taleyinin çağırışı kimi baxır.*

4. ***Zabit peşəsi – intelektual peşədir, qat-qat üstün çeviklik və ayıqlıq tələb edir. Peşə fəaliyyəti zamanı hər hansı bir işdə orta səviyyəli olmağa yol verilərsə də, Vətənin taleyi asılı olan müqəddəs işdə yalnız tam mükəmməllik tələb olunur. Bu peşə kamillik deməkdir:***
- ✓ *təhlükəni və düşməni vaxtında görə bilmə və qarşı dura bilmə qabiliyyəti deməkdir.*
- ✓ *savaş anında ani qərar qəbul etmə, gecikmədən icra etmə deməkdir.*
- ✓ *ağıllı, səhvləri bağışlamayan düşmənlə əlbə-yaxa deməkdir.*
- ✓ *çağdaş savaşların diqtəsi olan – "Kim kimi vuracaq yox, kim kimə qalib gələcək!" deməkdir.*

5. ***Zabit peşəsi – universal peşədir.*** *Hər hansı mülkü peşədən qat-qat üstün savad və bilik tələb edir. Zabit müəllimlərimizin öyrətdiyi bütün elm sahələrini bilir.*
- ✓ *O, döyüş meydanını müşahidə edəndə coğrafiyaçıdır.*
- ✓ *O, hədəfi dəqiqləşdirəndə riyaziyyatçıdır.*
- ✓ *O, mürəkkəb döyüş texnikasını yönəldəndə fizikdir.*

✓ *O, çoxsaylı elementlərdən ibarət müasir döyüş sursatları ilə işləyəndə kimyaçıdır.*
✓ *O, çöl şəraitində yaşam minimumunu qura biləndə botanikdir.*
✓ *O, bəşərin savaş ömrünü yaşayan tarixçidir.*
✓ *O, insanlığın mərdlik və qəhrəmanlıq salnaməsini düzüb sözləyən ədəbiyyatçıdır.*
✓ *O, qürurun və talenin nəğmələrini bəstələyən nəğməkardır.*

6. ***Zabit peşəsi – romantik peşədir***. *Hərgah günün nizam qaydası ilə tənzimlənən həyatda romantiklik görünmür. Lakin:*
✓ *çətin təlimlərin sonu romantikadır.*
✓ *gərgin döyüş xidmətinin sonu romantikadır.*
✓ *mürəkkəb səfərləri, keçilməz sədləri, təcrübələri və ən başlıcası özünütərbiyə həddini keçməyin sonu romantikadır.*
✓ *ölüm-dirim günlərində yeni-yeni döyüş arxadaşları qazanmaq romantikadır,*
✓ *xidmət müddətində ünsiyyətdə olduğun fərqli xarakterlər qalareyası romantikadır.*

7. ***Zabit peşəsi – gözəl peşədir***.
✓ *Onu hərbi forma və döyüş mükafatları gözəlləşdirir.*
✓ *Onu gündəlik və bayram mərasimləri gözəlləşdirir.*
✓ *Onu hərbi musiqi – mahnılar, marşlar, siqnallar gözəlləşdirir.*
✓ *Onu tabe olmaq və komanda vermək bacarığı gözəlləşdirir.*

8. ***Zabit peşəsi – pedaqoq-tərbiyəçi peşəsidir***. *Hər il orduya hərbi xidmət keçmək üçün gənc oğlanlar gəlir.*
✓ *Zabit o əsgərlərə qoruyucu – döyüşçü əzmi aşılamaqla vətənsevər və düşüncəli Yurddaş ruhu tərbiyə etmək istəyir.*
✓ *Zabit o əsgərlərdən universal, intellektual, ayıq, çevik Vətəndaş tərbiyə etmək istəyir.*
✓ *Zabit o əsgərdə gözəl davranışlı, daxilən zəngin insan tərbiyə etmək istəyir.*
✓ *Zabit o əsgərdə qəhrəmanlıq və yüksək əxlaqlılıq tərbiyə etmək istəyir.*
✓ *Zabit o əsgərdə yurd, dövlət, soydaş uğrunda təmənnasızlıq düşüncəsi tərbiyə etmək istəyir.*

***Zabit bütün bu keyfiyyətləri ilə Vətənin, Ölkənin, Dövlətin özüdür! Zabit bu Vətənin, bu Ölkənin, bu Dövlətin bayrağıdır. Zabit o vətəndaşdır ki, öləndə o Dövlətin bayrağına bükülür! Sən bunu duydunmu, vətəndaş!?***

Ümid edirəm, səfərləriniz zamanı ürcahınıza bu dəyərlərə layiq olan zabitlər çıxacaqlar.

# Ekstremal şəraitin tələb etdiyi qanun və məsuliyyət

Hamımıza bəllidir ki, bütün **jurnalistlər** – özünün siyasi, dini və fəlsəfi görüşlərindən asılı olmayaraq, **iki böyük kateqoriyaya bölünürlər:**

***Birincilər – jurnalistikaya əqidə, mənsəb və sosial məsuliyyət tələb edən yaradıcılıq əməyi kimi yanaşanlar;***
***ikincilər isə – jurnalistikanı pul qazanmaq vasitəsinə çevirərək, hər cür rejimə xidmət edən, bu məqsədlə hər bir yalan və böhtandan istifadə edənlər.***

İndiki ekstremal şəraitdə jurnalistlərimiz güc strukturları ilə bağlı nədən yazmalı və yaxud, nədən yazmamalı sualına cavab axtaranda «**bir medalın iki tərəfi**» aforizmindən istifadə etmək olar. *Əgər medalın bir tərəfi söz azadlığıdırsa, demək, ikinci tərəfi məsuliyyətdir.*

Bu yanaşmanın jurnalistlərin guc strukturlarının fəaliyyətinə münasibətdə hansı ciddi və aktual xarakter almasının sübuta ehtiyacı olmadığı aydındır.

Əlbəttə, hökumətimizin, müvafiq byenəlxalq konvensiyalara qol çəkdiyi bir şəraitdə ritorika kimi səslənən – nəyi yazmalı, yaxud, nəyi yazmamalı – sualına bir mənalı olaraq – jurnalist əldə etdiyi bütün informasiyaları yazmaqda azaddır – cavabını versək səhv etmərik. Belə olduqda, təbii surətdə ortaya çıxan başqa ritorik sualla rastlaşırıq: – Söz azadlığı faktorundan istifadə edilərək informasiyaların yayılmasında (xüsusilə də, güc strukturlarının

fəaliyyəti ilə bağlı) bu və ya digər insidentin tənzimlənməsi üçün məsuliyyət faktorunun hüquqi bazası mövcuddurmu və bu necə yerinə yetirilir?!

Təcrübədən ortaya çıxmış beynəlxalq ölçülərə uyğun olaraq mətbuatda söz azadlığına üç parametrə görə qiymət verilir:

*birinci – mətbuatın cəmiyyətdə təsir dərəcəsi,*

*ikinci – mətbuata maddi (iqtisadi) təzyiq səviyyəsidirsə,*

*üçüncüsü – ən əsası, KİV-in fəaliyyət göstərdiyi sahələrdə qanunvericilik mühitidir.*

Konstitusiyamızda söz azadlığına tam qarantiya verilməsinə baxmayaraq, parlamentin mətbuatla bağlı qanunvericilik aktlarında ziddiyyətlər hələ də, qalmaqdadır. Bu məsələlərə yetərincə izah verilib. Qısaca onu qeyd edək ki, mövcud rejimdə mətbuat kifayət qədər azad deyil. KİV-lə əlaqədar yeni qanun qəbul olunmasına baxmayaraq, bu sahədəki şəraitə neqativ təsir artmaqdadır. Buna əsas səbəb cəmiyyətimizdə mətbuat demokratiyasının hələ də yetənəkli olmamasıdır..

Məsələn, kimlərinsə neqativ münasibətindən ehtiyat edən biznesmenlər oppozision qəzetlərdə reklam verməkdən çəkinirlər. Fəaliyyət üçün yaranmış şərait özü ekstremal xarakter daşıyır. Ekstremal şərait çərçivəsində fəaliyyət göstərməyə məcbur olanlar başqa ekstremal hallardan yazanda peşəkar psixoloji vəziyyət əsas faktora çevrilir. Xüsusilə də bu faktor jurnalistlərin güc strukturları ilə iş fəaliyyətində özünü tam açıq göstərir.

Bu faktor parodoksal situasiya formalaşdırır. Çünki mətbuata münasibətlər hər iki tərəfdən bir-birinə qarşı əks mövqe yaradır. «**Hərbçi-kazarma psixoloqiyası**» dəyərləri, «**jurnalist-redaksiya**» dəyərlərinə qarşı dayanır. Hərbiçilər öz iş funksiyalarının əmələ gətirdiyi dəyərlərə görə öz fəaliyyətlərinə aid açıq informasiyalarda həqiqətin əks olunmamasına zərurət kimi baxırlar, çünki belə **informasiya düşmənlər üçün də açılır.** Onların yanaşmasına görə, həqiqət açıq olmalıdır – ancaq qapalı-məxfi informasiyada – ancaq düşmən (və ya rəqib) tərəf haqqında.

Hərbiçilər reallığın görünüş tərəfini daha çox qəbul edirlər.

Onlar informasiya üslubunun gözəlliyini lüzumsuz (artıq) element kimi qəbul edirlər. *Hərbiçilər informasiya məkanında intellektuallığı sevmirlər, çünki* ***intelektuallıq diskussiyaya gətirib çıxarır.*** Qısa, dəqiq, aydın əmr hər bir diskussiyadan daha məhsuldar sayılır (əsasən də, ekstremal situasiyalarda).

Hərbiçilər **«ideya mübarizəsinə»** əks meyllidirlər, mətbuata təbliğat vasitəsi kimi, təbliğata isə rəqibin (düşmənin) hərbi ruhunun deqradasiya vasitəsi kimi yanaşırlar.

Dediklərimizdən aydın olur ki, peşəkarlıq baxımından *(hərbiçilərdən fərqli olaraq)* jurnalistlər güc strukturları ilə iş fəaliyyətində peşəkar psixoloji amilləri əsas götürməklə, mütləq nəzərə almalıdırlar ki, mətbuatın ən müqəddəs amil prinsipi olan obyektiv informasiyanın əks edilməsində, jurnalsitlər qanunla məsuliyyəti bir-birini tamamlayan eyni kriteriya kimi qəbul etməyi bacarmalıdırlar. Yəni **«yayımlanan informasiyanın məsuliyyəti qanunla tənzimlənməlidir»** prinsipi əsas götürülməlidir (hətta, bu qanunlar həmin şəraitdə işləməsə belə). Əlbəttə, burada söhbət beynəlxalq normativlərə uyğun qanunlardan gedir.

Müzakirə etdiyimiz problemlər haqqında **iqtisadi maraq, məsuliyyət, qanun və peşəkar psixologiya** məfhumlarını ümumiləşdirərək, belə qənaətə gələ bilərik ki, mətbuat azadlığı – ümumbəşəri dəyərlərə xidmət dixatomiyası əsas formula kimi qəbul olunmalıdır.

# Jurnalistlərin təhlükəsizliyi ilə məşğul olan beynəlxalq qurumlarin fəaliyyət prinsipləri



Bu məsələlərlə bir sıra qurum məşğul olsa da əsasən Brüsseldə yerləşən Beynəlxalq Jurnalistlər Federasiyasının (BJF) nizamlı bir planı vardır.

Nyu-Yorkdakı *Jurnalistləri Müdafiə Komitəsi*, Parisdəki *Sərhədsiz Reportyorlar Təskilatı*, Vyanadakı *Beynəlxalq Mətbuat İnstitutu*,

Torontodakı Kanada *Jurnalistlərin Söz Azadlığı Uğrunda Təşkilatı* və başqaları da bu istiqamətdə fəaliyyət göstərir. Hətta iş o yerə çatıb ki, *Beynəlxalq Jurnalistlər Federasiyası* və *Beynəlxalq Mətbuat İnstitutu* bir araya gələrək *Beynəlxalq Xəbər Güvənliyi İnstitutu (International News Safety Institute – INSI)* adlı bir qurum yaradıb. Ümumdünya media güvənliyi şəbəkəsi – *Beynəlxalq Xəbər Güvənliyi İnstitutunun əsas məqsədi güvənlik təlimləri və konkret hallarda* ***jurnalistlərin təhlükəsizliyini təmin etmək üçün qaydaların müəyyən edilməsidir.*** Təbii ki, müəyyən olunmuş qaydalar çərçivəsində jurnalistlərə birbaşa əməli yardımların edilməsi də nəzərdə tutulur. Azərbaycandan bu quruma *Jurnalistlərin Həmkarlar İttifaqı* üzv olub.

BXGİ-nın görəcəyi işlər əsasən bunlardır:

1. Xüsusən münaqişə bölgələrində çalışan jurnalistlərə və media işçilərinə dəstək və təhlükəsizlik məsələləri üzrə proqramların inkişafı;

2. Media işçilərinə ilkin tibbi yardımların edilməsi ilə bağlı məşğələlərin təşkili;

3. Təhlükəli zonalarda çalışanlar üçün məlumat kitabçalarının, başqa materialların hazırlanması və yayılması;

4. Sığorta təminatı və s.

## BXGİ-nin təhlükəsizlik qaydaları

BXGI jurnalistlərin hər hansı təqiblərdən, fiziki təzyiqlərdən və həyat üçün başqa təhlükəli hücumlardan qorunması üçün təşkil edilib. Jurnalistlərin sayəsində çalışdığı bəzi şərtlərin heç zaman təhlükəsizliyə təminat vermədiyini nəzərə alaraq BXGİ barış və savaş zamanında gərəksiz riskin aradan qaldırılmasına çalışacaq.

BXGI öz üzvləri və dəstək verənləri vasitəsilə harda olmasından asılı olmayaraq bütün jurnalistlərin sərbəst informasiya alması, araşdırması və yayması yolundakı fiziki və psixoloji maneələrin aradan qaldırılması üçün çalışacaq.

***Həyatın və təhlukəsizliyin qorunması birinci məsələdir. İşçilərə və ştatdankənar jurnalistlərə xəbərdarlıq edilməlidir ki, təminatsız risklərə yol verməklə materialların hazırlanması yolverilməzdir. KİV-lər hər şeydən öncə təhlükəsizliyə diqqət yetirməli, belə şəraitdə çalışan jurnalistlərin arzuolunmaz yarışmalara girməsinə imkan verməməlidir.***

Savaş təhlükəsi zonalarına təyinat zamanı könüllülərə, bu sahədə təcrübəsi olanlara üstünlük verilməlidir. Təhlükəli zonalara getməkdən çəkinən jurnalistlərə qarşı heç bir cəza tətbiq edilməməlidir. Bu zaman təhlükənin dərəcəsini qiymətləndirmədə jurnalistin fikirləri əsas götürülməlidir.

***Təhlükəli zonaya ezam edilən bütün jurnalistlər duruma uyğun məşğələ keçməlidir.*** İşəgötürən bu məşğələləri keçmək üçün öhdəlik götürməlidir. İşəgötürən əmin olmalıdır, təhlükəli zonaya göndərilən jurnalist Cenevrə Konvensiyası və başqa beynəlxalq sənədlərdə əks olunmuş normalara uyğun olaraq günün tələblərinə müvafiq siyasi, fiziki və sosial şərtlərə cavab verirlər.

İşəgötürən təhlukəli əraziyə göndərilən bütün jur***nalistləri müvafiq təchizat, tibbi və sağlamlüq vasitələri ilə təmin etməlidir.***

***Təhlükəli ərazilərdə işləyən bütün jurnalistlər fərdi şəkildə sığorta olunmalıdırlar.*** *Bu zaman ştatlı və ştatdankənar işçilər arasında ayrıseçkilik olmamalıdır.*

Təhlükəli ərazilərdən material hazırlayan jurnalistlərin gizli məlumatlarla təmin edilməsi də işəgötürənlərin vəzifəsi olmalı-

dır. Onlar zədəsonrası durumu aradan qaldırmağı bacaran işçilər saxlamalı, bu vəziyyətə düşmuş jurnalistlərin ailələrini müvafiq məsləhətlərlə təmin etməlidirlər. **Jurnalistlər tərəfsiz müşahidəçidir. Heç bir KİV işçisi iş zamanı odlu silah gəzdirməməlidir.**

Bütün hökumətlərə, hərbiçilərə və təhlükəsizlik xidmətlərinə tövsiyə edilir ki, əməliyyat zonalarında çalışan jurnalistlərin güvənliyinə hörmətlə yanaşsınlar. Onlar ehtiyac olmadan KİV-in informasiya alma, jurnalistlərin sərbəst hərəkət etmə hüquqlarını məhdudlaşdırmamalıdır.

Təhlükəsizlik xidmətləri heç vaxt vəzifə başında olan jurnalistlərə hücüm etməməli, onlara fiziki təzyiq göstərməməlidir. *(BXGİ-nin bu qaydaları bir sıra mövcud qaydalar əsasında hazırlanıb.)*

## Qaynar nöqtələrdən yazan jurnalistlər

2002-ci ilin əvvəlində Uol Street jurnalının müxbiri Daniel Perl Pakistanın müsəlman hərbçiləri haqda yazdığı üçün oğurlandı. Bu hadisədən 8 həftə sonra, Əfqanistanın qaynar nöqtəsindən yazdıqları üçün müxbirləri öldürdülər. Bu dünya jurnalistlərinin yaddaşında dəhşətli hadisə kimi qaldı.

Daniel Perlın ölümündən sonra stringer-reportyorlar, hərbi müxbirlər, düşünməyə başladılar. Perlin keçirdiyi əzabları onlar keçirə bilərlərmi?

Jurnalistlər və media təşkilatları necə etsin ki, onların təhlükəsizliyini təmin etsinlər? Onlar ekstremal halda nə etməlidirlər? Heç nə.

Demişdik axı, bu peşə xüsusi temperament, xarakter peşəsidir. Dünyada savaşlar olacaq, stringer-reportyorlar da ora can atacaqlar. CPJ.org saytının xəbərinə görə 1992-ci ildən, SSRİ adlanan nəhəng ölkənin yıxılıb dünyada yeni düzən yaranmasından bu günəcən iş baçında 742 jurnalist öldürülüb, 61 jurnalist itkindir, təkcə 2014-cü ildə 221 jurnalist siyasi-ictimai düşüncələrinə görə şərlənib

tutulub, 2009-cu ildən 404 jurnalist öz vətənindən qovulub, yaxud buna təhrik edilib.

Təbii, illər keçəcək, bu qanların üstündə kütləvi informasiya vasitələrinin xidməti tanınacaq, insanlar bu peşənin yükümlülərinə ehtiram göstərəcəklər. KİV-in o təntənəsinəcən Beynəlxalq və yerli Jurnalist təşkilatları mübarizə aparmalı olacaqlar.

Bu təşkilatlardan biri – Jurnalist Müdafiəsi Komitəsi 20 il öncə jurnalistlərin azad məlumat verməsi hüquqlarının qorunması üçün yaranıb. Əsasən bu işləri görür:

- ✓ *mətbuat azadlığından sui-istifadənin qarşısını alır;*
- ✓ *gündəlik məlumata nəzarət və onlara qarşı protest məktubu göndərir;*
- ✓ *jurnal nəşr edir;*
- ✓ *təhlükəli təyinatlar;*
- ✓ *mediaya hücümlar barədə illik məlumat yayır.*

Həmçinin, xüsusi xəbərlər buraxır və jurnalistlərin ölkələrdə qarşılaşdığı ciddi təhlükələrin müdafiəsi və araşdırma missiyasını həyata kecirir. Bu işlərin nəticəsində jurnalistlərin qarşılaşdığı fiziki təhlükələrin ekspertizasını əldə edir.

Bu illərdə Jurnalist Müdafiəsi Komitəsi ekstremal hadisə yerinə gedən jurnalistlərə məsləhətlər verib. Məsələn, 10 il əvvəl, Jurnalist Müdafiəsi Komitəsi Yuqoslaviyanın qaynar nöqtələrindən yazan jurnalistlər üçün ***«Sağqalma məlumat kitabçasını»*** çaplayıb. Lakin, o vaxtdan bəri dünyada hərbi jurnalistika sahəsində xeyli dəyişiklər olub. Sputnik telefonların və başqa texnikaların inkişafı nəticəsində qaynar nöqtələrdən yazan jurnalistlər arasındakı rəqabət təzyiqi onları qarantı olmayan qaynar nöqtələrə aparıb çıxarır. Media Kompaniyaları öz jurnalist qruplarını təhlükəsizliyin təmin edilməsini öyrədən məşğələlərə göndərirlər. Belə anlayış on il öncə yox idi.

Məsələn, bir çox jurnalistlər hələ də qaynar zonalara hazırlıqsız, sığortasız və lazımi məşğələləri keçməmiş gedirlər. Bu məlumatları jurnalistlə birgə, müxbiri qaynar nöqtələrə göndərən Media Menecerləri də oxumalıdırlar. Bu menecerlər jurnalistlərin

təhlükəsizliyini **"paramoaunt"** kimi təmin etməlidirlər. Bu o deməkdir ki, təhlükəsizliyə təminat verilməyən qaynar nöqtələrə təyinat verilməyəçək, məşğələlər keçiriləcək.

Təhlükəsizlik prinsipləri və metodları barədə əlavə məlumatlar yeni Beynəlxalq Xəbər Güvənliyi İnstitutunda təkmilləşdirilir. Bu məlumatlara həmçinin məlumat toplanmasında köməyin öyrədilməsi, avadanlıq və sığorta siyasəti informasiyaları da aiddir.

Jurnalistlərin Müdafiə Komitəsi bu İnstitutun üzvləridirlər. Heç bir metodlar, məşğələlər, məlumat kitabçaları jurnalistlərin təhlükəsizliyinə təminat verə bilməz. Baxmayaraq ki, bu qaydaların yığılması redaktorların, müxbirlərin və başqalarının təcrübələrindən meydana gəlib, bunu bir daha bilməliyik: bu məşğələlər, resurslar, riskləri ötürməkdə kömək edə bilər, ancaq ekstremal halda qarant ola bilməz.

Jurnalistlər qaynar zonalarda hər zaman riski qiymətləndirməlidirlər, nə zaman geri dönməyi bilməlidirlər. 7 il Livanda əsirlikdə olan «Associated Press Beirut» bürosunun rəhbəri Terri Anderson deyirdi: ***«Həmişə, hər zaman, hər dəqiqə riskə qarşı qazanc güdülür. Və siz əsas nöqtəyə gəlirsiz və burada narahatçılıq hiss edirsiniz. Çıxın, gedin. Bu ona layiq deyil. Heç bir şeydən ötrü ölməyə dəyməz».***

JMK yaranandan bəri apardığı araşdırmalardan belə qəbul edir ki, ən çox təhlükəli zonalarda ölən adətən yerli müxbirlər olur. Onlar və onların xəbər kompaniyalarının adətən zirehli jilet almaq üçün və ya bahalı məşğələləri keçmək üçün imkanı olmur. Onlardan bəziləri gündəlik risk içində yaşayırlar, bəzilərini həmçinin, xarici media təşkilatları istifadə edirlər. JMK media təşkilatlarını və KİV-ləri jurnalistlərin, qaynar zonadakı digər işçilərin *(yerli azad jurnalistlərin, stringerlərin)* də müdafiəsinin qarantı olmağa, məşğələlərlə təmin olunmasının öhdəliyə götürülməsinə tələsdirir.

# Kim risk altındadır?



1993-cü ildən etibarən, son 22 ildə həyatlarını itirən jurnalistlərin böyük əksəriyyəti təhlükə zonalarında ölməyiblər, onlar konflikt və müharibələrdə təzyiqlərə ürcah olublar. Jurnalistlər güdülüb öldürülüb, repressiyaya uğrayıblar. "Jurnalistlərin Müdafiə Komitəsi"nin məlumatına görə, ancaq 282 jurnalist (38%) savaş bölgəsində həlak olub, 460 jurnalist (62%) qisas nəticəsində öldürülüb. Yerdə qalanların arasında isə küçə nümayişləri zamanı öldürülənlər də var.

1992-cü ildən bəri 346 (44%) jurnalisti hərbiçilər, hökumət nümayəndələri yaxud cinayətkar qrup, oğurlayıb öldürüblər. Bəzi hallarda onların öldürülməsi bir qədər çevik tərpənə bilməmələrindən qaynaqlanıb. Bəzən isə jurnalistlər təhlükəli anlar üçün hazırlıqlı olsa da onların hazırlığı kara gələ bilməyib.

Amerikan jurnalistlərinin ölümü barədə intensiv məlumatlar getdiyi üçün bu onlara elə də adi gəlmir; Son 23 ildə ölən 742 jurnalistdən cəmi 13-ü Amerikalı idi. Onlar da əsasən öz torpaqlarında öldürülən yerli jurnalistlərdir. Daniel Perlin, ABŞ, başqa Qərb jurnalistlərinin öldürülməsindən başlayaraq riskin mənasının güclə ndiyi hiss olunur. Bu da subut edir ki, jurnalistlər hələ bundan sonra da təqib olunacaqlar. **Bu eyni şəkilli riskdir, cox təəssüf ki, bütün dünyada jurnalistlərin uzun müddətli qarşıdurması nəticəsində yaranıb.**

Xeyli jurnalistlərin öldürülməsi bütün dünyada hər il diqqət mərkəzindən yayınır və adətən qatillər cəzalanmamış qalırlar. Adətən, müxbir narkotik maddələrin satışı, az yaşlıların seksə cəlb edilməsi, maliyyə fırıldaqları, iqtisadi-bazar inhisarı, polis (hakim, məmur) özbaşınalığı və buna bənzər xəbərlər verdikdən sonra oğurlanır, öldürülür, döyülür. Təbii, adəti olaraq cinayətkar cəzadan kənarda qalır.

# Təhlükəsizlik məşğələləri

Ən əhəmiyyətli keyfiyyət jurnalistlərin öyrənə bildikləri – özünü və bir-birilərini qaynar nögtədə necə müdafiə etmə vərdişləridir. Bir çox təşkilatlar təklif edirlər ki, **«qaynar zonanı öyrənmə»** təkmilləşmiş jurnalistlər üçün, həddən artıq qiymətlidir. Son illər yüzlərlə jurnalist məşğələ kecirlər. Gəlin öyrənək:

101: *Bunlar vacibdir. Ancaq o demək deyil ki, siz ölümdən qurtuldunuz. Sadəcə olaraq qurtulma şansınız yüksəlir. Vacib olan odur ki, bu kursları hərbçilər keçsin. Ən azı ona görə ki, hərbi münaqişələr zamanı necə davranmağı onlar daha yaxşı bilir. Bir jurnalist əsgər qədər hazırlıqlı olarsa onun savaş bölgəsində öldürülmə riski bir xeyli azalmış olar. Ancaq bir daha xatırladaq ki, istənilən səviyyəli hazırlıq sizi yüzdə yüz ölümdən qurtara bilməz.*

**Haşiyə:** 2000-ci ilin mayında Reutersin müxbiri Kurt Şork və Assoşiayted Pressin müxbiri Migel Gil Syerra Leonda əsgərlərlə birgə maşında gedərkən partizanların qəfil hücumu onların öz hazırlıqlarından istifadə etməsinə belə imkan verməmişdi. Onlarla birgə olan iki jurnalist isə sadəcə maskalana bilmiş və ölümdən qurtulmuşdular. Halbuki hamı bilirdi ki, hər iki öldürülən jurnalist təhlükəli anlar üçün yüksək hazırlığa malik idilər. Ancaq qəfil hücum onların bu hazırlıqdan istifadəsinə imkan verməmişdi. Həmin sağ qalan iki jurnalist – veteran fotomüxbir Behrakis, təcrübəli operator Mark Cizholm, güllə atəşi altından cıxıb maşından qaçıb kolluqların icində gizlənmişdi. Bir dəfə qaçarkən Behrakis özünü palcıq və yarpaqla örtmüşdü ki, kolluqdan secilməsin. Behrakis jurnalist olmazdan qabaq 2 il Yunanıstanda əsqər olmuşdu, sonra öz həyatını qorumaqdan ötəri Britaniya firmasında məşğələ keçmişdi.

Məşğələlər adətən 5 gün cəkir. Hər 3 ildən bir yeni məşğələ keçmək təklif olunur.

Uoll Strit Cornalın müxbiri Daniel Perlin oğurlanması və öldürülməsi də yəqin ki, uzun müddət yaddaşlardan silinməyəcək. Onun başına gələnlər bir sıra yeni ehtiyaclar doğurdu və öldürülməsindən sonra bəzi şirkətlər təhlükəsizlik məşğələləri keçməyə başladılar. Bu məşğələlər adətən bir həftə çəkir və bu müddət ərzində **jurnalistlər güllənin trayektoriyasını müəyyən etməkdən tutmuş divarın qalınlığını öyrənməyə qədər hər şeyi sınaqdan keçirir.**

Təbii ki bütün məşğələlərdə ilkin tibbi yardım qaydaları da öyrədilir.

102. *Sizin bir sağlıq probleminiz varsa heç bir halda təhlükəli şərait bölgəsindən informasiya toplamağa girişməyin. Bu təkcə sizin öz faciəniz deyil, həm də yaxınlarınızın böyük bir faciəsinə dönə bilər.*

Şimali Amerika və Qərbi Avropada Jurnalistlərin çoxu sağlıqlarını sığorta etdirdikləri halda, Asiya, Afrika və Latın Amerikasında hələ də sığortasız işləyirlər. Az inkişaf etmiş xalqların jurnalistləri JMK-yə verdikləri xəbərə görə, onlarda təsadüfən sığortalanmış jurnalistə rast qəlmək olar. Bu halda jurnalistlər yaralandıqda işləyib işləməməyinin fərqi olmadan heç bir yerdən kömək almır, xərclər ödənilmir.

Şimali Amerikada, Qərbi Avropada qaynar zonalara ezam olunan jurnalistlərin sığortasına xüsusi diqqət yetirilir. **Jurnalist və onların ailələri sığorta müqaviləsini tələb etməlidirlər.**

**Ezamiyyəyə gedəndə sığortanın nüsxəsini götürməlidirlər.** Anlaşılmaz məsələlər qabaqcadan qeyd olunmalıdır. Məlumat firmaları, təşkilatları sığorta məsələsində məsuliyyətli olmalıdırlar, elə hallar da olur ki, jurnalist qaynar nöqtədə yaralandıqdan sonra firma və ya təşkilat müalicənin ödənilməsindən boyun qaçırır. Bu hallar jurnalist hüququnun pozulması deməkdir.

11 sentyabr 2001-ci il, Nyu-York və Vaşinqton hücümlarından sonra bir cox siğorta təşkilatları daha çox qaynar ərazilərə jurnalistləri cəlb etmək məqsədi ilə öz siyasətlərini dəyişdirdilər.

Qaynar nöqtələrdə zərər çəkən jurnalistə müalicə və başqa xərclər ödənilir.

Müstəqil jurnalistlər *(ştatdan kənar jurnalistlər)* sağlamlıq sığortası ilə əlaqədar ciddi problemlərlə üzləşirlər. Bir cox jurnalistlər qaynar nöqtələrdə sığortasız işləyirlər və ya bəzi təşkilatlar, aqentliklər onların qeydiyyata alınmasına söz verir və nəticədə isə aldadırlar.

**Xəbər təşkilatları stringerlərin, müstəqil jurnalistlərin sağlamlığını sığorta məsuliyyətini öz üzərinə qötürməlidir. Stringerlər, müstəqil jurnalistlər bu təşkilatlarla mütləq əlaqəyə girməlidirlər.**

**Həmçinin, jurnalistlər qaynar nöqtəyə ezam olunmamışdan əvvəl həkim müayinəsindən mütləq kecməlidir.** Lazım olan peyvənd iynələrini vurdurmalıdır. **Bir cox ölkələr jurnalistlərdən Beynəlxalq Peyvənd Şəhadətnaməsi tələb edirlər.** Hər peyvənddən sonra həkim tarixi və möhürü qoymalıdır.

Bəzi ölkələr **xoleranın peyvəndini** tələb edirlər, bəziləri isə qanazlığı olan jurnalistlərdən özləri ilə sterilizə olunmuş şprislər götürməyi tələb edirlər.

### İlk yardım cantası

103. *Sizin xüsusi canta və ya böyük çantanız mütləq olmalıdır. Əgər qrup şəkilindəsinizsə canta böyük olmalıdır. İlk yardım çantasında ənz azı bunlar olmalıdır:* – ***plasmas truba*** və ya ***nəfəs qaytarma şlanq trubkası; izolyasiya lenti; poristya lenti; antibiotik, "troynoy maz"; qayçı, sancaq; projektor.*** *(Qeyd: dərman preparatlarının istifadəsində ehtiyatlı olun. Məsələn, aspirin hər adamda fərqli reaksiya verir.)*



104. *Jurnalistlər aptek çantasını özləri yığmalı, yaxud almalıdırlar.*

**Tibbi identifikasiya**

105. *Təhlükəli zonada tibbi yardım hissələrinin yerlərini dəqiqləşdirin. Jurnalist qaynar nöqtədə yaralandıqda və ilk tibbi yardım aldıqdan sonra oradan uzaqlaşdırma (yollarını) hazırlığını təşkilat rəhbərləri qabaqcadan müəyyənləşdirməlidir.*



***Peyvənd***

106. *Epidemiyaların yayıldığı ehtimal edilən ərazilərə gedəndə peyvənd etdirməyi unutmayın. Təcrübəli həkimlər sizə lazımi peyvəndlər haqqında məlumat və həmçinin malyariyaya qarşı müalicə təklif edə bilərlər.*

107. Əksər həkimlər səyahətçilərə 10 illik peyvənd təklif edir. İnfeksiya daşıyıcısı olmayasınız deyə malyariya yayılmış bölgələrdə mütləq müalicə olunmalısınız. ***Poliometil, hepatit B, tif*** *yayılmış ərazilərdə peyvənd olunmalısınız. Hehatit B peyvəndi yarım il əvvəl vurulmalıdır, cünki 6 ay ərzində 3 peyvənd vurulur. Təcrübəli həkimlərlə dost olun.*

**Zireh**

108. *Zireh geyinməyin bir riski var, onu geyindikdə adam böyük görünür, cəlb edici olur. Kolumbiyanın bir necə yerlərində jurnalistlər deyirlər ki, onları sifarişçi narkotik satanlarla səf salırlar. Həmçinin, zirehli jiletlər ağır olur, isti havada adamı ləngidir.*

109. *Yadda saxlayın ki, zirehli jilet heç də həmişə güllənin qarşısını ala bilmir. Bununla belə jilet geyməkdən çəkinməyin. Ən azı ona görə ki, o sizi bir çox hallarda ölümdən qurtara*

*biləcək. Onun qiyməti adətən 300-2000 ABŞ dolları arasında olur və bir sıra ölkələrdə müvafiq dükanlardan almaq olar. Ancaq onu da bilin ki, bu cür bahalı təchizat işəgötürənlərin öhdəsinə düşür.*

**Biokimyəvi təlim**

110. *Biokimyəvi təhlükə olan ərazilərdən material hazırlamazdan öncə bu sahədə təlim keçməli, müvafiq avadanlıqla təchiz edilməlisiniz. Onu da unutmamalı ki, belə təlimlər də yüksək hazırlıqlı peşəkarlar tərəfindən keçilməlidir. Bəzi təhlükəsizlik məşğələ formaları bu tipli müharibələrdə müdafiə olunma yollarını öyrədir.*

**Baş geyimi**

111. *Başınızı qorumaq çox vacibdir. Özü də təkcə gülllədən yox. Hətta bəzən isti havadan, şaxtadan qorunmaq üçün də bu geyimə ehtiyac var. Baş geyimi seçərkən coğrafi şəraiti və təhlükəli zonanın xarakterini nəzərə almaq gərəkdir. Təbii ki, döyüş bölgəsinə gedəndə uyğun baş geyiminin olması məsləhətdir. Adi bir sel daşqınını müşahidə edəndə dəbilqə geyinməyə ehtiyac yoxdur.*

**Zirehli maşınlardan istifadə**

112. *Bu imkandan yeri gəldi-gəlmədi yararlanmayın. Döyüş bölgəsinədəki hər bir zirehli maşının mütləq vurula biləcəyini unutmayın. Əgər siz də onun içindəsinizsə münaqişə tərəfi orada jurnalistin varlığını ağlına da gətirməyəcək. Ancaq başqa şəraitdə zirehli maşından imkan olduqca istifadə gərəkdir. Məsələn, daşqın ərazisində belə maşından istifadə yerinə düşər.*

**Coğrafi şəraitlə tanışlıq**

113. *Qaynar nöqtənin coğrafi şəraitini bilməyi hec bir şey əvəz edə bilməz. Bəzi hallarda jurnalistlərin qrup şəklində olması vacibdir. Bəzən isə, əksinə gözə dəyməməlidirlər.*

114. *İşəgötürənlər hər hansı əraziyə jurnalist ezam edərkən nun həmin ərazini nə qədər tanıdığını da bilməlidirlər.*

115. *Yola çıxmazdan öncə getdiyiniz coğrafiyanı yaxşıca öyrənin. Ərazinin xəritəsi cibinizdə olsa yaxşıdır. Amma, haradansa əlinizə düşmüş hərbi-topoqrafik xəritə götürməklə baçınıza oyun aça bilərsiniz.*

**Əlaqə**

116. *Münaqişə bölgəsində olarkən tez-tez iş yerinizlə, yaxud da bölgədən kənarda olan başqa etibarlı mənbə ilə əlaqə saxlamağın vacibliyini unutmayın. Bu, sizin harada olmağınız barədə son məlumatla yanaşı lazım olduqda yardımınıza gəlmək üçün də şərait yaradar.*

**Oğrular**

117. *Oğruları unutmayın. Onlar dünyanın hər yerində var. Nəzarətsiz qalmış kameranızın oğurlanma ehtimalı çox yüksəkdir. Başqa əşyalarınız da oğurlana bilər. "Jurnalistlərin Müdafiə Komitəsi"nin məlumatından)*

## Ekstremal şəraitdə işləyən jurnalistlər üçün Sərhədsiz Jurnalist Təşkilatının təklif etdiyi qayda və prinsiplər

**Mətbuat azadlığı prinsipini təsbit edən sənədlər**

Mətbuat azadlığı prinsipi beynəlxalq hüquq tərəfindən tanınıb. Ona görə mətbuat azadlığının pozulması hallarını **araşdıranlar** hər şeydən öncə insanın təkzibolunmaz hüquqlarından olan **informasiya almaq hüququnu müəyyən edən qanunverici sənədlərdən xəbərdar olmalıdırlar.**

Təhqiqatçı ümumi səciyyə daşıyan hüquqi aktlar və regional mətnlərlə birlikdə beynəlxalq hüquqda yer alan qanun, qayda və digər aktlarda ifadə olunan hüquq və öhdəlikləri, gərəkən prinsipləri də nəzərdən qaçırmasa yaxşı olar.

İnformasiyanın araşdırılması, əldə edilməsi və yayılması hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsində tanınmışdır. Bu hüquq həmçinin 130 ölkənin im-

zaladığı 16 dekabr 1966-cı il tarixli Mədəni və Siyası Hüquqlara dair Sazişdə *(2-ci sənəd)*, bəzi regional sazış və öhdəliklərdə də təkrarlanır. Bunların arasında 4 noyabr 1950-ci il tarixli Avropa İnsan Hüquqları və Fundamental Azadlıqların Mühafizəsi Sazışının 10-cu maddəsini, 22 noyabr 1969-cu il tarixli Amerikalılararası İnsan Hüquqları Sazışının 13-cü maddəsini və 12 iyul 1981-ci il tarixli Afrika İnsan və Xalqların Hüquqları Öhdəlıyinin 9-cu maddəsini göstərmək mümkündür.

Ümumdünya Insan Hüquqları Bəyannaməsi 10 dekabr 1948-ci ildə qəbul edilib.

**Maddə 19.** Hər bir şəxs, düşüncə və söz azadlığına sahibdir, bu hüquq düşünülənləri heç bir müdaxilə olmadan açıqlamanı, eyni zamanda hər növ bilgi və düşüncəni bütün şəraitlərdə sərhədsiz olaraq öyrənmək, mənimsəmək və yaymağı əhatə edir.

**Mədəni və Siyasi Hüquqlar haqqında Beynəlxalq Sazış** 16 dekabr 1966-cı ildə qəbul edilib, 23 mart 1976-cı ildə qüvvəyə minib.

**Maddə 19.1.** Hər bir şəxs heç bir müdaxilə olmadan düşüncə azadlığına malikdir.

2. Hər bir şəxsin söz azadlığı var, bu hüquq hər cür informasiya və düşüncəni istər sözlü, istər yazılı və ya mətbu, istərsə sənət əsəri halında, ya da şəxsin özünün secdiyi istənilən formada olsun – məhdudiyyət qoyulmadan öyrənmə, mənimsəmə və yayma hüququnu əhatə edir.

Bu maddənin ikinci bəndində bəhs olunan hüquqların istifadə olunması xüsusi vəzifə və məsuliyyətlər nəzərdə tutur. Bunlar qanunvericilikdə göstərilən və aşağıdakı zərurətlərə əsaslanan hallarda məhdudlaşdırıla bilər:

*a. başqalarının hüquq və azadlıqlarına hörmət göstərilməsi;*

*b. milli təhlükəsizlik və ya ictimai nizamın, yaxud da ictimai sağlamlığın və ya əxlaqın qorunması.*

***Mədəni, Siyasi Hüquqlar haqqında Beynəlxalq Sazışi dünyanın 137 ölkəsi imzalayıb və ratifikasiya edib.***

**Avropa İnsan Hüquqları və Fundamental Azadlıqların Müdafiəsinə dair Konvensiya** 4 noyabr 1950-ci ildə qəbul edilib, 3 sentyabr 1953-cü ildə qüvvəyə minib.

**Maddə 10 1.** Hər bir şəxsin söz azadlığı var. Bu hüquq düşüncə azadlığı ilə yanaşı dövlət müdaxiləsi olmadan, heç bir məhdudiyyət qoyulmadan bilgi, düşüncələri əldə etmək, yaymaq azadlığını da əhatə edir. Bu maddə dövlətlərin radio, televiziya, kino təşkilatlarına lisenziya vermək Hüququna heç bir maneə törətmir.

2. Bu azadlıqlardan faydalanma:

- ✓ *milli təhlükəsizlik,*
- ✓ *ərazi bütövlüyü və ya ictimai təhlükəsizlik naminə çaxnaşmaların qarşısını almaq,*
- ✓ *ictimai sağlamlıq və əxlaqın qorunması,*
- ✓ *başqalarının şərəf və hüquqlarının mühafizə edilməsi,*
- ✓ *sirlərin qorunması,*
- ✓ *məhkəmənin səlahiyyətlərinə və müstəqilliyinə maneə törədilməməsi,*
- ✓ *qanunvericilikdə nəzərdə tutulan digər hallar daxil olmaqla demokratik cəmiyyətlərə layiq bir şəkildə məhdudlaşdırıla və ya cəzalandırıla bilər.*

## Nəzərə alınması hər zaman gərəkən fərdi təhlükəsizlik şərtləri

118. *Həmişə göz qabağında olmağa və təhlükə doğurma ehtimalı olan gözlənilməz hallara hazırıqlı olun.*
119. *Təhlükəsizlik qaydaları və əsaslarına səhih, intizamlı bir tərzdə əməl edin.*
120. *Etmək istədiklərinizi yanınızdakılara deyin. Harada olacağınızı, nə iş qılmaq istədiyinizi başqalarına bildirməyə çalışın. Araşdırmaya mümkün olarsa, yoldaşlarınızın biri ilə çıxın.*
121. *Qanunlara əməl edin. Ancaq situasiya tələb edərsə, təşəbbüs göstərməkdən imtina etməyin.*

**Fərdi davranış**

122. *Fiziki və ruhi sağlamlığınıza diqqət yetirin (kifayət qədər dincəlin, idman edin).*
123. *Şəraitə uyğun geyinin, ictimai əlaqələrinizdə adekvat davranın.*
124. *Mümkün qədər qrup halında və insanların gur olduğu yerlərdə dolaşın.*
125. *İnsanlarda hörmət doğuracaq şəkildə hərəkət edin. İnsanları niyyətlərinizdən şübhələndirəcək formada, misal üçün hərbi geyimə oxşar bir tərzdə geyinməyin.*
126. *Tanış olduğunuz, kömək etdiyiniz şəxslərə qarşı məsafəli davranın. Böhran zamanı situasiyaya nəzarətinizi itirməyin.*
127. *Əməl edə bilməyəcəyiniz vədlər verməyin.*
128. *Düşmən davranışlarla qarşılaşsanız, sakitliliyinizi qoruyun, vaxt qazanmağa çalışın, vəzifəli şəxslərlə danışmağa cəhd göstərin, hadisə yerini tərk etmək istədiyinizi söyləyin.*
129. *Gözünü qarşınızdakı şəxsdən ayırmayın, amma onun gözlərinin içinə də baxmayın.*
130. *Harada olduğunuz və özünüzdən əminliyiniz təəssüratı yaradın.*
131. *Ölümlə, döyülməklə, ya hər hansı üsulla təhdid edildiyiniz təqdirdə hədələri ciddi qəbul edin, vəziyyəti, səlahiyyətli şəxslərə bildirin. Amma lüzumsuz təfərrüatlara yol verməyin. Aldadıcı manevrələr edin (oradan uzaqlaşın, adət etdiyiniz yolunuzu dəyişin).*
132. *Təhdidin kimdən gəldiyini və habelə niyyətlərinin nələr ola biləcəyini düzgün qiymətləndirin. Fürsət varsa, sizin üçün əlverişli bir məqamda, misal üçün, bir polis məntəqəsində onunla üz-üzə gəlməyə çalışın, əks təqdirdə onunla qarşılaşmaqdan çəkinin.*

***Sabotaj və ya təcavüz təhlükəsi***

133. *Jurnalistlərin, ya redaksiyanın şürəkli təhdidə uğraşdığı halda sabotajı, yaxud hücum təhdidini boşa çıxarmaqdan ötrü təhlükəsizlik tədbirləri görülməlidir. Bütün əməkdaş-*

*ları sıx birləşdirməklə nəzarət-təhlükəsizlik sistemi yaradılmalıdır. Partlamaq ehtimalı doğuran hər şeyi (xüsusilə, radio və elektrik dalğalarını, elektrik düymələrini, titrəyiş qaynaqlarını), zənqli divar, qol saatları və vaxt göstəricilərini; kimyəvi maddələri təhqiq etmək gərəkdir.*

**Partladıcı maddə təhdidinə alındığınız zaman**

134. *Xəbər anonim mənbədən alınırsa, vaxt qazanmağa, ondan aşağıdakı suallara cavab almağa cəhd göstərin:*
✓ *partlayış nə vaxt olmalıdır?,*
✓ *maddə hara qoyula bilər?,*
✓ *nə zaman qoyula bilər?,*
✓ *hansı görünüşdədir?,*
✓ *nə tipli partlayıcıdır?,*
✓ *partlaması üçün nələr olmalıdır?,*
✓ *özünüzmü qoymusunuz?,*
✓ *nəyə görə qoymusunuz?,*
✓ *adınız nədir?,*
✓ *hardansınız?,*
✓ *kimsiniz?,*
✓ *sizinlə necə əlaqə qura bilərik?,*

135. *Anonim zəng vuranı və haradan telefon edildiyini aydınlaşdırmağınıza yardım göstərə biləcək xüsusatlara diqqət yetirin:*
✓ *səs (xarakteri, tonu, diksiyası, danışığın tərzi, sürəti),*
✓ *dil (ifadə, mətiqlik, yazılı mesaj oxunması, səsin maqnitafondan gəlməsi və s.)*
✓ *fondakı səslər (küçə küyü, musiqi, taqqıltı səsləri),*
✓ *səsi tanıyırsınızmı(?),*
✓ *telefon zənginin vaxtı və müddəti.*

**Şübhə doğuracaq bir şey duyduğunuz halda**

136. *Partlamış, yaxud xarab olmuş görünüşlü heç nəyə toxunmayın;*
✓ *saat zənglərinin səsi eşidilirsə, duman yayılırsa, o yeri təcili tərk edin;*

- ✓ *xəbər yerindən ən azı 100 metr uzaqlıqda təhlükəsiz bir sahə düzəldin;*
- ✓ *xəbərdarlıq etmək üçün telefondan, yaxud hər hansı bir elektron, elektromaqnit cihazlarından yararlanın.*

**Partlayıcı paketləri müəyyənləşdirmənin üsulları:**

137. *Yersiz görünən həcm və ağırlıq;*
- ✓ *alışmayan sərtlikdə paket, yaxud zərf;*
- ✓ *çoxlu paketlər;*
- ✓ *aldadıcı işarələr (bəzək və naxışlar);*
- ✓ *çoxlu pul;*
- ✓ *üzərində «təcili», «məxvi» yazıları olan zərf, paket.*

**Partlayıcı maddənin maşına qoyulub-qoyulmadığını müəyyən etməyin üsulları:**

138. *Təkərlərin yaxınlığında paket, ya şübhəli başqa bir cisim olub-olmadığına fikir verin.*
139. *Maşının altına, təkərlərinə, səsboğucuya, faralara, kopotun açılma mexanizminə, mühərrik bölümünə, göstərici panelinə və oturacaqların altına baxın.*

**Minalar və cəlbedici tələlər:**

140. *Cəlbedici tələləri qarşı tərəfin duyğu və fəaliyyətini nəzərə alaraq yerləşdirirlər:*
- ✓ *daxili motivasiya (maraq, arzu və s.)*
- ✓ *tələbat (yemək, geyinmək, soyuqdan qorunmaq, qapını-pəncərəni açmaq və s.)*
- ✓ *reflekslər (işləyib-işləmədiyini bilmək üçün işığı yandırmaq, boş qutuya təpik vurmaq, maşının açarını burmaq və s.) prosesinin gedişinə qoyurlar. Təhlükəsizlik əminliyi yaratmaq məqsədi ilə aldadıcı xüsusıyyətlər daşıyır.*

141. *İkiqat kamufilyaj da ola bilər. Aldadıcı görünüş arxasında daha bir aldadıcı tələ ola bilər, müxtəlıf formalarda İstifadə olunur:*
- ✓ *otaqlarda: qapılar, pəncərələr, döşəmə, mebel, telefon, televizor, elektrik avadanlıqları, zənglı saat, yataqlar, camadan,*

✓ *mətbəxdə: çaydan, yemək əşyaları, butulka və s.,*

✓ *mənzildən kənarda: ərzaq saxlanan yerlər, körpülər, yol kənarları, təbiət mənzərələri, maşınlar, yiyəsiz silahlar, qumbaralar, digər hərbi əşyalar, cəsədlər və s.*

142. *Minaya bağlanmış bir tel varsa, onun yerini müəyyənləşdirin və yerli səlahiyyət sahiblərindən onu zərərsizləşdirməyi tələb edin.*

143. ***Minaların tək basdırılmadığı ehtimalını yaddan çıxarmayın.*** *Minaları bir qayda olaraq 6-6, yaxud 12-12, yaxud bir xətt üzərində (yerə basdırılmış, işarələnmiş halda) yerləşdirirlər.*

144. *Ana yollardan çıxmayın, tualetə belə getməyin.*

145. *Əsla minalara toxunmayın, yaxud partlamamış qumbaraları yerindən oynatmayın. Xatirə olaraq mina almayın.*

146. *Başqalarını da xatirə olaraq götürdükləri minaları zərərsizləşdirməyə sövq edin.*

147. *Savaş, terror, qiyam yerlərindən xəbər ötürərkən mina və ya cəlbedici tələlərlə qarşılaşa bilərsən. Minaları bayaq dediyimiz üsulda yerləşdiriləcəyi kimi, savadsız minadüzənlər də basdıra bilər. Partlayışa tel, toxunma nöqtəsi, yaxud vaxt qoyulması («ağıllı» minalar müəyyən sayda maşın, yaxud şəxs keçəndən sonra partlayır) səbəb ola bilər. Minaya rast gələn insanın ilk hərəkəti geriyə addım atmaqdır.*

**Minalanmış ərazidə qalsanız**

148. **Piyadasınızsa:**

✓ *gecələr yola çıxmayın,*

✓ *bir-birinizdən uzaqlaşıb dar bir çevrə, xətt üzərindən yeriyin,*

✓ *diqqətinizi yayındırmayın,*

✓ *maneələri dəf etməyə və yaxud xarabalıqları kəşf etməyə cəhd göstərməyin,*

✓ *sulardan keçməyin, minalar su altında da yerləşdirilmiş ola bilər.*

149. *Yanınızda yaralı yoxsa: sakit olun, yaxınınızdakıları diqqətli olmağa dəvət edin, qəfil hərəkətlər etməyin, ayaq basdığınız yerlərə diqqət edin. Təhlükəni (minalar, tellər, mina tətikləri və s.) müəyyənləşdirməyə çalışın.*

150. *Daha sonra, şəraitlə əlaqədar olaraq bu tədbirləri görün: addımlarınızı diqqətlə geri-geri ataraq minalı ərazidən çıxın. Minalı ərazidə qalanların çıxması üçün bir qaçış yolu müəyyənləşdirin. Geri çəkilin, yaxud minalı ərazidə qalanları ən qısa yolla geri dönməyə çağırın.*

151. *Yanınızda yaralı varsa: minalanmış ərazidə yaralananların mütləq hərəkətsiz qalmağı gərəkdir. Onun yanındakılar tibbi yardım arxasınca tələsik qaçmamalı, mümkün qədər tez ilk yardım göstərmək, yaralını minalanmış sahədən çıxarmaq üçün bir yol tapmağa çalışmalıdırlar.*

**Maşındasınızsa:**

152. *Bəzi minalar maşınlar keçəndə partlayır.*

153. *Belə partlayışlardan sonra maşındakılar yanmırlarsa, maşından çıxmamalıdırlar.*

154. *Maşın ta hərəkət edə bilmirsə, yolçuların geri dönüb minalı ərazidən çıxmaları gərəkdir.*

155. *Dönərkən maşını təkər izlərinin üzəri ilə sürün. Yaralıları da eyni yolla çıxarmaq gərəkdir. Maşını bərk, eşılməmiş yolla sürün. Yol kənarlarından, çuxurlardan, yeni qazılmış yerlərdən, qum, torpaq, yaxud çınqılla örtülü məntəqələrdən keçməyin.*

**Snayperlər**

156. *Snayperlər gündüz 600 (bəzən 1000) metr, gecələr isə 300 metr uzaqdakı hədəfləri vurmağa imkan verir. Ancaq onlar daha qısa məsafələrdən atəş açır və nişan almaq üçün riski azaldan durbinlərdən (böyütmə imkanı 50 dəfəyə qədər), ya da qaranlıqda nişan almağa imkan verən görmə cihazlarından istifadə edirlər.*

157. *Snayperlər qarşısı açıq olan binaları seçir, amma damlarda, yaxud binanın ön tərəfindəki otaqlarda mövqe tutmurlar.*

158. *Kirəmitlər çıxarılaraq nişan almaq imkanı yaradılan uçuqlar, qum torbaları ilə qorunan çatlar da snayperlərin seçdikləri mövqelərdəndir. Uzaqdan baxanda çatlardakı deliklər bomba çuxurları kimi görünür.*

159. *Snayper ağac koğuşlarında, kol dibində fasilə uyğun masqalanmış üsuldan da yararlanır.*

**Əks səda problemləri**

160. *Tüfəngdən atəşin səsi saniyədə 330 metrəyə qədər sürətlə hər yana yayılır, halbuki lülədən çıxan güllənin sürəti 1000 metrə yaxındır. Düz və açıq yerdə atəşin açıldığı yeri müəyyənləşdirmək çox asandır. Odurki, sizinlə atəş nöqtəsi arasında müxtəlif maneələr varsa, bunlar elə bir görüntü yarada bilər ki, güya atəş bir yox, bir neçə nöqtədən açılır. Durduğu səmtə atəş açılan şəxs öncə kəskin, qəfil atəş səslərini eşıdir, bunu uzun, dağınıq əks-sədalar müşaiyət edir.*

161. *Atəş səsinin qət edə biləcəyi ən qısa yol nişançı ilə hədəf arasındakı məsafə qədərdir. Əks-sədanın isə hədəfin qulağına çatana qədər daha uzun bir yol qət etməsi lazım gəlir. Buna görə də silahın atəşı ilə onun verdiyi əks-səda arasında zaman fərqi olur. Elə həmin fərq də atəşlə əks-sədanı ayırmağa imkan verir. Beləliklə atəş qaynağını daha dəqiq müəyyən etmək mümkün olur.*

162. *İşinin ustası olan snayper adətən, mövqeyini müəyyənləşdirməyə mane yaradan – çoxsaylı əks-sədalar vermək mümkün olan yer seçir.*

163. **Snayperlə bağlı tövsiyələr:**

✓ *yerinizi dəyişdirməzdən öncə daha doğru qərar barədə düşünün;*

✓ *orada yaşayanların belə şəraitdə necə hərəkət etdiklərini izləyin;*

✓ *sürətli hərəkət edin (piyada və ya maşında olmanızın fərqi yoxdur);*

✓ *snayperi qıcıqlandırmayın;*

✓ *unutmayın ki, yağış, qar, külək, duman snayperə qarşı sizin köməkçilərinizdir.*

164. **Top atəşi altında:**

✓ *yerə uzanıb gözləyin. Olay yerində qaçmaqdansa bir sığınacaq tapmağa çalışın;*

✓ *şəraitə hərbi nöqteyi-nəzərdən, ya nizamlı atəş, ya «hay-küy» çərçivəsində baxmağa çalışmayın;*

✓ *top atəşlərindən də snayperlər, minalar, yaxud cəlbedici tələlər kimi, əsas etibarilə əhalini sarsıtmaq, qorxutmaq üçün istifadə edilir. Odur ki, toplar çox zamàn eyni yerdə, eyni hədəflərə tuşlanmış şəkildə saxlanır;*

✓ *yaralıları çıxarmaq üçün atəş arasındakı fasilədən yararlanın. Ancaq atəşin tezliklə bərpa oluna biləcəyini də unutmayın, atəşkəs insanların gizləndikləri yerdən çıxmaları üçün də keçirilə bilər.*

## Tövsiyələr:

165. *Döyüşən tərəflərin sizi qarşı tərəfin adamı hesab etməsinə imkan verən hərəkətlər etməyin.*

166. *Binaların içində, mərkəzində gizlənməyə çalışın. Bir yox, bir necə çıxış yolu tapapmağa çalışın. Mümkünsə qapı-pəncərəni bağlayın.*

167. *Bir evə sığınmısınızsa, kölgənizin qapı-pəncərələrdən görünməsinə yol verməyin.*

168. *Tanış olmayan binaya girərkən ayağınızı cəlbedici tələlərin yerləşdirilməsi üçün ən uyğun yerlərə qoymayın.*

169. *İçəridə heç bir şeyə toxunmayın. İç otaqlardan birinə sığınmağa çalışın.*

170. *Başqa bir otaqda əlverişli sığınacaq tapsanız, zirzəmiyə enməyin.*

**Basqına uğramısınızsa:**

✓ *yol kəsilməyibsə, sürətlə təhlükəli yeri tərk edin;*

✓ *yol ara-sıra atəşlə kəsilirsə, səssizcə aradan çıxın;*

✓ *maşınlarınızın yanından çəkilməyin (Diqqət: sizi atəşdən yalnız maşının motor bölməsi qoruya bilər);*

✓ *yol kənarında mina olmadığına diqqət-yetirin;*
✓ *yol müntəzəm atəşlə kəsilirsə, maşınınızı atəş gəlməyən tərəfdə saxlayın;*
✓ *atəş və minalara diqqət yetirərək mümkün qədər sürətlə özünüzə sipər tapın;*
✓ *atəş altında dayanmağa məcbursunuzsa, diqqətli olun, təcavüzkarlardan biri müxtəlif məqsədlərlə (nəsə axtarmaq, ya da qənimət əldə etmək, yaralıları öldürmək və s.) maşınıza yaxınlaşa bilər;*
✓ *yol arxadan kəsilməmişsə və ya hücuma uğrayan sizin maşınınız deyilsə maşını arxaya verərək geriyə dönün;*
✓ *çalışın qacmaq istəyən digər maşınların yolunu kəsməyəsiniz.*

171. *Əgər bir neçə maşınla birlikdə gedirsinizsə, güya hərbi, yaxud humanitar yardım konvoyu ilə gedirsinizsə:*

172. *imkan varsa qarşınızdakı maşınla aranızda 50 metr, yaxud daha artıq məsafə saxlayın;*

173. *mümkün olduqca sürətlə getməyə çalışın;*

174. *atəşə tutulduğunuz təqdirdə sürəti artmağa hazır olun.*

175. *Şəhərdə:*

✓ *önünüzdəki maşınla məsafə saxlayın;*
✓ *qəzaya uğramamaq üçün saatda 50 km-dən artıq sürətlə getməyin;*
✓ *atəşə tutulduğunuz təqdirdə qarşıdakı maşınlara yaxınlaşın;*
✓ *konvoyunuza motosikletlər də daxil olmaqla nömrə nişanı olmayan maşınların qarışmasına icazə verməyin;*
✓ *yol hərəkət işarələrinə (nəqliyyatın işıqlarına, səsli siqnallara və s.) diqqət yetirin.*

176. **Üzbəüz gəlibsinizsə**

✓ *ən təhlükəli həlqənizin hansı ola biləcəyini müəyyənləşdirin. Qrup halındasınızsa, içinizdən biri təcavüzkarların görüş bucağından yayınmağa (əgər lazım gələrsə, mümkün olarsa) çalışmalıdır;*

- ✓ *danışığa gedin, onları sakitləşdirməyə səy edin. Lideri müəyyənləşdirib onunla sövdələşin;*
- ✓ *dik durun, qollarınızı sallamayın. Əllərinizi belinizə qoyun. Bu, özünüzü ələ almağa kömək edəcək;*
- ✓ *işə girişdiyiniz andan başlayaraq qərarlı, tərəddüdsüz, var gücünüzlə hərəkət edin;*
- ✓ *uzaqlaşmayın. Yoldaşlarınızdan nə qədər uzqlaşsanız, hücum ehtimalı o qədər böyük olur. Yalnız yaxın məsafədən müdaxilə edə bilərsiniz.*

**Girov götürülsəniz**

177. *Girov götürülənlərin davranışları qarşı tərəfin niyyətləri və yerli şərtlərlə müəyyənləşir. Bununla birlikdə əksər hallarda girovlar aşagıdakı qaydalar çərçivəsində davranmalıdır:*

178. *bacarığınıza yüz faiz əmin olmadıqca qarşıdurmaya, yaxud da qaçmağa çalışmayın;*

179. *panikaya düşməyin, sakit görünməyə çalışın, sizi girov götürənlər onsuz da yetərincə gərgindirlər;*

180. *sonradan faydalı ola biləcək səsləri, qoxuları, gurultuları, girov götürüldüyünüz vaxtı və şəraiti mümkün qədər təfərrüatı ilə yadınızda saxlamağa çalışın;*

181. *qaçıranların (girov götürənlərin) davranışlarını müşahidə edin. Onları, girov götürüldüyünüz yeri tanımağa, xilas olma, ya qaçma şansınızı artıra biləcək bütün məqamlara diqqət yetirin;*

182. *gündəlik davranışlarınızı heç olmasa öz zehninizdə planlaşdırmağa çalışın;*

183. *sizi girov götürənlərin rasional əmr və istəklərinə əməl edin, amma onların məqsədlərinə çatmalarına imkan verməyin (yaratmayın);*

184. *sizi adınızla çağırmağa alışmaları üçün kömək edin, bu sizin şəxsiyyət kimi qəbul olunmanıza, gərginliyin azalmasına gətirəcəkdir;*

185.*ölüm təhdidlərinə yaxud buraxılma vədlərinə aldanmayın;*

186.*özünüzü məcbur edin ki, kiminləsə danışasınız, məşğuliyyət tapasınız və ya diqqətinizi hər hansı bir şey üzərində cəmləşdirəsiniz;*

187.*sizi qaçıranlarla gərəksiz yerə söz güləşdirməyin. Onlarla əlaqə yaratmağa çalışın. Aqressiv olmayın, ancaq yalvarmayın da;*

188.*danışıqlar uzanarsa, ümidsizliyə qapılmayın. Qurtuluş şansınız zaman keçdikcə artacaqdır. Sizdən tələb olunarsa, səsinizin yazılmasına, yaxud qısa yazılı mesaj yazmağa razılıq verin, bu tanınmanıza və buraxılmanıza yardım göstərə bilər;*

189.*buraxılacağınız söz verilən günə qədər səbirsizlik göstərməyin və son dəqiqəyə qədər sizi qaçıranların təlimatlarına əməl edin.*

190.*buraxıldıqdan sonra tibbi müayinədən keçirilir və ifadə verirsiniz, ikisini də mütləq etməlisiniz. İnanmadığınız şəxslərə başınıza gələnlərin hamısını açıb-tökməyinizə lüzum yoxdur.*

191.*media ilə əlaqə qurmazdan əvvəl verilən tövsiyələrə əməl edin.*

192.*yenidən işinizə qayıtdıqdan sonra sizi girov götürənlərin əsas təzyiqləri nəzərə alınmaqla təhlükəsizlik qaydalarına əməl edin.*

## Təhlükəli tapşırıqlarda olan jurnalistlərin sağ qalmalarının başlıca prinsipləri

193. *Əgər mümkündürsə, işləyəcəkləri gözlənilən ərazilərə yaxşı bələd olan, davamlı təcrübə keçmiş və kritik vəziyyətlərdə ağıllı mühakimə yürüdə bilən xüsusi müxbirlərə üstünlük verilməlidir.*
194. *Ümümiyyətlə, müxbirlər işləyəcəkləri ərazini, məsul şəxsləri və həmin ərazinin tarixini yaxşı bilməlidirlər. Onlar kimin kimə, nə üçün nifrət etdiyini öyrənməlidirlər.*
195. *Xüsusi müxbirlər işləyəcəkləri ərazinin dilində danışmağı bacarmalıdırlar.*
196. *Xarici redaktorların, yaxud mütəxəsislərin verdiyi əsas təlimatlar, kitabxana materialları, missiya müddəti üçün nəzərdə tutulmuş tibbi yardım şeyləri və həyatı sığortalamağın xüsusi şərtləri tapşırıqdan öncəki hazırlıq işlərinə daxildir.*
197. *Müxbirin təhlükəsizliyi əsas şərtdir. Onun hər hansı təhlükəli zonaya getməməyə tam hüququ var.*
198. *Müxbirin qorxulu zonaya girməsi üçün öz rəhbərinin icazəsi olmalıdır və hər dəfə, imkan olduqca sahə, ya regional redaktorla məsləhətləşməlidir.*
199. *Müxbirlər yerindəcə qərar qəbul etməyi bacarmalı və artıq risklər etməməlidirlər. Onlar öz missıyalarını başa çatdırmaqda və kritik vəziyyətlərdə ərazini mümkün qədər tez tərk etməkdə sərbəst olmalıdır.*
200. *SIZ hər hansı bir xəbərdən daha vacibsiniz. Heç bir xəbər sizin həyatınız qədər qiymətli ola bilməz.*
201. *Açıq-aşkar təhlükəli vəziyyət yaranarsa, müxbirlər bacardıqları qədər oradan tez çıxıb getməlidir.*
202. *Hakimiyyət orqanları müxbirlərin təhlükəsizliyinə zəmanət verə bilmirsə, onlar ölkəni tərk etməlidir.*

## Təhlükəli zonada:

203. *Barmağınızla nəyəsə işarə edərək göstərməyin (bu silah kimi anlaşıla bilər).*
204. *Özünüzü başqası kimi göstərməyin. Bu şübhə doğurar, digər peşə sahibləri üçün təhlükə yaradar.*
205. *Ağ bayraq, qırmızı bayraq, fit səsləri, jestlər və s. kimi rəmzlərin yerli mənalarını bildiyinizə əmin olun.*
206. *Anlaşılmazlıqlardan mümkün qədər uzaq durmaq vacib şərtdir.*
207. *Polis və ordunun istifadə etdiyi maşınlara oxşayan maşından istifadə etməyin. Həmişə maşınızın yaxşı vəziyyətdə (ehtiyat təkəri və s.) olmasına əmin olun və onu ehtiyat çıxışı olan yerə yaxın saxlayın.*
208. *Maşınızdan «Mətbuat» sözünü yerli dildə aydın şəkildə qeyd edin.*
209. *Avtomobilinizi yumayın. Maşınınıza edilən qəsd izləri çirkli maşında yaxşı görünür.*
210. *Təhlükəli zonada avtomobil sürərkən kəməri taxmayın, çünki güllələrdən qaçmaq üçün maşından cəld tullanmalı ola bilərsiniz.*
211. *İkiqapılı maşının arxa oturacağına kimisə oturmağa məcbur etməyin, cünki maşından tez çıxmaq mümkün olmaz.*
212. *Qalmaqal törədə biləcək sənədlər, hər hansı bir şey (məsələn; durbin, antenalı radiolar və s.) götürməyin. Sizi casus olduğunuza görə ittiham eləyə bılərlər.*
213. *Həmişə xarici mətbuat kimi başa düşülməyə çalışın. Kamera daşımaq yaxşı ideyadır.*
214. *Silah kimi anlaşıla biləcək səsli və ya film ləvazimatlarını daşımaqdan çəkinin.*
215. *Parlaq işıqların istifadəsindən çəkinin, onlar sizin yerinizi bildirə bilər.*
216. *Siqaret çəkməsəniz belə, əsgərlərə və ya partizanlara paylamaq üçün çoxlu siqaret götürün.*

217. *Yol nəzarət-buraxılış məntəqəsində sizdən hərbi vergi istənilərsə, nə isə bir şey verin. Bunun çox olmasına ehtiyac yoxdur, hər halda bu, xoşagəlməz halların qarşısını ala bilər.*
218. *Şəraitə uyğun geyinin. Bu geyim müxtəlif cür ola bilər. Bəzən adamlara qarışmaq, bəzən isə dəstədən seçilmək istəyə bilərsiniz.*
219. *Yoxlama-buraxılış məntəqələrində çətinliklər yaranmasın deyə hakimiyyət orqanlarından verilən həqiqi etimadnamələrin və başqa sənədlərin olmasına, eləcə də təhlükəli zonadakı digər dəstələr barədə məlumatınızın olmasına çalışın. Ümumiyyətlə, gülümsəyin və polis işçiləri ilə nəzakətli olun.*
220. *Elə güman etməyin ki, başqa adam sizin danışdığınız dildə danışmır.*
221. *Silah gəzdirən adamla mübahisə etməyin. Əgər sığınacaqdan atəş açılarsa, heç vaxt dayanmayın, getməyinizə davam edin və ya mümkün olduğu qədər hərəkətinizi sürətləndirin.*
222. *Tələb olunan dildə* ***«Atmayın, mən xariciyəm»*** *deməyi öyrənin.*
223. *Yerli sakinlərlə mümkün qədər çox söhbət edin və onlardan məsləhət alın.*

## Etik və peşəkar yanaşmalar

224. *Risk və təhlükələrə baxmayaraq, peşəkar şəxs həqiqət standartını gözləməlidir.*
225. *Uğurlu nəticəsinə əmin olmadığınız riskdən qaçın. Toplamaq istədiyiniz məlumatlar barədə qeyri-müəyyən vədlər verən adamlar əksər hallarda təhlükəsizliyinizə zəmanət verə bilməyəcəklər.*
226. *Hakimiyyət qurumlarından və tibbi yardım məntəqələrindən uzaq olan, ucqar yerlərdə məlumatların toplanması ikiqat risk tələb edir.*

227. *Təhlükəli situasiyalarda bütün jurnalist həmkarlarınızı tanıyın.*
228. *Redaksiyaya və ya redaktorlara bütün vaxt ərzində harda olduğunuz, haraya getməyə hazırlaşdığınız və nə vaxt qayıdacağınız barədə məlumat verin.*
229. *Mehmanxanadakı həmkarlarınıza da həmin məlumatı verin.*
230. ***Əvvəlcədən razılaşdırılmış, başqalarının anlamayacağı, aşkar olunmayan siqnallar vasitəsilə mesajlar ötürə bilərsiniz. Bunlarla bildirə bilərsiniz ki, sizi dərhal xilas etmək gərəkdir. Reportyorlar arasında buna «sporrong» deyirlər və təhlükəli vəziyyətlərdən çıxmaq, tutulanların azad edilməsinə dair danışıqların başlanması haqda xahiş etmək üçün istifadə edilən koddur.***
231. *O barədə düşünün ki, başlıca missiyanız xəbərin ən yaxşı üsulla necə tapılmasıdır.*
232. *Risklər haqda daimi düşünün və özünüzə suallar verin. Bəzi-para xəbərlərin ötürülməsi naminə digər müxbirlərdən daha çox risk etməyə dəyərmi.*
233. *Fiziki imkanlarınızı qiymətləndirin. Orqanizminizin gücü çatmayan işi yerinə yetirməyə can atmayın.*
234. *Əsasən, təhlükə qəflətən, çox hallarda isə adi şəraitdə yaranır. Məhz onda bu kitablardan öyrətmək istədiyindən daha çox intuısiya, reflekslər, təmkinlik və bəxt sizə sağ qalmaq şansı verə bilər.*
235. *Sizin təhlükəli hallarda malik olduğunuz şansınız ağlınız və ərazi haqda bilgilərinizdir. Burda, dar məqamda nə redaktor nə də Cenevrə Konvensiyası sizə kömək edə bilər.*

## Ekstremal olayların KİV-də yayımlanması barədə metodiki məsləhətlər

Cəmiyyətin yetərincə informasiya alma haqqını təmin edən KİV-in olayların içində olma cəhdini nəzərə alaraq, jurnalist cəmiyyətləri ekstremal situasiyaların mətbuatda yayımlanmasında gərəkən fəaliyyət və prinsiplərin əsaslı sistemini yaratmağı vacib sayır. Son dövrün təcrübəsi bu metodik məsləhətləri işləyib hazırlamağa əsas verir:

236. *KİV və jurnalistlər ekstremal situasiyalarda işləyəndə Kütləvi İnformasiya Vasitələri Haqqında Qanuna ciddi əməl etməlidirlər;*
237. *Yadda saxlayaq ki, KİV- lə yayılan məlumatlar hamıya çatır. O cümlədən, məqsədli şəkildə kəskin situasiya yaradanlara da. Sizin məlumatlara onların reaksiyası qeyri adekvat ola bilər;*
238. *İnsanları xilas etməklə məşğul olan mütəxəssislərin – xilasedicilərin fəaliyyəti barədə dəqiqliklə məlumat verməkdən çəkinin;*
239. *Öz mövqelərini KİV vasitəsi ilə bildirmək əksər halda terrorçuların ən başlıca məqsədlərindən biri olur, bunu nəzərə alaraq, jurnalistlərə gərəkdir:*
   - ✓ *öz təşəbbüsü ilə terrorçulardan müsaibə almamaq;*
   - ✓ *hüquq mühafizə orqanları ilə öncədən məsləhətləşmədən onlara canlı efirə çıxmaq imkanı yaratmamaq;*
   - ✓ *yadda saxlayaq ki, terrorçular başqa yerlərdəki əlbir yoldaşlarına canlı efirdən şərti siqnallar ötürmək aləti kimi istifadə edə bilərlər;*
   - ✓ *hadisə yerindən canlı bağlantını hər zaman kəsməyə hazır olmaq;*
   - ✓ *peşəkar məsləhətləşmə aparılmamış terrorçuların tələblərini həvəskarcasına şərh və ya mülahizə etməmək;*
   - ✓ *özünə hesabat vermək ki, terrorçuların götürdükləri girovlar eyni zamanda bu situasiyanın əsiridirlər. Həm dövlətə, həm də ictimai rəyə müəyyən müddətəcən təzyiq alətinə çevrilibər.*

240. *Əks-terror əməliyyatı aparan xüsusi xidmət orqanının məxfi məlumatlarını əldə etməyə cəhd etməmək. Siz danışıqlara qeyri-iradi qoşularaq nəinki girovların azad edilməsi prosesini korlaya bilərsiniz, həmçinin xeyli sayda insanın, o cümlədən köməyə gedənlərin də həyatını məhv edə bilərsiniz;*
241. *Bilmək! İnsanların xilas edilməsi cəmiyyətin məlumat alma hüququndan üstündür. Birbaşa bildirmək ki, təhlükəsizliyi anlayaraq məlumatın bir hissəsi bağlıdır.*
242. *Xatırlayın ki, sizin vəzifəniz dedi-qodu yaratmaq yox, cəmiyyəti məlumatlandırmaqdır. Deyilənlərin təkcə məzmununa deyil, həm də tonunu izləmək.*
243. *Olay barədə məlumat yayarkən insanları xilas etməklə məşğul olan hüquq mühafizə orqanlarına, tibbi və başqa xidmətlərə mane olmamaq.*
244. *Situasiyanın inkişafı üçün informasiyanın əhəmiyyətliliyini və onun potensial təhlükəsini çevikliklə qiymətləndirməyə cəhd etmək:*
   - ✓ *xatırlamaq ki, dünya ictimaiyyəti terrorizmin irqi, dini, millətçilik amili ilə əlaqəsini qəbul etmir;*
   - ✓ *əlində girovların taleyi olan terrorçuları bilərəkdən təhqir etməyə və məhv etməyə çalışmamaq;*
   - ✓ *mənbəyini yoxlamadan alınmış informasiyadan istifadə etməmək.*
245. *Terrorizm qurbanlarının yaxınları və qohumlarının hisslərinə diqqətlə və həssaslıqla yanaşın;*
246. *Qəddarlıq və zorakılığı nümayiş edərkən lüzumsuz sensasiyadan və naturaçılıqdan çəkinin. Auditoriyanızın mənəvi və dini duyğularına hörmət edin.*
247. *Sənədli materialların montaj olunmasına yol verməyin. Bu, olayın mənasını ya itirə, yaxud da şişirdə bilər;*
248. *Ekstremal hadisəyə cəlb edilmiş şəxslərə «uğurlu» foto şəkilləri və ya video kadrları əldə etmək məqsədi ilə heç bir fəaliyyəti təklif etməyin.*
249.

250. *Ekstremal şəraitdə fəal şəxslərdən olmağa çalışmayın. Öz üzərinizə «əlaqəçi» rolunu götürməyin.*
251. *Əgər jurnalist danışıqlarda iştirak edənlərdəndirsə, o krizis həll olunanadək öz mətbu fəaliyyətini dayandırmalıdır.*
252. *Barəsində məlumat aldığınız bütün terror aktlarının hazırlanması və planları haqqında vaxtlı – vaxtında xüsusi orqanları xəbərdar etməlisiniz. Hətta bu informasiya o qədər də inandırıcı olmasada. (Beynəlxalq mətbuat institutunun tövsiyəsi)*

## En-Bİ-Sİ Nyus-un təcrübəsi

En-Bi-Si Nyus-un fikrincə, vətəndaş iğtişaşlarının işıqlandırılması zamanı hər hansı komissiyanın, ya komitənin məsləhətlərinə deyil, təcrübəli, peşəkar jurnalistlərin yaxşı təcrübəsinə söykənmək gərəkdir. Bu tipli fövqəlada vəziyyət bəzən o qədər kəskin olur, ehtirasları elə coşdurur ki, hadisələrin təqdimatında redaktorlar dəqiqlik, vaciblik, mülahizələrin düzgünlüyü, olayların inkişafını anlamaq, qərəzsizlik, informasiyanın harmoniyalılığı kimi məsələlərdə çox diqqətli və ehtiyatlı olmurlar. Beləliklə:

253. *Əgər polis, yaxud digər məsul idarə və adamlar iğtişaşları «üsyan» kimi qiymətləndirmirlərsə, bu ifadəni siz də işlətməyin.*
254. *Sözü deyən adamı mütləq qeyd edin: sözün müəllifinin konkret informasiya mənbəyi olması çox vacibdir.*
255. *Çox zaman dəyən maddi zərər və toplanan adamların sayı düzgün qiymətləndirilmir. Belə halda mötəbər mənbələrə istinad etmək gərəkdir.*
256. *Daxildən alınan informasiyanı polis, bizim hadisə yerindəki xüsusi müxbirimiz, digər nüfuzlu şəxslər və ya mənbələr təsdiqləməyincə efirə verməyin. Bu ehtiyatlılıq çox zaman təbliğatçıların xüsusi məqsədlə yaydıqları şayiələrə də aiddir. Dəqiqləşdirilməmiş şayiələr fəlakətə gətirib çıxara bilər.*

257. *Digər narahat rayonlarda «adamların yığılması» barədə xəbər verməkdə, habelə şəhərdə gərginliyin artacağı, yeni iğtişaşların mümkünlüyü barədə informasiyalardan qaçın. Bizim borcumuz yalnız baş verən və baş verməkdə olan hadisələr barədə məlumat verməkdir. Biz hansı bir bankın iflası barədə öncədən xəbər vermədiyimiz kimi, zorakılıqlar barədə də öncəgörmələrlə məşğul deyilik.*

258. *Əlaqədar informasiya redaksiyaları və potensial irqi münaqişə zonalarındakı informasiya mənbələri ilə, icmalarla əlaqələr yaradın və bu əlaqələri, kontaktları genişləndirin.*

259. *Öz müxbirlərinizi tezliklə potensial münaqişə ocaqlarına göndərin. Hətta hadisələr barədə tezliklə məlumat verə bilməsəz də, öz müxbirlərinizin olayları yerində dəqiqləşdirməsi çox vacibdir.*

260. *İğtişaş iştirakçılarının hər hansı birindən aldığınız müsahibələrə şübhə ilə yanaşın. Belə müsahibələr çətin ki, obyektiv olsun. Bu müsahibələr informasiyadan çox emosiyaların coşmasına təsir göstərir. Faydalı faktları polis, hakimiyyət nümayəndələri, yaxud öz fikrini yaxşı ifadə edən müşahidəçilər verə bilər.*

261. *Yalançı «liderlərdən» müsahibə alarkən çox ehtiyatlı olmaq gərəkdır. Çünki onlar daha çox özünü göstərir, əsəbləri gərginləşdirir, sensasiya yaradır, məsələyə dəxli ola biləcək heç bir informasiya verə bilmirlər.*

262. *«Davakar» və ya «aktiv», təkbaşına qərar qəbul edən şəxsləri «lider» adlandırmayın. «Lider»– özünün ardıcılları olan, adətən tanınmış təşkilata rəhbərlik edən adamlara deyirlər. «Aktivistlər» hər hansı bir ictimai sahədən olub heç bir təşkilatı təmsil etmirlər.*

263. *Zorakılığı doğuran səbəblər haqqında danışmadan bu barədə lazımi məlumat verə bilmərik. Vəziyyətin gerçək şəklini vermək üçün biz baş verən hadisənin inkişafını dərindən öyrənməliyik.*

264. *Jurnalistlərin dilindən qəlibləşən, fakta uyğun gəlməyən*

*«gərginlik artdı», «şəhəri lərzəyə saldı», «polislər nümayişçilərlə toqquşdu», «yeni toqquşmalar təhlükəsi var» və s. tipli ifadələrdən qaçın. Baş verəcəklər barədə sakitcə, fakta əsaslanaraq sadəcə xəbər verin.*

265. *İğtişaşların baş verdiyi yerlərdə çəkiliş vasitələrindən istifadə edəndə maksimum qüvvə sərf etmək gərəkdir ki, kütlə sizi hiss etməsin. Kamera kütlənin ehtiraslarını coşdura bilər.*

266. *Bir çox cəhətlərdə informasiya ilə əlaqədar təşkilatlar öz aralarında iğtişaşların işıqlandırılmasını tənzimləyən müqavilələr bağlayırlar. En-Bi-Si Nyus bu cür müqavilələrə ehtiyatla yanaşır. Bizim əməkdaşlar informasiyanın işıqlandırılmasını məhdudlaşdıran tədbirlərlə əlaqədar olaraq öz redaktorları ilə məsləhətləşməlidirlər.*

267. *Ehtiyat tələb edən daha bir neçə məqam: əldəqayırma silahların istehsalı üsullarını təsvir etməkdən çəkinin. Montaj zamanı biabırçı məqamları, söyüşü, böhtanları süjetdən çıxarın. Yalnız hadisələrin əsl iştirakçılarının çıxışlarını lentə alın.*

268. *Adamların diqqətini cəlb etmək üçün əvvəlcədən öz hərəkətlərini məşq etmiş, bunu aydın şəkildə nümayiş etdirməyə çıxan adamlardan və qruplardan uzaq olun.*

269. ***Sonuncu və ən ciddi bir qeyd: biz hadisələri quraşdırmırıq, imitasiya etmirik, qaydaları pozmağı və ona təsir göstərməyi təşkil etmirik. Baş verən hadisələri göstəririk, əgər hadisə anında orada olmamışıqsa, özümüzdən hadisə düzəltmirik. Habelə, belə anların yaranmasına da cəhd göstərmirik. Bu sadə göstərişi pozmaq olmaz. Bu qaydanı pozmağa görə biz çox sərt cəza tədbiri təsbiq etməyə çalışırıq.***

270. *Hadisələrin tam və məsuliyyətli işıqlandırılması ilə bağlı prezident komissiyasının məruzəsində deyilir: «Belə hesab edirik ki, hadisələrin işıqlandırılması zamanı kəskin məqamları ixtisar etməyin və ya «yüngülləşdirməyin» zorakılığı aradan qaldırmağa kömək edəcəyinə inanmaq sadəlövhlükdür. İğtişaşlar başlayan kimi bu barədə şaiyələr*

*qəzet və televiziyasız da baş alıb gedir. Bu hadisələrə göz yummaq, yaxud onları başqa cür qələmə vermək kütləvi informasiya vasitələrinə inamı azalda, habelə şaiyə yayanlara xidmət göstərə, bu şaiyələrə inamları daha çox qorxuya sala bilər».*

271\. *En-Bi-Si Nyus bilir ki, tamaşaçılar bizdən həyatın bütün sahələri haqqında, o cümlədən kütləvi həyacanlar haqqında tam və dolğun məlumat gözləyir və məhdud informasiya ilə razılaşmırlar. Biz ümidvarıq ki, bütün vətəndaşlara məxsus bu azadlıqdan tam istifadə işində ictimaiyyət bizi müdafiə edəcək.*

272\. *Biz hadisələri tam, vicdanlı və gerçəkliyi nəzərə alaraq işıqlandırmağı təklif edirik.*

## Terrorçuluq hallarında davranış:

273\. *Terrorçuluqla bağlı heç bir hadisə En-Bi-Si Nyusun prezidentinin, yaxud səlahiyyətli vitse-prezidentin sanksiyası olmadan birbaşa efirə verilə bilməz. Bununla belə müxbirlərin sinxron çıxışlarının bir başa efirə verilməsi qadağan edilmir.*

274\. *En-Bi-Si Nyusun əməkdaşları heç vəchlə insidentdə iştirak edə bilməz. Xüsusilə adam oğrularından və girovlardan alınan müsahibələr prezidentin icazəsi olmadan, əvvəlcədən məsləhətləşmədən efirə gedə bilməz. Əks halda biz hadisələrin iştirakçılarını təhlükə altında qoya bilərik.*

275\. *Harasa bomba qoyulması və ya başqa terror aktları ilə bağlı hər hansı şəxsin, ya qrupun bəyanatlarına ehtiyatla yanaşmaq və əsas hadisələrlə nisbətdə onlara ikinci dərəcəli əhəmiyyət vermək gərəkdir. Bu şəxslərin tanınması hansısa teleqraf agentliyi yaxud, qəzetlər tərəfindən müəyyən edilmişsə, lakin rəsmi informasiya mənbələri tərəfindən təsdiq edilməmişsə, bu barədə tamaşaçıya məlumat vermək gərəkdir.* ***Terror aktı barədə danışarkən heç vaxt «kiminsə***

***xidmətidir...» ifadəsini işlətməyin. «Məsuliyyət üstünə düşür»*** *ifadəsindən istifadə edin.*

276. *Əgər fanatiklərin başqa yerlərə də bomba qoyulduğu, onların partlamağa hazır olduğu barədə bəyanatları varsa, informasiya süjetindən bu hissəni çıxarmaq məsləhətdir.*

277. *Əgər belə bir informasiyanı bilavasitə sırf özünüz almısınızsa, ilk növbədə polisə xəbər verin, sonra rəhbərliklə bu informasiya ilə bağlı nə etmək lazım olduğunu müzakirə edin.*

(Qərb jurnalistikasının bu standartları bizim günümüz üçün də gərəklidir.)

## Söz azadlığına qarşı qəsdlərin araşdırılmasına dair norma və prinsiplər

Nyu-Yorkdakı BMT Hüquq İşləri Bürosu və Cenevrədəki BMT İnsan Hüquqları Mərkəzi insan hüquqlarına qarşı qəsdlərlə əlaqədar tədbirlərin qayda və prinsiplərini ən səmərəli müəyyənləşdirən beynəlxalq təşkilatlardandır.

**Ümumi prinsiplər:**

278. *Hər araşdırma yazılı hesabat şəklinə salınmalıdır. Toplanan təfsilatların qeydləri saxlanılmalıdır. Sonrakı söz-söhbətlərin qarşısını almaqdan ötrü hadisələr yazıya alınarkən bilginin doğruluğu təsdiq edilməlidir. Vəziyyət təcili, çox ciddidirsə bilgi radio və ya telefon vasitəsilə – məxvilik şərti ilə – yetirilə bilər. Bu halda da söhbət sonradan yazılı hesabat halına gətirilməlidir.*

279. *Araşdırıcı topladığı bilgilərin məxfiliyi prinsiplərinə sadiq qalmalıdır. Məxfiliyə əməl edilməməsi – mənbə, şahidlər və ya araşdırıcı üçün ciddi problemlər yarada bilər. Araşdırıcı şahid ifadələrini açıqlamaq və onların adlarını yayımlamaq üçün icazə almalıdır. Araşdırıcı polis və ya rəsmi bir qurum üçün yox, bir araşdırma qurumunda çalışdığını, çalışmanın milli və ya beynəlxalq istinad orqanı ilə bağlı olmadığını şahidə/ mənbəyə anlatmalıdır.*

280. *Görüntü məsələsi özəl qaydalarla müəyyənləşir. Gözlənilməz, hətta düşmən müqavimətlər yol aça biləcəyindən fotoşəkil çəkmək, yaxud tele, video-görüntü almaq məsələlərində xüsusi şərtlərə əməl olunmalıdır. Mənfi təzyiqlərə məruz qalanların fotoşəkilləri mümkün qədər gözlərdən uzaq, xüsusi yerlərdə çəkilməlidir. «Lazım olmayan» əllərə keçdikdə tanınmaması üçün işgəncə və ya neqativ təzyiqlərə uğramış şəxslərin üzü fotoya alınmamalıdır.*

## Araşdırma mərhələləri

281. İlk mərhələ fakt və iddiaların toplanmasıdır. Şərt*lər uyğunsa, şahidlərin kiminlə danışdıqlarını bilmələri üçün araşdırıcı, kimliyini və kimin üçün çalışdığını* açıqlamalıdır. *Mənbələr, araşdırıcının gerçək məqsədini tam olaraq bilməlidir. Araşdırıcı daha sonra lazım gəldikdə mənbə ilə necə əlaqə yarada biləcəyini öyrənməli, dəyişikliklər baş verərsə, ya da təhdidə məruz qalarlarsa şahidlərin ona müraciət edə biləcəklərini xatırlatmalıdır.*

282. *Araşdırıcı işə başlarkən ön şərtləri bilməli və nəzərə almalıdır. Mətbuat azadlığına qarşı ən ağır qəsd jurnalistə və onun ailəsinə təzyiqlərdir.*

283. ***Qanunsuz repressiyalar və aşkar cinayətlər, cinayət təşəbbüsləri, ölüm təhdidləri və qaçırmalar.***

*Beynəlxalq Mədəni və Siyasi Hüquqlar Sazişinin 6-cı maddəsi insanın yaşamaq hüququnu, bu hüququn qanunvericiliklə qorunmasını təsbit edir. Heç kimin yaşamaq hüququ əlindən alına bilməz (İnsan Hüquqları Beynəlxalq Bəyannaməsi, Maddə 3). Müstəqil qurumların təhqiqatları hökümətləri beynəlxalq hüquq çərçivəsində insanın yaşamaq hüququna yönələn hücumları araşdırma məsuliyyətindən azad etmir. Bu çərçivədə BMT İqtisadi və Sosial Şurasının 1989/65 saylı qərarında dövlətlərin məsuliyyətləri, qanunsuz repressiya və güllələnmələrin qarşısını almağa və belə halların təsirli bir həcmdə araşdırmasına dair prinsiplər*

*aşıq tərzdə ifadə edilmişdir.*

*Zülmkarlıq, antibəşəri, alçaldıcı rəftar və işgəncə. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 5-ci maddəsi insan ləyaqətinə hörmətlə yanaşılması zərurətini göstərər.* ***«Heç kimə işgəncə, zülm, insanlıqdan kənar və ya aldadıcı rəftar göstərilə bilməz, cəza verilə bilməz».***

284. *Dövlət öz məmurları, acıq və ya gizli yolla rəsmi səlahiyyət daşıyan şəxslər vasitəsilə fiziki, psixoloji və ya əxlaqi əziyyət vermək məqsədilə işgəncə və zülm, insanlıqdan kənar alçaldıcı rəftara yol verərsə, şəxsiyyətin şərəf və ləyaqətinə hörmətsizlik göstərir, onun hüquqlarına təcavüz etmiş olur.*

285. ***Qanunsuz həbs və ya tutulub saxlanma.*** Dövl*ət öz məmurları, yaxud açıq və ya gizli yolla rəsmi səlahiyyətlər daşıyan şəxslər vasitəsilə keçərli bir səbəb olmadan şəxsin azadlığını əlindən alır, onu həbs edir, tutub saxlayır və ya zor gücü ilə hardasa dayanmağa tabe edirsə, insan hüqularına təcavüz etmiş olur. Bu prinsip* ***«heç kəs şəxsi istəklərlə tutula bilməz, həbs oluna bilməz və sürgün edilə bilməz»*** hökmünü verən Ümum*dünya İnsan Hüquqları Bəyannaməsinin 9-cu maddəsində təsbit olunmuş azadlıq və şəxsi təhlükəsizlik hüququna tam uyğundur. Bu hüquq eyni zamanda Beynəlxalq Mədəni və Siyasi Hüquqlar Sazişinin 9-1 maddəsində də təsbit edilmişdir. BMT İnsan Hüquqları Komissiyasının 1992-ci ildə yayımlanan bir hesabatında isə deyilir.* ***«Həbsetmə – düşüncələrin sülh yolu ilə ifadəsinə maneələrin ən aqressiv yollarından biridir və buna görə də insan hüquqlarına qarşı çox ciddi qəsddir».***

286. ***Düşüncə, ifadə və təşkilatlanma azadlığına qar***şı təcavüz və təhdidlər. Məlumat vermək hüqu*quna aidiyyəti ilə medianı maraqlandıran digər qəsdlər:*

- ✓ *binalara (redaksiya, mətbəə) təşkil edilən hücumlar;*
- ✓ *təşkilati, idarəçilik və iqtisadi xarakterli hücumlar;*
- ✓ *bilginin ölkə ərazisində dövriyyəsinə qarşı maneələr;*
- ✓ *bilginin beynəlxalq dövriyyəsinə qarşı maneələr.*

287. ***Araşdırıcılar,*** həm dövlət məmurları və ya dövl*ətin açıq / məxfi rəsmi səlahiyyət verdiyi şəxslərə, həm də silahlı müxalif qruplara və ya onların təşviq və ya tövsiyyəsi ilə hərəkət edən şəxslərə istinad edilə biləcək məsələlər üzərində bərabər ölçüdə durmaları zərurətini unutmamalıdırlar.*

288. İkinci mərhələdə, *araşdırıcı mənbələrdən toplanan informasiyaları gözdən keçirdikdən sonra çatışmazlıqları aradan qaldırmağa, əlavə bilgi toplamağa çalı*şır. Mümkün olarsa, iddialarla əlaqədar səlahiyyətli şəxs*lərə sorğular göndərir.*

289. Üçüncü mərhələdə, *çalışmasında müəyyən məhdudiyyətlər saxlayır. Mənbə və yaxınlarının şəxsi təhlükəsizliklərini nəzərə alır, tədbirini şəraitə görə qurur.* ***Araşdırıcı araşdırdığı hər bir məsələni diqqət mərkəzində saxlayır və şahidlərə qarşı mümkün münasibətlərə nəzərən diqqətli davranır.***

## Şahid ifadələrinin toplanması

290. *Şahid ifadələrinin toplanması araşdırmanın əsasıdır. Şərait əl verirsə, araşdırıcı şahidlə ilk görüşündə onun adını, soyadını öyrənir, onu narahatlıqdan qurtarır, mövzuya dair ümumi düşünçələrini, çəkindiyi məsələləri, mülahizələrini soruşur. Bununla görüşdüyü şəxsin araşdırdığı işdə zərərçəkən, müttəhim və ya şahid qismində keçə biləcəyini müəyyənləşdirir.*

291. *Şahid görüş üçün tam razılıq verməli və onunla məhz həmcinsi görüşməlidir. Görüş haqda hesabatda şahidin hal və davranışları (hərəkətlər, əsəbilik, sıxıntı) da qeyd olunmalıdır. Səsin, görüntünün alınması və ya fotoşəkil çəkilməsi haqda əvvəlcədən xəbərdarlıq edilməlidir. Yaxşı olar ki, görüşə iki jurnalist getsin, şahid də yanında yaxın bir adamının olmasını istəyə bilər.*

292. *Tərcüməçi, jurnalist şahidin dilini bilməlidir. O, danışığı xülasə etmək, boşluqları başqa yerdən aldığı bilgilərlə doldurmaq, ifadələri «düzəltmək», aydın olmayan və ya*

*dolaşıq məqamları aradan qaldırmaq məqsədilə özü bildiyi kimi sərbəstliyə yol verməməlidir.*

293. *Şərait yol verdiyi ölçüdə standart dindirmə təlimatına əməl olunmalıdır. Bu, hadisənin aydın qavranılmasına, mühüm nüansların yaddan çıxmasının qarşısının alınmasına gətirib çıxarır. Digər tərəfdən dindirmə təlimatı ehkam deyil, söhbət ona arada bir söz atmaqla sərbəst aparılmalıdır. Bu prosesdə araşdırıcı əldə etdiyi sənədlərin özü və ittiham olunan şəxslər üçün təhlükə doğura biləcəyini unutmamalıdır. Bütün hallarda həmin sənədlərin varlığı gizli saxlanılmalıdır.*

294. *Görüşün şəraiti yazı və ya başqa bir vasitə ilə qeyd edilməlidir.* ***Araşdırıcı:***

- ✓ *Görüşə gələn şəxslərin adlarını, hansı qismdə iştirak etdiklərini qeyd edir;*
- ✓ *Şəxsin görüşdə öz iradəsi ilə iştirak etdiyini bəyan etməsinə şərait yaradır;*
- ✓ *Şəxsin görüşdən razı olub-olmadığını öyrənir.*
- ✓ *Görüşün gizlilik dərəcəsini açıqlayır (üçüncü bir şəxsin qatılmasında israr edilməsi təqdirində);*
- ✓ *Şahiddən tərcüməni anlayıb-anlamadığını, tərcümədən razı olub-olmadığını öyrənir;*
- ✓ *Araşdırıcı görüşü özünə inamlı bir şəkildə davam etdirir.*
- ✓ *Sualları təkrar-təkrar verir.*
- ✓ *Gərginlik doğuran suallardan çəkinir.*
- ✓ *Sualları açıq və anlaşıqlı tərzdə verir.*
- ✓ *Açıq saxlanan suallar verir, «hə» və ya «yox» cavabı tələb edən suallardan imtina edir.*

295. *Suallar yönəldici xarakterli ola bilməz. («Hadisə yerində idiniz, deyilmi?» əvəzinə «Hadisə günü siz harada idiniz» kimi).*

### İstintaq və təhqiqat Jurnalistinin düzgün davranış normaları

296. *Hazırlıq iclası zamanı, yaxud məhkəmə ərəfəsində istintaqa manea törədə bilən, onu istiqamətləndirməyə yönəldilmiş xəbər və şərhlər verilməməlidir. Məhkəmə araşdırması döv-*

*ründə xəbərlər hər cür qərəzdən uzaq, dəqiqliklə verilməlidir. Jurnalist tərəfkeşlik edə bilməz. Məhkəmə hökm çıxarmamış heç kəsi müqəssir elan etmək olmaz. Kiminsə ittiham edilməsi xəbər və şərh materiallarında yolverilməzdir.*

**Uşaqlar**

297. *Uşaqlarla əlaqədar cinayət və cinsi təcavüzlərdə mühakimə olunanlar, bu tipli proseslərdə şahidlik edənlər, yaxud zərərçəkən qismində cəlb olunanların, 18 yaşına çatmamış şəxslərin adları və şəkilləri açıq şəkildə yayımlanmamalıdır. Uşaqların şəxsiyyətinə və davranışlarına təsir göstərə biləcək hallarda jurnalist ailə başçısının və ya uşağın qanuni qəyyumunun icazəsi olmadan onunla müsahibə aparmamalı və görüntüsünü almağa çalışmamalıdır.*

**Cinsi təcavüz**

298. *Cinsi təcavüz qurbanlarının fotoşəkilləri, görüntüləri və kimlikləri ictimai əhəmiyyət kəsb etmədiyi hallarda açıqlana bilməz.*

**İnsanın xüsusi statusu**

299. *İctimai əhəmiyyət kəsb etmədiyi hallarda və cinayət işi ilə əlaqəsi sübut olunmadıqca istənilən bir insanın davranışı və ya günahı, onun irqinə, milliyyətinə, dininə, cinsiyyətinə, cinsi əlamətinə, xəstəliyinə, fiziki, zehni baxımdan naqis olub-olmasına istinad edilməməlidir. Şəxsin bu xüsusi statusu zarafat, təhqir, etiqad mövzusuna cevrilməməlidi.*

**Sağlamlıq**

300. *Sağlamlıq mövzusunda sensasiyalardan yayınmaq, insanlara ümidsizlik və ya saxta ümid verəcək aldadıcı informasiyalar verilməməlidir. Tibbi araşdırmalar dəqiqləşdirilmiş elmi nəticələr kimi qələmə verilməlidir, dərman preparatlarına dair tövsiyələr yalnız mütəxəssislərdən alınmalıdır. Xəstəxanalarda araşdırma aparan, məlumat və görüntü almağa çalışan jurnalist özünü təqdim etməli, daxil olmaq qadağan edilən bölümlərə yalnız xüsusi icazə ilə girməlidir. Səlahiyyətli şəxsin, həkimin, xəstənin və ya onun sahibinin icazəsi olmadan hec bir üsulla xəstəxanalarda səs və görüntü alınmamalıdır.*

**Sarsıdıcı durumlarda**

301.*Xəbərin obyekti kimi üzüntü, sıxıntı, təhlükə, depressiya, fəlakət, yaxud şok vəziyyətində olan insanlar olduqda, jurnalistin hadisəyə münasibəti humanist xarakter daşımalı, araşdırması gizlilik prinsiplərinə uy*ğunlaşdırılmalıdır.

**Günahkarın yaxınları**

302. *Jurnalist şübhəli bilinən şəxslərin, şahidlərin qohum və yaxınlarını açıqlamamalıdır.*

**İntiharlar**

303. İntihar hadisələri haqqında xəbər çərçivəsini aşan, oxu*cuda, seyrçidə ağır təsir buraxacaq tərzdə genişliklə məlumat verilməməlidir. Belə hadisələri göstərən fotoşəkil və ya kadrlar dərc olunmamalıdır.*

**İxtisaslaşma**

304. ***Jurnalistin dar ixtisas sahəsi nə olursa-olusun*** *(idman şərhçisi, kriminal xəbərlər müxbiri, partiya mətbuat əməkdaşı və s.)* ***o, hər şeydən əvvəl jurnalistdir. Odur ki, jurnalist ilk öncə peşəkar prinsiplərə əməl etməlidir.***

## Sərhədsiz Jurnalistlər Təşkilatının dindirmə təlimatından örnək

305. **Görüş haqda bilgilər:**

- ✓ *tarix, yer, sorğu kağızını dolduran şəxs (adı, soyadı, işi, təşkilatdakı vəzifəsi), görüşdə iştirak edənlər;*
- ✓ şəxs görüş təklifini öz iradəsi iləmi qəbul eib, araş*dırıcının danışıq tərzini bəyənirmi(?). (Aşa*ğıdakı bəyan yazdırılır və imz*alatdırılır: «Görüşməyə öz iradəmlə gəldiyimi və qörüşün üslubunu bəyəndiyimi bəyan edirəm»);*
- ✓ *tərcüməçini başa düşürmü, tərcümədən razıdırmı(?). (Aşağıdakı bəyanat yazdırılır və imzalatdırılır: «Tərcüməçini anladığımı və sözlərimin tərcüməsindən razı qaldığımı bəyan edirəm»);*
- ✓ *görüşün gizlilik həddi.*

306. **Zərərçəkən ilə əlaqədar bilgilər:**
*adı, soyadı, doğum tarixi, cinsi, o andakı ünvanı, daimi ünvanı, vətəndaşlığı, (varsa) əvvəlki vətəndaşlığı, dini, etnik mənsubiyyəti (müəyyəndirsə), mədəni vəziyyəti, himayəsində olan şəxslərin sayı (adları, soyadları, yaşları, peşə və ünvanları), hərbi mükəlləfiyyəti, işi/peşəsi/vəzifəsi, siyasi partiyada, birlikdə, təşkilatda, müəssisədə daşıdığı məsuliyyət, özünün xüsusilə qeyd etmək istədiyi bioqrafik bilgilər (özü, media qurumu, ailəsinin siyasi, sosial, dini, etnik səbəblərlə üzləşdiyi keçmiş hadisələr).*

307. **Saxlanma:**
*tarix və saat, yer (ev, iş yeri, digər), saxlayan şəxs (polis, əsgər, digər), saxlanarkən göstərilən sanksiya və ya verilən əmr, saxlanarkən səbəb göstərilibmi?, saxlandığı müddətdə təzyiq edilibmi?, şahid vardımı?, şəxsi və ya peşəsi ilə bağlı əşyaları müsadirə edilibmi (qeyd dəftəri, sənəd, fotoaparat, diktofon, kamera, kaset, qəzet)?, edilibsə, qəbz verilibmi?, ailəsini, vəkilini və ya qəzetini xəbərdar etməsinə icazə verilibmi?, özü saxlanarkən evində və ya bürosunda axtarış aparılıbmı?, yaxınları təhdid edilibmi?*

308. **Həbsə alma:**
*həbsxananın yeri və növü, həbsin müddəti, həbsin kateqoriya və statusu (siyasi, kriminal, əqli cəhətdən yararsızlar, cinsinə, yaşına, etnik və ya dini mənsubiyyətinə görə), həbsxana şəraiti (kameranın ölçüləri, kameradakıların sayı, yataq müxəlləfatı, pəncərə, hava, istilik, işıqlanma, su, gigiyena, həbsdəkilərin ümumi sayı), qidalanma (necə və nə ilə; qidalanmada dini üsullara hörmət), bədən tərbiyəsi, məhbusların ümumi sağlamlıq durumu, qohum-qardaş, həmkarlar, vəkil və hakimə görüş üçün yaradılan imkan və onun intensivliyi, göndərilən paket, məktub, qəzet və kitabların çatdırılma imkanı, həbsxana personalı ilə əlaqələri (cəzalar: növü, söxlığı, nəticələri), sorğu-suala çəkildimi?,*

*çəkildisə, istintaqı kim apardı, neçə dəfə, hansı şəraitdə və istintağın mövzusu nə idi?, təhdid edildimi?, ifadə imzalanması istənildimi?, digər bilgilər.*

309. **Məhkəmə:**

*prosesin tarixi və yeri, prosesdə şəxsən iştirak edilmişmi, proses mətbuat üçün qapalı idimi, iddianı kim irəli sürmişdü, prosesdə başqa ittihamçı olmuşdurmu, xarici müşahidəçi vardımı, işə mülki, yoxsa hərbi məhkəmədə baxılmışdır, proses hansı qanun maddəsi üzrə aparılmışdır, hakimin adı, çıxarılmış qətnamə, vəkili məhkəmə salonunda iştirak edirmi, vəkilin adı, soyadı və ünvanı, müdafiənin vəziyyəti, qətnaməyə etiraz oldumu, hakimlərin bitərəfliyinə inanırmı, prosesdən sonra hansı həbsxanaya göndərilmişdi (əgər prosesdən əvvəl saxlandığı yerdən fərqlidirsə).*

310. **İşgəncə və zorakı rəftar:**

*işgəncə və zorakılığa məruz qaldınızmı?, işgəncə necə verilirdi?, sizcə, işgəncə və ya zorakılığın səbəbləri nə idi?, hansı mərhələdə işgəncəyə məruz qaldınız (saxlanma, maşınla aparılarkən, istintaqda, buraxılmaq ərəfəsində)?, zorakılığa neçə nəfər qatılmışdır?, onları tanıya bilərsinizmi?, hər birinin rolunu göstərə bilərsinizmi?, işgəncədə həkim də iştirak etmişdirmi?, həkimin rolu nədən ibarət olmuşdur (onu işgəncədən əvvəl, yoxsa sonramı görmüşdünüz? İşgəncədə iştirak edirdimi?), işgəncə görmədiyinizə dair bir sənədi imzalamağa sizi məcbur etdilərmi?, ifadə verməyə məcbur edildinizmi?, işgəncəni görən başqa şəxs (lər) olmuşdurmu?, yaşadığınız işgəncə, zorakılıq və ya əziyyətin növünü, müddətini, sıxlığını təsvir edə bilərsinizmi?, işgəncə və zorakılıqdan sonra müalicə aldınızmı?*

311. **Mətbuatın işinə maneə törədilməsi:**

*hadisədə adı keçən qurumun adı, ünvanı və xarakteri, gördüyünüz maneələri təsvir edin, təcavüz, oğurluq, yanğın və*

*s. olmuşsa, zərərin ölçüləri nə qədərdir?, qəzetin fəaliyyətinin dayandırılması və ya nəşrin dayandırılması necə olmuşdur?, hüquqi, iqtisadi və idari təcavüzün xarakter və miqyasını qiymətləndirə bilərsinizmi?*

*QEYD: Şahid sorğu kağızının səhifələrini vərəqləməlidir. Araşdırıcı və görüşə gələn şəxs (tərcümədən razı qalması şərti ilə) son səhifəni imzalamalıdır.*

312. **Həbsxanada görüş:**

✓ *Araşdırıcı, həbsxanada olan jurnalisti görmək üçün icazə ala bilməsə də onun haqqında bilgi əldə etməyə çalışmalıdır. Bundan ötrü vasitəçi rolunu çox zaman jurnalistin ailəsi, vəkili oynayır. Bəzən də məlumatı Beynəlxalq Qızıl Xaç və ya Qızıl Aypara Komitəsi yolu ilə almaq olur.*

✓ *Araşdırıcı fürsət tapdıqca həbs olunmuş jurnalistə şəxsən görüşməyə çalışmalıdır. Araşdırıcı qanun çərçivəsində həm həbsxanaya dair ümumi bilgilər, həm də jurnalist haqqında xüsusi məlumatlar toplamalıdır.*

✓ *Araşdırıcı görüşə icazə almaq üçün həbsxananın rəhbərliyi ilə görüşməlidir. Onun jurnalistlə təkbətək yazılı şəkildə rəsmiləşdirilməlidir. Görüş zamanı səsin yazılması, fotoşəkil çəkilməsi, sovqat (qida, dərman, geyim) və ya pulun verilməsi, tərcüməçi, həkim, vəkil gətirilməsi kimi məsələlərə icazə verilib-verilməməsi də bu sənəddə qeyd edilməlidir.*

✓ *Araşdırıcı, jurnalist həbsxanaya düşən kimi dərhal buranın rəhbəri ilə görüş tələb etməlidir. Bu görüşdə araşdırıcı kimliyini bildirməli, rəhbər şəxsin adını qeyd etməli və ziyarətin məqsəd və məramını söyləyərək, əməkdaşlıq təklifi etməlidir. Bu arada məhbusla əlaqədar qeyd edilən bilgilərin doğruluğu və qanunvericiliyə uyğunluğunu (adı, soyadı, yaşı, mədəni səviyyəsi, peşəsi, ünvanı, hüquqi statusu, həbs tarixi və şərtləri, həbsinin səbəbləri və ya təslim sənədinin tərtib olunma tarixi və məzmunu, məhkəmə or-*

*qanlarına verilmə tarixi və lazım gəldikdə, prosesin tarixi) yoxlanılmalıdır. Lazım gəlirsə, rəhbərlə birlikdə həbsxananı qəzmək mümkündür.*

✓ *Jurnalistlə görüş məxvilik pozulmasın deyə xüsusi bir yerdə keçirilməlidir.*

**Sərhədsiz Jurnalistlər Təşkilatı (RSF) araşdırmalar və illik hesabatın yazılması üçün çərçivəni təşkil edən on mövzu başlığı müəyyənləşdirib:**

1. Öldürülən jurnalistlər: Hər hansı bir ölkədə qurban gedən yerli və xarici jurnalist siyahısına yalnız peşə borcunu yerinə yetirərkən ifadə etdikləri fikirlərə görə ölən jurnalist salınır. Hesabatda mümkün olduğu qədər çalışmaq gərəkdir ki, «Qətlə yetirilən» jurnalistlərə «öldürülən» jurnalistlər bir-birindən ayrılsın.
2. **«Qətl edilən jurnalistlər»** kateqoriyasına planlı şəkildə şəxsən hədəfə alınaraq öldürülənlər aid olunurlar. «Öldürülən» jurnalist kateqoriyasına haqqında şəxsən qəsdli hökm çıxarılıb - çıxarılmaması müəyyənləşməyən, lakin vəzifə borcunu yerinə yetirərkən müharibə, hücum və ya təcavüz faktlarını müşahidə edəndə öldürülən jurnalistlər aid edilir.
3. **«İtkin düşən» jurnalistlər**: ailəsi, yaxınları, yaxud həmkarları tərəfindən itkin düşməsinin peşəsi və ya əqidəsi ilə əlaqədar olması ehtimal edilən jurnalistlərdir. Qaçaq yaşayan, öz iradələri ilə hara getdiklərini heç kəsə söyləmədən yoxa çıxanlar «itkin düşmüş» hesab olunmurlar. Hər hansı bir şəxsin, dövlət məmurları və ya dövlətin açıq/gizli dəstəyi/təşviqi ilə davranan insanlar, mütəşəkkil quruplar tərəfindən zorla tutulması, saxlanılması, qaçırılması və ya azadlığının məhdudlaşdırılmasına dair iddiaların rəsmən rədd edilməsi «zorla yoxa çıxarılma» anlamına gəlir. Belə hallarda araşdırıcının baş verənləri təfsilatı ilə təhdid etməsi lazım bilinir.

4. İşgəncə görən jurnalistlər dedikdə peşə fəaliyyəti və yaxud görüşləri səbəbi ilə ruhi və fiziki əzablara məruz qalan jurnalistlər başa düşülür. İşgəncə verilibsə, zorakı rəftarın xarakterinin müəyyənləşdirilməsi məqsədi ilə müstəqil bir həkim tərəfindən tibbi mütəxəssiz hesabatının tərtib edilməsi məqsədəuyğundur.
5. **Həbs olunmuş jurnalistlər.** Hər hansı bir jurnalistin 48 saatdan artıq həbsxana, izolyator, zindan, düşərgə və ya buna bənzər yerlərdə saxlanması nəzərdə tutulur. Araşdırıcı, qanuni və ya qanunsuz, müvəqqəti tutulub-saxlanma kimi ev həbsi və s. halları qeydə alır, mümkünsə jurnalistin saxlandığı yeri və vəziyyətini öyrənir. Rəsmi olaraq müvəqqəti saxlanma, istintaq məqsədi ilə saxlanma kimi müəyyənləşməsindən asılı olmayaraq insan azadlığının 48 saatdan artıq məhdudlaşdırılması bu kateqoriyaya aid edilir.
6. **Saxlanan jurnalistlər:** İstəlinən bir jurnalistin 48 saatdan az müddətdə həbsxana, izolyator, polis idarəsi, düşərgə və ya başqa bir yerdə tutulub saxlanılması.
7. **Hücuma məruz qalan jurnalistlər:** Jurnalistin peşə borcunun icrası yaxud görüşləri səbəbi ilə hücuma məruz qalması, təhqir olunması. Bu qrupa jurnalistin qarşısını almaq üçün ailəsi, dostları, qonşuları, peşə həmkarlarını hədəf alan qeyri-qanuni təzyiq təşəbbüsləri də daxil edilir (bəzi hallarda bu təzyiqlər də işgəncə hesab olunur).
8. **Təhdid və təzyiqlə üzləşən jurnalistlər:** Jurnalistlərin peşə fəaliyyətlərini azad şəkildə icra etmələrinə maneəçilik törətməkdən ötrü dövlət/siyasi quruluş/silahlı qrup/dini icma tərəfindən birbaşa/dolayısı ilə, kollektiv/fərdi və ya ciddiliyi anlaşılan, qaynağı məlum olmayan şəkillərdə fiziki, psixoloji, iqtisadi və digər analiji təhdid edilmələri.
9. **Hüquqi, inzibati və ya iqtisadi təzyiqlər:** Jurnalistlər və ya mediya məhkəmə qarşısına çıxa bilər. Hüquqi təzyiq dedikdə nə başa düşülür? Mətbuat azadlığı «iftira», «yalan», «təhqir» və s. kimi məsələlərə görə cavabdehliyi nəzərdə

tutduğu üçün belə hallarda KİV-ə qarşı iddialar məhkəmədə araşdırılır. Lakin istənilən istintaq və ya təhqiqatda siyasi və yaxud digər qərəzli mövqe müəyyən olunursa, bunu hüquqi təzyiq hesab etmək mümkündür. Dövlət mediasında çalışan jurnalistlərin də qarşılaşdıqları vəzifədən, işdən çıxarılma və təcrid etmə kimi siyasi vasitələrlə mediaya təsir göstərmək, reklamla şantaj, maliyyə və ya siyasi məqsədli iqtisadi, inzibati təzyiqlər də bu qəbildəndir.

10. **Ölkə daxilində informasiya dövriyyəsinə törədilən əngəllər:** Bu başlıqda təsniflənən hallar milli KİV-lərə qarşı müxtəlif yayım yasaqlarını, müvəqqəti qapatma, tirajın müsadirə edilməsi, bank hesablarına həbs qoyulması, radio, televiziya, elektron xəbərləşmənin əngəllənməsi, informatorların qeyd, kaset, film kimi xəbər istehsal vasitələrinin müsadirə olunması, yaxud da nüsxələrinin alınması, redaksiyalara, yayım şirkətlərinə, stasionar və əl yayımı satıcılarına təzyiqləri və s. əhatə edir.

**İnformasiyanın beynəlxalq dövriyyəsinə törədilən əngəllər:** Tutulub-saxlanma, persona non-qranta etmə, xarici medianın yerli müxbirlərinə, ölkədə fəaliyyət göstərən təmsiçilərinə və ya xüsusi tapşırıqla yolladığı əməkdaşlara qarşı viza əngəli yaradılması. Qəzetlərin müsadirə edilməsi, müvəqqəti və müddətsiz qadağan etmə, xaricdən gətirilən informasiya avadanlığının müsadirə edilməsi, ölkə xaricindən edilən radio və ya televiziya translyasiyasına maneələr törədilməsi də buraya daxildir. Dövlətin, siyasi və ya hərbi qrupların, informasiyanın ölkəyə giriş-çıxışını əngəlləməkdən ötrü gördüyü bütün tədbirlər bu kateqoriyaya aiddir.

İCRC **(Beynəlxalq Qızıl Xaç Komitəsi)** və insan haqları, söz azadlığını müdafiə edən mülki cəmiyyət qurumları (QHT-lər) mətbuat azadlığına dair araşdırma aparan jurnalislərə təqdirəlayiq yardımlar göstərə bilir. Bu bölümdə BQXK-in fəaliyyət normaları ilə birlikdə ekstremal situasiyalarda

çalışan başlıca QHT-nın tablosu da verilir.

- ✓ *BQXK 1863-cü ildə İsveçrədə yaradılan beynəlxalq insan hüquqları təşkilatıdır. İCRC Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Dərnəkləri Federasiyası, Milli Qızıl Xaç və Qızıl Aypara dərnəkləri ilə birlikdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatını təşkil edir.*
- ✓ ***İCRC şəxsi, yaxud peşə vəzifələri mülahizələri ilə təhdid edilən jurnalistlərin** yardımına **gəlir. Bu təşkilatda birlikdə çalışmaqdan ötrü yalnız onun fəaliyyət normalarını mənimsəmək gərəkir:***
- ✓ ***Məxfilik və etimad** bu quruluşa içtimaiyyət üçün açıq olmayan yerlərə daxil olmaq imkanı yaradan prinsiplərdən biridir. İCRC məşgul olduğu hadisələrlə əlaqədar bigilərin məxfiliyi prinsipinə həddən artıq bağlıdır, odur ki, dolayısı ilə onun bilgilərindən istifadə edənlər qarşısında da eyni tələblər qoyur. İCRC yardım göstərdiyi hadisələrlə əlaqədar kompaniyalara bitərəf münasibət bəsləyir və bunlara əsla qarışmır.*
- ✓ ***Qanunilik** («İCRC yalnız müvafiq hökümət orqanlarının razılığı ilə fəaliyyətə başlaya bilir»).*
- ✓ ***Davamlılıq** («İCRC hadisə yerindəki fəaliyyətini uzun müddət davam etdirir»).*
- ✓ ***Bitərəflik** («İCRC tutulub-saxlanmanın səbəbləri ilə maraqlanmır, bunaları müzakirə etmir, kiminsə azad olunmasını tələb etmir. İCRC nümayəndələrinin həbsxanalarda apardıqları işlər yalnız humanist səciyyə daşıyır. Bu sadəcə, itkilərin, işgəncə və zorakı rəftarın qarşısını almaqdan, məhbusun maddi və mənəvi şəraitini öyrənməkdən, lazım gələrsə yardım göstərməkdən, yaxud müvafiq səlahiyyətli şəxslər qarşısında şəraitin yaxşılaşdırılması üçün tələblər qoymaqdan ibarətdir»).*
- ✓ *İCRC vəziyyətdən asılı olaraq, hadisələrə müxtəlif cür **müdaxilə** edir.*
- ✓ *Beynəlxalq silahlı toqquşmalarda fəaliyyəti zamanı 187*

*ölkənin qəbul etdiyi 4-cü Cenevrə Konvensiyası ilə 146 ölkənin qəbul etdiyi Əlavə Protokola əsaslanır. Bu konvensiyalar* ***hərbi əsirlərə və ya mülki məhbuslara görüşmə hüququ*** *kimi haqlar verir.*

✓ *Ölkədaxili silahlı toqquşmalarda İCRC öz fəaliyyətini Cenevrə Konvensiyasının 3-cü maddəsinə və 138 ölkənin onayladığı 2 Protokola dayandırır. Bu hüquqi zəmin silahlı toqquşma tərəflərinin həbs etdiyi* ***insanlara görüş alma hüququ*** *verir.*

✓ *Silahlı toqquşma istisna olunmaqla aqressiv vəziyyətlərdə, xüsusilə də vətəndaş qarşıdurmaları vəziyyətlərində təşkilat öz fəaliyyətini Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının nizamnaməsinə əsasən yürüdür.*

✓ *Bəzi vəziyyətlərdə İCRC jurnalistlərə* ***xüsusi yardım*** göstərə *bilir.*

✓ *Beynəlxalq silahlı toqquşma bölgələrində təşkilat jurnalistlərə də bütün mülki şəxslərə göstərdiyi kimi hərbi* ***mühafizə*** *xidməti göstərir.*

*1977-ci il tarixli 1-ci Əlavə Protokolun 79-cu maddəsinə görə:*

1. *Silahlı toqquşma bölgələrində təhlükəli professional vəzifələr daşıyan jurnalistlər 50-ci maddənin birinci paraqrafına görə mülki şəxslər qismində qəbul edilirlər.*
2. ***Mülki statuslarına kölgə salan hər hansı bir hadisədə iştirak etməmişlərsə,*** *akkreditə olunmuş hərbi müxbirlər 3-cü Konvensiyasının 4-cü maddəsinin 4-cü paraqrafında nəzərdə tutulduğu kimi həmin statusdan silahlı qüvvələr nəzdində yararlana bilər, həmçinin saziş və qüvvədə olan protokollara uyğun şəkildə qorunurlar».*
3. *Jurnalistlər öz ölkələrindən, həmin anda yaşadıqları ölkədən, yaxud çalışdıqları media qurumundan kimliklərini göstərən sənədlər ala bilərlər.»*

**Akkreditə olunmuş hərbi müxbirlər xüsusi bir statusa sahibdirlər.** Ölkənin silahlı qüvvələrini müşaiyət etmələrinə

icazə verilən jurnalistlər hərbi müxbir olaraq qəbul edilirlər. Silahlı qüvvələr jurnalistə kimlik kartı *(vəsiqə)* veməyə borcludur. Müxbirin qarşı tərəfin əlinə düşdüyü halda həmin vəsiqə ilə hərbi dustaq statusundan istifadə edirlər. Qısası, hərbi müxbirlər hərbi dustaqlara dair 1949-cu il tarixli 30-cu Cenevrə Konvensiyasına əsasən qorunurlar. Ancaq onlar hərbi əməliyyat bölgələrində olanda xüsusi mühafizə xidmətindən yararlanmırlar.

İCRC-in azadlıqdan məhrum olunanlarla görüşməsi:
1949-cu il tarixli Cenevrə Konvensiyası və 1977-ci il tarixli Əlavə Protokollar, beynəlxalq silahlı toqquşma vəziyyətində İCRC-yə məhbus/tutulub-saxlanmış hərbi dustaqları və yaxud mülki məhbuslarla görüşmək hüququ verir. Konvensiyalar daxili silahlı toqquşmalarda, bir fərq görmədiyi üçün İCRC ziyarətləri zamanı tərəflərlə hər bir şəxsə görə ayrıca razılığa gəlməlidir. İCRC-nın müdaxiləsindən kimin faydalanıb-faydalanmayacağı vəziyyətdən asılı olur:
Azadlıqdan hər hansı bir toqquşma, hücum, yaxud daxili qarışıqlıq səbəblərinə görə məhrum olunmuş şəxslərə münasibətdə məsələ asandır, şəxsin nədə qünahlandırılmasından (terror, sabotaj və s.) asılı olmayaraq İCRC onunla görüşə bilər.
İCRC-in görüşmələrinin başlıca məqsədlərindən biri işkəncə və itkin düşmə kimi halların qarşısını almaqdır. Bütün dünyanın məhkum etdiyi işgəncələr 10 dekabr 1984-cü ildə Birləşmiş Millətlər Təşkilatının *«İşgəncə və zülmlər, insanlıqdan kənar, şərəf və ləyaqəti alçaldan cəza və davranışlara dair saziş» ilə yasaqlanmasına baxmayaraq davam etməkdədir. Beynəlxalq hüquq fiziki və psixoloji işgəncələri, bədən cəzalarını, alçaldıcı və təhqiredici davranışları, şikəst etmə, qeyri-müalicə məqsədli tibbi və elmi eksperimentlər və s. kimi pis rəftarı qadağan edir. Odur ki, işgəncələrin hər bir növü Cenevrə*

*Konvensiyalarının açıq pozulması halı olaraq hərbi günah qismində cəzalandırılmalıdır.*

*BMT sazişinə görə işgəncə, «zorla bilgi və ya etiraf əldə etmə, açıq şəkildə bildirilməyən səbəblərlə cəzalandırma, təzyiq və s. məqsədlərlə və ya ayrıseçkilik səbəbi ilə bir dövlət məmurunun, istənilən rəsmi şəxsin, dövlətin açıq və ya gizli şəkildə razılıq verdiyi fiziki və ya ruhi iztirab verən hər cür tədbiri əhatə edir, lakin əksinə, qanunla verilmiş cəzaları və bunların nəticəsində çəkilən əzabları əhatə etmir».*

İCRC təmsiçiləri yalnız nadir hallarda işgəncə yerlərini görə bilər, işgəncə hadisələrini, İCRC-yə ümumilikdə zərərçəkənin özü, yaxud şahidləri, bəzi hallarda isə işgəncə verən şəxs çatdırır.

**İşgəncələr aşağıdakı 3 formadan birinə aid olur:**

✓ *Həbsin xarakterinin, pis rəftarın bir şəkli ola bilər: həbsxana qaydaları, alçaldıcı hərəkətlər və ya psixoloji şərtlər.*

✓ *Pis rəftar və işgəncə istintaq üsulu kimi istifadə olunur: prokurorluq, polis məntəqəsi, hərbi qarnizon, həbsxana, açıq ərazi, yaxud buna bənzər yerlərdə həyata keçirilir.*

✓ *Pis rəftar və işgəncə nizam-intizamln pozulması, özbaşınalıq halı kimi polis, ordu, həbsxana xidmətçiləri tərəfindən edilir.*

İCRC işgəncə və pis rəftarın qarşısını almaq üçün həbsxana müdiri, müstəntiqlər və dövlətin səlahiyyətli şəxsləri ilə görüşlər keçirir.

**Görüş şərtləri:**

İCRC ziyarətlərin etimad çərçivəsində baş tutması üçün səlahiyyətli şəxslər qarşısında aşagıdakı tələbləri irəli sürür:

– *İCRC-nın fəaliyyət sferasına daxil olan bütün məhbuslarla görüşə bilmək;*

– *bu məhbusların saxlandıqları bütün yerlərə daxil olmaq;*

– *məhbuslarla başqa iştirakçı olmadan sərbəst söhbət etmək;*

– *sonrakı ziyarətlərə icazə alınması;*

– *bütün məhbusların siyahısının alınması;*

- *lazım gələrsə, ehtiyac duyulan əşyaların xaricdən gətirilməsinə icazə alınması;*
- *İCRC bunun qarşılığında əldə edilən bilgilərin gizli saxlanacağına təminat verir **(«İCRC etdiyini danışar, gördüyünü danışmaz»).***

**Görüş:**

- *İCRC təmsilçisinin insani problemlər mövzusunda dəqiq bir rəy əldə edə bildiyi zaman baş tutur. Məhbusların sayına və problemlərlə əlaqədar olaraq ziyarətə bir və daha artıq İCRC təmsilçisi görüşdə iştirak edə bilər. Təşkilat, bu qrupda bir həkim də göndərməyə çalış*ır.
- *Görüş təmsilçisinin həbsxananın vəziyyəti üçün (tibbi müayinə, idman, sağlamlıq və gigiyena məsələləri) və məhbusların buradakı həyatı (gündəlik rejim) mövzusunda sorğular verə biləcəyi həbsxana rəhbəri ilə görüşə başlayır. Məqsəd rəhbərliklə konstruktiv dialoq yaratmaqdır. Təmsilçi, nəzarətçi, həkim və ya aşpazın münasibətləri arasındakı mümkün fərqləri nəzərə alaraq personalın davranışlarına diqqət yetirməli, eyni zamanda həbsxananın hər yerini görməyə çalışmalıdır.*
- *Məhbusla görüş başbaşa olmalıdır. Bu, ona yaşadığı şəraitdən az bir müddət üçün də olsa uzaqlaşa bilmək fürsəti verir. Hətta danışılası xüsusi bir şey olmasa da belə bir rahatlıq məhbusun qırılan qürurunu yenidən qazanmasına xidmət edir. Belə bir görüş digər məhbuslara və həbsxana personalına da təsir edə bilər. Təmsilçi daim ağlında belə bir fikir tutur ki, məhbuslar ziyarətçinin vəziyyəti qiymətləndirmə haqqına malik olmasını və bundan necə istifadə etməyin mümkünlüyünü düşünürlər. Təmsilçi məhbusun insan ləyaqətini zədələyən hallara məruz qalma ehtimalına qarşı xüsusi bir diqqət göstərməlidir.*

*(a) Fiziki: aqressiya (hücum, işgəncə), qidalanmanın qarşısının alınması (ishal, arıqlıq, yeməyin kolorisinin azalmasına*

*dair məhdudiyyət və qadağalar), cəzalandırmalar (üstünün axtarılması, təhqiramiz hərəkətlər, alçaldılma və s.), təkadamlıq kameralarda saxlama, ayaq üstə saxlamaq, uzun müddət gözlətmək, həyəcanlandırma. Yuxu pozuntuları və özünü idarə edə bilməmək kimi problemlərə xüsusi diqqət yetirməlidir.*

(b) *Emosional affektlər: həddindən artıq və zəif işıqlandırma, isti, pis qoxu, həddindən artıq küy və ya tam səssizlik.*

(c) *Əlaqələr: ailə, həkim, vəkil, digər məhbuslar, həbsxana işçiləri və ya dövlər məmurları ilə əlaqələr, məktublaşma və ya xəbərləşmə.*

– *Görüşün sonunda təmsilçi rəhbərliklə daha bir dəfə görüşür. Görüşün dəyərləndirilməsində əsas götürülən bir neçə meyarla birlikdə həbsxanadakı ümumi vəziyyət və bunun təmsilçiyə necə təsir bağışlaması da önəmlidir.*

**İCRC ilə əlaqələr necə qurulur?**

*Varsa, ölkənizdəki, yaxud yaxın ölkədəki regional İCRC qurumuna və təmsilçilərinə müraciət edin.*

1 yanvar 1998-ci ildən etibarən İCRC bu ölkələrdə fəaliyyət göstərir:

(a) ***Afrika:*** *Anqola, Burundi, Efiopiya, Fil Dişi Sahili və s.*

(b) ***Amerika:*** *ABŞ, Argentina, Braziliya, Qvatemala, Haiti, Kolumbiya, Meksika, Peru.*

(c) ***Asiya:*** *Əfqanistan, İndoneziya, Filippin, Honqkonq, Hindistan, Kamboca, Pakistan, Şri Lanka, Tailand.*

(d) ***Qərbi Avropa və Balkanlar:*** *Albaniya, Bosniya- Hersoqovina, Xorvatiya, Macarıstan, Makedoniya Yuqoslaviya Respublikası və Yuqoslaviya Federativ Respublikası.*

(e) ***Şərqi Avropa və Orta Asiya:*** *Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, Özbəkistan, Tacikistan və Ukrayna.*

(f) ***Orta Şərq:*** *Fələstin İdarəsi, İraq, İran, İsrail, Kuveyt, Lüblyana, Misir, Tunis, Suriya, Yəmən.*

İCRC-nin Təmsilçilik ünvanları Cenevrədəki mərkəzdən alına bilər. Ölkənizdə İCRC, yoxsa Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara hərəkatını təşkil edən Qırmızı Xaç və ya Qızıl Ayparaya bağlı 169 milli dərnəkdən biri ilə təmas qura bilərsiniz. Ancaq ən doğrusu, *təşkilata aid «Hot Line» xətti ilə mərkəzlə əlaqə yaratmaqdır. 1985-ci ildə qurulan İCRC-nin «Hot Line» xətti (Tel: 00 41 22 734 60 01)* hədə-qorxu altındakı jurnalistin yaxın əhatəsinin yaralana biləcəyi bir təcili çağırış xəttidir. Belə bir durum yaranarsa jurnalistin ailəsi, çalışdığı redaksiya rəhbəri və ya aidiyyəti olan peşəkar mətbuat təşkilatı İCRC-yə müraciət edə bilər. Müraciətdə şəxs və hadisə ilə əlaqədar bütün bilgilərin və edilmiş öncəki müraciətlərin bildirilməsi lazım gəlir.

## Daxili toqquşma, qarışıqlıq və ya gərginlik hallarında İCRC nə edir?

- ✓ *Səlahiyyətli şəxslər birisinin öldüyü, yaxalandığı, tutulduğu və ya həbsə salındığına dair bilgiləri qeydə alaraq durumu zərərçəkənin ailəsinə çatdırır. Ailə və məhbusun rəyi ilə bilgilər gizli saxlanmırsa, əlaqədar peşə qurumlarına çatdırılır;*
- ✓ *müvəqqəti saxlanma uzun sürərsə, təmsilçisini həkimlə birlikdə onun ziyarətinə yollayır;*
- ✓ *ailəni hadisələrin gündəlik dəyişikliklərindən xəbərdar edir.*
- ✓ *buraxılarsa, başqa bir səbəb olmadığı təqdirdə şəxsin ölkəsinə dönməsinin məsuliyyətini üzərinə ala bilər.*
- ✓ *Cenevrədəki Mərkəzi Araşdırma Agentliyi şəxsi hadisələrlə əlaqədar bütün İCRC informasiyalarını toplayır.*

## Mülki Cəmiyyət Təşkilatları (MCT)

Mətbuat azadlığına olan qəsdləri araşdıran jurnalistlərin həm insan hüquq təşkilatları, həm də mətbuat və söz azadlığını qorumaq sahəsində ixtisaslaşmış təşkilatlarla sürətli əlaqədə olmaları yararlıdır. MTC araşdırıçı üçün həm bir bilgi qaynağı, həm də

bilgi dövriyyəsi vasitəsidir. Bu təşkilatlar bəzi durumlarda siyasi, texniki və təşkilati dəstək verə bilir. MCT siyahısında, bu sahədə çalışan beynəlxalq quruluşlar yer alır.

Mərkəzi ABŞ-da olan *Human Rights İnternet* (İnsan Hüquqları-İnternet) insan hüquqları sahəsində çalışan 5.000 təşkilat və şəxsdən ibarət bir siyahı vardır. Burada insan hüquqları qurumlarının maliyyə qaynaqları mövzusunda informasiyalar da təqdim edilir.

*International Service for Human Rights* (Beynəlxalq İnsan Hüquqları xidməti - İSHR), yerli və beynəlxalq quruluşlara BMT tərəfindən bağlanan agentliklər arasında əlaqə yaradır. Mərkəzi Cenevrədə yerləşən ISHR beş sahədə fəaliyyət göstərir: informasiya (üç aydan bir bületenlər buraxılır), fəaliyyət normaları (MCT-nin BMT istiqamətini izləmələrinə yardım göstərir), təhsil-təlim (BMT istiqamətlərinə dair kurslar keçirilir), ziyarətlər (ilk Cenevrə ziyarətində VCT-ni müşaiət edir) və koordinasiya (məlumat mübadiləsi və qarşılıqlı yardım üçün MCT-lər arası əlaqələrin qurulması və inkişaf etdirilməsi).

**Ümümdünya Mülki Cəmiyyət Qurumları:**

– **Amnesty International** *(Beynəlxalq Amnistiya Təşkilatı –* **AI***)* 162 ölkə və bölgədə 4200 qrupda birləşir, bir milyondan çox üzvü var. Fəaliyyət mərkəzi Londonda olan Beynəlxalq Katiblik tərəfindən koordinasiya edilir. Quruluşun məqsədi həbsdə saxlanan vicdan məhbuslarının buraxılması, siyasi məhbusların ədalətlə mühakimə olunması, ölüm cəzası və işgəncələrin aradan qaldırılması, qanunsuz cəzalara və itkilərə son qoyulması kimi hallardır.

Amnistiya təşkilatı məhbuslara dəstək verir, təhdid altındakı insanlar üçün «təcili aksiya» kampaniyaları təşkil edir və regional tədbirləri təşviq edir.

Bundan başqa, insan hüquqlarına qarşı qəsdlərin zərərçəkənlərinə yardımı nəzərdə tutan bir proqram da həyata keçirir. AI, ildə bir dəfə çoxlu sayda hesabat və il ərzində toplanmış bigilərin qısa xülasəsini dərc edir.

– 1992-ci ildə qurulan **Federation Internasional des Droites de I «Homme** *(Beynəlxalq İnsan Hüquq təşkilatları Federasiyası*

– FIDH) dünyada birinci belə qurumdur. Mərkəzi Parisdədir, 90 milli insan hüquq təşkilatını öz ətrafında toplayıb, beynəlxalq bir müdafiə və müqavimət kompleksidir. FIDH müxtəlif araşdırma, hüquqi nəzarət fəaliyyətləri və insan hüquqları toplantıları keçirir.

– **Human Rights Watch** *(İnsan Hüquqlarına Nəzarət Komitəsi* – HRW) insan hüquqları üzərə fəaliyyət göstərən mühüm ABŞ təşkilatıdır. Fəaliyyətini Helsinki Watch (HRW) maliyyələşdirir. NRW, 60-dan artıq ölkədə yaşanan insan hüquqlarına qarşı qəsdlərlə əlaqədar sistematik araşdırmalar aparır. Regional büroların apardığı araşdırmalar (Afrika, Amerika, Asiya, Avropa, Orta Şərq), özəl proqramlar büroların apardığı araşdırmalar *(Silah Proyekti, Həbsxana Proyekti, Qadın hüquqları Proyekti və Azad Söz Fondu)* çərçivəsində yayılan hesabatlarla tamamlanır.

## Məlumat alan, araşdıran və yayan jurnalistlər üçün hüquq bilgiləri

### Məlumatın alınması

Məlumat azadlığı haqqında Qanunun 1-ci maddəsinə görə **məlumat** təbiət, toplum və dövlətlə, insanların maraq dairəsində olan başqa məsələlərlə bağlı olaylar, **proseslər, faktlar və şəxslər haqqında fərqli qaynaqlardan alınmış və fərqli formalarda** *(yazılı və şifahi, mətbu və ya elektron vasitələrlə və s.)* çatdırılan **xəbərlərdir.** Jurnalistin məlumat almaq hüququ anlamında məlumat təkcə məlumat daşıyıcılarında olan məlumatın məzmunu ilə tanış olmağı deyil, həm də həmin daşıyıcıların özlərini görmək, bu məlumatların mənbəyi, tarixi barədə bilgi almağı özündə birləşdirir. «Məlumat» və «informasiya» anlayışları eyni mənada işlədilir. «İnformasiya (məlumat)» termini «information» latın sözündən götürülüb izah etmə, bilgiləndirmə, məlumatlılıq anlamını verir.

İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Qanunda informasiyaya «çatdırılma formasından asılı olmayaraq şəxslər, əşya, fakt və proseslər haqqında məlumatlar» kimi tərif verilir.

***Məlumat özündə bir sıra keyfiyyətləri birləşdirməlidir: obyektivlik, tamlıq, aktuallıq və uyğunluq.***

***Məlumat o zaman obyektivdir ki, o gerçək durumu əks etdirir.***

***Məlumat anlamaq və qərar qəbul etmək üçün yetərli olarsa tam sayılır.***

***Aktuallıq məlumatın hazırki dövr üçün əhəmiyyətliliyi, vacibliyidir.***

***Məlumatın uyğunluğu alınmış məlumatın köməyi ilə yaradılmış obrazın real obyektə, prosesə, hala uyğunluğunun müəyyən səviyyəsidir.***

Bütünlükdə məlumat almaq azadlığı həm də jurnalistin məlumat daşıyıçısına çıxış hüququnu da əhatə edir. «Məlumat daşıyıçısı» ilə «məlumat» anlayışları fərqlidir. Məlumatın daşıyıçısı onu əks etdirən əşyalardır (məsələn, kağız və ya elektron sənədlər və s.). Məlumatın mənbəyi həmin məlumatı hazırlamış, yaxud çatdırması dövlət orqanları, fiziki və hüquqi şəxslər ola bilər.

Məlumat azadlığı haqqında Qanunun 8-ci maddəsinə əsasən əldə edilməsi qaydasına görə məlumatlar açıq məlumata və alınması məhdudlaşdırılan məlumata bölünür. Açıq məlumat alınması hər hansı mülahizəyə görə məhdudlaşdırılmayanlardır. Lakin dövlət və ictimai təhlükəsizlik mülahizlərinə əsasən, fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinin qorunması məqsədilə bir sıra məlumatların alınması məhdudlaşdırıla bilər.

**Məmurda olan məlumatla adi şəxsdə olan məlumatın açıqlıq rejimləri arasında fərq**

KİV-i nizama salan qanunvericilik aktları dövlət orqanlarının və özəl şəxslərin məlumatlarının açıqlıq rejimini dəqiq fərqləndirmir. Lakin dövlət ictimai funksiyaları yerinə yetirdiyindən onun əlində olan məlumatlar maksimim açıq olmalıdır. Bu prinsip Konstitusiyanın 1-ci maddəsinin *«Azərbaycan Respublikasında hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqıdır»*, 54-cü maddəsinin *«Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır»* və 55-

ci maddəsinin *«Azərbaycan Respublikası vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır»* müddəalarından doğur. Göstərilən konstitusion hüquqlarını gerçəkləşdirə bilmək üçün vətəndaşların dövlətin, vəzifəli şəxslərin fəaliyyəti barədə maksimum məlumatı olmalıdır. **Dövlətin əlində olan məlumatlar yalnız dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik, başqa şəxslərin hüquqlarının qorunması məqsədi ilə və yalnız qanunla göstərilən hallarda və həddə məxfiləşdirilə bilər.**

Məlumat azadlığı haqqında Qanunun 10-cu maddəsi alınması məhdudlaşdırılan məlumatların dairəsini müəyyənləşdirir. **Dövlətin əlində olan belə məlumatlara dövlət sirri, istintaq sirrləri və başqaları aid edilə bilər.** Özəl şəxslər öz kommersiya sirrlərini, özəl həyat sirrlərini yaymaqdan qorumağa haqlıdırlar. Həmin məlumatların alınması qanunla məhdudlaşdırıldığından, onların verilməsindən imtina edilə bilər. Açıq məlumatların verilməsindən imtina etmək isə İnzibati Xətalar Məcəlləsinin 186-cı maddəsinə əsasən inzibati məsuliyyətə səbəb olur.

**Jurnalistin məlumat alma hüququ ilə başqa şəxsin məlumat alma hüququnun fərqi**

Konstitusiyanın 50-ci maddəsinə əsasən hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Konstitusiyanın bu müddəasına əsasən məlumat almaqda hamı bərabər hüquqludur. Bu, Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Qanunda da göstərilib.

Lakin həm Konstitusiya, həm də digər qanunvericilik aktları media azadlığını xüsusi vurğulayaraq, jurnalistin məlumat alması üçün əlavə imkanlar müəyyən edir. Cəmiyyət üzvlərinin məlumatlandırılması medianın və jurnalistin peşəsindən irəli gələn borcudur. Məsələn, terrorçuluğa qarşı mübarizə haqqında Qanunun 9-cu maddəsi terror əleyhinə aparılan əməliyyat zonasında KİV işçilərinin fəaliyyət göstərməsinin özəl imkanlarını nəzərdə tutur. Seçkilər haqqında qanunlara əsasən jurnalistlər səsvermə günü məntəqə seçki komissiyasının işə başladığı və

seçki qutularının möhürləndiyi andan yuxarı seçki komissiyası tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək, habelə səslərin təkrar hesablanmasında seçki məntəqələrində bütün hərəkətlərin həyata keçirilməsini müşahidə edə bilərlər. Göründüyü kimi hüquqlar bərabər olsa da, jurnalistin məlumat alması üçün hüquqi imkanları adı şəxsin məlumat almaq imkanlarından genişdir.

**Məlumatın məmurdan soruşulması ilə başqa şəxslərdən soruşulması qaydalarının bir-birindən fərqi**

Kütləvi informasiya vasitələri haqqında Qanunun 8-ci maddəsinə əsasən dövlət orqanları, bələdiyyələr, idarə, müəssisə və təşkilatlar, ictimai birliklər, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqqında məlumatı kütləvi informasiya vasitəsinin sorğusu əsasında, habelə mətbuat konfransları keçirmək yolu ilə, yaxud başqa formalarda verirlər. İnformasiya almaq üçün sorğu yazılı və şifahi ola bilər. Göründüyü kimi qanunvericilik məlumatın dövlət orqanlarından soruşulması ilə özəl şəxslərdən soruşulması qaydalarını bir-birindən fərqləndirmir. Jurnalist hansı qaydanı məqbul hesab edirsə, həmin qaydadan istifadə etməklə dövlət orqanlarından da, şəxslərdən də məlumat soruşa bilər.

**Məlumat alma sorğusunun forması və ünvanı**

KİV haqqında Qanunun 8-ci maddəsinə əsasən informasiya almaq üçün sorğu yazılı və şifahi ola bilər. Hüquqi şəxs olan redaksiya sorğunun yazılı formasından, jurnalist isə həm yazılı, həm də şifahi formalardan istifadə edə bilər. Bu formalardan hansının seçilməsi alınan məlumatın xarakterindən və seçimindən asılıdır.

Qanunvericilik və təcrübə yazılı sorğu ilə bağlı vahid ərizə forması müəyyən etməyib. Yazılı sorğu məlumatı bilavasitə verməli olan dövlət hakimiyyəti orqanlarının, idarələrin, təşkilatların, müəssisələrin rəhbərlərinin və ya digər vəzifəli şəxslərin adına, hüquqi şəxslərdən məlumat almaq barədə sorğu həmin hüquqi şəxsin rəhbərinin adına yazıla bilər. Ərizə sorğunun ünvanlandığı qurumun adına da yazıla bilər. Ərizədə hansı məlumatın istə-

nilməsi dəqiq göstərilməlidir. Ərizə müraciət edən tərəfindən imzalanmalı, ərizədə onun adı, atasının adı, soyadı, ünvanı və işlədiyi yer, vəzifəsi qeyd olunmalıdır.

Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Qanunun 7-ci maddəsinə əsasən məlumatın verilməsi barədə müraciət (sorğu) həmin məlumatı bilavasitə verməli olan dövlət hakimiyyəti orqanlarına, idarələrə, təşkilatlara, müəssisələrə və ya vəzifəli şəxslərə ünvanlanır. Qeyri-dövlət hüquqi şəxslərdən məlumat almaq üçün isə sorğu həmin hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik rəhbərə ünvanlanmalıdır.

Jurnalist sorğunu poçtla göndərə və ya şəxsən təqdim edə bilər. Sorğu poçtla göndərildikdə sorğunun göndərilməsini təsdiq edən müvafiq qəbz verilir. Sorğu şəxsən təqdim edilərkən jurnalist sorğunun hansı № ilə qeydiyyata alındığını öyrənməli və çalışmalıdır ki, sorğunu qəbul edən şəxs tərəfindən onun ikinci nüsxəsində uyğun qeydlər (sorğunun qeydiyyat nömrəsi, qəbul olunduğu tarix, imza və s.) aparılsın.

Məlumat azadlığı haqqında Qanunun 11-ci maddəsinə və Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Qanunun 7-ci maddəsinə əsasən **jurnalistdən məlumatın əldə edilməsi zəruriliyinin əsaslandırılmasının tələb olunması qadağandır.** Bu o deməkdir ki, *jurnalist məlumat almaq istədiyi zaman həmin məlumatı nə üçün almaq istədiyini bildirməyə borclu deyil.*

**Sorğu vermiş jurnalistə məlumat verilməsi, yaxud imtina cavabının müddəti**

Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Qanunun 10-cu maddəsinə əsasən jurnalistin məlumat almaqla bağlı müraciətinə bir ay müddətinədək, əlavə öyrənilməsi və yoxlanılması tələb edilməyən müraciətə isə 15 gün ərzində baxılmalıdır. Göstərilən müddətdə məlumat öz operativliyini itirərsə sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir.

Alınması məhdudlaşdırılan məlumat soruşulubsa, yaxud sorğu aid olmadığı orqana və ya şəxsə ünvanlanıbsa məlumatın

verilməsindən imtina edilə bilər. Birinci halda **imtina bildirişi məlumatın verilməsi üçün nəzərdə tutulmuş müddətlərdə verilməlidir.** İkinci halda müddət Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Qanunun 7-ci maddəsində göstərilib. Həmin maddənin 2-ci hissəsinə əsasən *dövlət hakimiyyəti orqanları, idarələr, təşkilatlar, müəssisələr, onların rəhbərləri və digər vəzifəli şəxslər müraciətə irəli sürülən məsələlərin həlli onların səlahiyyətinə aid olmadıqda, bunları beş gündən gec olmayaraq müvafiq təşkilata göndərir və bu barədə müraciət edənə məlumat verir, şəxsi qəbul zamanı isə hara müraciət etmək lazım olduğunu izah edir.*

Məlumat Azadlığı Haqqında Qanunun 11-ci maddəsinə əsasən tələb olunan məlumat alınması məhdudlaşdırılan məlumatlara aid olduqda məlumatın verilməsindən imtina oluna bilər. *Jurnalistə məlumat verilməsindən imtina olduqda sorğuya verilən cavabda imtina əsaslandırılmalıdır.*

Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Qanunun 10-cu maddəsinə əsasən məlumatın verilməsi barədə müraciətə baxılmaq üçün xüsusi yoxlama keçirmək, əlavə materiallar tələb etmək, yaxud başqa tədbirlər görmək lazım gəldiyi hallarda uyğun orqanın, idarənin, təşkılatın, müəssisənin rəhbəri və ya onun səlahiyyətli müavini müraciətə baxılma müddətini müstəsna hallarda ən çoxu bir ay uzada bilər. Müddətin uzadılması barədə jurnalistə cavab sorğunun təqdim edildiyi vaxtdan 1 ay müddətinə verilməlidir.

**Vəzifəli şəxs jurnalisti qəbul etməkdən imtina edə bilərmi?**

Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Qanunun 6-cı maddəsinə əsasən dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxslər vətəndaşların qəbul edilməsinin təşkilini təmin etməlidirlər. Vətəndaşlar öncədən elan edilən günlərdə və saatlarda qəbul edilməlidirlər. Zəruri hallarda (məsələn, insanların, həyat və sağlamlığı üçün ciddi təhlükə törədən fövqəladə vəziyyət

hallarında, təbii fəlakətlər baş verdikdə və s. hallarda vətəndaşların təcili məlumatlandırılması zərurəti yarandıqda) dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxsləri vətəndaşları dərhal qəbul etməlidirlər. Bu müddəa jurnalistlərə də şamil edilir. Bununla yanaşı jurnalist hər hansı vəzifəli şəxslə onun münasib bildiyi vaxtda da görüşə bilər. Bunun üçün jurnalist vəzifəli şəxsə yazılı müraciət edə və ya hər hansı tədbir zamanı şəxsən görüşüb razılıq əldə edə, yaxud da görüşü telefon vasitəsilə razılaşdıra bilər.

**Vəzifəli şəxslər məlumat verməkdən əsassız imtina etdikdə jurnalistin adekvat davranması**

Dövlət orqanlarının vəzifəli şəxsləri məlumat verməkdən əsassız imtina etdikdə yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət edilə bilər. İnzibati Xətalar Məcəlləsinin 186-cı maddəsi qanunvericilikdə müəyyən edilmiş müddətdə jurnalist sorğusuna cavab verməməyə və qanunvericiliklə qorunan informasiyalar istisna olmaqla, jurnalistə informasiyanın verilməsi üzərinə məhdudiyyətlər qoymağa və ya informasiya verilməsindən imtina etməyə görə inzibati məsuliyyət nəzərdə tutur. Jurnalist məhkəməyə müraciət etdiyi halda Məlumat azadlığı haqqında Qanunun 12-ci maddəsinə əsasən məlumatın verilməsinin qanuniliyini sübuta yetirmək vəzifəsi cavabdehin, yəni məlumat verməkdən imtina etmiş və ya məlumatın verilməsi üzərinə məhdudiyyətlər qoymuş vəzifəli şəxsin və ya orqanın üzərinə düşür. Məlumat verməkdən əsassız imtina olunduğu və ya jurnalistə məlumat verilməsi üzərinə əsassız məhdudiyyətlər qoyulduğu halda jurnalistin və ya kütləvi informasiya orqanının belə hərəkətlərin nəticəsində dəymiş zərərin, o cümlədən məhkəmə işi ilə bağlı hüquqi xidmətə çəkilən xərclərin də əvəzinin ödənilməsini tələb etmək hüququ var.

**Jurnalistdən informasiya mənbəyini (qaynağını) açıqlamaq tələb oluna bilərmi?**

Öz fikir və ideyalarını ifadə etmək azadlığı və məlumat azadlığı demokratik cəmiyyətin özəyi olan, onun tərəqqisinin

və ayrılıqda hər bir fərdin inkişafının əsas şərtlərindən biridir. Demokratik toplum özünə uyğun azad, müstəqil və plüralist medianın inkişafını təmin etməlidir. Bu, insanların ictimai maraq doğuran məsələlərlə bağlı məlumat almaq azadlığını təmin edən əsas hüquqlardan biridir.

KİV haqqında Qanunun 11-ci maddəsinə əsasən kütləvi informasiya vasitəsinin məlumatın dərc *olunmasına (efirə verilməsinə)* məsul olan redaktor və *(və ya)* jurnalist qanunla müəyyən edilmiş hallardan başqa informasiya mənbəyini açıqlamağa məcbur edilə bilməz.

Qanunun bu maddəsində *«mənbəni açıqlamaq»* dedikdə təkcə jurnalistə məlumatı vermiş hər hansı şəxsin adının açıqlanması yox, həm də jurnalistə məlumat vermiş şəxsi identifikasiya etməyə *(tanımağa)* imkan verən bütün məlumatlar, o cümlədən məlumat vermiş şəxs barədə bütün personal məlumatlar *(yaşı, iş yeri, yaşayış yeri və s.)*, onun görünüşü, səsi, jurnalistin şəxsdən məlumat alması halı ilə bağlı faktlar *(məlumatın harada, nə zaman, hansı üsulla alınması və s.)*, şəxsin jurnalistə verdiyi məlumatların yayılmış hissələri *(məsələn, jurnalistə verilən yazılı sənədin gözdən keçirilməsi, həmin sənədin kim tərəfindən verildiyini tapmağa imkan verirsə, jurnalist belə sənədi verməməyə haqlıdır)*, jurnalistin əvvəllər harada işləməsi, hansı araşdırmalar aparması və s. nəzərdə tutulur.

**Redaktorlar və ya jurnalist aşağıdakı hallarda və yalnız məhkəmə tərəfindən öz mənbəyini açıqlamağa məcbur edilə bilər:**

*insan həyatının müdafiəsi üçün,*

*ağır cinaytətin qarşısını almaq məqsədilə,*

*ağır cinayət törətməkdə ittiham olunan, yaxud təqsirli bilinən şəxsin müdafiəsi üçün.*

**Jurnalistin insan həyatı üçün təhlükə yaradan hallar *(yəni insanın həyatdan məhrum ediləcəyi)* barədə məlumatı varsa, həmin şəxsin həyatına olan təhlükəni aradan qaldırmaq üçün başqa məlumatlar yetərli deyilsə və jurnalistə bu məlumatı**

**verən şəxsin kim olması barədə məlumat gərəkdirsə məhkəmə jurnalistdən məlumatı verən şəxsin kimliyini açıqlamağı tələb edə bilər.** Hazırlanan ağır *(Cinayət Məcəlləsinin 15.4-cü maddəsi)* və daha ağır *(Cinayət Məcəlləsinin 15.5-cü maddəsi)* cinayətin qarşısının alınması üçün başqa məlumatlar yetərli deyilsə, məhkəmə jurnalistdən bu haqda məlumat verəni aşkar etməkdən ötrü gərəkli məlumatları açıqlamağı tələb edə bilər. **Məhkəmənin tələbi ilə ağır və xüsusilə ağır cinayətin hazırlanması barədə məlumatı açmayan jurnalist Cinayət Məcəlləsinin 30.7-ci maddəsinə görə ağır və xüsusilə ağır cinayətin hazırlanmasını bilərək xəbər verməməyə görə cinayət məsuliyyətinə cəlb oluna bilər.**

*Jurnalistdə artıq törədilmiş cinayətlə bağlı ittiham olunan və ya təqsirli bilinən şəxsin müdafiəsi üçün məlumatlar varsa və həmin şəxsə bəraət qazandıran halları sübut etmək üçün başqa faktlar yetərli deyilsə jurnalistdən ona məlumatı çatdırmış şəxsin kimliyini müəyyən edən məlumatlar tələb oluna bilər.* Bu halda jurnalist məlumatı vermiş şəxs barədə məlumatları açıqlamaqdan imtina edərsə Cinayət Məcəlləsinin 298-ci maddəsi ilə – ifadə verməkdəm imtina etməyə görə məsuliyyətə cəlb oluna bilər.

Bütün hallarda jurnalistin öz məlumat mənbəyi barədə məlumatlar verməsi yalnız məhkəmənin əsaslandırılmış qərarı ilə tələb oluna bilər. Məhkəmə öz qərarında mənbənin kimliyi barədə məlumatın məhz kütləvi informasiya vasitələri haqqında Qanunun 11-ci maddəsində göstərilən məqsədlərlə tələb olunduğunu, həmin məqsədlərin gerçəkləşdirilməsi üçün gərəkli olan məlumatın başqa yollarla alınmasının mümkünsüz olmasını əsaslandırmalıdır. Məhkəmənin qərarından razı olmayan jurnalist və ya redaktor məhkəmənin uyğun yuxarı instansiyasına şikayət verə bilər. Jurnalistə şikayət vermək imkanı təmin edilməlidir.

Məhkəmədən başqa heç kəs, o sıradan dövlət orqanları, vəzifəli şəxslər jurnalisti öz məlumat qaynağını açıqlamağa məcbur edə bilməz. Jurnalisti mənbəni açıqlamağa məcburetmənin yolverilməzliyi prinsipinin müəyyən olunmasının böyük əhəmiiyəti var.

Bu, jurnalistin məlumat almaq imkanlarını genişləndirir. Əgər jurnalist öz mənbəyini açıqlayarsa, ona başqalarının etibarı azalar və jur**nalist üçün önəmli məlumatları olan şəxslər həmin məlumatları verməkdən çəkinərlər. Ona görə də jurnalist qanunun tələblərini nəzərə almaq şərtilə mənbəni açıqlamamalıdır.**

**Sorğu üzrə məlumat verilməsindən yayınma və imtina faktlarından şikayət vermə halları və qaydaları**

Mülki Prosessual Məcəlləsinin 298-ci maddəsinə görə jurnalistin öz hüququnun pozulduğu ona məlum olan gündən 1 ay müddətində ərizə ilə məhkəməyə müraciət etmək hüququ var. Jurnalist məlumatın verilməsi üçün müəyyən olunmuş müddət bitdiyi gündən bir ay keçənədək və ya məlumatın verilməsindən imtina olunması barədə cavab aldığı gündən bir ay keçənədək məhkəməyə müraciət etmək hüququ var. O, məhkəməyə müraciət etmədən hüququnu pozmuş dövlət orqanından yuxarı orqana və ya vəzifəli şəxsə də şikayət edə bilər. Yuxarı orqan və ya vəzifəli şəxs jurnalistin şikayətini təmin etməzsə bu barədə cavabın verildiyi gündən bir ay ərzində məhkəməyə şikayət oluna bilər. Şikayətn verildiyi gündən bir ay müddətində jurnalist ona cavab almadıqda bu müddət tamam olduğu gündən 1 ay keçənədək məhkəməyə şikayət edə bilər. Şikayətin verilməsi müddəti üzürlü səbəbdən ötürülübsə, bu müddət məhkəmə tərəfindən bərpa oluna bilər.

*Barəsində sorğu verdiyi məlumat dövlət və ya kommresiya sirrinə aid edilibsə və jurnalist bunu əsassız sayırsa məlumatın dövlət sirri və ya kommersiya sirri sırasından çıxarılması və məlumatın ona verilməsi ilə bağlı məhkəməyə müraciət etmək hüququna malikdir.*

Jurnalistə informasiya verməkdən imtina edilibsə və jurnalist bunu əsasız sayırsa məlumat verməkdən əsassız imtina etmiş, yayınmış və ya yalan məlumat vermiş cavabdehin yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsinə şikayət edə bilər. Bu həm redaksiya, həm də jurnalist tərəfindən ünvanlanan sorğularla bağlı yaranan hallara aiddir. Şikayət ərizəsində məlumat almaq üçün hara (kimə) müraciət olunduğu, müraciətin nə zaman edildiyi,

müraciətin qısa məzmunu, şikayəti təqdim edənin adı, soyadı, atasının adı, ünvanı və s. göstərilməlidir.

Mülki Məcəllənin 21-ci maddəsinə əsasən **hüququ pozulmuş jurnalist və ya redaksiya zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər.** Zərər hüququ pozulmuş şəxsin *(yəni jurnalistin və ya redaksiyanın)* pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və çəkməyin və çəkməli olduğu xərclər əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər *(əldən çıxmış fayda)* başa düşülür. Jurnalistin və ya redaksiyanın pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclərə məlumat başqa yolla əldə edilibsə bu məlumatın alınmasına çəkilən xərclər, məhkəmə xərcləri, hüquq məsləhəti üçün çəkilən və ya şəkilməli olan xərclər aiddir.

**Akkreditə edən orqan ayrı-ayrı kütləvi informasiya vasitələri üçün kvotalar (normalar) müəyyən etməyə haqlıdırmı?**

Qanunda ayrı-ayrı kütləvi informasiya vasitələri üçün hər hansı kvota müəyyən edilməsi nəzərdə tutulmayıb. Dövlət orqanlarında, siyasi və ictimai təşkilatların Akkreditasiya Qaydalarında mətbuat üçün ayrılan yerlərin kvotalaşdırılması jurnalistlərin məlumat almaq hüquqlarını məhdudlaşdırmamalıdır.

Lakin nəzərə almaq gərəkdir ki, hər bir orqanın, idarənin texniki imkanları hüdudsuz deyil. Təşkilati çətinliklər, otaqların olmaması və ya yararlı vəziyyətdə olmaması, kütləvi indormasiya vasitələrinin çoxlu sayda nümayəndələrinin eyni vaxtda işləməsi üçün uyğun şəraitin olmaması jurnalistləri akkreditə edərkən normativlər (kvotalar) müəyyən etmək gərəyini doğura bilər. Bu zaman müxtəlif kütləvi informasiya vasitələrinin köməyi ilə vətəndaşların bütün kateqoriyalarını informasiya ilə təmin etməyə imkan verən açıqlıq və ədalətlilik prinsipinə əməl etmək vacibdir.

**Dövlət idarələrinin mühafizə xidmətinin həmin idarədə akkreditasiyası olmayan jurnalistləri ora buraxmamaq hüququ varmı?**

Dövlət orqanlarında və ictimai birliklərdə akkreditə edilmiş jurnalistlərə informasiya əldə etmək üçün daha əlvetrişli şərait yaradılır. Akkreditasiya, onu həyata keçirən orqanın üzərinə müəyyən vəzifələr qoyur. Jurnalisti akkreditə etmiş dövlət orqanının üzərinə öz iclaslarının və tədbirlərinin keçirilməsi haqqında jurnalistə məlumat vermək və çəkiliş aparmaq üçün şərait yaratmaq, akkreditə edilmiş jurnalistləri materiallarla təmin etmək vəzifəsi qoyulur.

Lakin akkreditasiyanın olmaması jurnalisti konstitusion hüquqlardan və kütləvi informasiya vasitələri haqqında Qanunla nəzərdə tutulan hüquqlardan məhrum etmir; həmçinin akkreditasiya jurnalistin həmin hüquqları həyata keçirməsi üçün ilkin şərt deyil. Akkreditə edilməmiş jurnalsitlər də redaksiya vəsiqəsini və ya onların statusunu təsdiq edən digər sənədi təqdim etməklə dövlət orqanlarının açıq iclaslarında sərbəst surətdə iştirak etməyə haqlıdırlar.

## Dövlət sirri

Dövlət sirri haqqında Qanunda hansı məlumatın dövlət sirri ola bilməsi haqda ümumi göstərişlər nəzərdə tutulur. Qanunda göstərilən bu siyahı prezidentin 2004-cü il tarixli «Dövlət sirr haqqında" Azərbaycan Respublikasının Qanunudan irəli gələn bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə Fərmanında konkretləşdirilib. Hər hansı məlumatın dövlər sirri təşkil edən məlumatlar siyahısına daxil edilməsini uyğun səlahiyyətli dövlət orqanlarının rəhbərləri həyata keçirirlər. Yuxarıda göstərilən fərmana əsasən Prezident İcra Aparatının rəhbəri, Baş nazirlər, Dövlət Komitələrinin sədrləri, dövlət şirkətlərinin rəhbərləri və başqa vəzifəli şəxslər məlumatları dövlət sirrinə aid edə bilər. Həmin şəxslər həm dövlət sirri sayılmalı olan məlumatları vaxtında və düzgün məxfiləşdirməməyə görə, həm də ictimai maraq dairəsində olan məlumatları əsassız olaraq məxfiləşdirməyə görə məsuliyyət daşıyırdılar.

**Məlumatın dövlət sirri kimi məxfiləşdirilməsinin prinsipləri**

Dövlət sirri haqqında Qanunun 6-ci maddəsinə görə məlumatlar qanunçuluq və əsaslılıq prinsiplərinə uyğun məxfiləşdirilməlidir. Qanunçuluq prinsipinə görə yalnız həmin Qanunin 5-ci maddəsində göstərilən məlumatlar və yalnız həmin Qanunda göstərilən prosedura əməl olunmaqla məxfiləşdirilə bilər. Əsaslılıq prinsipinin tələbinə görə Qanunun 5-ci maddəsində sadalanan məlumatlar dairəsinə aid olan yalnız o məlumatlar məxfiləşdirilə bilər ki, onların açıq saxlanması dövlətin təhlükəsizliyinə ciddi ziyan vurmaq təhlükəsi yaratsın. Məxfiləşdiriləcək məlumatın yayılması nəticəsində dövlətin təhlükəsizliyinə həqiqətən ziyan dəyəcəyi də əsaslandırılmalıdır. Həm də məlumatın məxfiləşdirilməsinin verdiyi fayda məlumatın açıqlığından cəmiyyətə qələcək faydadan üstün olmalıdır ki, məlumatın dövlət sirri sayılması əsaslı olsun.

Dövlət sirri kimi qorunmalı məlumat vaxtında məxfiləşdirilməlidir. Məlumat vaxtında məxfiləşdirilməsə yayıla, dəyərini itirə və dövlətin mənafeyinə zərər dəyə bilər. Digər tərəfdən, vaxtında məxfiləşdirilməyən məlumat ictimaiyyətə məlum ola bilər. İctimaiyyətin bir hissəsinə məlum olan məlumatın məxfiləşdirilməsi mahiyyəti yolverilməzdir.

**Dövlət sirri olan məlumatların məxfilik dərəcələri**

Dövlət sirri təşkil edən məlumatların məxfilik dərəcəsi həmin məlumatların yayılması nəticəsində dövlətin təhlükəsizliyinə dəyə biləcək zərərin ağırlıq dərəcəsinə uyğun olaraq müəyyənləşdirilib. Dövlət sirri haqqında Qanunun 8-ci maddəsinə əsasən üç məxfilik qrifi vardır: «xüsusi əhəmiyyətli», «tam məxfi» və «məxfi». «Xüsusi əhəmiyyətli» məlumatlar – yayılması həmin sahələrdən birində və ya bir neçəsində dövlətin mənafeyinə ziyan vura bilən hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrindəki məlumatlardır.

«Tam məxfi» məlumatlara – yayılması həmin sahələrdən birində və ya bir neçəsində Azərbaycan Respublikası nazirliyinin

(idarəsinin), yaxud iqtisadiyyat sahəsinin mənafeyinə ziyan vura bilən hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrindəki məlumatlar aiddir.

«Məxfi» qrifli məlumatlar – dövlət sirrini təşkil edən bütün sair məlumatlardır. Bu halda dövlət təhlükəsizliyinə vurulan ziyan kimi müəssisə, idarə və təşkilatlara hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyat, əks-kəşfiyat və əməliyyat-axtarış fəaliyyəti sahələrində vurulmuş ziyan başa düşülür. Hər hansı başqa qrifin *(«dərc edilmək üçün nəzərdə tutulmayan» və s.)* tətbiq edilməsi, yaxud sadalanan qriflərdən dövlət sirrinə aid edilməyən məlumatları məxfiləşdirmək üçün istifadə olunması qanunsuzdur.

## Dövlət sirri kimi müəyyən edilmiş məlumatın dövlət sirri sayılan məlumatlar sırasından çıxarılması qaydası

Dövlət sirri haqqında Qanunun 13-cü maddəsinə görə dövlət sirri sayılmış məlumatın məxfiliyi aşağıdakı hallarda açıla bilər:

- ✓ *məlumatın məxfilik müddətinin bitməsi;*
- ✓ *dövlət sirri sayılan məlumatların açıq mübadiləsi sahəsində dövlətin beynəlxalq öhdəliklər götürməsi;*
- ✓ *obyektiv halların dəyişməsi nəticəsində dövlət sirri təşkil edən məlumatların mühafizəsinin məqsədəuyğunluğunun aradan qalxması.*

Dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda qüvvədə olan məxfiləşdirilməli məlumat siyahılarını dəyişdirmək hüququ həmin siyahıları təsdiq edən, məlumatların məxfiləşdirilməsinə dair qəbul etdikləri qərarların əsaslığı üçün fərdi məsuliyyət daşıyan dövlət hakimiyyəti orqanlarının rəhbərlərinə verilir. Göstərilən rəhbərlərin dövlət sirrinə aid edilmiş məlumatlar siyahısının dəyişdirilməsinə dair qərarları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyası ilə razılaşdırılmalıdır. Azərbaycan Respublikası Prezidentinin bu qərarları dayandırmaq və onlara etiraz etmək səlahiyyəti vardır.

Məxfiliyin vaxtından əvvəl açılması qaydası Dövlət sirri haqqında Qanunun 15-ci maddəsində müəyyən edilib. Azərbaycan Respublikasının vətəndaşları, müəssisələri, idarələri, təşkilatları və dövlət hakimiyyəti orqanları dövlət sirrinə aid edilmiş məlumatların məxfiliyinin açılması haqqında sorğu ilə dövlət hakimiyyəti orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara, o cümlədən dövlət arxivlərinə müraciət edə bilərlər.

Bu cür sorğu almış dövlət hakimiyyəti orqanı, müəssisə, idarə və təşkilat, o cümlədən dövlət arxivi sorğuya üç ay ərzində baxıb mahiyyəti üzrə əsaslandırılmış cavab verməlidir.

Əgər onlar sorğulanmış məlumatın məxfiliyini açmaq səlahiyyətinə malik deyilsə, onda sorğunu vermiş Azərbaycan Respublikası vətəndaşına, müəssəsinə, idarəsinə, təşkilatına, dövlət hakimittəti orqanına bildiriş verməklə sorğunu, daxil olduğu gündən ən geci bir ay keçənədək ya bu cür səlahiyyəti olan dövlət orqanına, ya da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin mühafizəsi üzrə İdarələrarası Komissiyaya göndərirlər.

**Jurnalist və ya kütləvi informasiya vasitəsinin redaksiyası dövlət sirri kimi məxfiləşdirilmiş məlumatın məxfilik rejimindən çıxarılmasını və onlara verilməsini tələb edə bilərmi?**

Dövlət sirri haqqında Qanunun 15-ci maddəsinə əsasən jurnalistlər və ya kütləvi informasiya vasitələrinin redaksiyası dövlət sirrinə aid edilmiş məlumatların məxfiliyinin açılması haqqında sorğu ilə məlumatı məxfiləşdirilmiş və ya saxlayan dövlət hakimiyyəti orqanlarına, müəssisələrə, idarələrə və təşkilatlara o cümlədən dövlət arxivlərinə müraciət edə bilərlər. Məlumatın dövlət sirrini təşkil etməsi səbəbindən jurnalistə məlumat verməkdən imtina olunubsa və jurnalist bu məlumatın dövlət sirri kimi qorunmasını əsassız sayırsa o, məlumatın dövlət sirri sırasından çıxarılması tələb edə bilər. Eləcə də jurnalistə dövlət sirri məlumdursa, lakin bu məlumatın yayılması üçün hüquqi əngəllər varsa, jurnalist bu məlumatın dövlər sirri kimi saxlanmasını əsassız sayırsa həmin tələblə sorğu verməyə haqlıdır. Sorğuda məlumatın məxfiləşdirilməsinin və ya bundan

sonra məxfi rejimdə saxlanmasının əsassız və qanunsuz olması barədə mülahizələr və məlumatın açılaraq jurnalistə verilməsi tələbi göstərilməlidir.

Sorğuya baxılması və cavabın verilməsi qaydası Dövlət sirri haqqında Qanunun 15-ci maddəsində göstərilib. Konkret məlumatlı dövlət sirri kimi qorumağın gərəkli olub-olmaması sualına cavab vermək üçün məlumatın üç pilləli yoxlamadan keçməlidir. Birincisi, bu Dövlət sirri haqqında Qanunun 5-ci maddəsində müəyyən olunan məlumatlar sırasından olmalı və yalnız qanunda göstərilən məqsədlə, yəni dövlətin təhlükəsizliyinin qorunması üçün məxfiləşdirilməlidir.

Dövlət sirri haqqında Qanunun 7-ci maddəsində göstərilən məlumatların məxfiləşdirlməsi qanunsuzdur. Xüsusilə də dövlət hakimiyyəti orqanları və onların vəzifəli şəxsləri tərəfindən qanunvericiliyin pozulması faktları haqqında məlumatların məxfiləşdirilməsi cinayət əməli sayıla bilən hüquq pozuntusudur.

İkincisi, bu məlumatın açılması dövlət təhlükəsizliyinə uydurma deyil, gerçək zərər vura bilən olmalıdır. Məlumatın yayılmasının gerçək zərər vuracağı sübut edilməlidir.

Üçüncüsü, məlumatın açılmasından dəyəcək zərər onun açılmasından əldə olunacaq ictimai faydadan çox olmalıdır. Dövlət sirri sayılmış məlumatın açılması ziyan vura biləcəyi kimi bir sıra hallarda xeyir də gətirə bilər.

Məsələn, məxfiliyin daha çox olduğu orduda korrupsiya faktlarının aradan qaldırılması üçün dövlət sirri olan məlumatlar açılarsa bu milli müdafiəyə zərər vurmaqla yanaşı, həm də faydalı ola bilər. Orduda korrupsiyanın olması özü milli təhlükəsizliyə qorxu yaradır və bunun aradan qaldırılması üçün dövlət sirrinin açılmasından dəyən zərər orduda korrupsiyanın kökünün kəsilməsindən qazanılan faydadan az ola bilər.

Məlumatın açılması barədə jurnalistin tələbinə cavab verilmədikdə və ya əsassız imtina olduqda jurnalist məhkəməyə müraciət edə bilər. Bu zaman məlumatın açılması barədə tələblə yanaşı jurnalist sorğusuna cavab verilməməsi, yaxud əsassız imtina nəticəsində ona dəymiş zərərin ödənilməsini tələb etməyə haqlıdır.

**Jurnalistin dövlət sirri sayılan məlumatla işləməyə buraxılma qaydası**

Qanunvericilikdə jurnalistlərin dövlət sirri ilə işləməyə buraxılmasını tənzimləyən xüsusi hüquq normaları yoxdur. Dövlət sirri haqqında Qanunun 26-cı maddəsi vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılmasını tənzimləyir. Bu maddəyə görə jurnalistlərin də dövlət sirri ilə işləmək hüququ var.

Jurnalistlərin dövlət sirri ilə işləməyə buraxılması könüllülük qaydasında, yəni öz istəkləri ilə olur. Dövlət sirri ilə işləməyə ancaq Azərbaycan Respublikasının vətəndaşları buraxılırlar. Xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin dövlət sirri ilə işləməyə buraxılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi qaydada həyata keçirilir.

Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması aşağıdakıları nəzərdə tutur:

1) *dövlət sirrinin pozulmasına görə məsuliyyəti nəzərdə tutan qanunvericiliklə tanışlıq və məlumatları yaymamaq haqqında dövlət hakimiyyəti orqanları qar*şısında öhdəlik götürülməsi;
2) *dövlət sirri haqqında Qanunun 23-cü maddəsində nəzərdə tutulan qismən və müvəqqəti məhdudiyyətlərə razılıq verilməsi* (vətəndaşın dövlət sirri ilə işləməyə buraxılması rəsmiləşdirilərkən əmək müqaviləsində (sazişində) müəyyənləşdirilmiş müddətdə xaricə getməmək, dövlət sirri təşkil edən məlumatları yaymamaq vəzifəsi və s.);
3) *onlar barəsində səlahiyyətli orqanlar tərəfindən yoxlama tədbirlərinin görülməsinə yazılı razılıq verilməsi;*
4) *dövlət sirri haqqında Qanununla nəzərdə tutulmuş güzəştlərin növlərinin, miqdarının və verilməsi qaydasının müəyyənləşdirilməsi;*
5) *dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və təşkilatın rəhbəri tərəfindən dövlət sirri ilə işləməyə buraxılma haqqında qərar qəbul edilməsi.*

Dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin yoxlanılması proseduru işləməyə buraxılacağı məlumatların məxfilik dərəcəsindən asılıdır. Yoxlama tədbirlərinin görülməsində məqsəd, Dövlət sirri haqqında Qanunun 21-ci maddəsində nəzərdə tutulan əsasların olub-olmamasının aşkara çıxarılmasıdır. Belə əsaslar aşağıdakılardır:

6) *məhdud fəaliyyət qabiliyyətinin olması və ya məhkəmə tərəfindən xüsusi təhlükəli residivist hesab edilməsi, dövləti cinayətdə və digər ağır cinayətlərdə ittiham olunması, bu cür cinayətlərə görə məhkumluğ*unun olması;
7) *müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi siyahıya uyğun olaraq dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərin olması;*
8) *yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin dövlətin təhlükəsizliyi üçün qorxu törədən hərəkətlərinin aşkara çıxması;*
9) *onun yoxlama tədbirlərindən boyun qaçırması və ya qəsdən yalan anket məlumatları verməsi.*

Jurnalistin dövlət sirri ilə işləməyə buraxılmasının, dövlət sirri təşkil edən məlumatların məxfilik dərəcələrinə uyğun üç forması müəyyən edilir: xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılma. Jurnalistin məxfilik dərəcəsi daha yüksək olan məlumatlarla işləməyə buraxılışının olması, onların məxfilik dərəcəsi daha aşağı olan məlumatlarla işləməyə buraxılmasına əsas verir.

Hərbi və fövqəladə vəziyyət şəraitində vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması qaydasını Azərbaycan Respublikası Prezidenti dəyişdirə bilər.

## Dövlət sirri sayılmış məlumatların yayılmasına görə məsuliyyət

**Cinayət Məcəlləsinin 284.1-ci maddəsinə görə şəxs tərəfindən ona etibar edilmiş və ya xidmət vəzifəsinə və yaxud işinə görə ona məlum olan dövlət sirrini təşkil edən məlumatarın yayılması cinayətdir. Azərbaycan Respublikasının vətəndaşı dövlətin suverenliyi, ərazi bütövlüyü, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq dövlət sirrini təşkil edən məlumatı qəsdən xarici dövlətə verərsə bu əməl Cinayət Məcəlləsinin 274-cü maddəsinə əsasən dövlətə xəyanət sayılır.**

Cinayət Məcəlləsinin 284-cü maddəsinə əsasən aşağıdakı şəxslər məsuliyyət daşıyırlar:

- ✓ *dövlət sirri etibar edilmiş vəzifəli şəxslər və dövlət qulluqçuları;*
- ✓ *Dövlət sirri haqqında Qanunun 21-ci maddəsinə əsasən dövlət sirri ilə işləməyə buraxılmış şəxslər (Qanuna görə bu şəxslər dövlət sirrinin yayılmasının yolverilməzliyi barədə xəbərdar edilirlər);*
- ✓ *xidməti vəzifəsinə və ya işinə görə dövlət sirri olan məlumatları bilən şəxslər.*

Xidməti vəzifəsinə və ya işinə görə dövlət sirri olan məlumatları bilənlər elə şəxslərdir ki, onlara dövlət sirri etibar edilməmişdir, lakin öz xidməti vəzifəsinə və işinə görə belə məlumatları almaq imkanları olmuşdur. Belə şəxslər yalnız o halda dövlət sirrini yaymağa görə məsuliyyət daşıyırlar ki, yaydıqları məlumatların dövlət sirri olması onlara məlum olsun. Buraya birinci növbədə dövlət sirri olan məlumatlarla işləyən dövlət orqanlarında və müəssisələrdə çalışan şəxslər daxildir.

Tərkibində dövlət sirri sayılmış məlumatlar olan işləri araşdıran əməliyyat işçıləri, təhqiqat və istintaq məmuru, cinayət, inzibati və ya mülki işlərə qapalı məhkəmə iclasında baxılmasında iştirak etmiş şəxslər (hakimlər, məhkəmə işçiləri, prokurorluq işçiləri, vəkillər, işdə iştirak etmiş digər şəxslər) də bu sıraya aid edilə bilərlər.

Göstərilən şəxslər dövlət sirrini təşkil edən məlumatların yayılmasına görə Mülki Məcəllənin 21-ci maddəsinə əsasən mülki hüquqi məsuliyyət də daşıyırlar.

Dövlət sirri haqqında Qanunun 18.0.7-ci maddəsində dövlət qulluqçularının dövlət sirrini və qanunla mühafizə edilən digər sirləri həmişə, o cümlədən işdən çıxdıqdan, istefaya və ya pensiyaya getdikdən sonra da saxlamağa borclu olduqları göstərilib. Həmin Qanunun 25-ci maddəsində isə qanunun tələblərini pozan dövlət qulluqçularının intizam məsuliyyəti nəzərdə tutulub.

**Jurnalist dövlət sirri sayılmış məlumatı toplamağa və ya yaymağa görə hansı halda məsuliyyət daşıyır?**

İstədiyi məlumatı qanuni yolla toplamaq və yaymaq jurnalistin hüququdur. **Qanunvericilikdə dövlət sirri olan məlumatların əldə olunmasına görə nə inzibati, nə də cinayət məsuliyyəti nəzərdə tutulmayıb.** Belə məlumatlar qanunsuz üsullarla, yəni sənədlərin oğurlanması, hədə qorxu, pulla ələ alma, aldatma və ya etibardan sui-istifadə yolu ilə, başqa qanunsuz üsullarla deyil, qanuni yolla əldə olunubsa belə məlumatın toplanmasına görə jurnalistin heç bir məsuliyyətindən danışmaq olmaz.

Əgər o, həmin məlumatları təsadüfən öyrənibsə, yaxud bu məlumatı qorumaq vəzifəsi olan şəxs ona veribsə məsuliyyətə jurnalist yox, ona həmin məlumatı verən, yaxud onun həmin məlumatlarla tanış olmasına yol verən, dövlət sirrini qorumaq vəzifəsi daşıyan şəxs cəlb edilə bilər.

Jurnalist dövlət sirri olan məlumatları yaymağa görə bütün hallarda deyil, yalnız bir neçə halda məsuliyyət daşıya bilər. **Cinayət Məcəlləsinin 284.1-ci maddəsinə görə şəxs dövlət sirrini təşkil edən məlumatları yaymağa görə o halda məsuliyyət daşıyır ki, ya belə məlumatlar ona etibar edilmiş olsun və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olsun.** Maddənin mətnindən göründüyü kimi, bu maddə üzrə məsuliyyətə cəlb edilə bilən şəxslərin dairəsi dardır.

***Jurnalist dövlət sirri etibar edilmiş şəxs olaraq belə məlumatları yaymağa görə cinayət məsuliyyətinə o halda cəlb edilə***

***bilər ki, o, həmin məlumatlarla Dövlət Sirri Haqqında Qanunun 21-ci maddəsində nəzərdə tutulan qaydada tanış olsun və məlumatları yaymamaq haqqında dövlət hakimiyyəti orqanları qarşısında öhdəlik götürülmüş olsun.***

Jurnalist yalnız aşağıdakı hallarda xidmət vəzifəsinə və ya işinə görə dövlət sirrini əldə etmiş şəxs sayıla və həmin sirri yaymağa görə məsuliyyətə cəlb oluna bilər:

- ✓ *jurnalist kimi işləməzdən öncə dövlət sirri ilə işləyən, onu saxlayan, yaxud da dövlət sirri ilə bağlı olan dövlət orqanında və ya müəssisədə işləmiş və dövlət sirri sayılan məlumatı bu zaman əldə etmişdirsə və bunun dövlət sirri olduğunu bilmişdirsə;*
- ✓ *jurnalist kimi işləməzdən əvvəl dövlət sirri sayılmış məlumatların olduğu işin araşdırılmasında əməliyyatçı, təhqiqatçı, müstəntiq və ya prokuror kimi çalışmışsa, yaxud belə işə qapalı məhkəmə iclasında baxılması zamanı hakim, məhkəmə işçisi, prokurur, vəkil, ekspert, mütəxəssis, tərcüməçi və s. olmuşdursa, bu məlumatların dövlət sirri sayılmış məlumatların olduğu işin araşdırılmasında və belə işə qapalı məhkəmə iclasında baxılması zamanı şübhəli şəxs, şahid, zərərçəkən, nümayəndə, tərcüməçi və s. olmuşdursa və bu məlumatların dövlət sirri olduğu ona bildirilmişdirsə;*
- ✓ *jurnalist dövlət sirri ilə işləyən müəssisəyə, obyektə buraxılmışsa və buradakı məlumatların dövlər sirri olması barədə ona bildirilmişdirsə.*

Qalan hallarda jurnalist qanuni yolla əldə etdiyi dövlət sirri sayılmış məlumatları yaymağa görə o halda məsuliyyətə cəlb edilə bilər ki:

*belə məlumatı vermiş şəxs həmin məlumatın dövlət sirri olduğunu ona bildirsin, yaxud bu məlumatın dövlət sirri olduğu jurnalistin əldə etdiyi sənədin rekvizitlərindən bəlli olsun (o cümlədən sənədin üzərində məxfilik qrifləri olsun).*

**Terror aktları barədə yayılmasına yol verilməyən məlumatlar**

*Terrorçuluğa qarşı mübarizə haqqında Qanunun 11-ci maddəsinə əsasən terror əleyhinə aparılan əməliyyatlar zamanı terror aksiyaları barəsində ictimaiyyətə məlumatlar əməliyyat qərargahının rəhbərinin və ya əməliyyat qərargahının ictimaiyyətlə əlaqələr üzrə məsul nümayəndəsinin müəyyən etdiyi formada və həcmdə verilir.*

**Terror aktları barədə aşağıdakı məlumatların yayılmasına yol verilmir:**

1) *terror əleyhinə əməliyyatların aparılması taktikası və texniki üsulları haqqında;*
2) *terror əleyhinə aparılan əməliyyatlar zonasında və ya bu zonanın hüdudlarından kənarda olan insanların həyatına və sağlamlığına təhlükə yaradan və terror əleyhinə əməliyyatların aparılmasına əngəl törədən məlumatlar haqqında;*
3) *terrorçuluğa bəraət qazandıran və ya onların təbliğinə xidmət edən məlumatlar haqqında;*
4) *terror əleyhinə aparılan əməliyyatlarda iştirak edən, habelə bu əməliyyatların aparılmasına kömək edən şəxslər haqqında.*

Qanundan göründüyü kimi bu məhdudlaşdırmalar yalnız əməliyyatların aparıldığı dövrdə mümkündür.

# Fövqalədə şəraitdə məlumatın axtarılması və alınması

***Fövqalədə vəziyyət elan olunan – qəza, təbii fəlakət və cinayət hadisəsinin baş verdiyi yerlərə jurnalistin daxil olması və işləməsi üçün məhdudiyyətlər***

(Məlumat azadlığı haqqında Qanuna görə hər kəsin istədiyi məlumatı – təbiətdə, cəmiyyətdə və dövlətdə baş verən hadisələr, proseslər, faktlar və şəxslər haqqında xəbərləri almaq azadlığı var. *Cəmiyyətin məlumat almaq hüququ və KİV-in təbiətdə, cəmiyyətdə və dövlətdə baş verən hadisələr, proseslər barəsində məlumatlandırmaq vəzifəsi vardır.)*

Xidməti v*əsiqəsini təqdim etməklə qəza, təbii fəlakət zonasında, fövqəladə vəziyyət elan olunmuş yerlərdə olmaq jurnalistin hüququdur.*

Fövqalədə Vəziyyət Haqqında Qanunun 17-ci maddəsi konkret şəraitdən asılı olaraq fövqalədə vəziyyətin tətbiq edildiyi əraziyə gediş-gəlişin xüsusi rejimi, habelə bu ərazidə hərəkət sərbəstliyinin məhdudlaşdırılması ilə bağlı tədbirlərinin görülməsinə yol verir.

***Hərəkət sərbəstliyinin məhdudlaşdırılması jurnalistin fövqəladə vəziyyət elan olunmuş yerlərə daxil olmasına və işləməsinə qadağa qoyulması demək deyil.***

**Məhdudiyyətlər jurnalistin sənədlərinin, əşyaların və nəqliyyat vasitələrinin yoxlanılmasından sonra həmin əraziyə buraxılmasında, qadağan saatının qoyulmasında və s. ifadə oluna bilər.**

Kütləvi informasiya vasitələrinin cəmiyyəti məlumatlandırmaq vəzifəsinin icrası üçün jurnalistin qəza, fəlakət və cinayət hadisəsinin baş verdiyi yerlərə buraxılması təmin edilməlidir. Jurnalistin həmin yerlərdə işləməsi üçün qanunvericiliklə məhdudiyyətlər nəzərdə tutulmayıb. Hüquq mühafizə orqanları jurnalistin qəza, fəlakət və cinayət hadisəsinin baş verdiyi yerlərdə işini elə təşkil etməlidirlər ki, jurnalistin orada olması təmin edilməklə yanaşı, bu, xilasetmə işlərinin aparılmasına, kriminalist və müstəntiqlərin işinə mane olmasın.

**Jurnalistin mitinqlər, piketlər və küçə yürüşləri keçirilən yerdə *(o cümlədən icra hakimiyyəti orqanlarının razılıq verməmədiyi)* olmaq və çəkiliş aparmaq hüququ varmı? Bunun üçün jurnalistin hər hansı razılıq alması tələb olunurmu?**

*Kütləvi informasiya vasitələri haqqında Qanunun 8-ci maddəsinə görə kütləvi informasiya vasitələri cəmiyyətdəki iqtisadi siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının bələdiyyələrinin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə operativ və doğru-dürüst məlumatlar almaq hüququna malikdirlər. Bu hüquq qanunvericilikdə göstərilən hallardan başqa məhdudlaşdırıla bilməz.*

Mitinq, piket, nümayiş və küçə yürüşlərinin keçirilməsini Sərbəst Toplaşmaq Azadlığı Haqqında Qanun tənzimləyir. Mitinq, piket, nümayiş və küçə yürüşləri – toplaşmış şəxslərin hər hansı məsələyə dair qərar qəbul etməsi, ümumi fikirlərini ifadə etməsi, tələblər irəli sürməsi məqsədi ilə keçirilir. *Kütləvi tədbirlər barədə məlumat verməklə jurnalist cəmiyyətin həyatı, toplum üzvlərinin belə tədbirlərdə irəli sürdükləri tələbləri və fikirləri barədə ictimaiyyəti məlumatlandırır. Bu jurnalistin ictimayyəti informasiya və ideyalarla bilgiləndirmək borcundan irəli gəlir və qadağan edilə bilməz.* ***İcazəli, eləcə də icazəsiz toplantıların keçirildiyi yerdə olmaq və çəkiliş aparmaq jurnalistin hüququ olduğundan icazənin alınması barədə heç düşünməyə dəyməz.***

# Hərbçilərin statusları
## Silahlı Qüvvələrdə demokratiya anlayışı

Azərbaycan Respublikasının Konstitusiyasının 9-cu maddəsinə əsasən Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

SSRİ dağılanda «müttəfiq» respublikalar öz müstəqil dövlətlərinin atributlarının yaradılmasına, yaxud bərpasına başladılar. 70 ildən çox bir zaman uzaqlığında ordu quruculuğu təcrübəsindən süni «könüllülük» pərdəsi altında kənarlaşdırılmış Azərbaycan üçün bu proses çox ağrılı oldu. Ermənistanın işğalçı təcavüzlərinə qarşı müqavimət və müdafiə qüvvələrinin yaradılması kimi qaçılmaz bir tarixi tələbin ölkə siyasətinin əsas probleminə çevrilməsi keşməkeşli dövrə təsadüf etdi. Ona görə də ordu quruculuğu ilə bağlı qanunların və qərarların qəbul edilməsinin tezləşdirilməsi zamanın diktəsindən irəli gəlirdi.

Beləliklə: vaxt çevikliyi ilə 1991-ci il oktyabrın 9-da «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında»; həmin il dekabrın 25-ində «Hərbi qulluqcuların statusu haqqında»; 1992-ci il aprelin 29-unda «Hərbi qulluqçuların pensiyası haqqında»; 1992-ci il noyabrın 3-də «Hərbi xidmət haqqında» və s. qanunlar qəbul edildi. Bunlar ordu quruculuğunun hüquqi əsaslarını təşkil etməklə bərabər həm də hərbi qulluqçular üçün hüquqi təminatlar sisteminin yaradılmasının başlanğıcı idi.

Lakin, Silahlı Qüvvələrin yaradılmasının təxirəsalınmazlığı - bu əsasda qəbul olunan qanunların hüquqi dövlətin və beynəlxalq normaların prinsiplərinə uyğunsuzluğuna əsas verə bilməz. Buna görə də qəbul ediləcək qanunların ümumi ruhu və normativ tələbləri ordu quruculuğu üzrə dünya təcrübəsindən bəhrələnməli idi. Çünki hərbi qulluqçuların hüquqi statusunu müəyyənləşdirmə və bu hüquqların realizə olunması üçün mühüm siyasi, sosial və iqtisadi dəyişikliklərə bərabər mövcud qanunvericiliyin köklü surətdə yeniləşməsi vacibdir. **Hərbi qulluqçuların statusu – cəmiyyətin**

***sosial strukturu, demokratiyanın səviyyəsi, qanunçuluğun vəziyyəti ilə qırılmaz şəkildə bağlı olan mühüm bir siyasi-hüquqi kateqoriyadır.***

Məhz bu və digər səbəblərdən hərbi qulluqçuların hüquqi vəziyyətlərinin müəyyənləşdirilməsi problemi bir neçə tarixi-hüquqi inkişaf maneələrini keçmişsə də hələ dəqiqliklə tədqiq edilməmişdir.

Bir qayda olaraq dövlətçiliyin ümumi prinsipi sayilan demokratik hüquq institutları və qanunçuluq bir növ ordu həyatına uyğun gəlməyə bilər ki, bu da ordunun təbiəti və xüsusiyyətləri ilə bağlıdır. Belə ki, ordu təşkilinin əsasında ciddi intizam və əmrlərə sözsüz itaətetmə durur. Ordu fəaliyyətinin əsasında isə hərbi zərurət dayandığı üçün bu da qanunçuluğun ümumi qəbul edilmiş başlanğıcları və prinsipləri ilə bir araya sığmır. Bu isə bir sıra ziddiyyətli hüquqi vəziyyətlərin çulğalaşmasında özünü göstərmiş olur. Məsələn, bəzi məlum hallarda ümumi hüquq normaları hərbi qulluqçulara münasibətdə tətbiq olunmur və yaxud onlar üçün *(onların xidməti vəziyyətlərinin xüsusiyyətlərindən asılı olaraq)* xüsusi normalar yaradılır. Həm bu, həm də digər halda onların hüquqları məhdudiyyətlərə məruz qala bilər və yaxud, əksinə, digər vətəndaşlarla münasibətdə hərbi qulluqçular daha imtiyazlı *(üstün)* vəziyyətdə ola bilərlər. Qeyd edilən bu xüsusiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında və hərbi qanunlarda da təsbit olunub.

«Hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən həqiqi hərbi xidmət Silahlı Qüvvələrdə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə dövlət xidmətinin xüsusi növüdür.

«Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə görə Silahlı Qüvvələrin «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunula müəyyənləşdirilmiş vəzifələri, hərbi xidmətin şəraiti və xarakteri hərbi qulluqçuların statusunu

müəyyən edir. Həmin Qanunun 2-ci maddəsinə uyğun olaraq hərbi qulluqçular bu Qanunla, Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müəyyənləşdirilən və hərbi xidmətin xüsusiyyətləri ilə bağlı olan əlavələrlə və məhdudiyyətlərlə vətəndaşların hüquq və azadlıqlarından istifadə edirlər. Hərbi qulluqçular Azərbaycan Respublikası vətəndaşlarının bütün vəzifələrini, habelə öz statuslarından irəli gələn vəzifələri daşıyırlar.

Heç kəsin ixtiyarı yoxdur ki, hərbi qulluqçuları və onların ailə üzvlərini Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmuş hər hansı hüquq və azadlıqlardan məhrum etsin və ya onların hüquqlarını məhdudlaşdırsın; buna yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun surətdə yol verilir.

Hərbi xidmətin şəraiti ilə əlaqədar olaraq hərbi qulluqçuların ümumi vətəndaşlıq hüquqlarının məhdudlaşdırılması, habelə onlara əlavə hüquqlar verilməsi və əlavə vəzifələr tapşırılması «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunula, Silahlı Qüvvələrin nizamnamələri və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müəyyən edilir.

1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hərbi qulluqçuların hüquqlarının məhdudlaşdırılması ilə bağlı birbaşa göstərişlər və belə məhdudiyyətlərə yol verilə biləcək hallar vardır. Məsələn: Konstitusiyanın 36-cı maddəsinə əsasən Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və digər silahlı birləşmələrdə xidmət edən hərbi qulluqçular tətil edə bilməzlər.

Konstitusiyanın 35-ci maddəsinin III hissəsinə görə heç kəs zorla işlədilə bilməz. Lakin həmin maddənin V hissəsinə əsasən hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək hallarına yol verilir. *(Tabelikdə olanların tabesində olduqları komandirlərin (rəislərin) şəxsi işləri üçün cəlb edilməsi yolverilməzdir).* Habelə Konstitusiyanın 56-cı

maddəsinin üçüncü hissəsinə uyğun olaraq hərbi qulluqçuların seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

Eyni zamanda Konstitusiya ilə vətəndaşlara verilən hüquq və azadlıqlar qanunla hərbi nizamnamələrdə məhdudlaşdırıla və fərdi xüsusiyyətlər nəzərdə tutula bilər. Məsələn: Konstitusiyanın 57-ci maddəsinin birinci hissəsinə görə *Azərbaycan Respublikasının vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər hüququ vardır.* Azərbaycan Respublikası Silahlı Qüvvələrinin intizam nizamnaməsinin 112-ci maddəsinə uyğun olaraq *hərbi qulluqçu yalnız öz adından şikayət verə bilər. Başqasının əvəzinə və yaxud qurup halında şikayət vermə qadağandır.* Və yaxud, Konstitusiyanın 47-ci maddəsi hər kəsin fikir və söz azadlığını, 58-ci maddəsi isə istənilən birlik, o cümlədən, siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququnu təsbit edir. Lakin Konstitusiyanın bu göstərişləri *"hərbi qulluqçuların statusu haqqında"* Azərbaycan Respublikası Qanununda tamamilə fərqli şəkildə müəyyən edilmişdir. Belə ki, maddənin ikinci bəndinə əsasən ***hərbi qulluqçular özlərinin xidmət fəaliyyətində siyasi məqsədlər güdən siyasi partiyalar və kütləvi ictimai hərəkatların üzvü ola bilməzlər.*** Üçüncü bəndə uyğun olaraq isə *dövlət sirrini və hərbi sirri açmamaq şərti ilə* ***hərbi qulluqçuların söz və mətbuat azadlığına, əqidə azadlığına, öz əqidəsini sərbəst ifadə etməsinə təminat verilir.***

Hərbi hüquqşünasların əksəriyyətinin fikrincə *hərbi qulluqçuların siyasi hüquqlarının məhdudlaşdırılmasının vacibliyi «ordunun dövlətdə siyasi roldan kənarlaşdırılması; ictimai maraqların qorunması; ordunun məxsusi maraqlarının, o cümlədən, orduda intizamın və hərbi qayda-qanunun mühafizəsi prinsiplərindən» irəli gəlir.*

İnkişaf etmiş bir çox xarici dövlətlərin ordularında hərbi qulluqçuların hüquqi statuslarının qanunvericilik əsasları hərbi xidmətin ənənələri əsasında – milli qanunvericiliklə beynəlxalq-hüquqi aktların qəbul olunmuş komplektliliyi sisteminə uyğun yaradılmışdır.

Bununla əlaqədar problemin tarixi-hüquqi analizi maraqlıdır. XVII-XIX əsrlərdə Rusiya və xarici yurisdiksiyada hərbi qanunvericilik normaları, adətən ümumi qanunvericilik normalarından fərqli olmuşdur. 1787-ci il ABŞ Konstitusiya normalarında, 1789-cu il Fransa İnsan və Vətəndaş Hüquqları Deklarasiyasında hərbçilərin hüquqi vəziyyəti nəzərdə tutulmayıb. Dövlətçiliyin əsas prinsiplərindən olan demokratik hüquq institutları və qanunçuluq ordu üçün yad hesab edilmiş, ordu dövlətçilikdən fərqli qəbul olumuşdu. Ordunun əsasında və təşkilində əmrə tabe olma, sözsüz intizam əməllərinin əsasında isə hərbi zərurət ümumi qanunçuluqla ziddiyyət kimi qəbul edilirdi.

Çar Rusiyasının hərbi qanunlarına görə hərbçilərə bu və ya digər ittifaqlara, qruplara və siyasi partiyalara daxil olmaq, orada iştirak etmək, onların iclaslarında olmaq qadağan edilirdi. Ədəbi yazma və çap olunmaya yalnız öncədən komandanlıqdan alınmış razılıq əsasında icazə verilirdi. Rus imperiyasının seçki qanunlarına görə hərbçilər aktiv, passiv seçki hüquqlarından məhrum olunmuşdular.

Fransanın 2 dekabr 1852-ci il, 30 noyabr 1875-ci il və 1889-cu il qanunlarına görə marşallar, generallar və Baş Qərargahın baş zabitləri istisna olmaqla digər hərbi qulluqçular seçki hüquqlarından məhrum edilmişlər. Bu hal kayzer Almaniyasında da mövcud olmuşdur.

Sözsüz ki, hazırda bu məqamların çoxunun ləğv edilməsinə baxmayaraq ABŞ, Fransa, Almaniya və digər dövlətlərin qanunlarında hərbçilərin xüsusi statusu qorunub saxlanır. Belə ki, onların siyasi partiyalara daxil olmaları, hərbi qarnizonda hökumətin rəsmi razılığı alınmamış yürüşlərdə və nümayişlərdə hərbi qiyafədə və xidmət vaxtı iştirak etmələri qadağan olunub.

Bu fikirləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, demokratiyanın yüksək inkişaf etdiyi dövlətlərdə belə hərbi xidmətin xüsusiyyətləri nəzərə alınmaqla siyasi fəaliyyət sahəsində, sahibkarlıq sahəsində, məlumat sahəsində və s. sahələrdə məhdudiyyətlər və qadağalar mövcuddur.

Fransada hərbi qulluqçuların hüquqi vəziyyəti 13 iyul 1972-ci il tarixli «hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunula müəyyənləşdirilir. Həmin qanuna uyğun olaraq hərbi qulluqçu Konstitusiyanın bütün vətəndaşlara verdiyi hüquq və azadlıqlardan istifadə edir.

Lakin bu zaman hərbi qulluqçunun ümumi statusuna və ona verilən xüsusi tələblərə əməl olunmalıdır. Bunun nəticəsində həmin qanunla müəyyən olunmuş bir sıra vətəndaş hüquq normativləri hərbi qulluqçular üçün məhdudiyyət və xüsusiyyətlərlə fəaliyyət göstərir.

ABŞ hərbi qulluqçuları üçün qanunvericilikdə aşağıdakı sahələr üzrə vətəndaş hüquq və azadlıqlarının xüsusiyyətləri və məhdudiyyətləri, reqlamentləşdirilib:

- ✓ *siyasi fəaliyyət,*
- ✓ *hərbi ittifaqlarda və açıq nümayişlərdə iştirak etmə,*
- ✓ *seçki hüququ,*
- ✓ *xüsusi sahibkarlıq fəaliyyəti,*
- ✓ *vicdan azadlığı,*
- ✓ *ədəbi fəaliyyət,*
- ✓ *şikayət etmə və s.*

AFR-da hərbi qulluqçuların vəziyyəti bundesver haqqında qanunla və bir sıra qanunveriçilik aktları ilə müəyyən olunur. Bu qanunveriçilik aktlarına uyğun olaraq hərbi qulluqçular üçün xidmət vaxtı siyasi fəaliyyətlə məşğul olma, siyasi axının marağı və ya onun əksinə hərəkət etmə kimi qadağalar qoyulmuş, siyasi tədbirlərdə hərbi geyimdə iştirak etmə, *(yalnız komandanlı*ğın icazəsi ilə) yanakı *(hərbi xidmətdən əlavə)* fəaliyyət məhdudlaşdırılmışdır.

Bizim qanunvericiliklə də bəzi məhdudiyyətlər müəyyən olunub. «Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunuun 23-cü maddəsində hərbi xidmətin xarakterindən və şəraitindən, xidməti vəzifələrinin yerinə yetirilməsi xüsusiyyətlərindən asılı olaraq qeyd edilir:

a) **hərbi qulluqçuların tətil hüququ yoxdur;**
b) **hərbi qulluqçular həmkaralar ittifaqlarının üzvü ola bilməzlər;**
c) **hərbi qulluqçuların xüsusi sahibkarlıq fəaliyyəti ilə məş - ğul olması, istehsal və vasitəçilik fəaliyyəti göstərən kooperativlərdə maaşlı ştat vəzifələri tutması qadağandır;**
d) **Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri ilə müəyyən edilən qaydada hərbi qulluqçuların istirahət müddəti məhdudlaşdırıla** *(xidmət vaxtı artırıla)* **bilər;**
e) **müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının mülki ali və orta ixtisas məktəblərində təhsil almasına icazə verilmir;**
f) **hərbi qulluqçuların daimi yaşamaq üçün xaricə getməsi qadağandır;**
g) **hərbi hissələrin yerləşməsi şərtlərinə uyğun olaraq hərbi qulluqçuların yaşayış yeri seçməsi və hərəkət sərbəstliyi məhdudlaşdırılır.**

*Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının məzuniyyətindən onların hauptvaxtda olduğu günlərin sayı gədər çıxıla bilər.*

*Lakin beynəlxalq təcrübədə hərbi qulluqçuların məhdudlaşdırılmış hüquqlarının əvəzinə, onların xidməti vəziyyətləri nəzərə alınaraq, hərbi qulluqçulara əlavə güzəşt və imtiyazların verilməsi ilə müəyyən edilmiş qadağalar bir növ «kompensasiya» olunur. Bu da ondan irəli gəlir ki, hərbi xidmətin xüsusiyyətlərindən asılı olaraq vətəndaş hüquqlarının reallaşması çətinliklər törədir və ya mümkün olmur. Bir halda ki, bu hüquqları tətbiq etmək mümkün deyil, deməli, dövlət hərbi qulluqçular üçün xüsusi qanun qəbul etməlidir ki, burada məhdudiyyətlərdən başqa həm də imtiyazlar olsun. Müasir dövlətlərin əksəriyyəti də bu yolla hərbi qulluqçuların statusu haqqında xüsusi qanun qəbul ediblər.*

26 noyabr 1993-cü il tarixli «Müdafiə haqqında» Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən *Silahlı Qüvvələr hərbi dövlət qurumu olub ölkənin suverenliyinin, müstəqilliyinin,*

*ərazi bütövlüyünün və bölünməzliyinin silahlı müdafiəsi üçün təsis olunub*. Göründüyü kimi ordunun qarşısına qoyulmuş vəzifələr öz xarakterinə, icra olunma mexanizminə görə spesifik xüsusiyyətlərə malikdir. Buna görə də *dövlət hərbi qulluqçulara lazımi şərait yaratmalı, onlara yüksək təminatlar və səlahiyyətlər verməlidir.*

«Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunuunun 4-cü maddəsində göstərilir ki, *Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq hərbi qulluqçular hakimiyyət səlahiyyəti alaraq hərbi xidmət vəzifələrini icra edərkən hakimiyyət nümayəndələri sayılırlar.* Bu şəraitdə onlara tabe olmama və qəsd etmə Azərbaycan Respublikasının Qanunveriçiliyinə uyğun surətdə məsuliyyətə səbəb olur.

Qanunun bu müddəasından aydın olur ki, *hərbi qulluqçuların hüquqlarının, vəzifələrinin, məsuliyyətinin məzmunu və həcmi onların hərbi xidmət başında olub-olmadığından asılıdır.* Yəni, hərbi xidmətdən kənar və hərbi xidməti vəzifəsini icra etməyən hərbi qulluqçuya münasibətdə bəzən ümumvətəndaş hüquq və vəzifələrini şamil etmək olarsa, hərbi qulluqçu xidmət vəzifələrinin icrasına başladıqda həmin hüquq və vəzifələrin tətbiq sərhəddi tükənir, qurtarır. Şəraitin dəyişilməsi, eyni zamanda xüsusi vəzifələrin icrasına başlanılması vətəndaşın adi hüquq və vəzifələrindən kənara çıxan münasibətlərin nizamlanması yalnız xüsusi qanunlar sisteminin yaradılması ilə mümkündür.

«Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunuun 24-cü maddəsində hərbi qulluqçuların ümumi vəzifələri müəyyənləşdirilir. Göstərilir ki, *hərbi qulluqçular Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmiş vəzifələrdən əlavə hərbi xidmətin xüsusiyyətləri ilə bağlı olan başqa vəzifələri də yerinə yetirirlər.*

«Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunua uyğun olaraq hərbi qulluqçular aşağıdakıları etməyə borcludurlar:

*a) Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü qorumaq;*

*b) Azərbaycan Respublikasına sadiq olmaq barəsində hərbi and içmək;*

c) *Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının başqa qanunlarına ciddi əməl etmək, komandirlərin və rəislərin əmrlərini qeyd-şərtsiz yerinə yetirmək;*
d) *Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrində nəzərdə tutulan başqa vəzifələri yerinə yetirmək.*

Hərbi qulluqçuların vəzifələri və bu vəzifələrin yerinə yetirilməsi qaydası Silahlı Qüvvələrin Nizamnamələri, habelə Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının qərarları əsasında qəbul olunmuş **normativ aktlarla müəyyən olunur.**

Qanunun 25-ci maddəsində isə hərbi qulluqçuların xüsusi vəzifələri nəzərdə tutulur. *Qanuna görə hərbi qulluqçular döyüş növbəsində, döyüş xidmətində, gündəlik və qarnizon növbələrində olanda, təbii fəlakət nəticələrinin aradan qaldırılmasına cəlb ediləndə, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş başqa hallarda xüsusi vəzifələri yerinə yetirirlər.* Bu vəzifələrin məzmunu və icrası qaydası Azərbaycan Respublikasının Qanunvericiliyi, Silahlı Qüvvələrin nizamnamələri ilə və başqa aktlarla müəyyən edilir.

Qeyd olunanlardan bir daha aydın olur ki, *hərbi qulluqçulara bir tərəfdən ümumi qanunvericiliyin normaları şamil edilir, buna görə onlar ümumvətəndaş hüquqlarına malik olurlar, ümumvətəndaş vəzifələri daşıyırlar, digər tərəfdən isə onlara münasibətdə xüsusi hərbi-xidmət hüquq və vəzifələr nəzərdə tutan xüsusi hərbi qanunvericilik normaları tətbiq edilir.* **Bu da cəmiyyət həyatı ilə ordu həyatı arasında müvafiq fərqlərin olduğuna sübutdur.** Yəni hüquqi və demokratik cəmiyyət quruculuğu istiqamətində dövlətin qəbul etdiyi qanunların bütün normaları Silahlı Qüvvələrdə xidmət keçən hərbi qulluqçulara tam şəkildə tətbiq oluna bilmir, hərbi xidmətin xüsusiyyətləri ilə müəyyən çərçivədə məhdudlaşır. Bu isə ondan irəli gəlir ki, ***Silahlı Qüvvələr qanunçuluqla bərabər nizami ordu, mərkəzləşdirilmiş və vahid rəhbərlik, yüksək hərbi intizam, daimi döyüş və səfərbərlik hazırlığı kimi digər prinsiplər əsasında qurulur və fəaliyyət göstərir.*** *(«Silahlı Qüvvələri haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi).*

# Hərbi rejim anlayışı

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, ölkənin müdafiəsi və onun vətəndaşlarının təhlükəsizliyi üçün Respublikanın bütün ərazisində və yaxud ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edilə bilər. **Hərbi vəziyyət** *dövlət hakimiyyəti və idarəetmə orqanlarının, vətəndaşların, ictimai birliklərin, müəssisə, idarə və təşkilatların fəaliyyətinin elə bir xüsusi hüquqi rejimidir ki, bu, vətəndaşların hüquq və azadlıqlarının, hüquqi şəxslərin hüquqlarının və «Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunua uyğun olaraq müəyyən edilən məhdudiyyətlərə, habelə onlara əlavə vəzifələr tapşırılmasına yol verir.*

***Hərbi vəziyyətin tətbiq edilməsi*** *məqsədi şəraiti tezliklə normallaşdırmaq, vətəndaşların hüquq və azadlıqlarının, qanunçuluğu və hüquq qaydalarını bərpa etmək, yaranmış təhlükəni aradan qaldırmaqdır.* Ölkənin bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin tətbiq edilməsi üçün aşağıdakılar əsas ola bilər:

1. ***Konstitusiyaya uyğun olaraq Azərbaycan Respublikasında müharibə vəziyyətinin elan olunması;***
2. ***Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsinin olması;***
3. ***Ölkə ərazisinin, yaxud onun ayrı-ayrı yerlərinin xarici dövlət və dövlətlər tərəfindən qurudan, sudan, havadan blokadası və belə blokadanın real təhlükəsinin olması;***
4. ***Xarici dövlətin və ya dövlətlərin Azərbaycan Respublikasına müharibə elan etməsi;***
5. ***Ölkə ərazisinin müəyyən hissəsinin faktiki işğalı.***

Qeyd etmək gərəkdir ki, *hərbi vəziyyət yalnız Azərbaycan Respublikası prezidentinin fərmanı ilə tətbiq edilir.* Burada da özünün xüsusiyyətləri var. Azərbaycan Respublikasının Milli Məclisi işlədiyi dövrdə Azərbaycan Respublikası prezidentinin hərbi vəziyyətin tətbiq edilməsi barədə Fərmanı dərhal Milli

Məclisə təqdim edir və Milli Məclis 24 saat ərzində bu məsələyə dair qərar qəbul edir. Milli Məclisin iclasları arasındakı dövrdə hərbi vəziyyət tətbiq edilərsə, Milli Məclisinin sədri dərhal Milli Məclisin iclasını çağırır. Bu məsələyə dair qərar Azərbaycan Respublikası prezidentinin müvafiq fərmanının Milli Məclisə təqdim edildiyi andan ən çoxu 72 saat keçənədək qəbul edilir. Bu haqda qərarın Milli Məclisdə qəbul edilməsində deputat tərkibinin azı üçdə ikisindən ibarət səs çoxluğu ilə qəbul edilir.

Hərbi vəziyyətin tətbiq edilməsi əsasları aradan qaldırıldıqda və yaxud müharibə aparan dövlətlə *(dövlətlərlə)* sülh müqaviləsi bağlandıqda Milli Məclis öz təşəbbüsü və ya Azərbaycan Respublikası prezidentinin təklifi ilə hərbi vəziyyəti dərhal ləğv edir. **Hərbi vəziyyətin tətbiq edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin fərmanının qüvvəyə minməsi azı 6 saat qalmış KİV-də, bu mümkün deyilsə başqa üsullarla yayılır.**

Əhalının həyatının və təhlükəsizliyinin qorunması üçün təxirəsalınmaz tədbirlər görülməsi tələb olunduğu hallarda hərbi vəziyyətin tətbiq edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin fərmanının yayılması vaxtı prezident tərəfindən dəyişdirilə bilər.

Qeyd etmək gərəkdir ki, Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət tətbiq edilən dövrdə Azərbaycan Respublikası prezidentinin, MM-in, başqa seçkili dövlət orqanlarının, habelə ayrı-ayrı yerlərdə hərbi vəziyyət tətbiq edilən dövrdə, həmin ərazinin seçkili dövlət orqanlarının səlahiyyət müddəti başa çatdıqda, onlar öz səlahiyyətlərini hərbi vəziyyət ləğv edildikdən sonra müvafiq qanunlarda nəzərdə tutulmuş qaydada seçkilər keçirilənədək davam etdirirlər.

Hərbi vəziyyət elan olunan gündən və ya qurtardıqdan sonra 3 ay ərzində referendum təyin edilə və seçkilər keçirilə bilməz.

Hərbi vəziyyət elan olunduqda referenduma çıxarılan məsələnin müzakirəsi dayandırılır və təyin edilmiş referendum başqa vaxta keçirilir.

**Hərbi vəziyyət haqqında Azərbaycan Respublikası prezidentinin Fərmanında nələr göstərilməlidir?**

«Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinə əsasən:

1. ***hərbi vəziyyətin tətbiq edilməsini göstərən əsaslar;***
2. ***hərbi vəziyyət tədbirlərinin siyahısı və hədləri;***
3. ***hüquq və azadlıqların müvəqqəti məhdudiyyətlərinin tam siyahısı;***
4. ***hərbi vəziyyət tədbirlərinin həyata keçirilməsi üçün cavabdeh olan dövlət orqanları və onların səlahiyyətləri;***
5. ***hərbi vəziyyət tətbiq olunan ərazinin sərhədləri;***
6. ***fərmanın qüvvəyə minməsi vaxtı.***

Hərbi vəziyyətin tətbiqi ilə bağlı həyata keçirilən tədbirlər beynəlxalq hüquqda qəbul edilmiş yaşamaq hüququnu, fikir, vicdan və din azadlığını, hüquq subyektliyini məhdudlaşdıra bilməz. *Bu şəraitdə əmələ görə cəza müəyyən edən və ya cəzanı ağırlaşdıran qanunun geriyə qüvvəsinin tədbiqinin yolverilməzliyini aradan qaldıra bilməz. Köləlik, qul alveri, yalnız hər hansı müqavilə öhdəliyinin yerinə yetirilməsinə görə azadlıqdan məhrum etmə, ayrı-ayrı şəxslərə və ya əhalı qruplarına qarşı irqinə, milliyyətinə, cinsinə, dilinə, siyasi əqidəsinə və ya sosial mənşəyinə görə işgəncələrin tətbiq edilməsi, hər hansı ayrıseçkilik qadağan olunur.*

Hərbi vəziyyət tətbiq edilmiş yerlərdə müdafiə, ictimai yaşayış və dövlət təhlükəsizliyi ilə əlaqədar yerli icra və nümayəndəli dövlət orqanlarının səlahiyyətlərini qüvvədə olan qanunvericilik əsasında hərbi komandanlıq həyata keçirilir. *Belə hallarda daxili işlər və milli təhlükəsizlik orqanlarının hərbi vəziyyət elan edilmiş ərazilərdə yerləşən qüvvələri həmin ərazinin hərbi komandanlığının tabeliyinə keçir.*

Hərbi vəziyyət elan olunduqda səfərbərlik planlarına müvafiq olaraq Silahlı Qüvvələrin hazırlıq vəziyyətinə gətirilməsi və onun müəyyən hissələrinin hərbi vəziyyətə keçirilməsi üçün ümumi və ya qismən səfərbərlik elan olunur.

**Hərbi vəziyyət dövründə** dövlət müstəqilliyini, ərazi bütövlüyünü və əhalinin təcavüzdən qorunmasını təmin etmək məqsədilə

konkret şəraitin kəskinliyi nəzərə alınaraq Ölkə prezidentinin fərmanında **aşağıdakı tədbirlər nəzərdə tutula bilər:**

**1. Hərəkət sərbəstliyinin məhdudlaşdırılması:**

*a) günün müəyyən edilmiş vaxtlarında xüsusi icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədlər olmadan küçələrdə və ya başqa ictimai yerlərdə olmağın qadağan* edilməsi;

*b) xüsusi icazə vərəqələri və şəxsiyyəti təsdiq edən sənədlər olmadan hərbi vəziyyət elan edilən yerlərdə olmağın qadağan edilməsi;*

*c) hərbi vəziyyət tətbiq edilən əraziyə, habelə hərbi əməliyyatlar bölgəsinə gediş-gəlişin qaydaları;*

*d) əhalinin və hüquqi şəxslərin hərbi əməliyyat bölgəsindən evakuasiyası;*

*e) Azərbaycan Respublikasına gəlmə və respublikadan getmənin xüsusi qaydalarının müəyyən edilməsi*

**2. Kütləvi informasiya azadlığının məhdudlaşdırılması:**

*a) KİV-nin fəaliyyətinin dayandırılması haqqında müvafiq orqanlara təqdimat verilməsi;*

*b) senzuranın tətbiq edilməsi;*

*c) hərbi vəziyyət tətbiq edilmiş ərazidə, hərbi əməliyyatlar bölgəsində, cəbhə boyu zolaqda KİV məhsullarının yoxlanılması;*

*d) hərbi komandanlığın və müvafiq dövlət orqanlarının nümayəndələrinə hərbi vəziyyətin ehtiyacları üçün KİV-dən istifadə etməkdə üstünlük hüququnun verilməsi.*

**3. Əmək hüquqlarının məhdudlaşdırılması:**

*a) qüvvədə olan qanunvericiliyə uyğun olaraq əhalinin müdafiə işlərinə, yolların və vacib obyektlərin mühafizəsinin həyata keçirilməsinə, yanğın, epidemiya və başqa fəlakətlərlə mübarizə işində iştirak etməyə cəlb edilməsi;*

*b) müdafiə ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədilə mülkiyyət formasınmdan asılı olaraq işçilərin iş vaxtından artıq işə cəlb olunması, növbəti məzuniyyətlərin pul ilə əvəz etməklə başqa vaxta keçirilməsi, əmək müqaviləsinin bağlanması və xitam verilməsi;*

*c) tətillərin qadağan edilməsi.*

**4. Mülkiyyət toxunulmazlığı hüququnun məhdudlaşdırılması:**

*a) mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların hərbi vəziyyətin ehtiyacları üçün səfərbərliyə alınması, onların iş rejiminin dəyişdirilməsi, fəaliyyətin zəruri məhsulların istehsalına yönəldilməsi;*

*b) xüsusi və kollektiv mülkiyyətdə olan nəqliyyat və qoşqu vasitələrinin müəyyən edilmiş qaydada əvəzi ödənilməklə, dövlət mülkiyyətində olan nəqliyyat və qoşqu vasitələrinin əvəzsiz olaraq hərbi vəziyyətin ehtiyacları üçün alınması.*

**5. Mülkiyyət formasından asılı olmayaraq ticarət, ictimai-iaşə, kommunal xidmətləri müəssisələrinin, kinoteatrların, teatrların, mədəniyyət evlərinin və başqa xidmət təşkilatlarının iş rejiminin dəyişdirilməsi.**

**6. Ərzaq və sənaye məhsulılarının norma ilə buraxılması, yaxud ticarətin xüsusi qaydalarının müəyyən edilməsi.**

**7. Əhalinin mülki müdafiə hazırlığı ilə əlaqədar məcburi tədbirlərin keçirilməsi;**

**8. Təhsil müəssisələrinin fəaliyyətinin yeni rejiminin müəyyən edilməsi yaxud dayandırılması;**

**9. Dövlət orqanlarına, siyasi partiyalara, həmkarlar ittifaqlarına və ictimai birliklərə məxsus bina və otaqları, nəqliyyat vasitələrinin yoxlanılması, təhlükəsizlik baxımından zərərli hesab edilən əşyaların müvəqqəti alınması;**

**10. Yığıncaqlar, mitinqlər, küçə yürüşləri və nümayişləri, habelə başqa kütləvi tədbirlərin keçirilməsinin qadağan edilməsi;**

**11. Hərbi vəziyyət şəraitində müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan siyasi partiyaların, həmkarlar ittifaqlarının və ictimai biliklərinin fəaliyyətinin dayandırılması haqqında müvafiq orqanlara təqdimatlar verilməsi.**

Qanunvericilik orqanı öz reqlamentinə uyğun iclaslarını davam etdirməlidir. Hərbi vəziyyət rejiminin pozulması Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş cinayət, maddi, inzibati və intizam məsuliyyətinə səbəb ola bilər.

*Hərbi vəziyyət ləğv olunduqda hərbi vəziyyəti təmin edən aktlar hərbi vəziyyətin qurtarması ilə bir vaxtda əlavə məlumat verilmədən qüvvədən düşür.* Hərbi vəziyyət ləğv edildikdə hərbi vəziyyət qaydasının pozulmasına dair işlərin icraatı xitam olunur və hərbi vəziyyət qaydasının pozulması üstündə inzibati qaydada həbs edilən şəxslər dərhal azad edilirlər.

Məhkəmələr Azərbaycan Respublikası Konstitusiyasına və müvafiq qanunlarına uyğun surətdə hərbi vəziyyət tətbiq edilən vaxt qüvvədə olan qanunlara müvafiq aparılır. Hər hansı fövqəladə məhkəmə formalarının və növlərinin təsis edilməsi, mühakimə icraatının sürətləndirilməsi və ya fövqəladə növlərindən, formalarından istifadə edilməsi qadağan edilir.

Prokurorluq orqanları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada fəaliyyət göstərir. Qeyd etmək gərəkdir ki, «Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunuunun tələblərinə əsasən Azərbaycan Respublikası prezidentinin hərbi vəziyyət dövründə vətəndaşların hüquq və azadlıqlarının, vətəndaş hüquqları və siyasi hüquqları haqqında Beynəlxalq Paktda nəzərdə tutulan öhdəliklərdən kənara çıxan məhdudiyyətləri, bu məhdudiyyətlərin həcmini və belə qərarların səbəbləri haqqında BMT-nin Baş Katibinə 3 gün müddətində məlumat verilməsi üçün tədbir

## Sorğuya cavab tələb etmə hüququ
### (Komandirin (rəisin) informasiya vermə vəzifəsi)

Kütləvi İnformasiya Vasitələrinin işində başlıca cəhət onu maraqlandıran auditoriyaya ən yeni, dəqiq və tam informasiya verməkdən ibarətdir. Məlumat verməli olan tərəflə KİV mənsubu arasında qarşılıqlı anlaşma, razılaşma olmadıqda, bu prinsipial məsələ hər hansı tərəfin nöqsanı, boyun qaçırması ucbatından əngələ düşür. Bütün bu və bu kimi, cəmiyyətin, insanlığın inkişafına zidd münasibətlər olmasın deyə informasiya axtarmaq, almaq və yaymaq hüquq və qaydaları bir sıra beynəlxalq sənədlərdə və milli qanunvericilikdə əksini tapmışdır.

Ümumdünya insan haqları Bəyanaməsinin 19-cu maddəsinə əsasən «dövlət sərhədlərindən asılı olmayaraq hər kəsin istənilən üsulla məlumat axtarmaq, almaq və yaymaq hüququ vardır». Həmin hüquq mülki və siyasi hüquqlara dair beynəlxalq Paktın 19-cu maddəsilə də təsbit edilir və dəqiqləşdirilir.

Məlumat axtarıb tapmaq jurnalist fəaliyyətinin əsasını təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasının məlumat azadlığını təsbit edən 50-ci maddəsinə əsasən hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. Həmin maddənin 2-ci bəndi ilə kütləvi informasiyanın azadlığına təminat verilir.

KİV-in məlumat almaq hüququ KİV haqqında Azərbaycan Respublikası Qanununun 8-ci maddəsilə tənzimlənir. Göstərilən maddəyə əsasən KİV cəmiyyətdəki iqtisadi, siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəsissə və təşkilatların, ictimai birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə operativ və dorğru-dürüst məlumatları almaq hüququna malikdir. Qeyd edilən orqanlar və vəzifəli şəxslər öz fəaliyyəti haqqında məlumatı KİV-nin sorğusu əsasında, habelə mətbuat konfransları keçirmək yolu ilə, yaxud başqa formalarda verirlər.

Qanunun göstərilən maddəsinə əsasən informasiya almaq üçün sorğu yazılı və şifahi ola bilər. Yazılı sorğuya Azərbaycan Respublikası qanunvericiliyilə müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Məlumat öz operativliyini itirərsə sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir. «Məlumat azadlığı haqqında» Azərbaycan Respublikasının 19 iyun 1998-ci il tarixli qanununun 11-ci maddəsinə əsasən məlumatın əldə edilməsi barədə müraciətə baxılması «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə yuxarıda göstərilən qaydada həll edilir. Qanuna əsasən məlumatın əldə edilməsi zəruriyyətinin əsaslandırılmasının tələb olunması qadağandır. Yəni, hər hansı vəzifəli şəxs jurnalisti "bu məlumat sənin nəyinə gərəkdir" kimi yersiz sorğu- suala tuta bilməz.

Həmin qanunun 12-ci maddəsinə görə məlumatın verilməsindən imtina barədə məhkəməyə şikayət edilə bilər və bu zaman məlumatın verilməməsinin qanuniliyini sübuta yetirmək vəzifəsi cavabdehin üzərinə düşür. Yəni, bu zaman da jurnalistdən məlumat almağın hansı zərurətdən doğması sual edilə bilməz, əksinə vəzifəli şəxs məlumat verilməsindən nəyə görə imtina etməsini əsaslandırmalıdır.

Kütləvi informasiya azadlığının və jurnalist hüquqlarının pozulmasına görə məsuliyyət barədə bəhs edən KİV haqqında Azərbaycan Respublikası Qanununun 59-cu maddəsinə əsasən jurnalistə informasiyanın verilməsi üzərinə qadağa qoyulması, jurnalist sorğusuna Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə cavab verməmək inzibati məsuliyyətə səbəb olur. Göründüyü kimi qanunun bu norması göndərici xarakter daşıyır və belə bir məsuliyyətin Azərbaycan Respublikasının Inzibati Xətalar Məcəlləsində olmasını göstərir.

KİV əməkdaşları və vəzifəli şəxslər bilməlidirlər ki, Azərbaycan Respublikası Inzibati Xətalar Məcəlləsinin 186-cı maddəsində jurnalist hüquqlarının pozulması üstündə məsuliyyət nəzərdə tutulub. Belə ki, 186.1. maddəsinə əsasən qanunveriiilklə müəyyən edilmiş müddətdə jurnalist sorğusuna cavab verməməyə görə, 186.2. maddəsinə əsasənə jurnalitsə informasiya verilməsi üzərinə məhdudiyyətlər qoymağa və informasiya verilməsindən imtina etməyə görə cərimə cəzası nəzərdə tutulub. Ancaq təəssüflə qeyd etmək gərəkdir ki, göstərilən hallar yəni vəzifəli şəxslərin jurnalist sorğusuna vaxtında cavab verməməsi, belə informasiya üzərinə məhdudiyyətlər qoyulması və xüsusən informasiya verilməsindən imtina edilməsi həddən artıq geniş yayılmış və demək olar ki, pis adətə və ənənəyə çevrilmiş olmasına baxmayaraq məhkəmələrə müraciət və təbii ki, vəzifəli şəxslərin cəzalandırılması halları yoxdur.

Öncə də demişdik ki, dövlət orqanları, xüsusən hüquq-mühafizə və məhkəmə orqanları faktları, sənədləri və statistik göstəriciləri jurnalistlərdən gizlətməyə meyllidir. Məlumat verməkdən imtina olunmasının əsası kimi onlar bir qayda olaraq məlumatların

sirr olmasını, rəhbərliyin belə məlumatların verilməsinə qadağa qoymasını və məlumatın axtarılması üçün vaxt və vəsaitin olmamasını göstərirlər. Əksər hallarda isə məlumat verilməsindən imtina olunmasının səbəbləri barədə jurnalistə heç bir izahat və şərh verilmir.

Sonuncu hal idarə və təşkilatların məlumat verməyə müvəkkil edilmiş səlahiyyətli şəxslərinin KİV-lə əməkdaşlığa görə öz rəhbərliyi tərəfindən xoşagəlməz vəziyyətlə üzləşmək qorxusundan baş verir. Halbuki, məlumat verilməməsinin yeganə qanuni əsası onun dövlət sirri və ya qanunla qorunan digər sirr daşıyıcısı olması göstərilə bilər.

İnformasiya sorğusu onun axtarılması və alınması üçün yeganə vasitə deyil. Jurnalistlərin dövlət orqanlarına, ictimai birliklərə, təşkilatlara və onların mətbuat xidmətinə getmək hüququ var. Düzdür, bir qayda olaraq dövlət təşkilatlarının rəhbəri jurnalistlərlə birbaşa təmasdan qaçır və onlarla görüşməyi mətbuat xidmətinə həvalə edirlər. Əksər halarda isə mətbuat xidməti işçilərini nəinki yerində tapmaq, onlarla telefon əlaqəsi belə yaratmaq mümkün olmur. Sorğu ilə əlaqədar olaraq jurnalist getdiyi təşkilatın rəhbəri və ya sorğuda göstərilən informasiyanı verməyə (yaxud verməkdən imtina eməyə) səlahiyyəti olan vəzifəli şəxs tərəfindən qəbul olunmalıdır. Sorğuya əsasən informasiya alan jurnalistin dövlət sirri və qanunla qorunan digər sirrlər istinsna olmaqla məlumatın əsasını təşkil edən sənədlərlə və materiallarla tanış olmaq hüququ vardır. Bu, məlumatın düzgünlüyünün təsdiqi baxımından olduqca vacibdir. Qanunda nəzərdə tutulan hallar istisna olmaqla jurnalistin göstərilən vəziyyətdə audio-video texnika vasitələrindən istifadə etməklə səs yazmaq və çəkiliş aparmaq hüququ da vardır.

Ancaq yuxarıda qeyd edildiyi kimi vəzifəli şəxslər jurnalistlərin girişinin qarşısını cürbəcür bəhanələrlə məhdudlaşdırır. Onların vəsiqələrinin əllərindən alınması, diktofonların qanunsuz müsadirə edilməsi və hətta sındırılması kimi hallara yol verirlər. Bəzi vəzifəli şəxslər hətta jurnalisti təxribat və digər cinayət əməlləri törətməyə cəhd göstərməkdə ittiham etməkdən belə çəkinmirlər.

Belə hərəkətə əl atan vəzifəli şəxslər bilməlidir ki, informasiya verməkdən imtina etmək vətəndaşların hüquqlarını məhdudlaşdırır, jurnalistlərin binaya girişi qadağan olunan şəxslər siyahısına daxil edilməsi məlumat azadlığı prinsipi ilə ziddiyyət təşkil edir. Jurnalisti məlumat almağa yaxın buraxmayan vəzifəli şəxsin hərəkətləri kütləvi informasiya azadlığına qəsd kimi qiymətləndirilməlidir. Ancaq ölkəmizdə bunu zəruri edən qanunvericilik bazası (Qanunlarımızda söz azadlığına qəsd üstündə məsuliyyət nəzərdə tutulmur) və təbii ki, onun nəticəsi kimi məhkəmə təcrübəsi yoxdur. Bütün bunların nəticəsidir ki, jurnalistlər dövlət orqanlarından birbaşa məlumat ala bilmədiklərindən ayrı-ayrı şəxslərdən alınan və çox vaxt tam olmayan məlumatla kifayətlənməli olur. Bu hal jurnalistlər üçün əlavə problemlər yaradır. Xüsusi şəxslərdən alınan informaisyaların dərcindən sonra belə məlumatı verməyə borclu olan vəzifəli şəxs məlumatın dəqiq olmaması iddiası ilə məhkəməyə müraciət edir və günümüzün reallığında həmişə «qalib» çıxır.

Reportyorun səs yazmasından istifadə etməsi və şəkil çəkməsi isə ümumiyyətlə igidlik tələb edir. Jurnalistin qanunla müəyyən edilmiş bu hüququ tez-tez pozulur və hücumçular qismində bir qayda olaraq polis əməkdaşları, mühafizə xidmətinin işçiləri və hərbi' qulluqçular çıxış edir. Oxşar qanunsuzluqlar çəkiliş aparatlarının götürülməsi, sındırılması və jurnalistə bədən xəsarəti yetirilməsi ilə müşaiyət olunur. Belə hərəkətlər jurnalistlərin peşə fəaliyyəitni həyata keçirilməsinə mane olmaq üstündə məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikası CM-nin 163-cü maddəsinə əsasən cinayət əməli sayılsa da ölkədə bir nəfər də olsun vəzifəli şəxs haqqında bu maddə ilə iş başlanması halı qeydə alınmayıb. Döyülən jurnalist uzaqbaşı məktubla üzr istənilməsinə və ya günahkar şəxsin intizam qaydasında cəzalandırılacağına dair bildirişə ümid edə bilər.

# İnformasiya toplamaq və yaymaq hüququnu məhdudlaşdıran hallar

**Hansı sirrləri yaymaq olmaz?**

İnformasiya məkanı dövlətin, millətin və şəxsiyyətin **təhlükəsizliyi ilə bağlı olduqca mühüm məkandır.** Ona görə də istənilən dövlət bu məkanda cərəyan edən münasibətləri tənzimləyən hüquqi-normativ aktlar qəbul etməli, oyun qaydaları müəyyənləşdirməlidir.

Jurnalist informasiya toplamaq və yaymaq hüququnu məhdudlaşdıran qanunları və digər normativ aktları bilməyə borcludur. Aşağıdakı məlumatlar konfidensial xarakter daşıdığından qanunvericilik onların yayılmasını qadağan edir:

**A. Dövlət sirrinə aid edilən məlumatlar:**

1) *KİV-lərə özünün razılığı ilə verilənlər istisna olmaqla vətəndaşın şəxsi həyatının hallarına və vəziyyətinə dair məlumatlar;*
2) *istintaq, məhkəmə sirri təşkil edən məlumatlar;*
3) *xidməti sirri təşkil edən məlumatlar;*
4) *peşə sirri (həkim, notarial, vəkil sirri, yazışmanın, telefon danışıqlarının, poçt və teleqraf göndərişlərinin gizliliyi) təşkil edən məlumatlar;*
5) *kommersiya sirri təşkil edən məlumatlar;*
6) *haqqında rəsmi informasiya dərc edilənəcən hər hansı kəşf və ixtiranın mahiyyəti haqqında məlumatlar.*

***Qanunla xüsusi olaraq qorunan sirrlərin yayılmasında KİV-dən istifadə edilməsi redaksiyaya xəbərdarlıq göndərilməsinə əsas ola bilər.***

Təbii ki, oxşar hallarda hüquq pozuntusunun tərkibi obyekti *(yəni qanunla xüsusi qorunan sirri)*, obyektiv tərəfi *(yəni yaymanı)*, eyni zamanda subyekti *(redaksiya, jurnalist)* və subyektiv tərəfi *(sirri yaymaq məqsədilə KİV-dən istifadə etməyə yönəlmiş qəsdi)* əhatə etməlidir. Məsələn, **Dövlət Sirrinin yayılması** kənar şəxslərin hərəkəti nəticəsində baş verirsə məhz həmin şəxs də məsuliyyətə cəlb olunmalıdır və təbii ki, KİV-in fəaliyyətində

bu halda söz azadlığından sui-istifadə etmək tərkibi axtarmağa dəyməz.

*Bununla yanaşı, ümumi qaydaya əsasən jurnalistin sirr yaymaq üstündə məsuliyyətə cəlb edilməsi praktik baxımından mümkün deyil, məsuliyyət o halda mümkün olur ki, jurnalistə etibar edilmiş, xidməti işi ilə əlaqədar ona məlum olan sirr yayılmış olsun. Məsələn, bəzi hallarda bu ordu qəzetlərində işləyən jurnalistlərə aid edilə bilər.*

Dövlət sirrindən fərqli olaraq bütün digər gizli məlumatlar fərqli mühafizə və müdafiə rejiminə malikdir. Belə ki, bank və kommersiya sirri təşkil edən məlumatların yayılması o vaxt cinayət əməli sayıla bilər ki, onlar qanunsuz üsullarla (məsələn, sənədlərin oğurlanması yolu ilə) əldə edilmiş olsun və ya təqsirkar şəxs tamah məqsədi güdsün. Şəxsi həyat haqqında məlumatların toplanmasını və yayılmasını qanunsuz hesab etmək üçün bu hərəkətlərin tamah və digər şəxsi maraq üzündən törədilməsini, vətəndaşın qanunla qorunan hüquq mənafelərinə zərər vurmasını müəyyən etmək gərəkdir.

**B. Dövlət sirri təşkil edən məlumatlar**

Azərbaycan Respublikası CM-nin 284-cü maddəsinə əsasən dövlət sirrinin yayılması cinayət əməli hesab olunur. Subyektiv cəhətdən bu cinayət qəsdən və ya ehtiyatsızlıq üzündən törənə bilər.

«Dövlət sirri haqqında» 17 sentyabr 2004-cü il tarixli Qanunun 5-ci maddəsinə əsasən aşağıdakı məlumatlar dövlət sirri sayılır:

**1. Hərbi sahədə məlumatlar:**

* ***strateji və əməliyyat planlarının***, *əməliyyatlarının hazırlanmasına, icrasına, qoşunların strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsinə dair* ***döyüşü idarəetmə sənədlərinin*** məzmunu haqqında, qoşunların döyüş *qabiliyyəti və* ***səfərbərlik hazırlığı***, *səfərbərlik ehtiyatlarının yaradılması və istifadəsi haqqında;*

* *silahların və hərbi texnikanın inkişafı istiqamətləri haqqında, silah və hərbi texnika nümunələri yaradılmasına və modernləşdirilməsinə dair* ***məqsədli proqramların, elmi-tədqiqat*** *və*

***təcrübi-konstruktor işlərinin*** *məzmunu və yerinə yetirilməsi nəticələri haqqında;*

* ***xüsusi silahların sayı, quruluşu və istehsal texnologiyası,*** *habelə onların sanksiyasız tətbiqində* ***müdafiənin texniki vasitələri və metodları*** *haqqında;*

* ***silah və hərbi texnika nümunələrinin*** *taktiki-texniki xarakteristikaları və* ***döyüşdə tətbiq imkanları, hərbi təyinatları, yeni növ maddələrin xüsusiyyətləri, resepturası və ya istehsal texnologiyaları haqqında;***

* *rejimli və xüsusi əhəmiyyətli* ***obyektlərin dislokasiyası, təyinatı, hazırlıq və müdafiə olunma dərəcəsi, onların layihələşdirilməsi və tikintisi,*** *habelə bu obyektlər üçün torpaq, yer təki və akvatoriyalar ayrılması haqqında;*

* *Silahlı Qüvvələr birləşmələrinin və* ***hissələrinin dislokasiyası, həqiqi adları, təşkilat strukturu, silahları və sayı haqqında;***

* *mülki müdafiə qüvvələri və vasitələri haqqında, inzibati idarəetmə və əhalinin təhlükəsizliyini təmin et****mə obyektlərinin dislokasiyası, təyinatı və müdafiə olunma dərəcəsi*** *haqqında.*

**2. Xarici siyasət sahəsində məlumatlar:**

* *dövlətin başqa dövlətlər ilə hərbi əməkdaşlığı haqqında;*

* *xarici siyasət sahəsində dövlətin planları, vəzifəli şəxslərinə və nümayəndə heyətlərinə verilən göstərişlər haqqında.*

**3. Kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahəsində məlumatlar:**

* *kəşfiyyat, əks-kəşfiyyat, əməliyyat-axtarış fəaliyyətinin qüvvə və vasitələri, mənbələri, metodları, planları və nəticələri haqqında, habelə bu fəaliyyətin maliyyələşdirilməsi haqqında sadalanan məlumatları açıqlayan göstəricilər;*

* *kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə məş*ğul olan orqanlarla məxfi əməkdaşlıq edən və ya əməkdaşlıq etmiş şəxslər haqqında;

* *xüsusi rabitə növləri sistemi, dövlət şifrələri, onların təhlili metodları və vasitələri haqqında;*

* *dövlət sirrinin mühafizəsi sahəsində dövlət proqramları və tədbirləri haqqında.*

***Məhkəmə icraatı zamanı, o cümlədən ibtidai istintaq mərhələsində dövlət sirri müvafiq prosesual məcəllədə nəzərdə tutulmuş, qaydada mühafizə edilir.***

***Qanunun 7-ci maddəsinə əsasən aşağıdakı məlumatlar məxfiləşdirilmir:***

** insanların həyat və sağlamlığı üçün təhlükə törədən fövqəladə hadisələr və qəzalar, onların nəticələri, habelə təbii fəlakətlər, onların rəsmi proqnozları və nəticələri haqqında;*

** ekoloqiya, səhiyyə, sanitariya, demoqrafiya, təhsil, mədəniyyət və kənd təsərrüfatının, habelə cinayətkarlığın vəziyyəti haqqında;*

** dövlətin vətəndaşlara, vəzifəli şəxslərə, müəssisə, idarə və təşkilata verdiyi imtiyazlar, güzəştlər və kompensasiyalar haqqında;*

** inasan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması faktları haqqında;*

** ölkənin ali vəzifəli şəxslərinin səhhəti haqqında;*

** dövlət hakimiyyəti orqanlarının, onların vəzifəli şəxslərinin qanunçuliğu pozması faktları haqqında.*

**Aşağıdakı məlumatlar dövlət sirri və «xidməti istifadə üçün» təyinatlı məlumatlar sayılmırlar:**

** dövlət orqanlarının, təşkilatların və ictimai birliklərin hüquqi statusunu, həmçinin vətəndaşların hüquq, azadlıq və vəzifələrini, onların realizasiya qaydasını müəyyən edən qanunvericilik aktları;*

** fövqaladə vəziyyət, təhlükəli təbiət hadisələri və prosesləri, ekoloji, hidrometroloji, hidrogeoloji, demoqrafiq, sanitar-epidemioloji informasiyalar;*

** icra hakimiyyəti orqanlarının quruluşunun, funksiyaları, fəaliyyət forma və istiqamətlərinin təsviri və ünvanı;*

** vətəndaşların və hüquqi şəxslərin ərizə və müraciətlərinə baxılması və həll edilməsi qaydası;*

** vətəndaşların və hüquqi şəxslərin ərizə və cinayətlərinə baxılması nəticəsinə dair qərarlar;*

* *büdcənin icrasına və digər dövlət ehtiyatlarından istifadə olunmasına, istehsalın və əhalinin tələbatına dair məlumatlar;*

* *kitabxanalarda, arxivlərdə və fondlarda yığılan sənədlər.*

Sadalanan siyahıdan belə nəticə çıxarmaq olmaz ki, onlar açıq, siyahıya daxil olmayan digər məlumatlar isə gizlidir. Əksinə, dövlət sirri və qanunla qorunan digər sirrlər istisna olmaqla bütün məlumatlar açıq olmalıdır.

**C. Yazışmanın və telefon danışıqlarının, poçt və teleqraf göndərişlərinin qizliliyinə dair məlumatlar**

Konstitusiyanın 32-ci maddəsinin 4-cü bəndinə əsasən hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan ötrü məhdudlaşdırıla bilər.

Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma üstündə Azərbaycan Respublikası CM-nin 155-ci maddəsilə cinayət məsiliyyəti müəyyən edilir. Həmin maddəyə görə belə məlumatların sirrini pozma cərimə və ya islah işləri ilə cəzalandırılır.

Maddədə nəzərdə tutulan anlamda pozuntu dedikdə yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatlarla habelə internet, faks və digər üsullarla daxil olmuş informasiyalarla qanunsuz olaraq tanış olma nəzərdə tutulur. Azərbaycan Respublikası CPM-nə əsasən korrespondensiya üzərinə həbs qoyulması ancaq məhkəmənin qərarına əsasən həyata keçirilə bilər. Eyni qaydalar telefon danışıqlarına qulaq asmağa da şamil edilir.

Cinayətin subyektiv cəhəti ancaq birbaşa qəsdlə xarakterizə olunur. Yəni, təqsirkar şəxs qanuni əsas olmadan yazışmanın. Telefon danışıqlarının, poçt və teleqraf məlumatlarının sirrini pozduğunu anlayır və bu nəticələrin baş verməsini arzu edir. Cinayətin məqsəd və motivləri onun tövsifinə təsir göstərmir. Cinayətin subyektləri poçt, teleqraf idarələri işçiləri, prokuror, istintaq orqanları əməkdaşları ola bilər.

**D. Təhqiqat, ibtidai istintaq məlumatlarını yayma**

CM-nin 300-cü maddəsinə əsasən qanunla müəyyən edilmiş qaydada yayılmaması barədə xəbərdarlıq edilmiş şəxs tərəfindən təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə nəzarəti funksiyasını həyata keçirən hakimim icazəsi olmadan təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılması maraqlı şəxsə mənəvi və ya maddi ziyanın vurulmasına səbəb olduqda cərimə və ya islah işləri və ya azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət-prosessual qanunvericiliyə əsasən, ibtidai istintaqın materialları yalnız müstəntiqin və ya prokurorun razılığı ilə və onların mümkün bildikləri həcmdə yayıla bilər. Zəruri hallarda müstəntiq ibtidai istintaqın icraatında iştirak edən şəxsləri istintaq məlumatlarını onun icazəsi olmadan yaymamaq barədə xəbərdar edir və onlardan iltizam alır. Eyni səlahiyyət təhqiqatçıya da məxsusdur.

**E. Cinayət prosesində iştirak edən şəxslər barəsind tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma.**

«Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının 11 dekabr 1998-ci il tarixli Qanununa əsasən səlahiyyətli orqan tərəfindən təhlükəsizlik tədbirləri tətbiq edilməsi haqqında qərar qəbul edilmiş şəxslər müdafiə edilən şəxslər adlanır və onlar aşağıdakılara aid edilir:

1. *hüquq mühafizə orqanlarına cinayətlər haqqında məlumatlar verən, cinayətlərin aşkar edilməsi, qarşısının alınması və açılmasında iştirak edən şəxslər;*
2. *cinayət işi üzrə zərər çəkən və onun nümayəndəsi;*
3. *təqsirləndirilən və ya şübhəli şəxslər, məhkumlar, onların müdafiəçiləri və nümayəndələri;*
4. *mülki iddiaçı və mülki cavabdeh və onların nümayəndələri;*
5. *şahidlər;*
6. *ekspert, mütəxəsis, tərçüməçilər və hal şahidləri.*

CM-nin 316.1. maddəsinə əsasən cinayət haqqında müvafiq orqanlara məlumat vermiş və ya cinayətin aşkar edilməsi, qarşısının alınması, yaxud açılmasında iştirak etmiş şəxs, zərərçəkmiş şəxs,

onun nümayəndəsi, şübhəli şəxs, təqsirləndirilən, onların müdafiəçiləri və nümayəndələri, cinayət işi üzrə mülki iddiaçı, mülki cavabdeh, onların nümayəndələri, şahid, ekspert, mütəxəssis, tərcüməçi, hal şahidi və ya onların yaxın qohumları barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatıarın yayılması, əgər bu əməl qulluq mövqeyi ilə əlaqədar ona etibar edilən və ya məlum olan şəxs tərəfindən törədilərsə cərimə və ya islah işləri və ya azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Nəhayət, son söz əvəzi**

## Jurnalist adının mənəvi və hüquqi əsasları

*Qanunlarımız*

*dövlət hakimiyyəti orqanlarının idarə olunması və fəaliyyəti üzərində nəzarətin vətəndaşlar tərəfindən həyata keçirilməsində,*

*dövlət orqanlarının fəaliyyətinin açıqlığında – onların fəaliyyəti haqqında doğru informasiya almaqda vətəndaşlara təminat verir.*

*Bu iştirakın təmin olunmasında – qanunvericiliyin, idarəetmənin, icraetmənin hər hansı aspektdə fəaliyyətinə nüfuz və təsir etməkdə jurnalistlər cəmiyyətin ən aparıcı funksionerləridir.*

*Bu səlahiyyətin əldə edilməsinin iki şərti var: – istedad və savad – əqli və hüquqi haqq. Əliniz boşdursa, bu mübarizə meydanına tələsməyin.*

*Güclü bildiyiniz, intuisiyaya söykənən istedadınız*

*gözlənilən, ehtimal olunan hadisələrə qabaqlayıcı reaksiya verməyəcəksə,*

*bu analitik reaksiyalar hüquqi, faktoloji, məqsədyönlü əsaslandırılmayacaqsa,*

*mövzunuzun subyektləri də, obyektləri də sizdən nəyisə öyrənməyəcəklərsə,*

*oxucu (seyrçi) auditoriyası sizin materiallardan ekstremallıq xəbərdarlığı duymayacaqlarsa... özünüzü həvəskar sayın.*

*İnformasiyanın verilməsində jurnalist,*

*şərhin verilməsində ziyalı,*

*qiymətin verilməsində səmimi vətəndaş ola bilməyəcəksinizsə məşğuliyyət sahənizi dəyişməyə tərəddüt etməyin.*

*Hər gün yazmaqla tükənəcəksinizsə,*
*hər şeydən yazmaqla fəaliyyət sahəsi müəyyənləşdirə bilməyəcəksinizsə,*
*materiallarınıza yönəlmiş rəylərə əhəmiyyət verməyəcəksinizsə sizdən makulatura iyi gələcək.*

*Vaxtaşırı məntiqinizi dəyişəcəksinizsə,*
*yazdıqlarınızla əqidəniz, həyat tərziniz uyğunlaşmayacaqsa,*
*özünüzün və sözünüzün vicdan ülgüsünü dəqiqləşdirməyəcəksinizsə,*
*deməh siz heç ciddi vətəndaş da deyilsiniz.*
*Jurnalist olmaq üçün jürnalist kimi doğulmaq gərəkdir...*

# Əlavə bilgilər

***Hərbçilərin orden və medalları(ardıcıllıqla)***

1. ***"Şah İsmayıl"*** *ordeni – ali hərbi orden;*
2. *Azərbaycan Milli Qəhrəmanı fəxri adının* ***"Qızıl Ulduz"*** *medalı;*
3. ***"Azərbaycan bayrağı"*** *ordeni;*
4. ***"Vətənə xidmətə görə"*** *ordeni;*
5. ***"Vətən uğrunda"*** *medalı;*
6. ***"İgidliyə görə"*** *medalı;*
7. ***"Hərbi xidmətlərə görə"*** *medalı;*
8. ***"Hərbi xidmətdə fərqlənməyə görə"*** *medalının I, II, III dərəcələri;*
9. ***"Sərhəddə fərqlənməyə görə"*** *medalı;*
10. ***"Hərbi əməkdaşlıq sahəsində xidmətə görə"*** *medalı;*
11. ***"Qüsursuz xidmətə görə"*** *medalının I, II, III, dərəcələri.*

**Silahlı Qüvvələrin İntizam Nizamnaməsinin üçüncü fəslinə əsasən nöqsan və ya cinayət törətmiş hərbi qulluqçuların cəza qaydaları.**

**Hərbi xidmətçilər:**

***1. hərbi intizama, ictimai asayişə, əxlaq qaydalarına yaraşmayan hərəkətlərə görə;***

***2. inzibati xətalara görə;***

***3. dövlətə və vətəndaşlara vurduqları ziyana görə;***

***4. cinayət törətdiklərinə görə:***

- ***intizam məsuliyyətinə;***
- ***inzibati məsuliyyətə;***
- ***mülki-hüquqi məsuliyyətə;***
- ***maddi məsuliyyətə;***
- ***cinayət məsuliyyətinə*** cəlb oluna

bilər.

Əsgərlərin (matrosların) nalayiq hərəkətləri şəxsi heyətin yığıncağında müzakirə edilir. Vəziyyət xüsusi hal alarsa, əvvəl tənbeh edir;

***a) töhmət verir;***

*b) şiddətli töhmət elan edir;*
*c) hərbi xidmət yerindən kənara, yaxud gəmidən sahilə növbəti buraxılmadan məhrum edir;*
*ç) növbədənkənar xidmət naryadına təyin edir.*
*(5 xidmət naryadına qədər) (qarovula, növbəyə və döyüş növbətçiliyinə göndərmək istisna edilir).*

*Bu da səmərə vermirsə, yaxud əsgərin nalayiq hərəkəti daha ciddi vəziyyət yaradırsa, intizam məsuliyyəti kimi çəzalar müəyyənləşdirilir:*
d) *hauptvaxtada 10 sutkayadək həbs edir;*
*e) əlaçı döş nişanından məhrum edir;*
ə) *baş əsgər rütbəsindən məhrum edir.*

**Çavuşlara isə bunlardan əlavə:**
ə) *aşağı vəzifəyə keçirməklə;*
*f) hərbi rütbəsini bir pillə aşağı salmaqla;*
*g) hərbi rütbəsini bir pillə aşağı salmaqla yanaşı aşağı vəzifəyə keçirməklə;*
ğ) *çavuş hərbi rütbəsindən məhrumetməklə;*
*h) çavuş hərbi rütbəsindən məhrum etməklə yanaşı aşağı vəzifəyə keçirməklə cəza verə bilir.*

Əgər hərbi qulluqçu intizam qaydalarını daha kobud şəkildə pozubsa, kriminal əməllərə yol veribsə cinayət məsuliyyətinə cəlb edilə bilər. Və bu işə uyğun hərbi-hüquq mühafizə orqanları baxırlar.

## Cinayət Məcəlləsindən çıxarış

(Əsgər və çavuşlar üçün)

***274-cü maddə.* Dövlətə xəyanət**

*Dövlətə xəyanət, Ölkəmizin ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikası vətəndaşının qəsdən törətdiyi əməl:* ***düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə,*** *ölkəmizə qarşı düşmənçilik fəaliyyəti aparmaqda* ***xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək*** *etmə.*

### Hərbi xidmət əleyhinə cinayətlər

*328-ci maddə.* Əmri icra etməmə (***Sülh vaxtı və ya döyüş şəraitində***

rəisin (komandirin) ***qanunla müəyyən edilmiş qaydada*** *verdiyi əmri tabelikdə olan* şəxsin *yerinə yetirməkdən* açıqcasına imtina etməsi, *habelə əmrin başqa şəkildə* ***qəsdən yerinə yetirilməməsi,*** *hərbi xidmətə* ***vicdansız və ya laqeyd münasibət*** *nəticəsində əmri icra etməməsi)*

***329-cu maddə.*** **Rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə.**

***330-cu maddə.*** **Komandirə qarşı zorakı hərəkətlər etmə.**

***331-ci maddə.*** **Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə** (*Hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı* ***bir hərbi qulluqçunun digərini təhqir etməsi, rəisin öz tabeliyində olan şəxsi,*** *habelə tabelikdə olan şəxsin öz rəisini təhqir etməsi, rəisin (komandirin) öz tabeliyində olan şəxsi döyməsi və ya ona işgəncə verməsi)*

***332-ci maddə.*** **Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma** *(Biri digərinin şərəf və ləyaqətini* ***alçaltmaqla*** *və ya ona qarşı* ***zor tətbiq etməklə*** *qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozması)*

***333-cü maddə.*** **Hərbi hissəni və ya xidmət yerini özbaşına tərketmə** (*Bu əməlləri ilk dəfə, ağır şərait zəminində törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.)*

***334-cü maddə.*** **Fərarilik** (*hərbi qulluqçunun hərbi hissədən və ya* ***xidmət yerindən üç aydan artıq*** *müddətə* ***özbaşına*** *getməsi və ya xidmət yerinə* ***qayıtmaması*** *(gəlməməsi), yaxud müddətindən asılı olmayaraq hərbi* ***xidmətdən boyun qaçırmaq*** *məqsədilə hərbi hissəni və ya xidmət yerini* özbaşına buraxıb getməsi *və ya xidmət yerinə qayıtmaması.*

**Qeyd:** *Bu əməlləri ilk dəfə, həm də ağır şərait zəminində törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər.)*

***335-ci maddə.*** Öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma (*öz* ***sağlamlığına*** *hər hansı* ***zərər vurma*** *və ya özünü xəstəliyə vurma,* ***sənədləri saxtalaşdırma*** *və ya sair aldatma yolu ilə hərbi* ***xidmətdən boyun qaçırma,*** *habelə hərbi xidmət* ***vəzifəsini yerinə yetirməkdən imtina*** *etmə)*

***336-cı maddə.*** **Qarovul xidmətinin nizamnamə qaydalarını pozma** (***ağır nəticələrə səbəb olarsa)***

***337-ci maddə.*** **Daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma** (*ağır nəticələrə səbəb olarsa)*

*338-ci maddə.* **Döyüş növbəsi çəkmə qaydalarını pozma** (*Qəfil hücumun vaxtında aşkara çıxarılması və dəf olunması üzrə, yaxud onun təhlükəsizliyinin təmin edilməsi üzrə* ***döyüş növbəsi (döyüş xidməti) çəkmə qaydalarını pozma,*** *əgər bu əməllər* ***dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilərdisə)***

*339-cu maddə.* Sərhəd xidməti qaydalarını pozma *(Əgər* ***bu əməllər dövlətin təhlükəsizlik mənafelərinə zərər vura bilərdisə.*** *Eyni əməl* ***dövlətin təhlükəsizlik mənafeyinə zərər vurduqda*** *və ya sair nəticələrə* səbəb *olarsa)*

*340-cı maddə.* **İctimai qaydanın mühafizəsi və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma** (*vətəndaşların hüquq və qanuni mənafelərinə zərər vurarsa)*

*345-ci maddə.* **Döyüş meydanını özbaşına tərketmə və ya silah işlətməkdən boyun qaçırma**

*346-cı maddə.* **Əsirlikdə olan hərbi qulluqçunun cinayət hərəkətləri** *(Əsirlikdə olan hərbi qulluqçunun başqa hərbi əsirlərə zorakılıq etməsi və ya onlarla amansızcasına rəftar etməsi)*

*347-ci maddə.* **Hərbi əmlakı itirmə** (*Xidməti istifadə üçün verilmiş* ***silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının*** və s.)

*348-ci maddə.* **Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə (*Silahı,*** *döyüş sursatını, hərbi texnikanı və s. hərbi əmlakı ehtiyatsızlıqdan* ***zədələmə*** və ya ***məhv etmə ağır nəticələrə səbəb olduqda)***

*349-cu maddə.* **Hərbi əmlakı qəsdən məhvetmə və ya zədələmə**

*350-ci maddə.* **Silahla və ya ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma *(Silahla,*** hərbi sursatla, radio*aktiv materiallarla, partlayıcı materiallarla, ətrafdakılar üçün təhlükə törədən maddə və əşyalarla* ***davranış qaydalarını pozma)***

*351-ci maddə.* **Maşınları idarəetmə və istismar qaydalarını pozma**

# Ümumqoşun ərzaq payı (NORMA № 1)

**Əsas: Nazirlər Kabinetinin 08.01.2013-cü il 2 №-li qərarı.**

| 1 | Ərzaqların adları | Gündəlik miqdarı |
|---|---|---|
| 2 | I növ buğda unundan bişirilmiş ağ çörək | 600 qr. |
| 3 | II növ buğda unu | 10 qr. |
| 4 | Müxtəlif yarmalar | 120 qr. |
| 5 | Makaron məmulatları | 40 qr. |
| 6 | Ət | 250 qr. |
| 7 | Balıq | 120 qr. |
| 8 | Bitki yağı | 40 qr. |
| 9 | Kərə yağı | 30 qr. |
| 10 | İnək südü və ya qatılaşdırılmış şəkərli süd | 100/20 qr. |
| 11 | Pendir | 20 qr |
| 12 | Toyuq yumurtası | 1 əd |
| 13 | Şəkər | 70 qr. |
| 14 | Cem (povidlo) | 20 qr. |
| 15 | Xörək duzu | 20 qr. |
| 16 | Çay | 2 qr. |
| 17 | Müxtəlif ədvalar (istiot, sarıkök, zəfəran) | 0,3 qr. |
| 18 | Xardal tozu | 0,3 qr. |
| 19 | Dəfnə yarpağı və ya qurudulmış göyərti | 0,3 qr. |
| 20 | Sirkə və ya müxtəlif souslar | 2 qr. |
| 21 | Tomat pastası | 6 qr. |
| 22 | Kartof və tərəvəz cəmi:<br>- kartof 500 qr., - kələm 130 qr., - çuğundur 30 qr., - kök 50 qr., - soğan 50 qr., - xiyar, pomidor, şoraba, göyərti 40 qr. | 850 qr. |
| 23 | Qurudulmuş meyvələr | 10 qr. |
| 24 | Təbii meyvə və giləmeyvə şirələri | 100 qr. |
| 25 | Yarıvitamin "Heksavit" | 1 dənə |

# Çavuş və əsgərlərinin əşya əmlaki ilə təchizatı (NORMA № 10)

<table>
<tr><th>S</th><th>ƏŞYANIN ADI</th><th>nəfərə əşya sayı 1</th><th>Geyilmə müddəti</th></tr>
<tr><td colspan="4">HƏRBİ GEYİM</td></tr>
<tr><td>1</td><td>Süni (təbii) xəzdən qulaqlı papaq</td><td>dənə 1</td><td rowspan="6">Xidmət müddətinə</td></tr>
<tr><td>2</td><td>Beret (Beret yalnız Müdafiə nazirinin əmri ilə təyin olunmuş hərbi həssə və birləşmələrdə verilir.)</td><td>dənə 1</td></tr>
<tr><td>3</td><td>Yaxası boğazacan yarıyun köynək</td><td>dənə 1</td></tr>
<tr><td>4</td><td>Kamufulyaj rəngli istiləşdirilmiş səhra gödəkcəsi (Uçuş-texniki istiləşdirilmiş gödəkcə alanlara verilmir)</td><td>dənə 1</td></tr>
<tr><td>5</td><td>Kamufulyaj rəngli qış (yay) səhra furajkası (isiti rayonlarda bunun əvəzinə panama verilə bilər)</td><td>dənə 4</td></tr>
<tr><td>6</td><td>Komuflyaj rəngli qış (yay) səhra kostyumu.<br>1) 1 dəst mərasim geyim forması üçün yay səhra kostyumu verilir.<br>2) yanvar, aprel və iyul aylarında çağırılan əsgərlərə xidmət müddətində 2 dəst yay səhra kostyumu və 1 dəst qış səhra kostyumu, oktyabr ayında çağırılan əsgərlərə xidmət müddətində 2 dəst qış səhra kostyumu və 1 dəst yay səhra kostyumu verilir.</td><td>dəst 4</td></tr>
<tr><td colspan="4">AYAQQABI</td></tr>
<tr><td>7</td><td>Uzunboğaz botinka<br>1) Soyuq iqlimli rayonlarda yerləşən hərbi hissələrdə xidmət müddətində<br>1 cüt əvəzinə qışlıq uzunboğaz verilə bilər.<br>2) 1 cüt mərasim geyim forması ilə daşınması üçün verilir.</td><td>cüt 4</td><td rowspan="2">Xidmət müddətinə</td></tr>
<tr><td>8</td><td>Kazarma başmağı</td><td>cüt 1</td></tr>
<tr><td colspan="4">DƏYİŞƏK PALTAR</td></tr>
<tr><td>9</td><td>Trikotaj alt tuman və köynək (Xidmətin axırıncı ilindı 1 dəst verilir).</td><td>dəst 3</td><td rowspan="2">Xidm. Müd.</td></tr>
<tr><td>10</td><td>Zeytun (kamufulyaj) rəngli trikotaj futbolka və trusu</td><td>dəst 3</td></tr>
<tr><td>11</td><td>İplik corab</td><td>cüt 24</td><td>il 1</td></tr>
<tr><td>12</td><td>Kamufulyaj rəngli iplik boyunluqaltı (kamufulyaj rəngli şərf) (Əlavə olaraq mərasim geyim forması üçün 1 il müddətinə 4 ədəd ağ rəngli iplik boyunluqaltı verilir).</td><td>ədəd 8</td><td>il 1</td></tr>
<tr><td>13</td><td>Zeytun rəngli şərf</td><td>1dənə</td><td>Xidmət müddətində</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| 14 | Cib dəsmalı | dənə 6 | il 1 |
| 16 | Əl-üz dəsmalı (xidmətin axırıncı ilində 1 dənə verilir) | dənə 3 | il 1 |
| 17 | Hamam dəsmalı | dənə 1 | Xidm. müd |
| 18 | Ayaq dəsmalı | dənə 2 | .Xidm. müd |
| LƏVAZİMATLAR | | | |
| 19 | Zeytun rəngli bel kəməri | dənə 1 | .Xidmət müd |
| 21 | Zeytun rəngli şalvar qayışı | dənə 1 | |
| 22 | Kamufulyaj rəngli çanta (ancaq (çavuş heyətinə verilir | dənə 1 | il 3 |

# Əl qumbaralarının TTX-sı

| Qısa şərti işarəsi | Hazır vəziyyətdə çəkisi, kq | Dağıdıcı atımın çəkisi, kq | Partladıcının markası | Partladıcının yanma vaxtı | Qəlpələrin məhvetmə radiusu, m | Orta atılma məsafəsi, m |
|---|---|---|---|---|---|---|
| Hücum əl qumbaraları | | | | | | |
| RQ-42 | 0.4 1(0.42) | 0.12 | UZRQM və ya UZRQM-2 | 4,2-3,2 saniyə | m-ə 25 qədər | 40-30 |
| RQD-5 | 0.32 1(0.31) | 0.116 1(0.11) | UZRQM və ya UZRQM-2 | 4,2-3,2 | m-ə 25 qədər | 50-40 |
| RQN | 0.31 | 0,114 | UDZ | Ani və ya 4,2-3,2 | 96 - 95 m2 | 50-40 |
| Müdafiə əl qumbaraları | | | | | | |
| F-1 | 0,56 1(0,60) | 0,055 1(0,06) | UZRQM və ya UZRQM-2 | 4,2-3,2 | m-ə 200 qədər | 45-35 |
| RQO | 0.53 | 0,092 | UDZ | Ani və ya 4,2-3,2 | 286-213 m2 | 45-35 |
| Kumulyativ əl qumbaraları | | | | | | |
| RKQ-3 | 1.07 2(1,115) | 0,39 | - | ani | m-ə 200 qədər | 20-15 |



Silahların TTX-sı

| | Taktiki-texniki xassələri | Atıcı silahlar | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 74-AK | AKM | SVD | RPK-74 | PKM | PM | DŞK |
| 1 | Çapı mm | 5,45 | 7,62 | 7,62 | 5,45 | 7,62 | 9 | 12,7 |
| 2 | :Nişanalma məsafəsi | 1000 | 1000 | 1300 | 1000 | 1500 | 50 | 3500 |
| 3 | **:Düz atış məsafəsi** | | | | | | | |
| 4 | döyüş hədəfinə görə atış məsafəsi, m – | 440 | 350 | 350 | 460 | 420 | – | – |
| 5 | hərəkət edən hədəfə görə: m – | 625 | 525 | 640 | 640 | 640 | – | – |
| 6 | Atış tempi: atış/dəq | 600 | 600 | 30 | 600 | 650 | 30 | 600 |
| 7 | .Silahın çəkisi: kq | 3,07 | 2,93 | 4,3 | 5,5 | 7,5 | 0,73 | 15,7 |
| 8 | Başlanğıc sürəti: m/saniyə | 900 | 715 | 830 | 960 | 825 | 315 | 830 |
| 9 | Maqazının tutumu | 30 | 30 | 10 | 45 | 200 ,100 | 8 | 50 |
| 10 | :Axır uçma məsafəsi | 3150 | 3000 | 3800 | 3150 | 3800 | – | 7000 |
| 11 | Güllənin xətər yetirmə təsiri | 1350 | 1500 | 3800 | 1350 | 3800 | 350 | – |
| 12 | .Döyüş atış sürəti: atış/dəq | | | | | | | |
| 13 | tək-tək atışla– | 40 | 40 | 30 | 50 | – | 30 | – |
| 14 | növbəli atışla– | 100 | 100 | - | 150 | 250 | – | 80 |
| 15 | :Yivlərin sayı | 4 | 4 | 4 | 4 | 4 | 4 | 8 |
| 16 | Döyüş dəsti | 450 | 300 | 100 | 1500 | 2000 | 24 | 300 |

| Taktiki-texniki xassələri<br>1 | | Atıcı silahlar | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | AQS-17 | RPQ-7 | SPQ-9 | QP-25 | PKT | NSVT | KPVT |
| 2 | Çapı mm | 30 | 40 | 73 | 40 | 7,62 | 12,7 | 14,5 |
| 3 | :Nişanalma məsafəsi | 1700 | 500 | 1300 | 400 | 2000 | 2000 | 2000 |
| 4 | **:Effektiv atış məsafəsi** | | 350 | | | | | |
| 5 | döyüş hədəfinə görə atış məsafəsi, m – | – | – | – | – | – | | 880 |
| 6 | hərəkət edən hədəfə görə: m – | – | – | – | – | – | | – |
| 7 | Atış tempi: atış/dəq | 400 | 4-6 | 6 | 4-5 | 700-800 | 700-800 | 550-600 |
| 8 | .Silahın çəkisi: kq | 31 | 5,3 | 50,5 | 1,5 | 10,5 | | 52,6 |
| 9 | Başlanğıc sürəti: m/saniyə | 185 | 120 | 100 | – | 855 | 860 | 4 |
| 10 | Maqazının tutumu | 29 | – | – | – | 855 | | 990 |
| 11 | :Maksimal uçma məsafəsi | – | – | – | – | 250 | | 50 |
| 12 | Güllənin xətər yetirmə təsiri | – | – | – | – | 3800 | | – |
| 13 | .Döyüş atış sürəti: atış/dəq | | | | | 1350 | 80-100 | – |
| 14 | (tək-tək atışla (minimal– | 50-100 | 4-6 | 6 | – | | | |
| 15 | (qatarla atışla (maksimal– | 350-400 | – | – | – | | | |
| 16 | :Yivlərin sayı | 16 | – | – | 12 | 4 | 8 | |
| | Döyüş dəsti | 300 | 12 | 60 | 10 | | | |

## Piyada əleyhinə minaların TTX-sı

| | GÖSTƏRICILƏR | Fuqas tipli minalar | | | |
|---|---|---|---|---|---|
| | | PMD - 6M | PMN | PMN - 2 | PFM - 1 |
| .1 | Çəkisi, kq | 490 qr. | 550 qr. | 400 qr. | 80 qr. |
| .2 | Partlayici maddənin çəkisi,kq | 200 qr. | 200 qr. | 100 qr.(TQ-40) | 40 qr. |
| .3 | Uzunluğu | 200 mm. | – | – | 80 mm. |
| .4 | Eni | 90 mm. | – | – | – |
| .5 | Hündürlüyü | 50 mm. | 53 mm. | 54 mm. | 20 mm. |
| .6 | Diametr | – | 100 mm. | 120 mm. | – |
| .7 | Partladıcının növü | MUV - 2 | MD-9 | KD-MV | – |
| .8 | Partlatmaya sərf olunan qüvvə | .kq 28 - 6 | 8 -25 kq. | 5 - 25 kq. | 1-5 kq. |
| .9 | Qurulma üsulu | əl ilə | əl ilə | əl ilə, PMZ[illegible]- | aviasiya, YARS |

| | Növü | Qəlpəli tipli minalar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | dairəvi təsirli | | | istiqamətləndirici təsirli | | |
| | GÖSTƏRICILƏR | **POMZ-2** | **POMZ-2m** | **OZM-72** | **MON-50** | **MON-100** | **MON-200** |
| 1 | Çəkisi, kq | 1,5 | 1,2 | 5 | 2 | 5 | 25 |
| 2 | Partlayici maddənin çəkisi,kq | 0,075 | | 0,66 | 0,7 | 2 | 12 |
| 3 | Diametr, mm | 60 | | 108 | – | 236 | 434 |
| 4 | Hündürlüyü, mm | 130 | 107 | 172 | 155 | 82,5 | 130 |
| 5 | Hər tərəfə vurma radiusu, metr | 4 | | 25 | önə 50-58 m | önə 160-a dək | önə 240-a dək |
| 6 | Öldürücü qəlpələrin uçma məsafəsi | m 8 | | 50 | 80/85 | 160 | 200 |
| 7 | Partlama hündürlüyü, metr | – | | -09 06 | /1514 1910 | 1270 | 2870 |
| 8 | .Xətər yetirmə sahəsi, kv.m | – | | 2124 | /1514 1910 | 1270 | 2870 |
| 9 | Hər tərəfə vurma sahəsinin eni, metr | m 4 | | 25-30 | | | |
| 10 | Qəlpələrin arxa və yana uçma məsafəsi, m | Dairəvi | | Dairəvi | 40-a dək | 30a dək | 50-ə dək |
| 11 | İstifadə üçün temperatur diapazonu | 50 + ------- 40 - | | | | | |

| | T-72/A | PDM-2 | PDM-3 | BRDM-2 |
|---|---|---|---|---|
| **Döyüş çəkisi: ton** | 41 | 13,8 | | 7,2 |
| **Heyət (desant): nəfər** | 3 | (8)2 | 6 | 4 |
| **:Silahlar** | | | | |
| *Topun çapı: mm-* | QSP 125 | AP 30 | 100m | |
| *Pulemyotun çapı: mm -* | 7.62*1<br>12.74*1 | 7.62*1 | | KPTV 14.5 |
| *TƏİR -* | 4 | 4 | 4 | - |
| **Mühərrik** | 780 | 300 | | 140 |
| **Maksimal hərəkət sürəti: km/s**<br>*quruda -* | 60 | 65 | | 95 |
| *suda -* | - | 7 | | 9-10 |
| **Yanacaq bakının tutumu: l** | | | | |
| **Hərəkət ehtiyatı: km** | | | | |
| **Dəf olunan maneələr** | | | | |
| *qalxma bucağı (kren) dərəcə -* | (25) 30 | (30) 75 | | (25) 30 |
| *yarğanın eni: m -* | 2,6-2,8 | 2,5 | | 2,0 |
| *divarın hündürlüyü: m -* | 0,85 | 0,7 | | |
| **Qabarit ölçüləri: m** | | | | |
| *gövdənin uzunluğu -* | 6,67 | 6,74 | | 5,75 |
| *eni -* | 3,46 | 3,14 | | 2,35 |

# MÜŞAHİDƏ

*Müşahidəni bütün dərəcələrdən olan komandirlər, qərargahların zabitləri və xüsusi ayrılmış müşahidəçilər,* həmçinin, döyüş maşınları və v*ertolyotların ekipajı (heyətləri) müşahidə və komanda-müşahidə məntəqələrindən, müşahidə ,postlarından aparırlar.*

*Gecə görməni məhdudlaşdıran digər şəraitlərdə gecəgörmə və radiolokasiya cihazlarından, yaxud ərazinin işıqlandırılması vasitələrindən istifadə edilir və gizli dinləmə ilə tamamlanır.*




*Müşahidə yerinin seçilməsi və tutulması*

*Müşahidə üçün yer tapşırığı verən komandirdən mümkün qədər yaxınlıqda elə seçilməlidir ki, o yaxşı müşahidə, maskalanma və düşmən atəşindən qorunmağı təmin etsin və öz bölmələrimizdən oraya gizli yollar olsun.*

***Düşmən üçün oriyentir ola bilən, onun diqqətini cəlb edə bilən digər yer cisimlərinin yanında mövqe seçmək olmaz!***

# Müşahidə seкtorunda ərazini nəzərdən кeçirmə qaydası






## Başlıqlar:

Ön söz ........ 3
Söz gəlişi ........ 7
İnsan hər şeyi bilmək istəyir ........ 8
Son dövrün "Ekstremal jurnalistika" təcrübəsi ........ 16
Məmurla Media arasında narazılıq nədən yaranır ........ 26
Ekstremal vəziyyətdə mətbu sözün gərəkliyi və məsuliyyəti ........ 32
Hərbi informasiya siyasəti və KİV ........ 46
İnformasiya savaşları və mümkün əks-strategiyalar ........ 63
Güc qurumlarına vətəndaş nəzarətinin formalaşmasinda KİV-in rolu ........ 81
Ekstremal şəraitdə jurnalist etikası ........ 89
ABŞ jurnalistlərinin etik normaları ........ 94
Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları ........ 96
Fövqəladə hallarin xarakterləri ........ 119
Stringer – qanunlara sığmayan peşə ........ 105
Ekstremal şəraitdə davranış ........ 123
Savaş meydanina ezamiyyə akkreditəsi ........ 126
Ekstremal şəraitdə informasiya almağın bəzi psixoloji məqamları ........ 129
Siz yola çıxırsınız ........ 133
Ekstrim hadisə yerində informasiya toplamağa şərait yaradılması ........ 135
Nəzarət məntəqəsindən keçirsiniz ........ 136
Zabitlərlə ünsiyyətdən yol qeydləri ........ 143
Hərbçi psixologiyası ........ 145
Ekstremal jurnalist xüsusi xarakterdir ........ 149
Əsir düşmüsünüz ........ 154
Qadın müxbir döyüş bölgəsinə gedir ........ 154
Hərbi qulluqçularla ünsüyyətə içdən baxış ........ 155
Zabit peşəsi Vətən qoruqçusudur ........ 166
Ekstremal şəraitin tələb etdiyi qanun və məsuliyyət ........ 169
Jurnalistlərin təhlükəsizliyi ilə məşğul olan beynəlxalq qurumların fəaliyyət prinsipləri ........ 170
BXGİ-nin təhlükəsizlik qaydaları ........ 173
Qaynar nöqtələrdən yazan jurnalistlər ........ 174

Kim risk altındadır, təhlükəsizlik məşğələləri ........ 177
Ekstremal şəraitdə işləyən jurnalistlər üçün SJT-nin təklif etdiyi qayda və prinsiplər ........ 183
Nəzərə alınması hər zaman gərəkən fərdi təhlükəsizlik şərtləri ........ 185
Təhlükəli tapşırıqlarda olan jurnalistlərin sağ qalmalarının başlıca prinsipləri ........ 196
Təhlükəli zonada ........ 197
Etik və peşəkar yanaşmalar ........ 198
Ekstremal olayların KİV-də yayımlanması barədə metodiki məsləhətlər ........ 200
En-Bİ-Sİ Nyus-un təcrübəsi ........ 202
Terrorçuluq hallarında davranış ........ 205
Söz azadlığına qarşı qəsdlərin araşdırılmasına dair norma və prinsiplər ........ 206
Araşdırma mərhələləri ........ 207
Şahid ifadələrinin toplanması ........ 209
Sərhədsiz Jurnalistlər Təşkilatının dindirmə təlimatından örnək ........ 212
İCRC ilə əlaqələr necə qurulur ........ 224
Mülki Cəmiyyət Təşkilatlari (MCT) ........ 225
Ümümdünya Mülki Cəmiyyət Qurumları: ........ 226
Məlumat alan, araşdıran və yayan jurnalistlər üçün hüquq bilgiləri ........ 227
Dövlət sirri ........ 238
Fövqalədə şəraitdə məlumatın axtarılması və alınması ........ 249
Hərbçilərin statusları, Silahlı Qüvvələrdə demokratiya anlayışı ........ 251
Hərbi rejim anlayışı ........ 260
Sorğuya cavab tələb etmə hüququ ........ 265
İnformasiya toplamaq və yaymaq hüququnu məhdudlaşdıran hallar ........ 270
Əlavə bilgilər ........ 278

Qeyd

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: Zahid Məmmədov
Səhifələyici: Tünzalə Vahabova

Çapa imzalanmış 18.11.2015.
Şərti çap vərəqi 18,5. Sifariş № 578.
Kağız formatı 60x84 1/16. Tiraj 500.

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.